

"Müasirlərim" seriyası

AXI, DÜNYA FIRLANIR...

BƏXTİYAR VAHABZADƏ

şeirləri və poemaları

BƏXTİYAR VAHABZADƏ

Arf 318592

AXI, DÜNYA FIRLANIR...

şeirləri və poemaları

MÜASİRLƏRİM SERİYASI

Azərbaycan milli kitabxanası

KitabKlubu.org
Bakı – 2019

Bəxtiyar Vahabzadə
Axı, dünya fırlanır... *(şeirləri və poemaları)*
Kitab Klubu, 2019, 424 səh.

Korrektor: Dürdanə Ramazanlı

Poeziyamızın qüdrətli nümayəndəsi Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyu həmişə şeirlərində Vətənini, onun zəhmət adamlarını, təbiətini, insanların daxili aləmini tərənnüm edib. Onun şeirlərində türkçülük, Azərbaycançılıq, xalqına sədaqət, yurduna bağlılıq qeyd olunmalı xüsusiyyətlərdir.

Bəxtiyar Vahabzadənin lirikasını üç hissəyə ayırmaq olar: fəlsəfi lirika, məhəbbət lirikası və təbiət lirikası. Fəlsəfi lirika onun poeziyasının əsasını təşkil edir. Bu şeirlərdə şair öz fəlsəfi düşüncəsini oxucularla bölüşür. Onun təbiət lirikası isə nisbətən azdır. Şairin sevgi şeirləri fəlsəfi lirika ilə təbiət şeirləri arasında həm fəlsəfi məzmunu, həm də mənəvi duyğuları ilə ifadə olunan poetik lirikadır.

Xalq şairi Bəxtiyar Vahabzadənin bu kitabında müəllifin müxtəlif illərdə qələmə aldığı şeirləri və poemaları toplanmışdır.

© Kitab Klubu MMC, 2019

Kitabı əldə etmək üçün:

- KitabKlubu.org: (012) 4898469, (050) 4049113
- Zəka Kitab Evi: (012) 599-01-54, (050) 519-04-54

ANA DİLİ

Dil açanda ilk dəfə ana söyləyərik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.

Bu dil,–bizim ruhumuz, eşqimiz,
canımızdır,
Bu dil, – bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil, – tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil, – əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.

Bizim uca dağların sonsuz əzəmətindən,
Yatağına sığmayan çayların hiddətindən,
Bu torpaqdan, bu yerdən,
Elin bağrından qopan yanıqlı nəğmələrdən,
Güllərin rənglərindən, çiçəklərin iyindən,
Mil düzünün, Muğanın sonsuz
genişliyindən,
Ağ saçlı babaların əqlindən, kamalından,
Düşmən üstünə cuman o Qıratın nalından
Qopan səsdən yarandın.
Sən xalqımın aldığı ilk nəfəsdən yarandın.

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu
Tarixi varaqlanır,

Səndə neçə min illik mənim mədəniyyətim,
Şan-şöhrətim saxlanır.
Mənim adım, sanımsan,
Namusum, vicdanımsan.

Millətlərə, xalqlara xalqımızın adından
Məhəbbət dastanları yaradıldı bu dildə.
Moskvada Puşkinə heykəl qoyulan zaman,
Ona abidə qoydu bu dildə Şirvani də.

Bu dil, – tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil, – əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub nəsillərə biz də hədiyyə verək.

Ey öz doğma dilində danışmağı ar bilən,
Bunu iftixar bilən
Modalı ədəbazlar
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Qoy bunlar mənim olsun.
Ancaq Vətən çörəyi,
Bir də ana ürəyi
Sizlərə qənim olsun.

Noyabr, 1954

TƏKLİK

Xəyal gah dağdadır, gah da aranda,
Gah göyə yüksəlir, gah enir insan.
Otaqda bir saat tək oturanda,
Yüz ilin dərdiylə yüklənir insan.

Elə bil divarlar gəlir üstünə,
Qulağın səslənir, qəlbin döyünür.
Alışıb yanırsan sən öz tüstünə,
Nidalar gözündə suala dönür.

İnsanı tez yorar düşüncələr də,
Verib nəfəsini dərd udar insan.
Özündən başqası olmayan yerdə,
İnsan olduğunu unudar insan...

Bir günəş bəs edər, pərişan olma,
Sənin yüz Kür qədər göz yaşın olsa.
Min dərd hücum etsə, könül, sıxılma,
Bir nəfər dərd bilən sirdaşın olsa.

Dünyaya gəlmədik biz əbəs yerə,
İnsanıq, insan da bizə gərəkdir.
Bağatək qınına çəkilənlərə
Ürək nə gərəkdir, dil nə gərəkdir.

Çay çaya qovuşmaz sular daşmasa,
Ulduzun ulduzla ünsiyyəti var.
Göydə buludlar da qoşalaşmasa
Nə ildırım çaxar, nə yağış yağar...

Yol tapa bilərmi saz ürəklərə,
Mizrab asta-asta telə dəyməsə?
Çıxarmı qönçədən tək bircə kərə,
Bülbülün nəfəsi gülə dəyməsə?

Öz el-obasını tərk etdiyindən,
Tək-tənha dolanır bayquş bu gün də.
Kolların dibində tək bitdiyindən,
Boynu bükük olur bənövşənin də.

Od vurmasa, qabda su daşa bilməz,
Quş da tək qanadla dağ aşa bilməz.
Kösöyün ikisi çöldə də yanar,
Biri ocaqda da alışa bilməz.

Qəlbimdə min sözüm, min söhbətim var,
Mən deyim, siz deyin, dil yorulmasın.
Yığılın, yığılın başıma, dostlar,
Mənim bir günüm də sizsiz olmasın.

Dostların qəlbidir yurdum, məskənim,
Ürəkdə bir nisgil gərək olmasın.
Sağlığım bir yana, a dostlar, mənim;
Soyuq məzarım da heç tək olmasın!

Mart, 1956

SƏN ATDIN YERƏ

Nə deyib saçını kəsdirdin, gülüm?
O gün gəlməyəydin görüşə barı.
Kəsdirdin, ayaqlar altına düşdü
Qumral saçlarının qıvırcıqları.

Hər buruq telinə can demişəm mən.
Saçını nə qədər iyləmişəm mən.
Mənim toxunduğum qara telləri
Kəsdirib ayaqlar altma atdın.
Sən saç uzatdığm neçə illəri,
Düzünü söyləsək, bir günə satdın.

Sənin saçlarını axı, neçə il
Sıxıb qərq etmişəm mən öpüşlərə.
Düşünsən, sevgilim, saçların deyil,
Mənim öpüşlərim atılmış yerə...

İyul, 1957

AY İŞIĞINDA

Nəğmə var, dinləyəndə,
elə bil, yetişirsən
ən böyük muradına.
Nəğmə var, dinləyəndə
bütün qəmin, kədərin
gəlir düşür yadına.
Nəğmə var, dinləyəndə
ötən şirin günləri anır, anır, yanırsan.
Nəğmə var, dinləyəndə
sən torpaqdan üzülüb,
göyə qanadlanırsan...
Nədəndir, ey sevgilim,
Dinləyəndə hər dəfə
mən "Ay işığında'nı,
Sən düşürsən yadıma?
Yetişirəm, elə bil,
bu dünyada ən böyük
arzuma, muradıma.
Ay işığı rəqs edir,
Sanki o ay üzündə.
Bəlkə, ay işığından
Yarandın sən özün də.
Sən də o mahnı kimi
Həm incəsən, həm dərin,
Həm həzinsən, həm şirin!..

Dekabr, 1957

GƏLİR

Tarıma çəkilmiş simə bənzə sən!
Titrə bir yarpağın titrəməsindən.
Bil, dənizdə coşan suyun səsindən
Xəzri gəlir, yoxsa, gilavar gəlir.

Bir az sıxlaşanda göydə buludlar,
Yavaşca titrəşir yerdə göy otlar.
Onlar da bilir ki, havada çən var,
Sabah yağış gəlir, sabah qar gəlir.

Müyəssər deyildir hər kəsə ancaq
Ürəkdən keçəni gözdən oxumaq.
Qaranquşdan qabaq, torpaqdan qabaq
Gərək biləsən ki, ilk bahar gəlir.

Qəlbim götürməyir bəri-bəzəyi
Çətindir yamamaq sınmış ürəyi.
Özün dərk edəsən gərək hər şeyi
Səni başa salmaq mənə ar gəlir.

Baxışdan söz götür, söz anla sözdən,
Həssas ol, sevgilim, ömrün boyu sən.
Əgər sevirsənsə, ayaq səsimdən
Gərək biləsən ki, Bəxtiyar gəlir.

1950

ÖMÜR

Y.Məmmədəliyevə ithaf

Deyirlər, çox azdır yüz il, əlli il,
İnsana bir ömür kifayət deyil.
Hələ isitməmiş öz yerimizi
Ölüm cəllad olub haqlayır bizi.

Deyirlər, şirindir dadı dünyanın,
Kaş iki olaydı ömrü insanın.
Nola, çalışsaydıq ömrün birində,
Sonra əylənəydik biz digərində.

Hərə öz ömrünə bir cürə baxmış,
Hərə bu dünyanı bir cürə anlar.
Cahanda bəs nədən zövq alacaqmış
Zəhmətin özündən zövq almayanlar?

Yüz-yüz ömür belə azdır doğrusu
Bir ömrü insana az sayanlara
Haramdır bu hava, haramdır bu su
Əylənmək eşqilə yaşayanlara.

Yaşamaq – yanmaqdır, yanasan gərək,
Həyatın mənası yalnız ondadır
Şam əgər yanmasa, yaşamır demək
Onun da həyatı yanmağındadır.

Ömrü az olsa da, qartal yenmədi
Dedi, səmalarda öz oylağım var.
Ömrün azlığından gileylənmədi
Ömrü insan kimi başa vuranlar.

"Bu dünya beş gündür", – deyib hər yerdə
Sağ ikən qəbirdə uzanan da var.
Öz alın tərilə bircə ömürdə
Yüz insan ömrünü qazanan da var.

Fevral, 1956

GECƏ BULAQ BAŞINDA

E. İbrahimova bəstələmişdir

Sakit axıb gecələr
Bulaq nələr danışır?
Elə bil ki, nağıllar,
Əfsanələr danışır.

Sirlərlə doludur
Gecələr bulaq başı.
Onun zümzüməsidir
Gecələrin sirdaşı...

Səpələnib toz kimi
Şırıltıyla axan su –
Neçin pozur gecənin
O dərin sükutunu?

Bəzən aylı, süd kimi,
Bəzən qara gecələr –
Bulaq laylamı çalır
Yatanlara gecələr?

Nə deyir laylasında
Ötüb qumrular kimi?

O - keçmişin naləsi,
Gələcəyin sirrimi?

Bulaq nə deyir görən,
Hey axdıqca şırhaşır?
Gündüz gördüklərini
Gecəyəmi danışır?

Avqust, 1956

SƏKİLƏR

Əlimdə bir dəstə gül,
dayanmışam səkidə.
Vağzal boyu gəzirəm,
ürəyim səksəkədə.
Qanad açıb, uçuram
sanki buludlarda mən,
Hamı bilsin, yarımı
gözləyirəm burda mən.
Hər baxanda saata,
ancaq, qanım qaralır.
Yamanca tez gəlmişəm,
hələ vaxta çox qalır.
Qarşımda bir qatar var.
Vaqonlara quş kimi
çıxır, düşür adamlar.
Hamı gülür-danışır,
Küsülülər barışır
Ayrılıq məqammda.
Nələr keçir bu adla,
Ürəklərdən, eh, nələr...
Xəfif gülümsəmələr,
Çaşmalar, karıxmalar,
Mehriban əlsıxmalar...

Ağlayan kim, gülən kim,
Yarına gül verən kim,
Pəncərə arxasından
Busələr göndərən kim.
Pıçıltılar, vədələr,
Xəlvəti hıçqırıqlar.
Onların arasında
yəqin sevgilisini
yola salanlar da var.
Deyirlər ki, bu qatar
gedəndən sonra ancaq,
Sevgilimi gətirən
qatar gəlib çıxacaq.
Bəs bu niyə getməyir?
Qəribə gəlir mənə.
İstəyirəm önümdə
bir tir kimi uzanan
Bu qatar tez tərpənə.
Ah... yarını ötürən
Nə düşünür bəs görən?
Mən deyirəm, ay qatar,
de dayanma, tez yeri!
O deyir ki, sınaydı
qatarın təkərləri.
Mən deyirəm, bu anlar
məni gətirdi cana,
O deyir ki, bu anlar
İllər qədər uzana.
Mənim üzümdə sevinc,
onun üzündə kədər,
Onunçün ağlayırsa,
mənimçün gülümsəyir,
səkilər, ağ səkilər.

Yarı yola salanın
könlünə dağ çəkilər!
Səkilər, ay səkilər.
Üstünüzə nə qədər
damıb isti göz yaşı!
Burda yola salıbdır
neçə bacı qardaşı.
Neçə ana balanı,
neçə yar öz yarını,
sevimli baharını.
Bir ay əvvəl burdaca
ayrıldım sevgilimdən,
Bir gün görüşəcəyəm,
yenə, yenə burda mən.
Bir işə bax, işə bax.
Bir səkidə bir anda,
Dayanıbdır yanaşı
Yarı yola salan da,
yarı qarşılayan da.
Kim gecəni gündüzlə,
günəşi ayla görmüş?
Kim hicranı vüsalla,
qışı da yayla görmüş?
Bu səkidə qarışır
su atəşə, ay günə,
Hicranın göz yaşları
vüsal gülüşlərinə.
Bu dünyada vüsalla,
hicranm görüş yeri,
Bəli, bu səkilərdir,
bu vağzal səkiləri!

Mart, 1957

DAĞDA ŞƏLALƏ KİMİ

Bir rəngi yox, göylərin min rəngini sevirəm
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,
Həyatı həyat kimi yaşamaq istəyirəm.
Göydə qürub çağı da, dan yeri də gözəldir.
Həyatın sevinci də, kədəri də gözəldir.
Həyat – bir cıdır düzü, bir döyüş meydanıdır.
Hər kəsi öz cürəti, öz qüdrəti tanıdır.
İnci üzə çıxarmı çalxalanmasa ümman?
Bu meydanda heyif ki, daim eniş axtaran,
"Azca aşım, ağrımaz başım" – deyənlər də var.
Kədərdəki nəşəni, zövqü anlamayanlar
Həyatın nəşəsindən, fərəhindən nə anlar?
Hər kədəri səadət, hər sevinci qəm izlər.
Əsl könül həm qəmi, həm sevinci əzizlər.
Tələtümsüz ürəklər qovuq kimi boş olur.
Daim sevinc axtaran daim qəmə tuş olur.
Düşmənəm yaltaqlanıb təpəyə dağ deyənə.
"Bu dünyada birtəhər qoy yaşayaq", – deyənə,
Ah, birtəhər!.. Lüğətə bu söz hardan gəlmədir?
Yaşamaq yaşamaqdır! Bəs bu birtəhər nədir?
Mən düşmənəm, düşmənəm belə "ölü canlara",
Gündən qaçıb həmişə kölgə axtaranlara...
Onlar ortada yeyib, qıraqdasa gəzdilər,
Namusu xərcləməkdən onlar çəkinməzdilər.

Onlar orta yol tutub nə "hə", nə də "yox", – dedi.
Havaya nə "istidir", nə də ki, "soyuq", – dedi.
Onlar ölçüb-biçdilər hər bir şeyi dərindən.
Özgəsini qorxudub hürkdülər özlərindən.
Onlar qazdan ayıqdı...
Onlar havaya baxdı...
Gah yağışa, gah qara,
Gah qışa, gah bahara,
Gah axşama, gah da ki, səhərə dəm tutdular.
Özlərini düşünüb özgəni unutdular.
Səslərdən səs aldılar, öz səsləri olmadı.
Yaşadılar ölü tək, nəfəsləri olmadı...
Getdilər iş dalınca, ürəkləri getmədi...
Gəzdilər... Hey gəzdilər.
Ayaq səslərinisə tək özləri eşitdi,
bir kimsə eşitmədi...
Atlarını daşlığa salıb səyirtmədilər,
Adları kişi oldu, ömürdə bircə kərə
kişilik etmədilər.
Onlar öləndə belə kimsə xəbər tutmadı.
Bu səssiz, küysüz ölüm kimsəni ağlatmadı.
Çoxdan ölmüş zənn edir, axı, hamı onları.
Diri ikən, sağ ikən,
Öz səsi olmayanın ölümü səssiz keçər.
Min-min dəfə ölənin matəmi yassız keçər.
Qardaş, min duyğu ötsün ürəyindən bir anda.
Sən qımışma güləndə, inləmə ağlayanda.
Ağlasan, hönkür ağla, gülsən, qəhqəhə çək, gül.
Gülsən də, ağlasan da tamam doysun qoy

könül.
Yaşamaq istəmirəm sürünüb dizin-dizin,
İstəyirəm ən uca zirvələrə mən qonam.
Xəfif sakitliyini neyləyirəm dənizin.
Onun qasırğasına, dalğasına vurğunam.
Qoy döysün yağış məni, boran məni, qar məni,
Həyatın boranları daim yaşadar məni.
İstəmirəm həyatım sakitcə bir otaqda
gəlib keçsin lal kimi...
İstəyirəm döyüşəm qayaların başında
düşmənlə qartal kimi.
Bağçadakı arx kimi ötüb həzin nəğmələr,
axmağı istəmirəm.
Səyyah olub həyata seyirçi bir nəzərlə
baxmağı istəmirəm.
Çağlamaq istəyirəm dağda şəlalə kimi,
Səpilmək istəyirəm çöllərə lalə kimi.
Dərya olub, nəhr olub, çalxanmaq istəyirəm,
Göylərdə ulduz kimi mən yanmaq istəyirəm.
Şığımaq istəyirəm başsız küləklər kimi,
Bəslənmək istəyirəm bütün ürəklərdə mən
arzu, diləklər kimi.

Bir rəngi yox, göylərin min rəngini sevirəm.
Bir gülü yox, güllərin çələngini sevirəm.
Mən çıxmağa təpə yox, uca dağ istəyirəm;
Həyatı həyat kimi yaşamaq istəyirəm,
Yaşamaq istəyirəm!

May, 1960

Arf 318592

KİMDİR MƏNİM DÜŞMƏNİM?

Kimdir mənim
Ən qorxulu düşmənim?
Kaş biləydim bunu mən.
O zərbə vurmamışdan
Kəsəydim yolunu mən.
Kimdir mənim
Düşmənim?
Yaxşımı qoyub
Yamanımı danışanmı?
Yox!
Eyblərimi deyib
Arxamca gülənmi?
Yox!..
Mənim nöqsanlarımı
Məndən yaxşı bilənmi?
Yox! Yox! Yox!
Onların gözlərini
Taxaydım öz gözümə.
Özgələrin gözüylə
Baxaydım öz-özümə.
Bacarsaydım bunu mən
Bu dünyada nə dərdim...
Mən onda öz-özümü
Daha yaxşı görərdim.
Onda eyiblərimə
Özüm düşmən olardım;
Görsəydim öz-özümü,
Onda mən, mən olardım!
Ah!.. Məni məndən gözəl
Görə bilən dostlarım,
Arxamca qəh-qəh çəkib
Mənə gülən dostlarım,

Azərbaycan milli kitabxanası

Gülün, elə gülün ki,
Çatsın qulaqlarıma
Sizin gülüşləriniz.
Yamanımı danışın,
Elə danışın ki, siz
Mən də xəbərdar olum.
Danışın, qoymayın ki,
Mən özümə vurulum.
Ən qorxulu düşmənin
Gələrəm öhdəsindən,
Ancaq özüm özümlə
Bacara bilmirəm mən,
Bacara bilmirəm mən.
Özüm öz əllərimlə
Bir gün bal içirəmsə,
Bir gün zəhər içirəm.
Mən həyat yollarından
Ayaqlarımla deyil,
Əqidəmlə keçirəm.

Aprel, 1960

ONUN PƏRİŞANLIĞI

Füzuli heykəlinin açılışı münasibətilə Heykəlin müəlliflərinə

Sağ olun,
Çox sağ olun,
Gözəldir heykəliniz.
Qoy var olsun əliniz!
Füzulini deyil, siz
Bu günü duymuşsunuz.
Sənətin bizim əsrə
Sözünü duymuşsunuz.

Öz əsrində Füzuli
Axı, nəyə ağlamış?
Kim deyir ki, Məcnuna,
Ya Leyliyə ağlamış?
Mən anlaya bilmirəm
Şah tsmayıl əsrini
Yamanlaya bilmirəm.

O, öz zərrə dərdinə
Ümman dedi, dağ dedi.
O, öz "yalanlarıyla"
Əsri də silkələdi.

Bizsə ağ yalanları
Daddıq həqiqət kimi –
Bədbəxtliyi səadət,
Zəhəri şərbət kimi.

Heykəliniz gözəldir!
Onun o əyri beli
Sanki mənim əsrimin
Dərdilə yüklənibdir.
Şeirinin hər nidası,
Nəğməsinin hər xalı
Əsrinə köklənməyib,
Əsrimə köklənibdir.

Onun pərişanlığı
Köksündə od qalanmış
Ana yurdu talanmış
Elin pərişanlığı...
Yüz yerə parçalanmış
Dilin pərişanlığı.

O, sakit görkəmiylə
Qaya kimi dayanıb,
Dərya kimi çağlayır.
Böyük türk millətinin
Dünəninə güvənir,
Bu gününə ağlayır.

İyul, 1962.

ÖZÜMDƏN NARAZIYAM

Təbiətin könül açan
Min rəngi, min səsi var.
Hər könülün min arzusu,
Min səsli nəğməsi var.

Bu arzular, bu nəğmələr,
Bu səslər bir saz kimi
Mənim solğun sözlərimdə
Heç dil açа bildimi?

Hissim dərin, sözüm solğun,
Qəlbim geniş, sinəm dar.
Məndən əvvəl doğulubdur
Sinəmdəki duyğular.

Səhv atılan addımları
Sonradan anlayıram.
Baxıb vicdan güzgüsünə
Özümü danlayıram.

Siz ey yanlış addımlarım,
Məni dərdə saldınız.
Mən sizinlə döyüşdükcə,
Gün-gündən çoxaldınız.

Mən haqq-hesab istəyirəm
Gecələr gündüzümdən.
Narahatam, narazıyam
Ömrüm boyu özümdən.

Bizim sənət dünyasının
Qırıq telli sazıyam.
Bircə ondan razıyam ki,
Özümdən narazıyam.

İyul, 1960, Riqa

BİR SALAMA DƏYMƏDİ

Bu gün mən səni gördüm,
Salam vermək istədim,
Üzünü yana tutdun.
Söylə, illərdən bəri
Qəlbimizin bir duyub
bir vurduğu illəri,
Axı, nə tez unutdun?
Beş ildə gözümüzdən axan o qanlı sellər,
Bir salama dəymədi?
Həyəcanla, fərəhlə, qəmlə dolu o illər
Bir salama dəymədi?
Heç üzümə baxmadan yanımdan necə
keçdin?
Sən eşqin salamını qorxuyamı dəyişdin?
Yoxsa sən öz əhdinə, ilqarına ağ oldun?
O qədər yaxın ikən, bu qədər uzaq oldun.
Şirin gülüşlərimiz, acı fəğanlarımız
Bir salama dəymədi?
Qayğılı anlarımız, qayğısız anlarımız
Bir salama dəymədi?

Sən neylədin, bir düşün!
Yalnız indi anladım: ah, sən daha
mənimçün
Əlçatmaz bir çiçəksən,
Yaşanmış günlərim tək geri
dönməyəcəksən!...
Qop, ey tufan, əs, ey yel! Xəzəl olum,
tökülüm
Düz beş il ürəyimdə
Bəslədiyim məhəbbət, bir salama dəymədi.
Bir günlük həsrətimə dözə bilməyən,
gülüm,
Bəs nə oldu? Bu həsrət bir salama
dəymədi?

Getdin, dalınca baxdım, can ayrıldı
canımdan,
Sən necə etinasız ötə bildin yanımdan,
Ah çəkdim, başım üstə yarpaqlar əsdi,
gülüm,
Sənin qəlbin əsmədi.
Arxana da baxmadın!
Niyə sənin yolunu məhəbbətin kəsmədi?...
Qazancımız de, bumu?
Deyilməmiş o salam əlvidamız oldumu?
Sən mənə zülm eylədin, mənə zülm yaraşır.
Bir salama dəyməyən eşqə ölüm yaraşır.

Sentyabr, 1961

ANA HƏDİYYƏSİ

Anam namaz üstə əl açıb göyə
Allaha yalvarır "ya rəbbim! – deyə:
– Sənsən xəlq eliyən göyləri, yeri,
Candan şirin olur bala, ay Allah.
Sən mənim ömrümdən kəsib illəri,
Balamın ömrünə cala, ay Allah!
Bu nədir? Arzuya, diləyə bir bax,
Gör bir nələr keçir ana qəlbindən?
Çoxdur bu dünyada hədiyyə... ancaq
Ömürdən hədiyyə görməmişəm mən.

İstərəm, bir ana, bir bala sözü
Lüğətdə sözlərin önündə gedə.
Uca olduğundan ananın özü
Ucadır, böyükdür hədiyyəsi də.

Çoxdur hədiyyələr insan adına:
Qiymətli ziynətlər, qiymətli daşlar.
Ana həyat verir öz övladına,
Həm də öz ömründən ömür bağışlar.

Avqust, 1962, Şəki

VƏTƏNDƏN-VƏTƏNƏ

Arazın
bu tayı Vətənim,
o tayı Vətənim.
Vətəni görməyə amanım yox mənim.

Bu necə vətəndir?

Görmədim üzünü
Çatsam da bu yaşa
Ömründə bir dəfə.
Bəs salam verməzmi
Qardaş da qardaşa?
Bu qəmim, bu dərdim dağlardan ağırdı
Arazın suyuna qarışıb axıram.
Füzuli həsrətlə qürbətdən Vətənə baxırdı,
Mən isə...
Vətəndən-Vətənə baxıram.

Oktyabr, 1962

HABİL SEGAHI

Kəmanə kamana toxunan zaman
Tufanmı hayqırdı, selmi çağladı?
Bədbəxt bir qəribin ah-amanından
Bəlkə göy kişnədi, bulud ağladı?

Durnamı ayrıldı, öz qatarından
Obamı dağıldı, elmi talandı?
Zamanmı ayrıldı öz axarından?
Əslimi hıçqırdı, Kərəmmi yandı?

Kamanın qolunda yatan xalların
Hər biri qəm yurdu, hicran yuvası.
Bir qolun üstünə cəm olub min-min
Nəsimi üsyanı, Vaqif nəvası.

Ondakı bu qüdrət, bu sirr nədir, nə?
Əzabla, zillətlə doludur bu qol.
Aylara, illərə, qərinələrə
Bölünən tarixin yoludur bu qol.

O enən, o qalxan səslər, avazlar
Yaz başı dağların selidir bəlkə?
Kamanın bağrında ağaran tozlar
Yanan arzuların külüdür bəlkə?

Bu səs, sınaq üçün – qüssənin, qəmin
Könüllər evinə səyahətimi?
Bu səs, ilk atamız qoca Adəmin
Təklikdən gileyi, şikayətimi?

Bəlkə susdurulan neçə dahinin
Yaralı ruhudur bu səs, bu nalə,
Danışmır... düşünür dərindən-dərin
Sözsüz nəğmələrlə ağlayır elə.

Hər xalı bənzəyir bir yanar közə,
Qığılcım sıçrayır hər nəfəsindən,
Bu səslər danışır bəlkə də bizə
Atəşlər yurdunun fəlsəfəsindən.

Deyirəm, bu səsi dinləyəndə mən,
Niyə dəqiqələr dönüb il olmur?
Bu səsin oduna, deyirəm, görən
Niyə bütün səslər yanıb kül olmur?

Bu səsdən ürəyim oldu bir tikə –
Bağrımın başında yaradır bu səs.
Ayın camalında qara bir ləkə,
Lalənin köksündə qaradır bu səs.

Yox! Kardır qulağı kainatın da,
Eşidə bilsəydi suya dönərdi.
Sonsuz kainatın sonsuz qatında

İşıqsız ulduz da şölələnərdi.

Bu ahmı, amanmı ucalır yerdən,
Yer öz fəryadına özü bezdimi?
Qoca Füzuli də bu nalələrdən
Ney kimi bənd-bənd kəsilməzdimi?

Bu ağac parçası yanmayır özü,
Ancaq od-ocaqsız yandırır bizi,
Odun atəşinə od şan-şan olur.
Bu səsin oduna alışar su da;

Ağac hər atəşə alışan olur,
Bu niyə alışmır belə bir oda?
Habil! Ay insafsız, ürəyimizi

Yandırıb yaxmaqda qəsdin nədir, nə?
Niyə yandırırsan atəşsiz bizi?
Bu haqqı kim verib, kim verib sənə?

Sentyabr-oktyabr, 1964

TƏYYARƏLƏR

İsmayıl Şıxlıya

Yerdən alıb öz gücünü
Qalxar göyə təyyarələr,
Məhəl qoymaz
nə yağışa,
nə küləyə
təyyarələr.
Uçuşu da əzəmətli,
Duruşu da əzəmətli...

Aşıb-daşar təyyarələr.
Yerdə deyil,
göydə yaşar
təyyarələr.
Sərnişinə
Vüqarından – vüqar verir
təyyarələr,
Günlərin yox,
Saatların az ömründə
Qütbləri birləşdirir
təyyarələr.
Gecə gedir,
Gündüz gedir
təyyarələr.
Məqsədinə,
Mənzilinə dümdüz gedir
təyyarələr.
Eniş bilməz,
Yoxuş bilməz,
Dolay bilməz
təyyarələr.
Nə burulmaz,
Nə əyilməz təyyarələr.
İçəridən alışmasa
bu sürətlə,
bu cürətlə
Gedə bilməz
təyyarələr.
Özü kimi
Ölümü də mərdanədir.
Mənzilinə uça-uça,
qaça-qaça
Öz içindən tez üzülər
təyyarələr.

Yavaş-yavaş ölə bilməz.
Öləndə də birdən ölər
təyyarələr.

Aprel, 1966

KRIMDA TATAR QƏBİRLƏRİ

Torpağən altında yatır yerlilər,
Üstündə gəlmələr kefdə, damaqda.
Yerlinin dərdini yersiz nə bilər?
Yerlinin haqqını o, tapdamaqda.
Gəlmə haqlı bilir özünü, haqlı!
Yerlinin yurduna yolları bağlı...

Bilmirəm Krımın öz sahibləri
Bu torpaq altında necə dincəlir?
Millət bu diyardan gedəndən bəri.
Ruhlar öz yurdunu ziyarət üçün
Sibirəmi gedir, buramı gəlir?

Tatar məzarları... əl açıb göyə
Torpağı qaldırıb niyə qabarmır?
Ölülər yer altda, görəsən, niyə
Haqq deyə qışqırıb fəryad qoparmır?
Krımı götürüb çiyinlərinə
Millət olan yerə niyə aparmır?

Məzarlar bu yurdun öz sahibləri
Niyə bu zillətin bağrını sökmür?
Torpağın üstündə sahibkar kimi
Gəzən gəlmələri dənizə tökmür?

May, 1966 Krım, Yalta.

BƏXTİYARAM MƏN

Ömrün payızında sevdim, sevildim,
Elə bilirəm ki, ilk baharam mən.
Arxanca sürünən kölgənəm sənin,
Harda qərar tutsan, orda varam mən.

Mey olsan, yanında bir qədəh ollam,
Gül olsan, çətrini öpən meh ollam.
Ot olsan, bir anda dönüb şeh ollam.
Dağ olsan, zirvənə yağan qaram mən.

Başımı qoyaram gündə yüz kərə
Bir yol ayağını basdığın yerə.
Eşqindir ucaldan məni göylərə,
Bu eşqin gücünə minnətdaram mən.

Sevgiyə hədd qoymaq, düzü günahdır,
Cahilin hər işi, sözü günahdır.
Eşqi günah saymaq özü günahdır,
Kim deyir, eşqimdə günahkaram mən?

Özün bir aləmsən, eşqin bir aləm,
Sən olan könüldə nə kədər, nə qəm!
Sənsiz bu dünyanın ən bədbəxtiyəm,
Səninlə dünyada bəxtiyaram mən.

Dekabr, 1962

BAKIYLA TƏBRİZİN ARASINDAYAM

Mənim qismətimdir alatoranlıq
Gecəylə gündüzün arasındayam,
Qurulur içimdə mizan-tərəzi,
O gözlə, bu gözün arasındayam.

Yollar ayrıcında çox talanmışam,
Fikirlər əlində haçalanmışam.
Təpədən qorxmuşam, düzü danmışam,
İndi dağla düzün arasındayam.

İlişib qalmışam qəm çalasında,
Bir gözəl tilsimin daş qalasında,
Həmişə qapılar astanasında
Bayırla dəhlizin arasındayam.

Bəxtiyar, sinəndən neçə "mən" keçir
Biri dərdli keçir, biri şən keçir,
Məftilli çəpərlər sinəmdən keçir.
Bakıyla Təbrizin arasındayam.

May, 1969

QOCALMIR

Qocaldır insanı, qocaldır zaman;
Ürəyin atəşi, közü qocalmır.
Dağları, daşları qocaldan zaman,
Bilmirəm, bəs niyə özü qocalmır?

Getdi baharımız, yer qışa qaldı.
Düzlər qara qaldı, yağışa qaldı.
Bizimki bir quru baxışa qaldı,
Neyləyək arzunun gözü qocalmır.

Bəxtiyar, düşünək biz dərin-dərin.
Xəyallar möhtəşəm, arzular şirin.
Əsl sənətkarın, əsl şairin
Özü qocalsa da, sözü qocalmır.

1965

AZƏRBAYCAN OĞLUYAM

Azərbaycan oğluyam,
Odu Allah sanmışam.
Anam torpaq,
Atam od,
Mən oddan yaranmışam:

Od kimi istiqanlı,
Seltək dəliqanlıyam.
Həyat qədər qədiməm,
Torpaq qədər şanlıyam.
Od kimi yandıranam.
Su kimi söndürənəm
Məni yandırsalar da,
Suda batırsalar da,
Yenə mənəm,
mən mənəm!

Köküm üstə bitmişəm,
Şöhrətim var,
Şanım var.

Mənim gələcəklə də
Öz əhdi-peymanım var.

Azərbaycan oğluyam,
At belində doğuldum;
Zamanın qazanında
Neçə dəfə dağ oldum.

Mənim damarlarımda
Gur sellər çağlamışdır.
Anam cəngilər üstə
Məni qundaqlamışdır.

Azərbaycan oğluyam,
Min ildir,
öz adımın
Keşiyində durmuşam,
Silahım olmayanda
Nifrətimi barıttək
Qəlbimə doldurmuşam...

Hünər göstərməyincə
Adsız yaşamışam mən.
Dədəm Qorqud ad verdi
Mənə öz hünərimdən.

Yoluma nur çiləyən,
Qoluma qüvvət verən
Eşqim,
ustadım oldu;
Adım doğdu hünərdən
Hünərim, adım oldu.

Azərbaycan oğluyam,
Yaşım adımdan qədim.
Heç kəsin toyuğuna
Ömrümdə "kiş" demədim.

Kimsənin torpağında
Gözüm yox;
bilsin aləm
Torpağımdan bir çərək
Kimsəyə də verməræm.

Mən bir qədim mahnıyam
Xallarım əlvan-əlvan.
Musiqim – Qarabağdır,
Sözlərimsə – Naxçıvan.
Bu torpaqda yaranmış
Koroğlunun cəngisi,
Qıratın üzəngisi!

Özümə vurulmadım,
Sevinc də görmüşəm mən,
Sitəm də,
Dərd də,
Qəm də...
Sabirin göz yaşıyla
Özümə gülmüşəm də.

Çənlibeldən düşəli
Cığırları dağıdıb
Geniş yollar salmışam
Çənlibeldən də uca
Dağlara ucalmışam.

Ucalsam da günbəgün,
Dünənki son zirvəmə
Bu gün yenə "az" dedim.
Tarixin kölgəsində
Daldalanan millətin
Sabahı olmaz dedim!..

Neyləyək ki...
zamanın
Uğursuz yollarında
İkiyə bölünmüşəm.
İki başlı, bir qəlbli
Bir bədənə dönmüşəm.

Həm Təbriz, həm Bakıdır
Məkkəm, Mədinəm mənim.
Pasportsuz yaşar bu gün
İki Vətəni olan
Azəroğlum, Qafarım,
Əlim, Mədinəm mənim.

Balaş, biz ikimiz də
Bir ananın oğluyuq,
Biz ki, Azəroğluyuq.
Hər ikimiz əzəldən
Bir arzunun quluyuq.
Elimiz də bir bizim,
Dilimiz də bir bizim.
Vətənimiz bir bizim,
Dünənimiz bir bizim,
Olmuşuq bir Vətəndə
Biz bu gün başqa-başqa.
Bizim talelərimiz
Bəs neçün başqa-başqa?

Öz məsləkim, öz eşqim
Daim məndən öndədir.
Azərbaycan bayrağı
Başımın üstündədir!..

Əqidəmin, eşqimin,
Qanımın rəngi bayraq,
Bütün arzularımın,
Qızıl çələngi bayraq.
Hər şeydən bu dünyada
Şərəf uca
Şan uca,
Zamanın yollarında
Mən ki, səni tutmuşam,
Daim başımdan uca!

Noyabr, 1966

EKRANDA GÖRÜŞ

Oğul şəhərdədir,
Anasa kənddə,
Görüşə bilmirlər bir məmləkətdə.

Ekranın önündə oturub ana
Fəxrlə,
Qürurla baxır oğluna.
Oğul şeir oxuyur: "ay anam sənə
Canımı versəm də, bu azdır yenə..."

Oğul şeir oxuyur,
Ana dinləyir.
"Balam bir balaca sınıxıb" deyir.

May, 1966, Şəki

MEŞİN QAPILAR

Gözləmə otağında
Saatlarla gözlərin
Lal qapıya dikilər.
Mənim nə çəkdiyimi
Qapılar arxasında
Mürgü döyənlər bilər.

Ürəyində böyüyür,
Dodağında kiçilir
Sözün də, sualın da.
Ax!.. bizim ömrümüzün
Görən neçə parçası
Əriyib külə dönmüş
Qapıların dalında?

Qapılar arxasında
Biz nə qədər durmuşuq.
Neçə gözəl arzunu
Siqar tüstülərilə
Havaya sovurmuşuq.

Ax, sərt üzlü qapılar,
İki üzlü qapılar
Talelər həll olunur
Qapının o üzündə.
Adamlar boynubükük
Əyləşib mat-məəttəl
Qapının bu üzündə.
Dindirsən gələr dilə
Qapıların ağzına
Səpilən tozlar belə.
Onlar toz deyil, ancaq

Qapılara toxunub
Ayaqların altına
Tökülən arzulardır.
Ürəklərdə doğulub,
Bircə "yox" kəlməsilə
Yox olan arzulardır.

Ax!.. Bu bir kəlmə "yox"un
Arxasında nələr var,
Neçə əyilmələr var.
O "yox" deyir, bu, yoxdan,
O özü də xoşlanır.
Deyirəm ki,
Yaltaqlıq da,
qorxaqlıq da
Elə burdan başlanır.
Siz ey meşin qapılar,
Siz ey meşin qapılar,
Sizin üzünüz soyuq;
Sizdən ümidlə girib,
Ümidsiz çıxan da çox.
Sizi təpiklərilə
Vurub açan tapılar,
Siz ey bağlı qapılar,
Qaşqabaqlı qapılar!

Sentyabr, 1966

ÜMİD

Qorxmuram, düşmənim qoy min-min olsun.
Neyləyər mənə?
Şöhrət sənin olsun, ad sənin olsun,
Ümid ver mənə!..

Ümid istəyirəm, mən ümid ancaq,
Ümidlə qoyaram dağı-dağ üstə.
Nə şöhrət, nə mənsəb, nə dövlət, nə var.
Ey könül, dünyadan sən ümid istə!..

Ümid arzuların qızıl naxşıdır.
Deyərlər, yeməkdən ümid yaxşıdır.

Deyək dənizdəyəm, sahil görünmür.
Ümid mənimlədir,
o, məndən dönmür.
Sahilə can atıb çırpınır ürək.
De, neyləyəcək
Üstümə şığıyan ləpələr mənə?
Ümid ver mənə!

İnamla ucaltdıq anamız yeri,
Biz möhtac olmadıq dosta, düşmənə.
Dəmir çəpərləri, daş hasarları
Dişimlə sökərəm, ümid ver mənə!
Həsrət də, hicran da deyil qorxulu.
Ümidlə açılar hər eşqin yolu!
Bir il – bir an kimi görünər mənə.
Ümid ver mənə!
Həsrət – vüsal qədər xoş gələr mənə,
Ümid ver mənə!
İnam ver mənə!

Yaman darıxır,
Səfərə çıxır Mənim könlümdəki xəyallar
yenə,
Bələdçi yerinə ümid ver mənə.
Diləklər ümidlə birgə doğulsa,
Yerin tərkində də ucalar insan.

Arzumu tapmağa ümidim olsa,
Mənzil başındayam, yola çıxmadan.
Ümidlə qoyaram dağı dağ üstə.
Ey könül, özündən sən ümid istə!..

Mart, 1967

ŞAİR – VƏTƏN

Arada-bərədə görürsən tez-tez,
Deyirlər: "Nə çoxdur şairlərimiz,
Bunun qarşısını alaq biz gərək,
Bizə həkim gərək, mühəndis gərək..."

Mənsə deyirəm ki, şair bol olsun,
Bütün doğulanlar şair doğulsun.
Sənətkar sənətə amalla başlar,
Şeirim – amalımdır – desəm, yeridir.
Şeir yazmasa da, əqidəaşlar
Dünyanın ən böyük şairləridir.

"Şair çoxdur" deyə gileylənməyin,
Əlhəzər eləyin tüfeylilərdən.
Yaxşı söz önündə siz də baş əyin,
Şair ki, yığmayır sözləri yerdən.

Şairi kimsəyə dəyişmərəm mən,
Onlar hər cilvədə min sirr axtarır.
İdrakın irişməz dərinliyindən
Onlar söz axtarmır, fikir axtarır.
Onlar gecə-gündüz dərd, ələm çəkir,
Bu ağrı gəlməsin çox yüngül sizə.
Bəlkə də ən zəif, ən kiçik şair
Böyük vətəndaşdır Vətənimizə...

Şairin bədəni – bu ana torpaq,
Nəfəsi – xəzridir, qanı – Kür, Araz.
Çox şey Vətənsiz də yaşayır, ancaq
Şeirsə Vətənsiz, elsiz yaşamaz...
Şairə vəzifə, rütbə nə gərək!
"Vətən", "Vətən" deyir könül səsi də.
Vətəni sevməkdir, Vətəni sevmək,
Şairin ən böyük vəzifəsi də.

Ancaq... bəla onda, dərd ondadır ki,
Vəzifə xumarı gözünü örtən,
Vətəni pul kimi cibinə dürtən
Bir rüşvət düşgünü, rütbəli nadan
Durub kül üfürür gözlərimizə.
Vətəni sevməyin "qaydalarından"
Utanmaz-utanmaz dərs deyir bizə.

Vətəni sevməkdə nə qayda, qanun?
Vətən sevgisinin hüdudu varmı?
Ey nadan, ölçülər özünün olsun,
Məhəbbət ölçüyə, həddə sığarmı?

May, 1967

MİZ ARXASINDA

Gündüzlər gəzirəm bizim şəhəri,
Axşamlar qonuram öz budağıma.
Axşamlar xəyalım gəzir hər yeri
Dünyanı sığdırıb dar otağıma.
Masa arxasında mən söz ordumu
Çəkirəm üstünə hər qaranlığın.
Mən bütün dünyanı,
Mən öz yurdumu

Mizimin üstündə görürəm aydın.
Masa arxasında... əlimdə qələm
Gəzirəm dünyanı mən qarış-qarış,
Mənim xəyalımın, deyirəm, bu dəm
Ayağı dəyməyən bir yer qalmamış.

Masa arxasında könlüm biqərar –
Yolum neçə kənddən, şəhərdən düşür.
Vyetnama yağan ağır bombalar
Elə bilirəm ki, evimə düşür.

Güclüyəm! – deməli, mən haqqam, deyə,
Zülm haqq paltarı geyinir bu gün.
Mənim misralarım dönür gülləyə
Evini tutanda güclü gücsüzün.

Sinada yandırır gün göyü, yeri,
Yenə də ərəbin Vətəni darda.
"Su" deyib yananda ərəb əsgəri
Mənim dodaqlarım çatlayır burda.

Masa arxasında öz ürəyimi
Məşələ döndərib yandırıram mən;
Dünyanın dərdləri mürəkkəb kimi
Axır qələmimdən, axır sübhəcən.

Ürəyim ilhamla, sözlə dolanda
Hər sətrim könlümdən od alır mənim.
Duyan bir ürəkdə tel qırılanda
Şeirimin vəzni də qırılır mənim.
Masa arxasında... torpağın, yerin
İsti nəfəsiyəm, zərif ətriyəm.
Mən havanın deyil, hadisələrin,
Könül dünyasının barometriyəm.

Qoşuram ardınca xoş xəyalların,
Yer mənim, göy mənim, asiman mənim.
Qəlbimdən min qəlbə gedən yolların
Əvvəli başlanır masamdan mənim.
Elə ki, qalxıram masa dalından
Xəyalım kiçilir, fikrim gərilmir.
Bayaq otağıma sığışan cahan
İndi öz-özünə sığışa bilmir.

Bayaq öz canıma, qanıma qıydım,
Bilmirdim vaxt keçir, yatasıyam mən;
Bayaq bir dünyanın vətəndaşıydım,
İndi övladımın atasıyam mən.

Oxuyun könlümü şeirlərimdən,
Könül gizlənməsin söz arxasında;
Dünyanın ən gözəl adamıyam mən
İlham aləmində, miz arxasında.

May, 1967

RİYAKAR

Mənim övladıma ana dilində
Dərs deyən "ağıllı" müəllimə bax.
"Vətən", "Vətən" deyir,
Öz övladını
Əcnəbi dilində oxudur ancaq.
Özgəyə: "Dilini öyrən!" – deyirsən,
Özünsə... Bu dili bəyənməyirsən!..
Nə deyək bu miskin riyakarlığa?..
Yoxsa, öz qınını bəyənmir bağa?..
Bir nədir, beş-altı dil bilsin gərək,

Bizim sabahımız – körpələrimiz.
Vətən dilinə də dodaq büzməyək,
Burdan ayaq açıb, yola çıxaq biz.

Evdə ayaq açır əvvəlcə hər kəs,
Sonra uzaqlara düşür qədəmlər.
İlkini bilməyən sonunu bilməz,
Evdən üz döndərən çöldə vərəmlər.
"Əvvəl evin içi" demişlər nədən?
Sən çölü bilməzsən, içi bilmədən.
Yaxşı bilmək üçün özgə bir dili
Əvvəl öz dilini yaxşı bilməli.

Niyə özümüzü ögey sayaq biz?
Niyə atamızı tanımayaq biz?
Özgəni sevirsən?
İnanmıram mən!
Özünü sevməyən özgəni sevməz.
Vətənin dilinə gərəksiz deyən
Vətənin özünü necə sevir bəs?

Üzünə dursaydı yediyin çörək,
Rəzil olduğunu özün qanardın.
Dilimi dansaydım mən də sənin tək
Sən kimə dərs deyib pul qazanardın?

Vətən qeyrətini çəkməyən oğul
Həm özünə yükdür, həm özgəsinə;
Bu dildə dərs deyib qazandığın pul,
Yediyin çörək də haramdır sənə!
Böyüt balanı da sən özün təki,
Denən, özün yaşa, aləm yox olsun.
Namus olmasa da keçinər, təki
Dilin uzun olsun, qarnın tox olsun.

Sənincin dünyaya dəyər, a nadan,
Bir anlıq ötəri könül xoşluğun.
Min dəfə kiçikdir atalığından
Sənin insanlığın,
Vətəndaşlığın!

Oktyabr, 1967

"ANAMIN KİTABI"

Böyük əməlpərvər, böyük vətəndaş Cəlil Məmmədquluzadənin əziz xatirəsinə

"Anamın kitabı!" – oxudum bir də,
Bu günüm dünənlə gəldi, görüşdü;
Cəlilin çaldığı sarı simlərdə
Qədim bir təmsil də yadıma düşdü:

Xərçəng – arabanı çəkir quruya,
Ördək – buludlara,
Kor balıq – suya...
Araba tərpənmir ancaq yerindən,
Sənin timsalınmış bu hal, ey Vətən!

Talandı bir zaman dövlətin, varın...
Varlıykən əl açdın sən özgələrə.
Yadlar yox,
Səni də öz övladların
Çəkdi üç tərəfə, çəkdi üç yerə.

Ana ümid oldu doğma övlada,
Övlad bel bağladı yadlara yalnız.
Övlad bilmədi ki,
qonşuya, yada,
Göz dikən qalacaq şamsız, çıraqsız.

Bu doğma torpaqda doğulub onlar,
Dedilər, biz hara, bu torpaq hara,
Doğma kitablara yad olub onlar
Ümid bağladılar yad kitablara.

Ananın kitabı çatdı imdada,
Dedi: "özünə bax, əl açma yada;
Vaxt çatıb uzağı, yaxını tanı,
Bil, sənin əvvəlin, axırın nədir,
Vətən xəstədirsə, onun dərmanı
Kənarda deyildir, öz içindədir..."
Anamın kitabı! Tarixdən qədim,
Çiçəkdən – təzə-tər,
Göylərdən dərin.
Ayağı altında torpaq görmədim
Anadan üzünü çevirənlərin.

Bu böyük mətləbi bilmədik bəzən,
Bizi bölə-bölə çəkdilər dara.
Əl çəkib müqəddəs atəşimizdən
Yüzillər baş əydik yad kitablara...

Tapdandı anamın şərəfi, şanı,
Bizdən sərvət alıb söz gətirdilər.
Bu boyda ölkəni – Azərbaycanı
Bir ərəb qızına cehiz verdilər.

Məni bağışlasın Şəhriyarım da,
Otuz il özgəyə "bəradər" dedi.
Öz doğma yurdunda, öz diyarında
Doğma anasına o, "madər" dedi.
Elə ki, yumruğu yerə dirəndi,
Dərhal yada düşdü doğmaca kəndi.
Bunlar nağıl deyil, tarixdir, ancaq

Tarixin hökmünə, könül, yaxşı bax!
Gəl bilək, insanmı, zamanmı haqsız
Gah ona, gah buna biz yamaq olduq.
Kiçik komamızı qoyub çıraqsız,
Özgənin qəsrində biz çıraq olduq.

Bu böyük dərdləri düşündü Cəlil!
Onu qorxutdular,
öz amalından
Nə bezdi,
Nə küsdü,
Nə döndü Cəlil!
O da bu günlərə ümid bağladı,
Ayıldıb atamı,
bir ürək kimi
Milyon ürəklərdə döyündü Cəlil!

MƏNƏ NƏ VAR?

"Bizdə bu soyuq qanları neylərdin, ilahi?"
M.Ə.Sabir

"Mənə nə var?!" dedin.
Düzmü dedin sən?
Birləşir axırda ən uzun yollar.
Kənara çəkilmə, bil ki, bu gündən
Bu gün mənə varsa, sabah sənə var.

Daşqın böyrü üstə yıxsa bir dağı,
Yanındakı dağ da əyiləcəkdir.
Bu gün yeyilirsə birinin haqqı,
Sabah da səninki yeyiləcəkdir.

Buzdan soyuq olar ilanın qanı,
İnsansan!
O isti qanın bəs hanı?
De görək, sən necə baxa bilirsən
Gözünün önündə tapdanan haqqa?
Nədən alışmayır bədənin, nədən,
Haqsız məşəl tutub o yanan haqqa?
Necə insan deyim, necə mən sənə?
Qoy övlad deməsin bu Vətən sənə!..

Əgər adamsansa... sev adamları,
Demə, bu, dostumdur, o, düşmənimdir;
Demə, əzizimdir ev adamları,
De, mən bu xalqınam, xalq da mənimdir.
Demə, daş yayınıb qardaşa dəydi,
Mən elə bildim ki, daş daşa dəydi.
Yurdun o başında yıxılan kəsin
Ağrısı qəlbində gərək göynəsin!

Ən böyük dəryanın birdir sahili,
Onu hər tərəfdən döyər dalğalar.
Bir böyük Vətəni, bir böyük eli
Tarimar eləyər "mənə nə var"lar.
Ağaclar qatarla cərgələnibdir.
Onlar bir-birindən çox uzaqdadır.
Budaqlar, yarpaqlar görüşməsə də,
Kökləri bir yerdə, bir torpaqdadır!

Noyabr, 1967

OĞRULAR

Yusif, milis dostum, od kimisən sən,
Oğrunun, əyrinin qənimisən sən.
Ancaq...
Cürbəcürdür, axı, oğrular,
Anbar oğrusunu tutmağa nə var?..

Düşüb arxasınca bir tüfeylinin,
İzlər axtarmısan, izlər gəzmisən.
Kiçik oğrulardır hədəfin sənin,
Böyük oğrulardan xəbərsizmisən?
Gözlər önündədir dükan, ya anbar,
Artığı, əskiyi bilinir asan.
Əlhəzar,
əlhəzar,
dostum, əlhəzar,
Vicdan oğrusundan, qəlb oğrusundan...
Onlar açа bilir düz ürəkləri,
Ancaq...
Qıfıllıdır öz ürəkləri...

Haqqa qılınc çəkib vicdana qıydı,
Onlar üzümüzə baxdılar dik-dik;
Ya səndə, ya məndə qüdrət olaydı,
Onların içini açа biləydik.
Vəzifə sahibi bir imza üçün
Bizi süründürür on gün, iyirmi gün...
Taleyin asılıb tək bircə qoldan –
Sən bir imzadakı gücə bax, gücə,
Bir də görürsən ki, dağ boyda insan
Bir cırtdan önündə cücədir, cücə.

Ömür parçalanıb doğranır min-min,
Səpilir yollara get-gəl içində.
Gəlməzdi bu vaxta bir tikə heyfim,
Əgər ərisəydi əməl içində...
Haray!
Az ömürdən vaxt oğurlanır,
İnam oğurlanır,
Əsəb korlanır...

Bilmirəm, sən mənə başa sal bunu,
Bu hansı zamandır, bu hansı çağdır. –
Əsəb oğrusunu, qəlb oğrusunu,
Sevinc oğrusunu kim tutacaqdır?

Bir daş sifətlinin, bir sərt cavabı
Uman ürəklərdə iz açır dərin.
Bəs niyə sorulmur haqqı, hesabı
Ürəkdə açılan bu şırımların?..
Çoxalır şırımlar, artır şırımlar,
Dönüb infarkt olur ürək də bir gün.
Bir həlqəyə dönüb axır şırımlar,
İri nöqtə qoyur sonuna ömrün.

Sonra deyirlər ki, indi adamlar
Ölür birdən-birə dağ uçan kimi.
Məgər ürəyinə düşən şırımlar
Onu yavaş-yavaş öldürmürdümü?
Bəs onun ömrünü kim oğurladı?
Bəs niyə dəyişir oğrunun adı?..
Malı ucuz alıb, baha satanlar
Dəllaldır,
Onları cilovlayaq biz.
Zəhmətsiz, mayasız qazanan da var,
De görək onlara nə ad qoyaq biz?..

Dəllalmı? Yox!
Bu ad yaraşmır ona,
Onun bir adı var: "mədəni" oğru.
Talayır adamı göz baxa-baxa
Bu yeni cibkəsən, bu yeni oğru...

Haqqı tapdasa da,
Söylə, bir nədən
Güclünü çox yerdə doğru sayırlar?
Əlini uzadıb uzaq qitədən,
Gücsüzün varını oğurlayırlar.

Belə dəllallara deyən yoxmu bir:
Hərrac malımıdır namusun, arın?
... Bəs kökü nə zaman kəsiləcəkdir
Bu gizli, mənəvi oğurluqların?

1967

MƏNİM ANAM

Savadsızdır,
Adını da yaza bilmir
Mənim anam...
Ancaq mənə,
Say öyrədib,
Ay öyrədib,
İl öyrədib;
Ən vacibi:
Dil öyrədib
Mənim anam...

Bu dil ilə tanımışam
Həm sevinci,
Həm də qəmi...

Bu dil ilə yaratmışam
Hər şeirimi,
Hər nəğməmi.
Yox, mən heçəm,
Mən yalanam,
Kitab-kitab sözlərimin
Müəllifi – mənim anam!..

Yanvar, 1968

QARA SAÇLAR, AĞ SAÇLAR

Saçlarıma dən düşür, dən düşür, yaman düşür,
Hər baxanda anamın ürəyinə qan düşür.
Bu ağ saçlar, ay ana, səni dərdə salmasın,
Saçımın ağlığından qanın heç qaralmasın!

Alışıram gecələr masa arxasında mən,
Saçlarım da ağarır, qəlbimin atəşindən.
Sən demə ki, balamın bəlkə gizli qəmi var,
Vaxtsız ağaran saçın özgə bir aləmi var.

Ölüm belə qəm deyil bu həyatı duyana,
Mən bu ağ saçlarımla öyünürəm, ay ana!
Qara, şəvə saçları təbiət vermiş mənə,
Mən güvənə bilmərəm onun bu töhfəsinə.
Zəhməti həyatımın ilk bəzəyi sanmışam,
Ağ saçları həyatda mən özüm qazanmışam.

Sentyabr, 1957

YAĞMA, YAĞIŞ

Hacıbaba Həsənov bəstələmişdir

Göylər çənə büründükcə
Ürəyimi bürüyür qəm.
Yağma, yağış, yağma, yağış,
Mən görüşə tələsirəm.

Mənim şirin sevincimə
Acı zəhər sən qatma gəl.
Göy çəməndə yol gözləyən
Sevgilimi islatma gəl.

Pəncərəmə hicran yazır
Damcıların naxış-naxış.
Mən görüşə tələsirəm
Yağma, yağış, yağma, yağış,

Ürəyini boşaltmasın
Bu gün göylər insan kimi,
Mən ki, açmaq istəyirəm
Sevgilimə ürəyimi.

Yağsan da mən gedəcəyəm.
Görüşəndə yağışda biz.
Üstümüzdə açılacaq
Çətir kimi öz eşqimiz.

1953

QAĞAYI KİMİ

Həm dənizdə, həm havada, həm də yerdə
cövlanı var,
Həm üzürlər,
həm süzürlər,
həm gəzirlər,
qağayılar. Bu arzunun həsrətilə əsrlərlə
mən yanmışam,
Təbiətin qağayıya bəxş etdiyi nemətləri
Mən əqlimlə qazanmışam:
həm gəzirəm,
həm üzürəm,
həm süzürəm!

İyul, 1960, Riqa

HƏR ŞƏKİLDƏ BİR ANIM...

Qələm yoldaşım
Yusif Səmədoğluna

Hərdən töküb önümə
köhnə şəkillərimi,
Mən yadıma salıram
o ötən illərimi.
Bu şəkillər, şəkillər
köhnə xatirələrin
min nəğməli səsidir.
Yaşadığım anların
kağızlar üzərində
əks olan kölgəsidir.
Şəkillər yığın-yığın,
şəkillər dəstə-dəstə;

Hər şəkildə bir anım
əbədilik yaşayır
cansız bir kağız üstə.
Yaşamışam o anı,
O an çıxıb əlimdən;
O anda keçirdiyim
Həyəcanı, duyğunu
yaşamaram bir də mən.
Siz ey ötən illərdən
mənə xatirə qalan
cansız dövlətim, varım –
Kağız parçalarında
donub qalan anlarım!
Siz üstünü toz basan
nəğməsiz bir simsiniz,
mənim zahirimsiniz...
O anda yaşadığım
hissim, duyğum, düşüncəm,
bura əks olunmamış –
kağız üstə qonmamış.
Bax, bu şəkil: əlimdə
bir dəstə gül tutmuşam;
Sanki qaya başından
yerə baxan bir quşam.
On il əvvəl çəkilmiş
bu şəkilə baxanda,
O vaxtkı duyğularım
yada düşür bir anda.
O duyğuma gülürəm,
o arzuma gülürəm.
Duyğular başqalaşmış,
Arzular başqalaşmış.
O zamandan bu yana
çox sıldırım dağları,

qayaları aşmışam.
Arzular başqalaşmış,
mən də başqalaşmışam.
O şəkildə gördüyün
əli çiçəkli oğlan –
sadə ürəkli oğlan
mənəmmi?.. Ah, dəyişir –
Axı, insan dəmbədəm.
Doğrusu, o, həm mənəm,
Həm də ki, mən deyiləm.
Bu şəkillər, şəkillər
köhnə xatirələrin
min nəğməli səsidir.
Yaşadığım anların
kağızlar üzərində
Həkk olan kölgəsidir.

İyul, 1960, Riqa, Dubulti

ÖMRÜN PAYIZI

Dövran tez dolanır, illər tez gəlir.
Biz də dəyişirik hey ildən-ilə.
Ömrün pillələri necə düz gəlir
Ana təbiətin fəsillərilə!

İlk bahar çağıdır uşaqlıq ömrün,
Şıltaqdır, oynaqdır kəpənək kimi.
Ömrün yay çağıdır gənclik büsbütün,
Coşğundur, dəlidir o, külək kimi.

Barlı-bəhərlidir payızı ömrün,
İnsan da bar verib əyir başını.

Dünyanı dərindən dərk etmək üçün
Düşünüb, gizlicə çatır qaşını.

Ağarır saç, saqqal ömrün qışında,
Həyat zəifləyir, axıra çatır.
Əl-ələ verərək, qoca yaşında
İnsan mürgüləyir, təbiət yatır.

Ömrün payız fəsli sıxdı əlimi,
Yoxsa qocalıram mən yavaş-yavaş.
Payızda yarpağa xal düşən kimi
Düşür saçlarıma dən yavaş-yavaş.

Ağaclar soyunur, yer xəzəllənir,
Fikir dumanlanır, gözlər zillənir,
Güllərin üstünə enən tək enir
Mənim gözlərimə çən yavaş-yavaş.

Soyuyur havalar, soyuyur bütün,
Qısalır, qısalır günlər günbəgün.
Axı, yaxınlaşır qürubu ömrün,
Əyilir dağlardan gün yavaş-yavaş.

Saralır get-gedə çöl, çəmən, çayır,
Könül hər saatı ömürdən sayır.
Bir səs qulağıma hey pıçıldayır:
– Bəxtiyar, göylərdən en yavaş-yavaş!

Oktyabr, 1960

QALİLEY

Dedi: – Yer fırlanır... inanmadılar.
Onlar ona güldü, o da onlara.
Dedi: – Həqiqətə şübhənizmi var?
Dedilər: – Haqq deyən çəkilir dara.

O dedi: – Fırlanır, fırlanacaq yer,
Buna gülsəniz də, gülməsəniz də.
Yerdən dərs götürüb ölənə qədər
Məgər fırlanmırıq həyatda biz də?..

"Fırlanır" – Sözüylə o müdrik insan
Qırdı mövhumatın sərt buzlarını.
Əqlin baltasıyla vurdu başından,
Sındırdı öküzün buynuzlarını.
Milyon il dedilər: – Qaşqa öküzlə
Çatıbdır şöhrətə, şərəfə dünya.
Dedi: – Yer fırlanır... ancaq bu sözlə
Tanıdı özünü ilk dəfə dünya!

Qaliley "fırlanır" – Deyəndən bəri,
Ucaldı, göylərdən yerlərə baxdı.
Hər cürə uydurma əfsanələri,
Əqlin alovunda yandırdı, yaxdı.

Yer fırlanır, – deyə o çəkdi fəryad,
Sözünün gücünü özü də bildi.
Elə bil, bir anlıq susub kainat,
Bu iki kəlməyə qulaq kəsildi.

Dedi: – Yer fırlanır – qarışdı aləm
Yer durdu, fırlandı məscid, kəlisa,

Dedi: – Yer fırlanır, elə bil bu dəm
Təzədən çəkildi çarmıxa İsa...

Dedi: – Öz hökmümə inanıram mən,
Gərək dəyişilə dünyanın adı.
Dedi: – Yer fırlanır!... Bu iki sözdən
Papanın başında göy guruldadı.

Dedi: – Yer fırlanır... Bu ikicə söz,
Min bir sual düzdü "İncil"in üstə.
Papa qəzəblənib – Dağ basarıq biz –
Dedi, – bunu deyən o dilin üstə.

Divana çəkdilər alimi dərhal,
Dünyanı düşündü, eşqini andı.
Böyük Cordanonu yandıran tonqal,
Gözünün önündə gəlib dayandı.

Müqəddəs kitaba əl basıb həmən
Dedi: – Şəkkim yoxdur, bu kitab haqdır.
Ancaq düzü budur; deməsəm də mən,
Yer elə fırlanır, fırlanacaqdır!
Qəlbə bax, eşqə bax!..
Qorxub ölümdən,
O öz məsləkindən geri dönmədi.
– Həyatın naminə sürünmərəm, mən,
Məsləkin naminə ölərəm, – dedi.

Bəşər tarixində bəlalı insan,
İki qütb önündə çox dayanıbdır.
Haqdan yapışanlar keçib həyatdan,
Həyatdan qopmayan haqqı danıbdır.

Bu hünər önündə baş əyirəm mən.
Ötən zamanlarla fikrim öpüşdü.
Ölüm ayağında "Ənəl-həqq!"
– deyən
Mənim Nəsimim də yadıma düşdü.

Qaliley! Hələlik kəşfin bir yana!
Onun qiymətini alimlər bilər.
Sən haqdan dönmədin həyat naminə,
Bundadır böyüklük, bundadır hünər!

May, 1963

SÜRƏT

Bir zaman vardı,
Verst ağaclarını saya-saya,
Üç günə gedərdik
Moskvaya.
Darıxardıq,
Bu sürətin ləngliyinə,
Sonra uçduq səkkiz saata,
Darıxdıq,
Darıxdıq yenə...
İndi üç saata gedirik,
ancaq
Yolun uzunluğu
Yenə darıxdırır bizi,
İşıqdan almaq istəyirik
sürətimizi.
Yox!
Bu sürət də bizə yenə azdır, az!
Bu sürət
Fikrimizin sürətinə çatmaz.

Mən əsrin oğluyam,
əsrin!
Darıxmamaqçın
Mənə
Fikrimin sürətini verin!

Sentyabr, 1963

NEKROLOQ

Nekroloq – bir həyatın son nidası, son səsi,
Bir mənalı həyatın ən qısa mənzərəsi.
Ömrün bütün günləri tez bir yerə yığışdı
on cümləyə sığışdı...
Mərhuma bircə anlıq versəydilər ömr əgər,
Baxıb, baxıb yad kimi,
o buna ağlardımı, o buna gülərdimi?..
Boylandı əməllərin ən kütah lövhəsindən
mərhum bizə son kərə.
Hər kəsin arzuları çoxdur əməllərindən
min kərə, milyon kərə.
Ürəkdəki arzular əməllərdən əzəldir,
Eləmək istədiyim mənim elədiyimdən
həm çox, həm də gözəldir!
Eləysə... Nekroloqa ömür tam olsun deyə
Əməllərlə bərabər ən gözəl arzular da
niyə yazılmır, niyə?!

Fevral, 1964

BİR ÜRƏKDƏ DÖRD FƏSİL

Hər gecə danışır radio havadan:
"Sabah az buludlu, biri gün yağış..."
İqlimin sirrini bu qadir insan
Gör necə öyrənmiş, gör necə açmış...

Sabahkı havanı bilirik bu gün,
Ey insan,
Bununla demərəm öyün...
Minbir havasını yerin, dənizin
Əvvəldən bilirik çox zaman, şəksiz.
Bəs niyə bilmirik öz qəlbimizin
Bir andan sonrakı havasını biz?..

Dörd fəsil yaşayır bir ildə torpaq
Qış, qış kimi gəlir, bahar bahartək.
Bir saat içində bəs nədən ancaq
Dörd fəsil yaşayır bəzən bir ürək?

Sabahkı havanı bilirik bu gün.
Ey insan,
Bununla demərəm öyün...

1965

MƏNİM AD GÜNLƏRİM

Bu gün ad günümdür... evdə hamı şən.
Ancaq fikirliyəm, kədərliyəm mən.

Gəncliyim ötəli, belə günlərdə
Anıb yoxuşumu töyşüyürəm mən.
Xəzan yarpaqları oynaşan yerdə
Necə üşüməyim?.. Üşüyürəm mən.

Ancaq... uşaqlıqda istərdim hər gün,
Bizim evimizdə məclis qurulsun.
Günlərin hamısı dönüb büsbütün
Məni sevindirən ad günüm olsun.

Atamın, anamın yeganəsiydim,
Arzusu, həvəsi, könül səsiydim.
Ömrün nə qəribə günləri vardı,
Mənim ad günlərim bayram olardı.
Mən nə biləydim ki, dəyişir insan,
Ad günün, şad günün olmur bir zaman.

Aldığım o gözəl oyuncaqları
Qaçıb göstərərdim dostlara bir-bir.
Hanı, hanı ömrün o şən çağları?
Gedən, a qardaşlar, bir daha gəlmir...
Həmən adamammı?... Yox, başqayam mən.
Özgə cür görünür bu aləm mənə.
Bir zaman könlümə sevinc gətirən
Ad günüm gətirir indi qəm mənə.

Deyirəm, yenə də ömrümdən bir il
Ötdü...
Ötən illər səfə düzülür.
Mənim ad günümdə indi mən deyil,
Mənim balalarım sevinib gülür.

Avqust, 1965

QORXU

Mənim sol əlimdə yanıq yeri var,
O, mənə töhfədir körpəliyimdən.
Odun odluğundan xəbərsiz vaxtlar,
Əlimi manqalda yandırmışam mən.
Mənə "cız!" – dedilər,
Ancaq qorxmadım.
Əlimi yandırıb tanıdım odu.

Mənim həyat ilə ilk tanışlığım,
Əlimi yandıran oddan başladı.

Oxşadı gözümü hələ uşaqkən
Ocağın al-əlvan alovu, közü.
Dünyaya gələli, bilmirəm nədən,
Nəyə vurulduqsa, yandırdı bizi...

Mən oddan qorxmadım yanana qədər;
Mən qorxu bilmədim qanana qədər.
Elə ki, yandım
Odla oynamaqdan qorxdum, dayandım.
Başlandı qorxu –
Başlandı ehtiyat –
Başlandı həyat...

İyul, 1966, Şəki

ANAM TƏZƏDƏN BÖYÜYÜR

Qızım Gülzara

Anam, öz adını qızıma verdi,
Anam, nəvəsini çox istəyərdi.

Körpə nəvəsini qoyub yerində
Anam arxayınca dünyadan getdi.
Qızımın qıyqacı nəzərlərində
Anamı görürəm, anamı indi.

Nəvə nənəsinə oxşayır eynən,
Böyüyür, ucalır ilbəil qızım.
Təzədən böyüyür, anam təzədən,
Anamın özüdür elə bil, qızım.
Həyat öz qəribə sirlərindən

Bizə əlvan-əlvan möcüz göstərir.
Qızımı adıyla çağırmıram mən
"Ay anam" deyirəm, o da hay verir.

O mənim anamdır, o mənim anam,
Ancaq bir fərqi var, bunu danmaram:
Bir vaxt anam mənə can-can deyərdi,
İndi mən anama can-can deyirəm.
Bir vaxt anam məni çox istəyərdi,
İndi mən "anamı" çox istəyirəm.

Sentyabr, 1966

HƏSRƏT

Yoxsan...
Qəribə işdir
Danışıram yenə mən
Əlim qələm də tutur,
Durub şeir yazıram
Səhər-səhər sənə mən.

Sən həm mənim kədərim,
Sən həm də şadlığımsan.
Sən mənim əsarətim,
Həm də azadlığımsan...
Yoxsan...
Qəribə işdir
Qəlbim,
hissim,
düşüncəm,
Axı, oyaqdır mənim
Necə nəfəs alıram –
Havam ki, yoxdur mənim?

Yoxsan...
Sən mənim üçün
Xoş arzularsan, demək,
Baharda qarsan, demək,
Qışda baharsan, demək.
Yoxsan...
sən mənim üçün
Daha çox varsan, demək.

Sevilənlər, sevənlər
Ayrılığın, həsrətin
Əlindən dad çəkdi, dad.
Eşq – həsrətin anası,
Həsrət – aşiqə ustad.
Ömrün boyu qaçmısan
Arxanca yüyürmüşəm.
Səndə imkansızlığı,
Uzaqlığı görmüşəm.

Həsrət öyrətdi mənə
Hardayam...
indi hardan
Hara gedəcəyəm mən.
Nəydim,
indi nəyəm mən?

Həsrət öyrətdi, həsrət
Vaxtın hardan başlayıb,
Haraya vardığını.
Həsrət öyrətdi
mənlə
Başlayan bir həyatın
Səndə qurtardığını.

Həsrətinin gözüylə
Mən dünyaya baxanda,
Gecələr gündüz olur.
Həsrətinin zülməti
Gözlərimə nur verir,
İdrakıma göz olur.
Həsrətim başlananda
Başlanır bu cahana
Sonsuz heyrətim mənim.
İdrakımla yaşıddır
Eşqim, həsrətim mənim...

Böyük bir şair dünən
Vaxtın qısalığından
Dad çəkib "uzan!" – dedi,
Anın qısa ömrünü
O, uzatmaq istədi.

"Ey an, sən uzan" deyib
Vaxta böhtan yazdı o.
Əgər həsrət çəksəydi
Ana yalvarmazdı o.

Onda o bilərdi ki,
Həsrətin bircə anı
Bərabərdir illərə.
Bircə günlük ayrılıq
Neçə illik vüsaldan
Uzun olur yüz kərə.
Bircə günlük ayrılıq
Bir ömürlə tən olur;
Həsrət vaxtı uzadan,
Səbri gödəldən olur.
Həsrətin – məhək daşım,

Həsrətin – yol yoldaşım.
Yanır başım üstündə
O, ulduz tək, o, gün tək.
Mərdanədir, böyükdür
Həsrətin də özün tək...

İyul, 1964, Kislovodsk

ÖZÜNDƏN AYRILA BİLMƏYƏCƏKSƏN

Deyirsən, dərd oldu bizə eşqimiz,
Sarsıntı, üzüntü yetməzmi artıq?
Ürəkcə nə qədər bir olsaq da biz
Həyat yollarında ayrılmalıyıq.

Ayrılmaq! Söz asan, əməl çətindir,
Sevmək! Bu ki, sənin öz fitrətindir.
Necə ayırasan odu ürəkdən,
İstini atəşdən, ətri çiçəkdən?..

Mənim öz istəyim, mənim öz kamım –
Sənin öz istəyin, sənin öz kamın.
Sənin ad günündür mənim bayramım,
Mənim ad günümdür sənin bayramın.
Biri-birimizçün doğulmuşuq biz.
Birdir hər eşqimiz, hər istəyimiz.

Hərdənbir darıxıb gəzməyə çıxsan,
Ayağını öpən göy otlar mənəm.
Başını qaldırıb göylərə baxsan,
Kövrəlib qaralan buludlar mənəm.
Demə ki, yanımca nə hərlənirsən?..
Mehvərin başına gərək hərlənəm.
Bəzən səbəbsiz də kədərlənirsən,

Səbəbi axtarma,
o səbəb mənəm!
Qəlbin çox ucalır, çox qanadlanır,
Ona zirvə mənəm,
Ona son mənəm.
Yata da bilmirsən uzun gecələr,
Gözlərindən qaçan o yuxun mənəm...
Hər kəsə tutmadın, axı, tən məni.
Sən də bu dünyada mənimçün təksən.
Sən qova bilərsən evindən məni,
Qəlbindən ki, qova bilməyəcəksən.
Sənin hər dəqiqən, hər anın mənəm,
Axı, adın mənəm, ünvanın mənəm.

Qapını üzümə bağlasan da sən,
Özündən ayrıla bilməyəcəksən...
Sən ki, sən deyilsən,
Sən də bil, mənəm.
Yaşını çoxaldan, səni ucaldan,
Gün mənəm,
Ay mənəm,
Gülüm, il mənəm!..

1965

UNUTDURDUN SƏN MƏNƏ

Xəyalınla, fikrinlə
Həmişə sərxoşam mən.
Unutmuşam özümü,
Dönüb sən olmuşam mən.
Öz könlümün səsindən,
Öz könlümə ün düşüb
Dağlar başı qaralıb
Dərələrə gün düşüb,

Niyə belədir, gülüm,
Sən özün bilməlisən,
Fikrimə düyün düşüb!
Həqiqət, – güman olub
Xəyalım – duman olub
Gah düzəndə sürünür
Gah təpədə görünür.
İlişir kolluqlara
Fikirlər – qırıq-qırıq,
Arzular – para-para,
Ümidlər pərən-pərən,
Qəsəmlər – yalan olub
An var dönüb il olub,
İl var dönüb an olub.
Həsrətim, bu anları,
günləri,
danır mənim.
Saatımın əqrəbi
Yalnız sənin başına
Dönüb dolanır mənim.
Sənə könül verəli,
Mənim üçün bu köhnə
vaxt ölçüsü pozuldu,
Sənin məhəbbətinin
Dərəcəsi, ölçüsü
Mənim vaxt ölçüm oldu.
Bir şaxtalı qışdayam,
Mənə əlvan baharı
Unutduran sən oldun.
Ancaq hər gün baharı
Məndən soran sən oldun!
Ümmanam,
sahilimi
Unutdurdun sən mənə.

Qarlı dağam,
selimi
Unutdurdun sən mənə.
Gecəyəm,
gündüzümü
Unutdurdun sən mənə
İnsanam, öz-özümü
Unutdurdun sən mənə
Bu dünyada hər şeyi
Unutdurub sən mənə
Çəkdirmisən göz dağı,
Əvəzində öyrətdin
Səni unutmamağı!..

1965

AZADLIQ

Azadlıq istəyirdin...
İndi məndən uzaqda
Azadsan, cismən azad.
İndi buyur, sevgilim,
Mən dustağam, sən azad!.
Beləmi?
İnanmıram.
Biz bir şəhərdə ikən,
Dəqiqəni, anını,
Sapa düzüb incitək,
İzləyirdim səni mən.

İndi məndən uzaqda
İzləmir heç kəs səni.
Ancaq, azad deyilsən,
İzləyir, öz köksündə
Aldığın nəfəs səni.

Orda pərəstişkarın
Bir deyil, min-min olsun.
Qorxmuram, yox, qorxmuram,
Mən yox, sənin öz hissin,
Sənin gözətçin olsun!

Sən sevən bir ürəyin
Özü boyda dağısan!
Mənim dustağım deyil,
Hissinin dustağısan,
Qəlbinin dustağısan.

İyul, 1966, Şəki

GÖR NECƏ GÜCLÜSƏN

I

Yatmaq istəyirəm...
sənsizliyimi

Yuxu dənizində batırım deyə.
Yuxumsa kölgəni öz kölgəm kimi
İzləyir, qısqanıb səni hər şeyə.
Yuxum qaçaq düşüb məndən yan gəzir,
Yuxum küçələrdə sərgərdan gəzir.
Həsrətin asılıb kirpiklərimdən,
Yuxum da gəlmir ki, heç olmasa mən,
İtirim, batırım səni yuxumda.
Məndən vəfalıymış sənə yuxum da,
Yuxum qaçaq düşüb yatammıram mən,
Yuxum qorxub qaçıb fikirlərimdən...

II

Gəzmək istəyirəm...
sənsizliyimi
Yollarda itirim, unudum tamam.
Hara gedirəmsə, xatirən kimi
Ağır bir yük ilə qarşılaşıram.
Səni itirmişəm,
neyləyim ancaq
Hər zaman, hər yerdə
görünür yerin.
Yox, dözə bilmirəm, dərd ondadır ki,
Özündən ağırdır xatirələrin.
Şirin xatirələr bir tikan təki
Yollara səpilib dəstəbədəstə.
Xatirən tikandır cızır qəlbimi,
Yoxluğun duz səpir yaramın üstə.
Yaddaşım elə bir günəş ki, gün ki,
Dünəni nur kimi görürəm aydın.
Deyirəm, yaddaşım elə ölsün ki,
Mənə dünənimi xatırlatmasın!

III

Gülmək istəyirəm... ürəyimdəki
Hönkürtü səsini batırmaq üçün.
Bilmirdim,
Məhəbbət bir cəllad təki
Mənim gülüşümü öldürmüş bütün.
Yandırdı könlümü bu soyuqluğun,
Var ikən, sağ ikən yox olmuşam mən.
Gör necə güclüsən, sənin yoxluğun,
Mənim varlığımı aldı əlimdən...

Başımda tufan var, könlümdə çovğun,
Arzu da, fikir də qaldı yarıda.
Gör necə güclüsən, sənin yoxluğun
Mənə ögey etdi doğmaları da.

Fərəhim, sevincim dünəndə qaldı,
Dərdimdə, qəmimdə yaşarsan mənim.
Yoxluğun gör necə qələbə çaldı,
Bu günüm ölüdür, yaşar dünənim!
Çaldım öz könlümü ayrı simdə mən;
İlişib qalmışam dünənimdə mən.

Sentyabr, 1967

BAŞ

Amerika alimi R.Uayt meymunun beynini bədəndən ayrı uzun müddət yaşada bilir. Bu məsələ ilə əlaqədar beynin köçürülməsi problemi üzrə dünya filosofları arasında böyük mübahisələr gedir.

Qəribə aləmdir... zəmanəmizdə
İdrak təbiətlə yarışa girmiş...
Böyrək də,
ürək də,
qulaq da,
göz də
Bədəndən bədənə köçürülərmiş...

Bir maşın sahibi gərək olanda
Sınan hissələri alır dükandan.
Deyirəm, insanın əzaları da
Aptekdə satıldı bəlkə bir zaman.

Azmıdır insanın məgər dərd-səri?
Bu da bəşər üçün təzə təhlükə!
Hazır fikirləri, düşüncələri
Başlara doldurub satdılar bəlkə?

Böyrəyi, ürəyi dəyişmək asan.
Bəs başı?
Bu yerdə bir qədər dayan!
Hər şeyi dəyişir, axı, baş, beyin.
Baş özü, başları necə dəyişsin?
İnsanın adına, şərəf-şanına,
Deyirəm, gəlməzmi bundan bir ləkə?
Bir nadan güvənib öz imkanına
Dahinin başına göz dikdi bəlkə?
Ey həkim, gücünə inansan da sən,
Bu yükü boynuna heç götürmə, gəl.
Ayırıb insanı öz aləmindən,
Ana təbiətlə bəhsə girmə, gəl!
Həkim, təbiəti gəl hakim sayaq,
Hifz edək bir səsin yüz ahəngini;
Gücümüz çatsa da
gərək pozmayaq
Bəzən təbiətin öz ahəngini.

Dahinin beyninə qan sızdı birdən
Cahil də qəzaya düşdü həmən gün.
Cahilin başını öz bədənindən
Ayırdıq dahini yaşatmaq üçün!

Nə deyək?
Kim öldü?
Dahi, ya cahil?
Hansına yas tutsun qohum, qardaşı?
Dirilən kim oldu?

Bu ki, sirr deyil,
Dahinin bədəni, cahilin başı.

Dahi, yaşayacaq bir nadan kimi...
Kimi aldadırıq burda, biz kimi?
Cahilin başıyla, düşüncəsilə
Yaşayan o dahi, yenə dahimi?

Hanı o əvvəlki əqidə, məslək?
Əgər fikri yoxsa, özü sağmıdır?
Yaşamaq xətrinə fikri dəyişmək –
Məsləki dəyişmək yaşamaqmıdır?..

1968

İKİ KOR

Bir kor tanıyıram, gözü korsa da,
özü kor deyil.
Bəzən qəm odunda qovrulursa da,
Ağlına, hissinə o nankor deyil.
Gecəli-gündüzlü yazır, oxuyur.
Ağlının gözüylə o görür, duyur.

Ancaq... biri də var... kor deyilsə də,
gözü görməyir.
Dostu göz önündə öldürülsə də,
görmədim deyir...
Yaxşıya ortaqdır, yamanı görmür,
O, saata baxır, zamanı görmür.
Fikrini, hissini ucadan deməz,
Bəzən gördüyünü görmək istəməz.

Gözləri görməyən kor deyil hələ,
Görmək istəməyən kordur, deyərdim.
Belə müqəvvaya, belə cahilə
Həyatın özü də gordur deyərdim.

1968

SƏHƏNDƏ MƏKTUB

Səhənd, sözlərindən odlar töküldü,
Oxuduq şeirini göz yaşlarıyla.
Ata malı kimi yarıya böldü,
Qardaş eyni dərdi qardaşlarıyla.

Yazdın, eyni dərdi yaşayaq bahəm,
Qardaş qardaşıyla həmfikir olar.
Sənin düşüncəndi mənim düşüncəm,
Dərdlər bir olanda fikir bir olar.

O acı fəryadlar, şirin nəfəslər
Mənim də könlümün ahı, naləsi!
Qardaşım, Təbrizdən gələn bu səslər
Bakının səsidir, Bakının səsi!

Deyirsən, yarıya bölünənlərin,
Dərdini dünyada bir bilməyən yox.
Biz də bölünmüşük, ancaq bu dərdi
Uca kürsülərdən heç bir deyən yox.

Yıxılar kənardan itələnənlər.
Təkanı yaradaq özümüz gərək.
Yenə də "olarıq həmən xak" əgər,
Biz öz içimizdən itələnməsək.

Xırda təpələri sellər oyanda,
Əsər bu həmləyə dağlar da zağ-zağ.
Biz də dərdimizə ağlamayanda,
Bizim yerimizə kim ağlayacaq?

Günahkar tutmayaq burda heç kəsi,
Dərilib ayrıldıq biz qonça-qonça.
Ana da süd vermir, ciyərparəsi
Nalələr qoparıb ağlamayınca.

Deyirsən, salama cavab almadın,
Bulud toqquşmasa, buluda neylər?
Mənim öz adımdır sənin öz adın,
Odu su keçirər, od oda neylər?

Mən dizimə döyüb zar-zar ağladım,
Çöllər göz yaşımdan gölmə-gölmədi.
Qranit dağları dələn fəryadım,
Tək Araz çayını aşa bilmədi.

Yüz il, yüz əlli il ağladıq əbəs,
Ancaq ərimədi sinə dağları.
Qardaş, bilmədik ki, göz yaşı dəlməz,
Arzunun önündə duran dağları...

Dünyada hər şeyin bütövü gözəl,
Yarımçıq səadət düşmənin olsun.
Mənə qəm versən də, yarı bölmə, gəl,
Sevinc verirsənsə... qoy yəqin olsun.

Hamlet doğru deyib: "Ya öl, ya da ol!"
Ey!... Yarı canınla demə ki, varsan.
Qəmin də tamını istəyən oğul,
Bəs yarı Vətəndə necə yaşarsan?

Hanı?...
Sormadılar – bəs yarı canın?
Niyə ucaltmırsan üsyan səsini?
Hələ görməmişik, Azərbaycanın
Bir yerdə, biz bütöv xəritəsini...

1968

SANDIQDAN ƏSƏRLƏR

Müəllifdən

Sovetlər İttifaqı dağılandan sonra arxivimi araşdırdım, gənclik illərindən yazmağa başladığım gündəliklərimi, çap olunmamış şeirlərimi varaqladım, keçdiyim yolları dəftər səhifələrində yenidən keçib həm fərəhləndim, həm də təəssüfləndim. Ona görə fərəhləndim ki, gənclik illərimdə də həqiqəti görmüş, ağı qaradan seçə bilmiş, duyğularımı, fikirlərimi qəlbimdə gizlətməmiş, müəyyən qədər yazıya köçürə bilmişəm. Ona görə təəssüfləndim ki, ömür yollarında büdrəmələrim də olmuş, duyğu və fikirlərimi açıq-aşkar və tam dəqiqliyi ilə yaza bilməmiş, zamanın tufanlarından ehtiyat etdiyim hallar da olmuşdur.

O dəhşətli illərdə çapa verə bilmədiyim, yalnız yazmaqla təsəlli tapdığım bu şeirlər qəlbimin fəryadı – yəni, o zamanın ağrı, acılarıdır.

NAĞIL – HƏYAT

Anam olsan belə, ay anam, xeyli,
Səndən gileyliyəm, səndən gileyli...
Sən duymaq düşünmək öyrətdin mənə,
Duyub-düşünməkdən azad olaydım.

Danışmaq öyrətdin sən öz körpənə
Nola, mən anadan lal doğulaydım.

Dilini bir ilə öyrəndim... nahaq!..
Öz dilim özümə kəsilib yağı.

Bütün ömrüm boyu çalışdım, ancaq
Öyrənə bilmədim danışmamağı...
Başıma bəladır mənim öz dilim,
Dənizəm üzümə durub sahilim.

Yerimək öyrətdin tutub əlimdən,
Dolaşdım aranı, dolaşdım dağı.
Balana yerimək öyrədincə sən,
Gərək öyrədəydin yıxılmamağı...

Fikirlər yığılır beynimdə qat-qat,
Cavablar-qorxulu, suallar-yasaq.
Həyatı qanana ögeydir həyat,
Onu qanmayana doğmadır ancaq.

Məni incidirlər bəzən qəsd ilə,
Ertəsi hər şeyi unuduram mən.
Girəvə düşəndə zalimə belə
Zülm edib, kam almaq gəlmir əlimdən.

Ana, quduzlaşır həyat, ilbəil,
Dalayır puç olan ümidlərimi.
Niyə isti deyil, mehriban deyil
Bu amansız həyat qucağın kimi?..

Hardasan, ay ana, bir gəl, mən yenə
Bəlalı başımı qoyum dizinə.
Mənə nağıl danış, dayansın anlar,
Görüm, nağıldakı o qəhrəmanlar
Cütbaşlı divləri nə təhər yıxır,
Nə təhər gizlənib, tilsimdən çıxır.

Bir danış, hardadır, görüm, səadət?
Bizim yurdumuza o niyə gəlməz?
Danış, danış görüm, Məlik Məhəmməd
Zülmətdən işığa necə çıxdı bəs?

Danışma ay anam, danışma, kiri,
Beynimə batmayır bu əfsanələr.
Divlər görmüşəm ki, nağıl divləri,
Onların yanında toyuğa bənzər.

Nadanlar görmüşəm, öz yolundakı
Dikə eniş deyir, düzə dik deyir.
Tülkülər görmüşəm, öz qolundakı
Dəmir zəncirlərə bilərzik deyir.

Atasını söyən, yada baş əyən
Rəhbərlər görmüşəm, qəddar, amansız.
Tikana gül deyən, gülə kol deyən
Qarılar görmüşəm dinsiz, imansız.

Quldurlar görmüşəm, özgə yer deyil,
Yurdunu talayıb asudə yatmış.
Tacirlər görmüşəm, simuzər deyil
"Malades" sözünə Vətəni satmış.

Dünyanı biləndən, duyandan bəri
Mənim gözlərimdən düşüb həyat da.
Nağılda gördüyüm qorxunc şeyləri,
Həyatda görmüşəm, anam, həyatda.

Yanvar, 1964 – may, 1965

TORPAQDAN PAY OLMAZ

Biz yaxın olmuşuq, qədimdən yaxın.
O qədər yaxın ki, bizim dağların,
Kölgəsi düşübdür sizin dağlara,
Mən əfsus demirəm ötən çağlara.
Baxşının kamanı bizi ağladıb,
Cabbarın cəh-cəhi sizi ağladıb.

Babam, baban ilə dost olub, ancaq
Dostluqdan bir kəlmə danışmazdılar.
Biri-birimizə diş qıcırdaraq
Dostluqdan deyirik indi o ki, var.
Nədir bu eyhamlar, bu atmacalar,
Yenə şeytan girib araya bəlkə?
Deyirəm, kənardan barmaq basan var,
Köz tutan o köhnə yaraya bəlkə?

Torpaq istəyirsən sən indi məndən,
Bu necə qardaşlıq, yoldaşlıq oldu?
Özgə torpağına göz dikdiyindən
Sənin neçə dəfə gözün oyuldu?
Sənə dərs olmadı yenə də bunlar,
Yoxsa, tökülməli artıq qanın var?

Mənə üzəvarı "qardaş" deyirsən,
Ancaq altdan-altdan iynələyirsən.
Əyyami-qədimdən sadədiləm mən
Baş açа bilmədim, hiylələrindən.

Əgər düşmənsənsə... hiylədən əl çək
Açıqca davalıq məramın olsun.

Mənimlə min ildir kəsdiyin çörək,
Aldığın kirvəlik haramın olsun!

Hardan sənin oldu bizim Qarabağ?
Adı, sahibini demirmi aşkar?
Xoşluqla verməzlər torpağı, ancaq
Qanla möhürləyib, zorla alarlar.

Hələ göz dikmisən Naxçıvana da
Təbriz də, Sərab da bəlkə səninmiş?
Vartazar yaşayan bütün ölkələr –
Yəni, bütün dünya öz vətəninmiş?..

Günahım nədir ki, qanqal kimi sən
Bütün yer üzünə səpələnmisən?..

Arxını selimə gəl bənd eləmə,
Bu, qan davasıdır, bu qan davası.
Xəbərimizyoxdur... yamaqmış, demə,
Sərçə yuvasına, qartal yuvası?!

Yatır bu torpaqda əcdadım mənim,
Şərəfim,
Şöhrətim öz adım mənim...
Cəddimin yatdığı ulu torpağı,
Sinəsi sərvətlə dolu torpağı,
Mən sənə pay verim?
Mən qul, sən ərsən?
Sən məni bu qədər axmaq bilirsən?

İsa bulağının zümzüməsini,
Cabbarın,
Seyidin,
Xanın səsini,

Dalğalı Qarabağ şikəstəsini,
Babək türbəsini necə pay verim?

Oğuz nəslindənəm, ər oğlu ərəm,
Özgə bağçasından bir gül dərmərəm,
Doğma torpağımdan çərək vermərəm,
Əgər dardasansa sənə "hay" verim!

"Dığalar" yenə də yolunu azmış,
Məndən yuxarıya şikayət yazmış.
Neçə yol vermişəm, görünür, azmış,
İstəyir mən ona yenə pay verim!

Oktyabr, 1966.

HÖRÜMÇƏK TOR BAĞLADI

Tariximiz danıldı,
Uydurma tarix ilə kimliyimiz anıldı –
Öz kökünü bilməyən gözü küllü bu millət
Zamanın yollarında hər addımda yanıldı.
Uydurma tarix bizi anamızdan ayırıb
Yad anadan alınmış bələkdə qundaqladı,
Təməlimiz laxladı.
Bu xalqın tarixini düz bildirən, düz yazan
Tarix kitablarında hörümçək tor bağladı.

Kimə deyək dərdini bu dövranın, bu
günün?
Vəzifəyə sümsünən
Vəzifə kürsüsünün
Birinci pilləsində mərkəzdən noxtalandı.
Kişiliyi vardısa, bu anda axtalandı...
Ürəkdəki cəsarət,
mərdanəlik,

dəyanət
talandı,
tapdalandı.
Məğrur keçmişimizdən üzüldü əllərimiz
Şərəf bildik özgəyə qul olmağı, yoxsa, biz?
Hər cürə zülmü udduq.
Köləliyi qazanıb, ağalığı unutduq.
Vicdan, düzlük, həqiqət sürgün oldu bu
yerdən.
Yaltaqlıq və xəyanət silahını yağladı.
Cəsarət qılıncının ağzı düşdü kəsərdən,
Qəbzəsində, qınında hörümçək tor bağladı.

Dilimiz yasaq oldu.
Ruhumuz qəlbimizdə əbədi dustaq oldu.
Ruhsuz yaşadıqca biz
Vicdanımız, eşqimiz
Üzümüzə ağ oldu.
Biz beləcə yaşadıq, yaşamadıq, süründük,
Əməlimizdə deyil, sözümüzdə göründük.
Ruhumuz qan ağladı,
Məscid qapılarında hörümçək tor bağladı.

Həqiqət dilə gəldi.
Dildə ilişdi, qaldı.
Həqiqətin üstünə yalanlar kölgə saldı.
Vuruşmadıq, barışdıq
Biz "azadlıq" adlanan bir uydurma nağılla.
Ölən düşüncələrə qəlbimiz yas saxladı.
Həqiqəti deməkdən elə qorxduq...
Ağılla
Həqiqət arasında hörümçək tor bağladı.

Oktyabr, 1968

ŞAİRLƏR

Şairə heykəllər qoyulan zaman,
Deyirlər, ona bax, nə bəxtəvərmiş.
Ancaq demirlər ki, mən yaşayırkən,
O öz sinəsini masaya gərmiş.

O keçib canından ömrə qıyanda
Sənin nəşələrin aşıb-daşırdı.
O ki yaşamırdı, sən yaşayanda
Sənin yerinə də o alışırdı.

Dəryanın dibindən çıxmamış hələ
Tanımaq olmayır mərcanı, dürrü.
Sən həsəd aparma o daş heykələ
Ömürdən sonradır onların ömrü.

Şairlər, şairlər, bircə söz üstə
Sübhədək yaxdınız ürəyinizi.
Sizi görmədilər heç vaxt diz üstə –
Qəribə yaradıb təbiət sizi!

Hamıdan gec yatıb qalxdınız erkən
Ağardı dan yeri gözlərinizdə.
Min əzab çəkdiniz siz yaşayırkən
Ölüb yaşadınız sözlərinizdə.

Zamandan-zamana əqidənizi
Keçirib yaşatdı nəğmələriniz;
Adi bir uşaq da aldadar sizi –
Xəyal dünyasında yaşadınız siz.

Bir kam almadınız siz ki, doyunca,
Sizə xoşbəxt deyən tanımır sizi.

Heç kəs çəkə bilməz ömrü boyunca
Sizin bircə gündə çəkdiyinizi.

Dünyanın əlindən dad çəkən zaman
Xəyal kölgəsində daldalandınız.
Şahların, çarların saraylarından
Alçaq daxmaları uca sandınız.

Ölümdən, sürgündən qorxmayıb əsla
Yanıb özünüzü oda atdınız.
Ürək qanınızla, amalınızla
Zindanlar küncündə söz yaratdınız.

Təqiblə gəldiniz daim döş-döşə
Yolunuz haqq yolu, həqiqət yolu.
Bu da qəribədir, sizin həmişə
Cibiniz boş oldu, qəlbiniz dolu.

Sözünüz, qəsdiniz çıxdı sınaqdan
Ötüb haqq nəğməsi, haqq oldunuz siz.
Yaşamaq naminə keçməyib haqqdan,
"Ənəl-həqq" söyləyib soyuldunuz siz.

Lağ edib güləndə haqqa yalanlar,
Siz də zəmanəyə, dövrə güldünüz.
Gah gizli-xəlvəti, gah açıq-aşkar,
Gah da duellərdə öldürüldünüz.

Dünyanı gəzdiniz siz oymaq-oymaq,
Fərəhin içində qəm gördünüz siz.
Adi bir milçəyə qıymayıb, ancaq
Bəzən özünüzü öldürdünüz siz.

Sizindir dünyanın sinə dağları
Bu dağlar içində kama çatdınız.
Siz hey yana-yana, qaranlıqları
Könül atəşilə işıqlatdınız.

Zalim zülmündə də naşıdır, naşı,
Axı, əzabdan da zövq aldınız siz.
Zalimlər, cahillər hər addımbaşı
Sizi alçaltdıqca ucaldınız siz.

Sanmayın özümü sanıram yəqin
Belə şairlərin cərgəsində... Yox!
Axı, mənim kimi şairciklərin
İlhamı az olur, iddiası çox!

Şair – fikirlərin çırpınan seli,
Şair – həqiqətin müğənnisidir.
Şair – təbiətin danışan dili,
Şair – cəmiyyətin üsyan səsidir.

Şair – zəmanənin, əsrin vicdanı,
Şair – tarixlərin şərəfi, şanı,
Şair – bu dünyaya zamanın sözü,
Şair – həqiqətin, haqqın güzgüsü!

Bütün millətləri siz anlarsınız –
Sevən də sizsiniz qəlbən onları.
Vətənə gəlincə, məcnunlarsınız –
Vətən məcnunları, el məcnunları.

Məcnunluq gözəldir! "Bu nədir?" – deyə
Hər cahil anlamaz bu ülviyyəti,
Yazıq o kəsə ki, yoxdur bir şeyə
Nə sonsuz nifrəti, nə məhəbbəti!

Yoxdur beləsinin amalı, yolu,
Qəlbi ehtiyatdan çilik-çilikdir.
Düşmənin nifrəti deyil qorxulu,
Dostun soyuqluğu düşmənçilikdir.

Bəzən yıxıldınız ancaq çəlikdən,
Kömək ummadınız ağır gündə də.
Həmişə qaçdınız biganəlikdən,
Ürəklə öldünüz siz öləndə də.

Noyabr, 1969

ELM-ƏXLAQ

"Təbiət üzərindəki qələbələrimizlə çox da öyünməyək. Hər bir belə qələbə üçün təbiət bizdən intiqam alır"

F.Engels

Cürbəcür adlarla adlandırmışıq
Ötən hər əyyamı, ötən hər əsri.
Köhnə hüdudları çoxdan qırmışıq,
Əsrimiz elm əsri, kəşflər əsri!

Hüdudlar içində özünü dandı,
Elm – yüz illərlə yatdı beşikdə.
Elm – ayaq açıb dolanır indi,
Havada, torpaqda, evdə, eşikdə!..
Dağların çəməni, bağların barı,
Çatışmır.
Kimyaya meydan vermişik.
İpək corabları, yun paltarları
Sintetik şeylərə dəyişdirmişik.

Bəlkə torpağın da, bəlkə yerin də
Qalmayıb o köhnə gücü-qüvvəti?
Elə bil, elə bil meyvələrin də
Dəyişib əvvəlki dadı, ləzzəti.

Təbii nemətlər çatışmır, nədir?
Təbiət zəngindir, o, yoxsul deyil;
Təbiət insana səxavətlidir,
Ancaq qul deyil.

O ki, öz varını insana vermiş
Ona qəsd eləmək cinayət olar.
Bu gün təbiətlə yarışa girmiş
Kimyəvi zavodlar, laboratoriyalar.

Elm hökm eləyir indi hər yerə,
Zülmətin bağrına işıq nəqş edir.
Sonsuz qadınlara, ya ərsizlərə
Naməlum kişidən övlad bəxş edir.

Elm, özünəmi yoxsa... güvəndi?
Axı, bu qüdrəti biz verdik ona.
Əqlin yaratdığı elmlər indi
Düşübdür xaliqlik iddiasına...

Dava-dərman ilə doğulan kəsin,
Anası məlumdur, atasıysa yad.
Atanı... övladın əslini yəqin,
Nə ana biləcək, nə də ki, övlad.

Fərari olmurmu bəs əsl ata?
Bəs saxta atanın nədir günahı?

Uşaq anasına doğma olsa da,
Qondarma ataya ögeydir, axı.

Daha bir cinayət, daha bir xata!
Bu da bəşər üçün böyük bir ləkə –
Doğma övladından xəbərsiz ata
Bir vaxt öz qızına ər oldu bəlkə?
Səni danlamırmı içində bir səs –
Demirmi, ay həkim, cəhdin nahaqdır?
Övlad öz kökünü tanımırsa bəs,
De hansı kök üstə boy atacaqdır?

Kökünü bilməyən özünü bilməz,
Bizə nə gətirir bu niyyət, həkim?
Onda bir-birinə qarışmazmı bəs
Fərdiyyət,
şəxsiyyət,
milliyyət,
həkim?

Bu nədir? Gerimi qalmışam yoxsa?
Mən ki, güvənmişəm hər zaman elmə.
Əxlaqa, qaydaya toxunandasa
Mən üsyan edirəm, mən üsyan, elmə...

Təbiət həmişə təzədir, təzə,
Biz üz çevirməyək bu təzəlikdən.
Elm əxlaq ilə durub üz-üzə
İndi biz hansına haqq verək, görən?

Axı, bu tədbirlər bizi çaşdırır,
Gəlin uca tutaq əqidəmizi,
Həkim, təbiətdən uzaqlaşdırır
Qondarma davalar, dərmanlar bizi.

Bir şey ki, saxtadır – ondan nə fayda –
Saxtanın nə yönü, nə etibarı;
Əynimiz, başımız kimyalaşsa da,
Mayamız, kökümüz saf qalsın barı.
Anadır, deməli güclüdür torpaq,
Ondadır əlacı, axı, hər şeyin.
Gəlin, təbiətin özündən alaq
Dava-dərmanını hər şikəstliyin.

May, 1969

BABAM, ATAM, MƏN

"Apollon-8" gəmisi ilə kosmik səyahətim məni bir daha inandırdı ki, biz hamımız balaca bir planetdə yaşayırıq
F.Borman

Babam həyatında yalnız bir kərə
Faytonla Şəkidən Ağdaşa getmiş.
O baxıb uzanan dar gədiklərə,
təəccüb etmiş.
– Bu yerlər hamısı padşahındır?
Deyə, faytonçudan o xəbər almış.
Bəlkə də, dünyaya
o miskin, fağır
Babamın verdiyi bu, ilk sualmış.
Bir dünya bilirdi Şəkini babam,
bu yaşa qədər.
Onun gözlərində dünya bu gündən
Böyüdü, uzandı Ağdaşa qədər.

Səksən verst dağ yolu! Zarafat deyil.
Ən uzun, ən böyük yoldu babamçın.

Şəkidən Ağdaşa uzanan bu yol,
Böyüklük ölçüsü oldu babamçın.

Atamın qəribə adəti vardı:
Məni qollarında atıb-tutardı.
Həm də soruşardı: – De, görək məni,
Nə boyda sevirsən?
Deyərdim: – Səni
Lap bu dünya boyda istəyirəm mən.
Sevgimin böyüklük dərəcəsindən
Atam xoşlanardı.
O, uzun-uzun
Bu sözə gülərdi...
Axı, atamçün
Dünya, böyüklüyün son ölçüsüydü,
Atamın dünyası, dünya özüydü.

Mənimçün?
(Qorxuram xəyalım aza).
Kosmosdan baxıram mən dünyamıza.
Deyirəm: – Nə qədər kiçikmiş cahan.
Axı, mənim dünyam, çıxıb dünyadan.

1971

TƏLATÜM

Tələtümsüz ürəkdə
Qan da sırsıra bağlar.
Tələtümdən yaranıb
Deyərdim sıra dağlar.
Su coşmasa,
daşmasa,
Qranit qayalarla
üz-üzə toqquşmasa

Təzələnməz,
durulmaz.
Duyğu dənizlərində
Çağlayan ürəklərə
Sinələr də dar olmaz...
Ömür burulğanından
Saxlamasın qoy məni
Anamın
qapımızda
yandırdığı üzərlik.
Mənim xoşbəxtliyimçin
Mənə gərək deyildir
Dəryaca bəxtəvərlik.
Həyəcansız
dar gəlir
Mənə köksün qəfəsi.
İnsan nəfəsi verin, mənə
İnsan nəfəsi.
Neyləyirəm nəfəssiz
Sıra-sıra düzülmüş
Rəqəmi,
ədədi mən?
İstəmirəm, a qardaş,
Yüz-yüz yalan vədi mən...
Mənə rəngsiz, boyasız
Bircə doğru söz verin.
Min gecəni neylirəm,
Mənə hərəkət dolu
Min səsli, min duyğulu
Təkcə bir gündüz verin!

Yüz-yüz yalvarışlara,
Min-min təmənnalara
Dəyişmərəm

ürəkdən
Gələn səsi, səmri mən.
İstəmirəm yüz illik
İzsiz keçən ömrü mən.
Mənə
Həyəcan dolu
yalnız bircə gün verin.
Yüz ulduz sizin olsun,
Mənə bircə gün verin!
Hər şeyi bütün verin!

Zirvələrin başında
Zirvə kimi
tək olum!
Ağlayanda mən bulud,
Güləndə şimşək olum.

İyul, 1970

ŞƏKİ

"Özünüz şəkili olduğunuz halda, hələ
Şəkiyə bir şeir həsr etməmisiniz".
Bir məktubdan

Bir nəğmə qoşmadım hələ mən sənə,
Dağlar bunu mənə kəsir sanmasın.
Mən dedim, vurğunam Azərbaycana,
Deyirəm, heç zaman xırdalanmasın
Könlümdən ucalan bu avaz, bu səs.
Böyükdür, ucadır məsləkim mənim.
Bala anasına "sevirəm" deməz,
Mən də deməmişəm, a Şəkim, mənim.

Sən öz keçmişini daim qorudun,
Babamın şöhrəti yaşayır səndə.
Bu eşqə eşq olsun!
Dünənlə bu gün
Çiyin-çiyinədir küçələrində...

Mən sənə borcluyam öz balan kimi,
Çox da ki şeirimdə görünmür adın.
Mənim oxuduğum nəğmələrimi,
Mənim qulağıma sən pıçıldadın.

Şerimin mayası – bu qaynar nəfəs
Sənin öz çiçəyin, sənin öz barın.
Şerimdə dil açıb danışmırmı bəs,
Sənin bulaqların, göy çinarların?
Mən həm bakılıyam, həm lənkəranlı,
Gəncəli, qubalı, həm naxçıvanlı.
Şəkili, şirvanlı, qarabağlıyam,
Bütöv Vətənimə bütöv bağlıyam.
Mən sənin qoynunda gəldim cahana,
Məni bəxş elədin Azərbaycana.
Həmişə mən sənin həndəvərində
Üçan bir quşam.
Bir eldə doğulub
xoşbəxtəm ki, mən
Böyük bir Vətənə oğul olmuşam.

Noyabr, 1971

PİYADA – SƏRNİŞİN

(İKİ YOLÇU)

Baxdıq biz həmişə qabağa, önə.
Boylandı sabaha bu gündən illər.
Bir nəfər varmı ki, söyləsin mənə,
Necə gəlib keçdi ömründən illər?

Yayın bürküsündə, qışın qarında
Hamının qisməti bir olmur yəqin.
Ömrün əyri-üyrü dolaylarında
Kimi piyadadır, kimi sərnişin.

Piyada keçmişəm mən bu yolları,
Köməyi ummuşam ayaqlarımdan.
Qəlbimin oduyla şaxtanı, qarı
Əritdim, ömrümün ilk çağlarından.

Yanımdan maşınlar, qatarlar ötüb,
Mənə əl ediblər pəncərələrdən.
Onların başından yağış, qar ötüb
Göylərin altında islanmışam mən.

Sərnişin yol getdi, yoldan xəbərsiz,
Bilmədi bu yolda kələ-kötür var.
Ancaq piyadanın, xəbər – ətərsiz
Alnında iz açdı getdiyi yollar.

Yol özü apardı sərnişinləri,
Yolda nə iz qaldı, nə də toz oldu.
Ancaq piyadalar gördü dünyanı,
Sərnişin dünyadan xəbərsiz oldu.

Sürəti nə qədər yeyin olsa da,
Sərnişin mənzilə dolama çatdı.
Dağların başından aşdı piyada
Yolu kəsə getdi, yolu qısaltdı.

Yolu özü açan zirvədən keçər,
Yolu yolla gedən dağdan gen keçər.

Qovuşur ay aya, dolur il ilə
Mətləbi eynidir bu yarışın da.
Qəribə dünyadır,
sərnişin ilə
Piyada görüşür mənzil başında.

Ömür yollarında "rahat" gedənlər –
Zirvələr başına ucala bilməz.
Təkərlər üstündə diyirlənənər
Çatdığı mənzildə bənd ala bilməz.

Biri təkər üstə gətirildisə,
Birini gətirən ayaqlar oldu.
Biri bu mənzildə kirədar isə,
Biri bu mənzildə sahibkar oldu.

Avqust, 1972

HEYRƏT!

"Heyrət, ey büt!"
dedi dünyaya qələm
Aləmi bir seyrim yüz heyrətimdir.
Mən heyran olmasam yaza bilmərəm
Mənim nəğmələrim – öz heyrətimdir.

Bəzən deyirlər ki, dəyişib zaman
Hər şey adiləşib...
Nə sevinc, nə qəm!
Elə bir möcüzə tapılmaz,
insan,
Ona heyrətlənə...
Heyrətlənmirəm!
Əgər belədirsə, küsmə zamandan.
Qəlbinə yaxşı bax!
Qəlbin çox soyuq!
Heyrət qurtarıbsa, demək, cahandan
Gözəllik köçübdür, xəbərimiz yox!..

Görə bilmirsənsə gözəllikləri,
Bu aləm sənincün günahkar olur?
Gözü buz bağlayan bulaqlar kimi,
Soyuq adamın da qəlbi kor olur.

Göylər damar-damar,
Yer lağım-lağım...
Bu heyrət, bu sual dindirib məni.
Hələ körpəlikdən bu heyranlığım,
Sual köhləninə mindirib məni.

Mən öz heyrətimin çəmənliyindən,
Cavablar axtardım, suallar dərdim.
Heyran qalmasaydım bu dünyaya mən,
Heyrətsiz halıma heyrətlənərdim.

Heyranam açılıb hey varaq-varaq
Saçılan ləçəyin min-min rənginə.
Siz deyin, mümkünmü heyran qalmamaq,
Ahəngsiz dünyanın öz ahənginə?..

Hansını söyləyim?
Hansını sayım?
Dünya başdan-başa min sirr, möcüzə.
Siz deyin, mən necə heyran qalmayım,
Yerində deyilən gözəl bir sözə?..
Heyranam həmişə yanan könlümə,
Alovu şeirimdir, külü görünmür.
Heyranam toxuma, heyranam tuma,
İçini görürəm, çölü görünmür.
Otun pıçıltısı, küləyin ətri,
Torpağın nəfəsi – heyrət nidası!
Bülbülün cəh-cəhi, çiçəyin ətri,
Suyun zümzüməsi – heyrət nidası.
Heyrandır!
Budaqlar yarpağa heyran,
Torpaq daşa heyran,
Daş dağa heyran.
Sel dənizə heyran,
Su gölə heyran,
Çöl çəmənə heyran,
Gül gülə heyran!
Özünə heyrankən bu cansız aləm,
Ey insan!
Demə ki, heyrətlənmirəm!

Həmişə qorxmuşam biganəlikdən,
Yaşa heyran-heyran, öl heyran-heyran!
Məni soyuq-soyuq dindirincə sən,
"Can" deyib canımı al, heyran-heyran!

Sən odu, atəşi özgədən umma!
Aləm tutmayıbsa köz ürəyində.
Bəsirət gözünü aç bu dünyaya,
Axtar heyrəti də öz ürəyində.

Heyrətim yaşayır dərdi-sərimdə.
Ölsəm...
gözlərimi qapamayın tez.
Baxın gözlərimə!
Bəbəklərimdə
Bir heyrət işığı görəcəksiniz.

Noyabr, 1971

MƏN URƏK OĞRUSU

Alıb keçmişini,
əvəzində mən
Əzablar bəxş etdim gələcəyinə.
Hissim xəcil qalıb öz əməlimdən
Sözüm də qurtarıb... Nə deyim sənə?

Küləklər oynaşır ürəkdə, canda,
Özümə düşməndir öz canım mənim.
Gözlərim ağlamır mən ağlayanda
Vicdanım ağlayır, vicdanım mənim.
Saz tutub içimdə qəm şikəstəsi,
Kədər bəstəsiyəm, vicdan xəstəsi.

Əllərim yapışıb öz ətəyimdən.
Mən heç nə ummuram gələcəyimdən.
Dağı da dağlayır dağın öz dağı
Üzümə durubdur öz dərdim-sərim.
Bu günüm sabaha danlaq, göz dağı,
Sabahım–dünənə təəssüflərim.
Yüz-yüz peşmançılıq çəkəmməz, dayan,
Bir zərər daşını, zərər yükünü.
Qaytara bilməmiş geri, heç zaman
Axı, min təəssüf, bir ötən günü.

Sözüm – bu günümün çığıran səsi,
Kədər bimarıyam, vicdan xəstəsi.
Alıb ürəyini, əvəzində mən
Sənə əzab verdim ürək dolusu.
Mən kiməm? Utanır dilim sözümdən.
Mən – ürək oğrusu, ömür oğrusu!

Etiraf asandır! Mən hansı haqla
Qovmaq istəyirəm könlümdən səni?
Özüm öz eşqimi tapdalamaqla
Əlindən almışam gələcəyini...
Sənin sabahını kölgələndirən
Məğrur keçmişinin ləkəsiyəm mən...
Ney tutub içimdə qəm şikəstəsi,
Vicdan xəstəsiyəm, vicdan xəstəsi.

Avqust, 1970

YAMAN DARIXMIŞAM

Yaman darıxmışam sənincin, yaman!
Mən əsir düşmüşəm öz istəyimə.
Nifrəti gizlətmək asandan asan,
Sevgini gizlətmək mahalmış, demə!

Haraylar yüksəlir könüldən yenə,
Bu necə haraydı, bu necə haydı?
Öhdəmdən gələrdim... Gözüm üzünə,
Qulağım səsinə darıxmasaydı...

Elə bil hər yerdən üzülüb əlim...
Mən azıb qalmışam qəm dərəsində.
Dirilib yaşanır sənli günlərim
Sənsiz günlərimin xatirəsində.

Yaman darıxmışam... Bu nədir yenə
Ağlım sağa baxır, ürəyim sola.
Ürəyim dönübdür göy göyərçinə
Qonub sən gedəli sən gələn yola.

Yaman darıxmışam... Hər axşamçağı
Arzumu günəşin telinə sardım.
Mənimlə olsaydı, mən darıxmağı
Zamana ən uzun ölçü sanardım.

Yuxuma gəlmişdin...
Qısıldıq küncə.
Danışdıq...
Yel əsdi...
Dağıldı dərd-qəm.
Kölgəyə dönmüşdüm,
Səni görüncə
Sənin işığında yox oldu kölgəm.

1974

QORXU

Mən qorxuram, sən qorxursan,
O da qorxur, bu da qorxur,
Biz qorxuruq,
Təzə fikir beynimizə gələn kimi
tez qorxuruq.
Başqasından qorxduğumuz bəs deyilmiş
Özümüzdən biz qorxuruq!
Qorxu, qorxu!
Bir qurd olub yeyir bizi içimizdən,
Nə gözləyir Vətən bizdən?
İradə yox, kişilik yox.

Biz qorxuruq, biz susuruq.
Fikir ölür,
can sustalır,
ürək donub,
ruh boğulur.
Qorxu bizim dilimizdə kilid olur,
Beynimizdə qıfıl olur.
Dərd budur ki, bu dərdi də,
Biz qanırıq, biz bilirik.
Qorxa-qorxa
Özümüz də özümüzçün
Biz qorxuya çevrilirik.

İyul, 1972.

* **

Mənim səbrim.
Bu səbrimə mən nə deyim?
Mənim səbrim - mütiliyim
köləliyim!
Atam kölə olduğunu heç bilmədi,
"Ağa" kimi ömür sürdü.
Yaşayırdı,
düşünmürdü.
Mənsə kölə olduğumu
Qana-qana, bilə-bilə
yaşayıram.
Öz-özümü dana-dana,
ölə-ölə
yaşayıram!
Xoşbəxtliyim ondadır ki,
Düşmənimin hökmü böyük,
taxtı çürük!
Bədbəxtliyim ondadır ki,

Mənim səbrim,
Düşmənimin qüdrətindən daha böyük!

Sentyabr, 1972.

ÖZ "MƏN"İMİN AĞASI

Öz yurdumda, öz evimdə özgəsi,
Oldu mənim gülşənimin ağası.
Ağlar qoydu inamı da sabaha
Bu günümün, dünənimin ağası.

O zamankı ümidimdən barındım,
Bu dövranın çirkabından arındım.
Zülmlərdən nə ağrıdım, nə sındım,
Ola bildim öz "mən"imin ağası.

Daşdan-daşa vurdu məni diləklər,
Qədərimə qəh-qəh çəkdi fələklər.
Öz səmtini dəyişməyən küləklər –
Vətən adlı yelkənimin ağası!

Kotanımı çox sürsəm də xama mən,
Yetişmədim bir müqəddəs kama mən.
Çox çalışdım, çox vuruşdum, amma mən
Olammadım Vətənimin ağası.

Ölə-ölə rəzalətin içində
Bərkimişəm məşəqqətin içində.
Bu zülmətin, bu zillətin içində
Olmuşamsa öz "mən"imin ağası,
Olacağam Vətənimin ağası!

Mart, 1974.

YALAN

Yalan özü qışqırır ki,
-Axı, mənim öz adım var.
Mən yalanam,
Mən yalanam.
Niyə məni başqa adla çağırırlar?
Heç olmasa öz adımla, ünvanımla
İstəmirəm haqqı danam.
Yalan özü qışqırır ki:
-Vallah, billah, mən yalanam!
Ancaq ona bircə nəfər
"Sən yalansan!" - deyən oğul tapılmadı.
Yalan oldu düzün adı.

May, 1976.

BELƏ QALMAZ

Sabir demiş, "Biz ərlərik",
İş yerinə "Özgəsinin sözlərini
əzbərlərik".
Toz-torpağı yel sovurar,
Dənəsi də yelə qalmaz...
Vallah, billah, belə qalmaz,
belə qalmaz!
Bu inamla yaşamışam,
Bizim kimi zəvzəklərin
İgidliyi dözüm olsun,
"Heyvərəlik, boşboğazlıq"
bizim olsun.
Gələcəyin övladları iş görəcək.
Hamı dua əvəzinə "lənət" deyib,
Qəbrimizə tüpürəcək.
Deyəcəklər, ey babalar,

Yaş yetirib kal oldunuz,
Görə-görə kor oldunuz,
Dinə-dinə lal oldunuz.
Səbrinizə heyrətdəyik,
Siz dözümdə fil oldunuz.
Ey nəvələr, nəticələr,
Biz heç nəyik, biz heç nəyik...
Gecə-gündüz babamızın
əməlinə heyrətdəyik.
Heyrət edin sizsə bizim
səbrimizə...
"Lənət" deyib, siz tüpürün qəbrimizə...

Haqqımızı biz qanmadıq.
Biz bu günü yola verib
Gələcəyə inanmadıq!
Keçirdik öz əlimizlə
Boynumuzu biz xaltaya,
Sap olmadıq bir baltaya.
Ac olsaq da, "toxuq" – dedik.
Biz ucadan "bəli" deyə çox bağırdıq,
Qəlbimizdə "yox-yox!" – dedik.

Toz-torpağı yel sovurar,
Dənəsi də yelə qalmaz.
Vallah, billah, belə qalmaz,
Belə qalmaz!

1974

DİZ ÜSTƏ

O, çox əzəmətli, çox qüvvətlidir
Böyükdür,
Nəhəngdir və qüdrətlidir.
Bunu çox eşitdik, çox dedik düzü.
Çox deyib, alçaltdıq öz-özümüzü.
Onun böyüklüyü aydındır bizə.

Bir baxaq,
Bir görək,
bilək, biz nəyik?
O, böyük görünür gözlərimizə
Nədən ki, özümüz diz üstündəyik.
Kiçildik, biz ona böyük dedikcə
Yetər bu səcdələr, bu diz çökmələr.
Biz onun önündə iməkladikcə
Əzdi başımızı nallı çəkmələr.

Duraq ayaq üstə!
Axı, ərik biz.
Qalxsaq, o kiçilər, böyüyərik biz.

Avqust, 1976, Şəki

MÜSAVAT

Zülmətlə savaşlarda zəfər çaldığı gündən,
Qəlblərdə azadlıq odu yandırdı Müsavat.
Ulduz və hilal eylə ki, üç rəngə qovuşdu,
Boz qurdu könüllərdə oyandırdı Müsavat.

Meydan oxudu qan çiləyən dövrana qarşı,
Hər zalimə, hər nadana, hər hədyana qarşı,

Tüğyan elədi eyləki zülm insana qarşı,
Öz həddini zalimlərə qandırdı Müsavat.

İlhamını almış o, Vətən adlı gözəldən,
İman suyunu, çünki, o içmişdi düz əldən.
Xalq naminə haqq adlı vuruşlarda əzəldən
Ön cərgədə hər tilsimi sındırdı Müsavat.

Öndər dedi: – İstiqbal üçün dağ aşalım biz,
İstiqlala, istiqbala daim qoşalım biz,
Bir türk kimi islamlaşa, çağdaşlaşalım biz
Amalına bir xalqı inandırdı Müsavat.

Amalı təmiz, məqsədi aydın, üzü ağdır,
Ən ali məramında qərəzlərdən uzaqdır.
Tarix şüuru – xalqımı millət yapacaqdır
Haqdan dönəni haqqa tapındırdı Müsavat.

Düzlük şuarı daima çarpışdı yalanla,
Torpaqdan alıb qüdrəti, kökləndi zamanla.
Cənnət edəcək amala dönmüş bir imanla
Ünvanı Azərbaycan olan yurdu Müsavat.

Fevral, 1977

LAL – KAR

Dil açmada lallıq da gedər, karlığımız da.
Çün lallığımız doğmuş idi karlığımızdan.
Şəhriyar

Həm lal olduq, həm də kar
Lallıq karlıqdan doğar.
Niyə lal olduq, görən?

Bunu bilirsənmi sən?
Bunu bilək biz əvvəl,
Ötənlərə baş vuraq
Bunun üçün indi gəl.
Zaman-zaman əzildik
Məhkum olduğumuzu
Nə anladıq, nə bildik.
Bununçün da soydular
Dərimizi qatbaqat.
Haqqımızı kimsədən istəmədik, ey ustad.
Çünki onu qanmadıq.
Bu miskin halımızdan
Qızarıb utanmadıq.
Bütün dünya oyandı,
Biz hələ oyanmadıq.
Susduq, hər şeyə dözdük.
İçimizdən oyulduq.
Karlıqdan lal olmadıq,
Susduq-deyə lal olduq.
Sabirimiz demişkən:
"Bir əcayib şeyik biz".
Tərs gəlib hər işimiz.
Bizim çaqqalımız da
Gəlir öz dağımızdan.
Bizim karlığımız da,
Bizim lallığımız da
Doğub susmağımızdan.

İyul, 1979, Şəki

SƏHVLƏRİM, SƏHVLƏRİM!

Şübhələrim, gümanlarım,
Səhvlərim, nöqsanlarım,
Fəryadlarım, əzablarım, amanlarım!

Mən qaçdıqca əlinizdən,
Əməlimə
Yağış kimi yağırsınız
Neyləyim ki,
Siz özümdən ağırsınız.
Salıb məni əzablara
Mənə gendən baxırsınız
bir yad kimi.
Mən gizlədə bilməmişəm ömrüm boyu
Dodağımın arxasında ürəyimi...
O alışıb.
O danışıb.
Yanımda dost olmayanda
Danışmışam özbaşıma.
Ürəyimin pıçıltısı
Dəyib mənim öz başıma
Toxmaq kimi...
Nə sevgimi gizlətmişəm,
Nə kinimi...
Əzab verib günlər mənə,
aylar mənə.
Adam var ki, ömrü boyu
Dodaqları təbəssümlü
Təbəssümü,
Bir pay kimi paylar sənə,
paylar ona,
paylar mənə...
Dili ilə ürəyinin arasında
Yüz-yüz illik yollar durur.
Dodağında güllər açıb
Ürəyində kollar durur.
Hər sözünün əvvəli "can", axırı "can"
Belə yaşar axıracan.
Ürəyi buz,

Sözü isti,
Özü ilıq.
Çəkməmişdir ömrü boyu
Bircə dəfə peşmançılıq.
Bilməmişəm,
Nə çox imiş
Bircə qırıq nöqsanımı
şişirdənim.
Bir dəryaca kədərimdir
Bir damlaca səhvim mənim.
Başqaları keçər, bəlkə, təqsirimdən
"Günahkaram, keç!" – sözümə.
Bağışlaya bilməmişəm
Öz səhvimi mən özümə.
Səhvlərim boğazımdan bərk yapışıb
Yuxumu da dara çəkir.
Vicdanımı ora çəkir, bura çəkir.
Ürəyimdə vuruş gedir
Mən kiminlə vuruşuram,
heç bilmirəm.
Yıxılıram, əyilmirəm.
Heç bilmirəm bu vuruşun adı nədir,
qəsdi nədir?
Qəribədir,
qəribədir!
Səhvlərim – alnımdakı qırışlarım,
Qəlbimdəki vuruşlarım.
Əzablarda mən özüməm,
Mən könlümün öz səsiyəm,
Rahatlıqda özgəsiyəm...
Səhvlərim – ürəyimin dilimdəki
Həm sevgisi,
Həm nifrəti.
Səhvlərim – Dost danlağı,

yad töhməti.
Səhvlərim! Siz mənsiniz,
Mən də sizəm!
Mən səhvimdə səhvsizəm!

Noyabr, 1971

GETMƏZ SÖZ YARASI

Bir soyuq baxışın odu, həniri,
Körpülər yandırdı, külü qaraldı.
Bir an baxıb ötdün...
Baxışın yeri
Çapılan könlümdə ömürlük qaldı.
Anın zərbəsini bir ömür yedi,
Nələr etdiyini an heç bilmədi.

Yoxdur ikincisi tək ömrümüzün,
Niyə zəhərlədin bir ömrü, niyə?
İsti bir baxışa möhtackən özün
Bəs niyə qıymadın onu özgəyə?..

Yaddaşdan bir yolluq silinib itər
Hər ömrün, hər günün min macərası.
Güllə yarasına nə var?
tez gedər,
Getməz söz yarası, eyham yarası.
Niyə danışmadın, niyə ürəklə?
Xoş sözə hamının ehtiyacı var.
İnsan yaşamamış yalnız çörəklə,
Sınan ürəklərin öz əlacı var.

Gözümüz önündə arzular, kamlar,
Narahat dünyada dinclik olarmı?

Ürək sındırmayın siz, ey adamlar,
Bülbül yuvasına daş atılarmı?!

Sınan bir könülə necə deyək: "Döz!"
Yamasaq bilinər sınığın izi.
Bəzən xoş bir baxış, xeyirxah bir söz,
Günlərlə, aylarla yaşadır bizi.

Dağsansa, sən danma təpəni, düzü,
Bu darkönüllülük nə verər bizə?
Xoş bir təbəssümü, gözəl bir sözü
Bəzən biz qıymırıq bir-birimizə?
Ürək də qocalır, axı, ilbəil,
O bizə həmdəmdir, biz ona sirdaş.
İnfarktdan qorxursan?
Ürək daş deyil,
Özgənin qəlbini sındırma, qardaş!

Mən səndən intiqam, sən məndən qisas?..
Alır verdiyini onsuz da zaman.
Adamlar, adamlar,
düşünsək bir az,

Hamıya yer çatar, genişdir cahan.
Əcəl başımıza kölgə salmamış
Sizdən "can" eşidim, sizə "can" deyim.
Adamlar, adamlar,
yalnız xoş baxış,
Bir də təbəssümdür sizdən istəyim.

Yanvar, 1974

EHTİYAT

Cəsurların dəliqanlılığına
şərəf nəğməsi oxuyuruq.
M.Qorki

Ehtiyat sözündən ehtiyatlıyam,
Ehtiyat – hər yerdə ehtiyac olmur.
Hər sözdən özünü qoruyan ilham
Ayaqda sürünür, başda tac olmur.

Ehtiyat güdəndə yazdım könülsüz,
Eləsi qəlblərə çətin yol tapır.
Ürəklə, cürətlə dediyim hər söz
Hələ qorxaqla da asan dil tapır.

Sənətin, ilhamın, eşqin gur səsi,
Qorxaq ürəklərdən niyə gen düşür?
Ehtiyat güdəndə, sözün gülləsi
Həmişə hədəfdən didərgin düşür.

Ehtiyat güdənlər, asta gedənlər,
Heç sizi görmədim mənzil başında.
Ey fikrin önünə daş gillədənlər,
Əliboş qaldınız siz il başında.

Yolu gedə-gedə addım sayanlar,
Yolunuz yarıda niyə səhv olur?
Ancaq cəsarətlə addımlayanlar
Ya hər şeyi alır, ya da məhv olur.

Ehtiyat – birtəhər baş dolandırmaq,
Cəsarət – ya həyat, ya ölüm ancaq!

Ehtiyat vergüldür, nöqtə deyil, yox!
Ehtiyat çalardır, rəng ola bilməz!
Deyirəm dünyada bir qəhrəmanlıq
Kölə ehtiyatdan doğula bilməz.
Qorxur cəsarətdən qorxu da şəksiz
Onun övladıdır igidlik, hünər.
Axı, cəsarətsiz, axı, ürəksiz
Qapını döyməmiş hələ bir zəfər.

Cəsarət çətindir, ehtiyat asan,
Qorxudur alçaldan, axı, hər kəsi.
Cürətdən qorxmayaq qorxaq qorxudan
Qorxu – itaətin dayaq nöqtəsi!

Dolandım – yüz ölçüb bir biçəndə mən,
Yaşaya bilmədim bircə an, ancaq.
Mən ziyan çəkmədim cəsarətimdən,
Qorxudan qorxuram, qorxudan ancaq!

May, 1970

TƏLƏBƏLƏRİMƏ

Uçun, uçun,
Xəyaldakı zirvələrdən atlanın,
Tələbələrim mənim.
Bu gün mənə güvəndiniz,
Sabah sizə güvənim.
Bu gün önümdəsiniz,
Sabah isə ayaq açıb
gəzən şirin sözlərim...
Vətənimə səpələnmiş
Mənim dan ulduzlarım...
Mən öyrədən,

Siz öyrənən,
Zaman keçir, yer dəyişir
Bu müqəddəs dövrədə...
Bu dünyanı öyrənmişəm
Mən öyrədə-öyrədə...
Mənə heç vaxt yad olmadı
Sevinciniz,
Qəminiz.
Xəyallarla nəfəs alan
Cavanlıq aləminiz.
Hissinizə, duyğunuza
dola-dola,
Sizin ilə addımladım
Qol-qola...
Suyu hər il dəyişilən
Bir dəniz var önümdə.
Suyu axır,
Durulur.
Bir tərəfdən boşalırsa,
Bir tərəfdən o, dolur.
Gənclik axır,
Bu axına qoşuldum.
Yaşım artdı...
Ancaq yenə
Sizinlə həmyaş oldum.
Elə dedim: – Bu dünyaya
Nə baxdım ki, nə görəm.
Beş il açıb örtdüyünüz qapıları
Otuz ildir
Mən açıram,
örtürəm.
Sizin üçün bitən bir şey
Bitə bilmir mənimçün.
Öyrədirəm,

Öyrənirəm,
günbəgün.
Mən həmişə
Sizin ilə həmyaşam.
Hamınıza yoldaşam!

El-obada ayaq açıb
Mənim gəzən sözlərim,
Vətənimə səpələnmiş
Ay mənim ulduzlarım,
Fikrimizdən, sözümüzdən
Aldığınız işığı,
El-obada körpələrin
Ürəyinə səpin siz,
Biçin olmaz səpinsiz.
Bugünkü dərs
Tək bu günün dərsidir.
Tək bu günlə
Siz gəlməyin vəcdə,
yox!..
Sizdən hörmət gözləyirəm,
Səcdə, yox!..
Səcdədə bir hərəkət yox,
Çırpıntı yox,
Alov yox!
O, həm sakit,
Həm donuq!
Sən önümdə donursansa,
Mən də yoxam,
Sən də yox!
Başqa simdə çalmalısan
Mənim köhnə havamı.
Sən mənmisən?
Yox!

Fikrimin,
Əqidəmin
davamı!
Sizin mənə sevginizdə tapmışam
İtirdiyim nə varsa.
Mənim Sizə dediklərim
Ruhunuzda yaşarsa,
Sizin ayaq basdığınız
hər obada mən varam,
Qəlbinizdə çağlaram,
Dilinizdə qaynaram.
Gələcəkdə yaşaram!
Sabir olub,
Puşkin olub,
Vurğun olub
Hər dərsimin ön sözü.
Bəs nə imiş
Məramımın, mətləbimin
Son sözü?
Harda bir ev uçubdursa,
Biz o evə
Dirək olaq,
Daş olaq.
Adicə bir insan deyil,
Bu Vətənə,
Əsl vətəndaş olaq!

1974

KAMAN NALƏ ÇƏKİR...

Uzaq Britaniyada kaman nəğməsi...
Habil lal telləri dilə gətirmiş.
Bir xalqın köksündən gələn ah səsi,
Başqa bir xalqı da inildədirmiş.

Başqadır bu xalqın məsləki, dini,
Fəqət, bu nəğməyə başlar əyilmiş.
Soyuq qanunların daş sərhədini
Sənətdən savayı kim aşa bilmiş?
Kamanın səsində hıçqırıq, ələm,
Duyan ürəklərə od ələnibdir.
Xəzər ləpələri elə bil bu dəm
Temza sahilində ləpələnibdir.
Kaman nə danışır, kaman nə deyir,
Belə için-için neçin inləyir?
Hicran öz hökmünü verəndən bəri
Kaman nalə çəkir vüsal eşqinə.
Bölünən bir xalqın könül telləri
Kamanın bağrında ağlayır yenə.

Kaman susan kimi
Qalxıb salondan
Əlində gül-çiçək bir cavan oğlan
Atıldı səhnəyə...
O gülə-gülə
Çiçək topasını verdi Habilə.
Alqışlar altında endi səhnədən
Yenidən kamança dindi səhnədən.
Mer ziyafət verir şərəfimizə,
Bu gecə ayrıca hörmət var bizə.
Bir kağız çıxardı Habil cibindən:
– Mənə bağışlanan gülün içindən
Tapdım bu kağızı, görün, nə yazır.
Oxuduq... Sözlərdən od-alov yağır.
Oxuduq kağızı biz dönə-dönə.
Oxuduq bir xalqın faciəsini
Eşitdik, kamanın iniltisinə
Səs verən qardaşın fəryad səsini.

Mənim dilimdədi bu məktub...
– Necə?
– Mənim qardaşımmış o cavan oğlan.
Temza sahilinə təhsil dalınca
Gəlib xan Arazın sağ cinahından.

Bilmirəm nə deyim kor taleyə mən?
İkiyə bölündü bir ana torpaq.
Balaca bir çayı keçə bilməyən
Qardaşlar görüşür qürbətdə ancaq.
Dalıb qəlbimizin hönkürtüsünə
Oxuduq məktubu biz dönə-dönə:
"Ulduzları saya-saya
Ayaq basır insan aya.
Mənim bu taydan o taya
Əlim çatmır sənə, qardaş".

Dərddən şair olub o cavan oğlan,
Zamanın qəribə oyunu varmış.
Yerdə beş addımı keçməyən insan
Göydə lap aya da ayaq basarmış!

Ana təbiətin düzüb-qurduğu
Qaydanı, hüdudu dağıdar insan.
Ancaq aşa bilmir, keçə bilmir o,
Özü yaratdığı həddən, hüdüddan.

Hicran öz hökmünü verəndən bəri
Kaman nalə çəkir bir vüsal üçün.
Bölünən bir xalqın könül telləri
Kamanın səsində birləşir bu gün.

Oktyabr, 1978, Qlazqo

LAYİQƏMMİ MƏN?

Atalar sözləri öyüddür bizə
Yüz illər, min illər deyiləcəkdir.
"Elə yaxşılığı, sən at dənizə,
Balıq bilməsə də, xalq biləcəkdir".

Mən xaliq demədim,
Xalq dedim...
Nədən?
Xalqımdır, elimdir xaliqim mənim.
Onun dostlarına dost demişəm mən,
Onun düşmənidir, mənim düşmənim.

İşıqsız, qapalı bir göz, de, gözmü?
Yaşamaz sünbüldən düşən dən, ayrı...
Xalqın zərrəsiyəm...
heç gördünüzmü
Bir zərrə yaşasın kütlədən ayrı?

Sənsən qüvvət verən sətirlərimə,
Sənsiz özüm də heç, sözüm də hədər.
Damla zəhmətimə, zərrə şeirimə,
Sənsən qiymət verən dəryalar qədər.

Baxdın şairinə bir örnək kimi,
Dikdin üzümüzə baxışlarını.
Biz hara getdiksə,
Gül-çiçək kimi,
Səpdin başımıza alqışlarını.

Sevgin gözlərində bizi böyütdü,
Öyündün bizimlə, ey xalq, ey Vətən!
Həmişə qəlbimdən bir sual ötdü:

Sənin hörmətinə layiqəmmi mən?
Onu bilirəm ki, sən elə sənsən,
Gücüm də səndədir, səadətim də.
Yaxşını yamandan yaxşı seçənsən,
Sənə bənzəyəydim dəyanətimdə.

Onu bilirəm ki, öz tanrım kimi
Həmişə fikrimdə, ürəyimdəsən.
Onu bilirəm ki, şeirlərimi
Yazan mən oldumsa, yazdıran sənsən.

Xalqa arxalanan xalqsevərlərin
Özü də xalq üçün arxaya döndü.
Xalqa arxasını çevirənlərin
Arxası həmişə yerdə süründü.

Tanıtdın adınla övladlarını,
Uçdular qırılmaz qanadlarınla.
Xalqlar cərgəsində dönüb özün də
Tanındın namuslu övladlarınla...
Hər bir övladının qələbəsindən
Boy alıb ömrünə gün qazanmısan.
Ürəyi ürəklə qarşıladın sən,
Sənə qul olanı allah sanmısan.

Sevgin gözlərində bizi böyütdü,
Öyündün bizimlə, ey xalq, ey Vətən!
Həmişə qəlbimdən bir sual ötdü:
Sənin hörmətinə layiqəmmi mən?

1974

İYİRMİ BEŞ İL

Ömür yoldaşıma

Elə bil dünəndir Sabir bağında
Çıxdın qabağıma ağ çiçək kimi.
Elə bil dünəndir, ağ paltarında
Qondun evimizə kəpənək kimi.

Nə tez başa gəldi iyirmi beş il?
Balalar yetişir, qocalırıq biz.
Nələri itirdik – qayıdan deyil,
Görəsən, nə imiş bəs qazancımız?

Sönməmiş könlümün odu, həvəsi,
Balalar səslənir: "Bəsindir dayan!"
Oğlumuz toy umur, bizim toy səsi
Hələ getməmişkən qulağımızdan.

Bu necə dünyadır? Yolu bir qarış,
Ayıra bilmirsən çoxunu azdan...
Həzzindən, zövqündən hələ doymamış
Çəkirlər süfrəni qabağımızdan.

Bu necə dünyadır anlamıram mən,
Nə gəliş bəllidir, nə gediş bizə.
Xəbərimiz olmur gəlişimizdən,
İnana bilmirik getməyimizə.

Vurduq bir zindana iyirmi beş il,
Ötdü günlərimiz ağlı-qaralı.
Sənin duyğuların – bir nəğməli göl,
Mənim duyğularım min macəralı...

Sən nə dalğalandın, nə çalxalandın,
Haldan-hala düşdüm mən hər dəm, gülüm,
Sən məni bir dəfə sevib dayandın,
Mən səni hər rəngdə sevirəm, gülüm.

Daş atdım, əlimdən çıxdı bir xata.
Bulana-bulana yenə duruldun.
Könlümdən keçəni duymadınsa da,
Ömrümə, günümə havadar oldun.

Düşdü yuvamıza, düşdü qan-qada,
Başımız üstündə ildırım çaxdı.
Səsimiz, nəğməmiz bir olmasa da,
Suyumuz, selimiz bir arxdan axdı.

Ata ocağının qələmdən çıxan
Çörəyi mənəmsə, ürəyi sənsən.
Başında çal-çarpaz ildırım çaxan
İsti yuvamızın dirəyi sənsən.

Mənim xəyallarım uçdu havada
Sən məni göylərdən endirən oldun.
Bizim qurduğumuz isti yuvada
Fəhlə mən oldumsa, usta sən oldun.

Elə ki, bəxtimin gözü yumuldu,
Yoluma nur saçan çilçıraq oldun.
Mənim nəşələrim özümün oldu,
Ancaq dərdlərimə sən ortaq oldun.

Başıma dolanan dərd-sərimin
Odunu qəlbindən keçirən oldun.
Səndən gileylənən şeirlərimin,
Sahibi mən oldum, qulu sən oldun.

Yanıb yaxılanda şeirim üçün mən,
Sən elə bildin ki, gizli qəmim var.
Ayrıla bilmədin öz aləmindən
Bilmədin, mənim də öz aləmim var.

Gülüm, aynasıdır üzüm, üzünün,
Məni əldən saldı axtarışlarım.
Üzünə əks etdi mənim günbəgün,
Üzümdə açılan sərt qırışlarım.

Fikrim dərə keçdi, təpələr aşdı,
Ardımca bir addım gəlmədin ancaq.
Sən məni dindirdin, ilim danışdı,
Şerimi dindirə bilmədin ancaq.

Ötdüyün mahnını bir yol çaşmadın
Mən çaşdım...Dərədən boylandım dağa.
Öz könül mahnını sən çalışmadın,
Mənim iniltimə uyuşdurmağa...

Elə bil dünəndir, Sabir bağında
Çıxdın qabağıma ağ çiçək kimi.
Elə bil dünəndir, ağ paltarında
Qondun evimizə kəpənək kimi.

Aradan nə keçdi? İyirmi beş ildə
Qara saçımızda ağardı illər!
Təkcə istəyimiz qaldı könüldə,
Qalan nə vardısa, apardı illər.

İndi xəyal yorğun, könül şikəstə...
Gəncliyi dadmamış qocalırıq biz.
Övlad qayğısında, bir murad üstdə

Birləşir uyuşmaz nəğmələrimiz.

Eyni yük altında neçə yoxuşu,
Arzumuz, qəsdimiz birgə aşıbdır.
Özgə budaqların iki yad quşu
İndi bir budaqda doğmalaşıbdır.
Budağın eşqinə darda, çətində
Nəfəsin könlümə qol-qanad vermiş.
Zaman ötüşdükcə
Məhəbbətin də
İlk rəngi, ilk dadı dəyişilərmiş.

Demə qocalmısan, gülüm, doğrusu
Mənimçün bir az da sonalaşmısan.
Balamın anası, nə sirrdir bu?
İndi mənimçün də analaşmısan.

Dekabr, 1974

FİKİR AXTARIŞI

– İsa!
– Musa!
– Tapdın?
– Yox!
İsaq – Musaq quşları
Nəyi isə axtarır
Sübhə qədər
Gecələr.
Gecələrin özündən sirr gizlədər gecələr.
Ömrü boyu axtarır İsaq – Musaq quşları.
Bahar gecələrini
Suallara döndərir
Gizli axtarışları. Axtarır,
Tapa bilmir,

hey axtarır, hey gəzir.
Əbədi axtarışdan
Nə yorulur,
Nə bezir.
Toyuq da dən içində
Eşələnir,
axtarır.
Dən topası üstünə qalxır,
enir,
axtarır.
Tapır, yeyir,
o yenə
yeyə-yeyə axtarır.
Axtardığı, gəzdiyi gözlərinin önündə,
Bəs o nəyi axtarır, bəs o niyə axtarır?
Tapır,
yenə axtarır.
Mədəsinə deyil, yox,
Fitrətinə axtarır.

Dolaylarda əridib
dəmir çarıqlarını,
Aşıb sirr dağlarını,
Nəyi isə axtarıb ulu babalarımız,
Ürəyi acılarla dolu babalarımız.
Mən də axtarışdayam,
Obaları, elləri dolanıb qarış-qarış.
Bəlkə mayamızdadır bu əbədi axtarış!
Adamların gözündə həsrət işım-işımdır.
Mənim sonsuz həsrətim – mənim
axtarışımdır.
Axtarıram,
Özümdən o yanı görüm deyə.
Zərrədə qərar tutan dünyanı görüm deyə.

Gecənin zülmətində sübhə iz axtarmışam.
Min bir sözün içində
hələ heç deyilməmiş
bircə söz axtarmışam.
Sabahımın eşqinə bu günümü danmışam.
Kiminsə gözlərindən qəlbinə boylanmışam,
O qəlbdə məşəl tutan duyğunu görmək
üçün.
Başqasının xeyirxah, gözəl əməllərindən
ibrət götürmək üçün
Özümdə olmayanı özgədə axtarmışam.
Fikirlərin tərkinə, arzuların ilkinə,
Əməllərin rüknünə, özəyinə varmışam.
Bəzəklərdən vaz keçib axtarmışam özəyi.
Mən axtara-axtara itirmişəm çox şeyi.

Dünya – axtarış evi...
Kimi sərvət axtarır,
Kimi fikir axtarır.
Kimi də ürəklərin axtarış həvəsində
Sirr görür, sirr axtarır.
Sərvət, fikir!
Fərqə bax!
Sərvət – fikir deyilsə,
fikir – sərvətdir ancaq.
Bir fikir, bir söz yatır
yerin hər qarışında.
Bizə uğurlar olsun fikir axtarışında!

Fevral, 1978

QARABAĞ ATI

1956-cı ildə İngiltərə kraliçasına Qarabağ atı – "Zaman" hədiyyə göndərilmişdi

Cıdır düzü...
Sinəsində at oynaqlar,
Cıdır düzü –
İgidliyin arayışı –
Üstündə də nal ləpiri möhür bağlar.
Qarabağın cins atları –
hünərimin kişnərtisi,
Toppuzların gurultusu,
Qılıncların parıltısı, Neştər səsi!
Qarabağın kürən atı –
Döyüşlərdə arxasıdır
Koroğlunun,
Bayandurun.
Cilovunu gəmirdimi,
hünəriniz varsa əgər o qızmamış,
Qamçıların hədəsinə dayandırın!
Kişnədimi o uçacaq.
Kişnərtisi – qanadları!
Qamçı vurma!
Qamçı yola gətirərmi cins atları?
Zaman keçdi,
Zəmanəmdə "Qırat", "Dürat", "Zaman"
oldu
İgidliyi kitablara köçürüldü.
Yaddaşlarda unuduldu.
"Zaman" atım, aman atım!
Keçmişimdən bu günümə amanatım!
Avtomobil zamanında

Niyə, axı, sənin adın "Zaman" oldu?
Geriyəmi döndü zaman,
Məgər raket-kaman oldu?
"Qırat", "Dürat"
İndi nədir?
Ekzotika, eksponat!
Dövrümüzdə nə deməkdir
Kral, ya da kraliça?
Öz əvvəlki hökmündəmi
bu gün yenə
Britaniyada kraliça?
Kraliça Yelizaveta
Yelləndikcə
Arasında göyün, yerin,
Nəfəs alır havasıyla
Ötüb keçən təmtəraqlı əsrlərin.
O bəyənmir
Asfalt üstə quş tək süzən maşınları,
Göydə gəzən maşınları.
İstəyir ki,
Əsrin dəli sürətini unuda o,
Keçən əsrin duyğulara sığal çəkən
Ahənginə dəm tuta o.
Karetada seyrə çıxır,
At saxlayır.
O, dünənin ölüsünü
kəfənləmək əvəzinə
Sabahının körpəsi tək qundaqlayır.
Öz kökünə qayıtmaqla
güman edir
Öz əsrini qabaqlayır.
Ekzotika vurğunudur
Kraliça Yelizaveta.
Səyahətə çıxan zaman

qamçı vurmaz o hər ata!
Meyl salıb Qarabağdan
Töhfə kimi gətirilən
Kəhər ata!
"Zaman" yatmır ipə, sapa,
Dirək olub kişnərtisi yerə, göyə.
Nə qamçıya boyun əyir, nə hədəyə.
O gəmirir cilovunu,
Kraliça seyr eləyir gendən onu,
Ayaqları eşir yeri,
Yaxın qoymur həndəvərə mehtərləri.
Nə etməli?
Gəlir bir-bir
Cıdırlarda ad qazanan,
Rekord vuran minicilər.
Nə faydası,
O ram olmur.
Kraliça aram olmur,
Qəzəblənir:
– Britaniyada yoxmu məgər
bircə kişi, –
Ram eyləyə bu qızmışı?
Kraliça yana-yana
baxır ona –
Ceyran kimi duruşuna,
Hirslə yeri eşməsinə,
Heyran qalır
Kişnəyəndə gur səsinə.
At duyur ki,
Gözəlliyi heyran qoyub
Maddım-maddım baxanları,
Neçə-neçə yarışlardan
Qələbəylə çıxanları.
Belə heyran baxışlardan

O iyrənir,
İstəyir ki,
belindəki
Onun ceyran hüsnünə yox,
Qaçışına,
Yürüşünə heyran qala.
İstəyir ki,
ayağının altındakı
Böyüdüyü torpaq olsun –
İstəyir ki,
belindəki
Yarışlarda nəmər alan jokey deyil,
Vuruşlarda zəfər çalan
igid olsun!
İstəyir ki,
yüyənini gəmirəndə
Cilovunu çəkib yığan
igid olsun.
İstəyir ki,
sahibi də
Atılmaya beldən-belə.
Kişnəyəndə
sahibi də
Kişnərtiyə cavab verə
Koroğlunun nərəsilə.
O, belində kraliça qəbzəsi yox,
Vuruş istər, hünər istər.
O, belində
aynalılı Həcər istər.

Günlər keçdi, aylar ötdü,
Qarabağın köhləninə
Qışda kişmiş,
Yazda yaşıl ot verdilər.

Səhər-səhər
Çəmənlərdə gəzdirdilər,
O yemədi, o içmədi.
Qızıl yüyən laqqıldadı çənəsində,
Dolandıqca yad torpağın sinəsində
Arıqladı o günbəgün.
Xiffətini çəkirdi at
Şahbulağın,
Cıdır düzün.
Ürəyində
Sarı dağdan enən daşın
səsi dindi,
Gözlərində Daşaltının ağ suları gilələndi.
O dözmədi,
yox, dözmədi,
Bu xiffətdə çox hikmət var.
Yad iqlimə dözə bilməz
Öz-özünü tanıyanlar!

Avqust, 1976, Şəki

KÜLƏK – OT

"Hökmdar küləyə, xalq ota bənzər. Külək hardan əssə, ot başını o tərəfə əyər".
Konfusi

"Hakim – dəli bir küləyə,
Xalqsa – onun qabağında
Tir-tir əsən ota bənzər.
Hansı yandan külək əssə,
O tərəfə ot baş əyər".
Konfusinin bu ehkamı
Əsrlərlə oldu bütün hakimlərin
ilk hakimi.

Dolandırdı öz başına
məmləkəti məhvər kimi.
Kəlama bax!
Yüz-yüz illər
Bir ölkənin bayrağında
dalğalandı,
Külək əsdi səmum kimi,
Ağızlara daş tıxandı,
Beyinlərdə fikir dondu.
Ürək yandı.
Kəlam dönüb
Hakimlərin əllərində
məşəl oldu.
Ağızlarda məsəl oldu.
Gözəl, çirkin damğasıyla
damğalandı,
Çirkin dönüb gözəl oldu.
Yerin bağrı cadar-cadar,
Axmazlarda donub qaldı,
süzülmədi həqiqətin bir damcısı.
Yalan – dövlət maşınının sükançısı!
Kəlama bax!
Ehkama bax!
Haqsızlığı
Yüz-yüz illər sığışmadı
Yerə, göyə.
Nə deyəsən
Bu sözdəki dırnaq içi
"böyüklüyə",
"müdrikliyə"?
Külək əsdi
Gah imandan, gah gümandan,
Gah o yandan, gah bu yandan
Otlar əydi başlarını

Öz içindən yana-yana.
Gah o yana, gah bu yana
Külək əsdi...
Ot əyildi...
Külək əsdi,
elə bildi,
Qüdrətinə bir səcdədir bu əyilmə.
Zalım külək,
Zülmə olan əyilməni səcdə bilmə!
Qorxudandır
Bu titrəmə,
bu əyilmə!
Özgəsini qorxu ilə qorxudanın
özü qorxur.
İnanmırsan?
Aç qəlbini sən ondan sor!
Bu qorxunun qabağında
Sən özün də
Qorxuzduğun ot kimisən.
Sən qorxuyla qorunmazdın
Bu qorxunun dəhşətini
Bilməsəydin ot kimi sən.
Ancaq bunu bilməlisən.
Məhəbbətə hörmət olar,
Qorxuyasa nifrət olar.
Nifrət sızar damcı-damcı
Nəhayətdə dağ dağılar,
Daş – oyular.
Zalım külək,
Unutma ki, geci-tezi suya dönür
Nərildəyən,
Guruldayan
Şimşək olub çaxan bulud.
Əgər sağdan əsirsənsə,

Sağa deyil,
Sol tərəfə əyilir ot,
Bu tərəfə əyilmənin sirri nədir?
Bu, hörmətə əyilmə yox,
Bu, yalana dal çevirmə,
Həqiqətə əyilmədir!

1976

DÜNYANIN

Baş çıxarmaq həm çətindir, həm asan
İblisindən, məläyindən dünyanın.
Adəm satdı bir buğdaya cənnəti,
Tora düşdü kələyindən dünyanın.

Nə gözəldir, ürək geniş, söz açıq,
Yaşamadım bir sevdamı yarımçıq.
Əzab adlı dəyirmandan narın çıx,
Keçəcəksən ələyindən dünyanın.

Arzum üçün bir məläyən cüyürdüm,
O təpədən bu təpəyə yüyürdüm.
Niyə qorxum kəfənindən?
Nə gördüm
Beşiyindən, bələyindən dünyanın?

Biz özümüz özümüzdən öc aldıq
Keçən günə gələn günü bac aldıq
Ömrümüzün yarısında qocaldıq
Şilləsindən, kötəyindən dünyanın.

Könül üzgün, xəyal küskün, dərbədər
Özün söylə zülm olarmı bu qədər?

Arxasınca palaz kimi sürüdər
Bərk yapışsam ətəyindən dünyanın.

Könül düşdü min arzumun izinə
Biləmmədik əyrisi nə, düzü nə?
İndi kəfən toxuyuruq özünə
Öz gülündən, çiçəyindən dünyanın.

1977

SATQINLIQ

Səhl-Sumbat Xalq qəhrəmanı
Babəki düşmən əlinə verən.
Sata bildin
nəyi nəyə, kimi kimə?
Tək olsaydın,
heç adını tutmaz idim,
Mikrob kimi
ələnmisən tariximə.
Babəklərin sinəsilə yol açdığı
Zirvələrə çatmaq üçün,
Dərə keçdik,
Təpə aşdıq.
Bu yollarda
Neçə-neçə həmzələrlə,
Sumbatlarla qarşılaşdıq.
Satqınların hiyləsindən
Neçə kərə
Tarix endi zirvələrdən dərələrə.
Bu hiyləgər xəyanətlər
Tariximin neçə-neçə varağını
ləkələdi,
qaraladı.
Bir ölkəni yaraladı,

Neçə yerə paraladı.
Mənə açıq düşmən deyən bir düşmənin
İçi də bir, çölü də bir.
İçindəki nifrətini
Üzündə də o, gizlətmir.
Niyə qorxum bu düşməndən?
Bu meydanda ya o, ya mən!
O düşməndən qorxuram ki,
İçindəki zülmətini,
Qəzəbini, nifrətini
Üzündəki gülüş ilə
örtə bilə!
Səhl-Sumbat!
Yollarıma diyirlədin
Xəyanətin ilk daşını.
Üzündəki gülüş ilə
Sən axıtdın
Bir ölkənin göz yaşını.
Bu gülüşlə
Xəyanətin zəhərinə
bal qatmısan
Bu gülüşlə
anamızı ağlatmısan.

Sən həmişə yanımızca hərlənirsən,
Sağımızda Səhl-Sumbat,
Solumuzda Səhl-Sumbat.
Can atırıq zirvələrə –
Yolumuzda Səhl-Sumbat.
O Sumbatdan törəyənin
Soyu-Sumbat.
Huyu-Sumbat.
Dili-mənim,
Əli-qənim.

Qazır mənə quyu Sumbat!
Gah quzeydən, gah güneydən
Baş qaldıran yel kimisən.
Namərdliyin yol yoldaşı,
Kişiliyin qənimisən.
Yüz qızıla, bir "sağ ol"a
Sata bildin kişiləri,
Özün söylə,
Aldıqların satdığına
dəyərdimi?
Aldığına
arzuların göyərdimi?
Qızıl getdi, "sağ ol" itdi,
Özün öldün.
Xəyanətin
Tariximin kürəyində
Damğa kimi durur ancaq.
Gücünə bax,
Əsrimizə çatdı səsi.
Satılanın böyüklüyü,
Satqınlığın dərəcəsi!
Düşdü gələn əsrlərə
Xəyanətin boz kölgəsi.
Neçə-neçə Səhl-Sumbat
baş qaldırdı o kölgədən,
Səsi gəldi o ölkədən, bu ölkədən.
Səhl-Sumbat,
Dünən maskan gülüş idi,
Bu gün nədir?
Gəliri də, çıxarı da,
Mayası da,
Maskası da
bilməcədir,
bilməcədir!

Səni çox da qınamıram
Satqınlığı vaxtın özü
hünər saydı.
Məgər satan olardımı
Əgər alan olmasaydı?!

Avqust, 1979

BƏLİ ƏSƏBİYƏM

Mənə "əsəbisən" deyən – düz deyir.
Mənim nöqsanımı demək istəyir.
Söz atdın...
Könlümdə qopdu zəlzələ,
Bilmədim, nə zaman çıxdım özümdən.
Toxundun könlümə
üstəlik hələ
Deyirsən, lal olum, qışqırmayım mən?
Dəmir dəmirdi ki, toxunsan əgər
O da cingildəyər, o da səslənər.

Mən ki istəmərəm bir ürək sına,
Əsəbiyəm,
çünki həyəcanım var.
Hardasa bir haqqın tapdanmasına
Mən dözə bilmərəm, isti qanım var.
Mənə biganədir soyuqqanlılıq,
Hər şeyə öz ölçüm, öz tərəzim var.
Sənin qərəzinin mənə dəxli yox,
Mənim öz görüşüm, öz qərəzim var.
De, necə od tutub alışmayım mən –
Fikirsiz, məsləksiz ölü canlara?
Bəli, əsəbiyəm,
heç çəkinmədən
Mənim əqidəmə toxunanlara.

Dünyaya gəlmişəm, qanam.
Anladım,
ürəyim od tutub yanar.
Bəli, əsəbiyəm, çünki insanam,
Mənim nifrətim var, məhəbbətim var.
Quzuya da bəli,
Qurda da bəli?
Deyirsən, olmasın baxışım mənim?
Nöqsanım budursa əgər...
deməli,
Ancaq naxışımdır yanlışım mənim.

İyul, 1979

EKRAN QARALANDA...

– Qurtardı bugünkü verilişlərimiz
Dinləyin sabahın proqramını.
...Hələ ki, bu günüm bitməyib...
Nə tez
Sabaha keçirsən?
İnsafın hanı?

Sabaha caladın nə tez bu günü?
Ölməmiş sən ona kəfən biçirsən.
Tamam yaşamamış günün ömrünü
İndidən sabaha niyə keçirsən?

Yatmaq istəmirəm... Keçmə sabaha!
Gecənin ömrünü uzadaq bu cür.
Gənclik müftə imiş, qocalıq baha,
Fələkdən gün çalaq, ömürdən ömür.

Yatmaq istəmirəm... bitməyən günün
Başına dolanım, qoy dönüm hələ.
Sənincün bitibsə, amma mənimçün
Bitməyib, yaşayır bu günüm hələ.

Ekran qaralanda qurtarır günüm,
Uşaqlar yatmağa gedir birbəbir.
Ekrandan çəkilmə, başına dönüm,
Təklikdən canıma üşütmə gəlir.

Zamanı borc alaq biz gecələrdən
Duyub yaşamamaq zülüm deyilmi?
Yatmaq?
Nə görmüsən bu yatmaqda sən?
Yatmaq da bir cürə ölüm deyilmi?

Söykənsin söz sözə, baxsın göz gözə
Gecəni uzadaq, vaxt unudulsun.
Qarışsın dağ düzə, gecə gündüzə,
Müddətli ömrümüz müddətsiz olsun.

Yatmaq istəmirəm... hər anım əziz...
Gecədən kamımca doymadım hələ.
Hər gecə yatanda dəfn edirik biz
Ömrün bir gününü öz əlimizlə.

Ekranı qaraldımı – könül diksindi
Gecəni bəs necə başa vurum mən?
Səsinə səs gəzən qəlbimə indi
Təkliyi nə ilə unutdurum mən?

Ekran qaralanda, ey yalqız ürək,
Özümə yeganə dost saydım səni.
Ekran qaralanda –

Sən ey mənim tək
Yatmaq istəməyən, tapaydım səni.

Yanvar, 1979

ŞAİRLƏRİ ÖLDÜRÜRLƏR

Müstəbidlər başa düşmür şairləri.
O zaman ki başa düşür, fərman verir ölümünə
A.Voznesenski

Öldürdülər Nerudanı.
Öldürdülər ömrü boyu
Qəm çəkəni, dərd udanı,
Öldürdülər azadlığın nəğməsinə
Nəğməsilə saz tutanı...
Öldürdülər şairləri
Kimisini birdən-birə
Bıçaq ilə, Güllə ilə. Kimisini
ürəyinə yeridərək söz zəhərin
gilə-gilə...
Öldürdülər,
hədə ilə,
qorxu ilə,
təhdid ilə... Öldürürlər şairləri,
qana-qana.
Bilə-bilə.
Şairlərin dillərini bağlayanda
Öldürdülər onları öz əllərilə...
Ürəyini dəlib çıxan
fikirləri demək üçün,
Şair dözər hər zülümə.
Dodağını kilidləmək
Şair üçün bərabərdir

min ölümə!
Öldürürlər şairləri –
Öldürürlər, xəyalları,
fikirləri...
Yox-yox!
Fikir ölə bilməz.
O, şairin özündə yox,
sözündədir.
Ədalətlə cilalanan,
Həqiqətdən qüvvət alan
Qadir sözün qabağında
Güllə nədir,
atom nədir?..
O deyəcək öz sözünü.
Qaynayacaq, o daşacaq,
o coşacaq.
Söz – həmişə
Ədalətin düşmənilə
vuruşacaq!
Söz – yerlərdə sürünməmiş,
Dodaqlarda çiçək açmış.
Doğru sözün qabağında
Yalan sözün rəngi qaçmış.
Söz-nəbzidir,
haqq səsidir zəmanənin,
Aynasıdır zəmanənin.
Ey müstəbid, dünənə yox,
bu günə bax!
Sən aynanı sındırmamış

O aynada
Öz eybəcər üzünə bax!
Yalanların boyasıyla
bəzəsən də üzünü sən,

O aynada görəcəksən
düzünü sən!
Yaxşı görür
Şairlərin iti gözü
Yalan ənlik-kirşanın
Dalındakı murdar üzü!
Haqla-nahaq,
Gerçəkliklə yalançılıq
üzləşdiyi gündən bəri,
Öldürürlər şairləri...
Haqq istəmək,
Düz danışmaq
hələ qalsın bir tərəfə
Göz yaşı da,
hıçqırıq da
Yasaq olan bir ölkədə
Qatı zülmət işıqlıqda,
nur kölgədə...
Buna dözmək?
Necə dözmək?
Xunta qeyri-qanunidir.
Əxlaqsızın törəməsi
bicə dözmək,
Necə dözmək?

Oktyabr, 1973

50 YAŞIM

Mən necə oldu ki, çatdım əlliyə?
– Yox, deyə bilmərəm,
Dedilər: – Niyə?
Bir içim su kimi içdim mən onu.
Əllicə an imiş, demə, əlli il.

İllərin nə təhər sovuşduğunu
Bilərək yaşamaq, yaşamaq deyil.

Bilmədim...
Könlümün həyəcanları,
Qovladı bu dağdan o dağa məni.
Ömrün arzu dolu pilləkanları
Uçurdu budaqdan-budağa məni.

Gün doğdu...
Həvəslə,
Yanan ürəklə
Çalışdım, vuruşdum...
Gün axşam oldu.
İli qarşıladım təzə diləklə,
Bir də ayıldım ki, il tamam oldu.

Yol getdim...
Saymadım yağışı, qarı.
"Məqsədə tələsən dincəlməz" – dedim.
Yanımdan ötüşdü verst ağacları,
Macalım olmadı, saya bilmədim.

Elə qanadlandım,
Mən elə uçdum,
Sürətim döndərdi ayı həftəyə.
Arzular ardınca göylərə uçdum,
Yerin təqvimləri yaramır göyə.
Zəhər də içmişəm, bal da yemişəm.
Ömrümün yolları min keşməkeşdə.
Mən vaxtı heç zaman gözləməmişəm,
Vaxt özü qapımı döyüb həmişə.

Məni yaşadan da tələtüm oldu,
Dalğalar qoynunda ötdü anlarım.
Mənim zaman ölçüm, vaxt ölçüm oldu,
Ölçüyə gəlməyən həyəcanlarım.

Mühit dənizidir önümdə masa,
Ləpədir ömrümün hər anı, qardaş.
Dalğalar ürəkdə baş qaldırmasa,
Həyatda axtarma dalğanı, qardaş.

Yaşadım, bildirib vaxta həddini
Dəli dalğaları mən yara-yara.
Yaşadım...
Eşq olsun vaxtın həddini
Özünə sığdıran çırpıntılara!

Zirvədən ötübdür, döşə qar yağır,
Yel əsir,
qapını qış döyür...
Nə qəm.
Əllimi xərclədim...
Xoşbəxtliyimdir,
Neçəm qaldığını deyə bilmərəm.

Gah müdrik qocayam, cah cavanam mən,
Yadıma salıram gah da ilkimi.
Könlümə sığmayan tələtümümdən
Yaşadım əllimi bircə il kimi.

1975

QOCALAR

Çənə əl üstündə, əl çomaq üstə
Qocalar əyləşir tin başlarında.
Sinə bayatılı, könül şikəstə,
Ömür varaqlanır yaddaşlarında.

Yaşıdlar köç edib, cavanlar işdə
Tək-tənha oturmaq son əlacları.
Həyatın amansız yalqızlığında
Tutur əllərindən əl ağacları.
Yumub gözlərini düşünür onlar.
Durur göz önündə ötən zamanlar.

Yerdə çuxur açır çomağın ucu,
Sonuncu həddinə dirənib ömür.
Dünyadan aldığı, dünyaya borcu
Nəymiş?
Düşüncənin sonu görünmür.

Çomağın ucuna dikib gözünü,
Onlar saatlarla oturar belə.
Fikir bir gəmi ki, bilinmir yönü,
Çırpınır, çıxammır ancaq sahilə.

Onlar düşündükcə boşalar, dolar.
Birdən düyün düşər fikrin əvvəli.
Doqqazlar başında bizim qocalar
Düşüncə heykəli, fikir heykəli!

Əvvəllər deyərdim, onlar bu qədər
Bekarca oturub darıxmır məgər?

Kitab oxuyardım darıxmamqçün
Onların yerinə olsaydım əgər.

Bir qalın kitabmış hər ömür, demə,
Oxumaq istəsən, yum gözlərini.
Bukar deyilmişlər...
Ürəklərində
Onlar oxuyurmuş öz-özlərini.

Yanvar, 1976, Ağdaş

TƏSKİNLİK

İlləri dən kimi zaman üyütdü,
Ocaq heydən düşüb, köz qaralıbdır.
Ömrün yayı keçdi, baharı ötdü,
Ömrün iztirablı qışı qalıbdır.

Onu da bilmirəm, qalıb, qalmayıb?
Bəlkə köçəcəyəm qışa çatmamış.
Amma həyat eşqi heç azalmayıb,
Köçmək istəmirəm qışı dadmamış...

Fəsillər gözəli – bahardı, yaydı.
Qış – əzab fəslidir...
Barı – şaxta, qar.
Ömrün dadı-duzu arxada qaldı,
Öndə əzabım var, iztirabım var.

Vaxt boyu kiçiltdi, yaşı böyütdü,
Zaman verdiyini birbəbir alar.
Başımın üstündən ötdü, nə ötdü
İllərin köç edən səfi – durnalar.

Gözümə tor gəlir... Beləmi gərdiş.
Başıma gələnlər qədərdən gəlib.
Demirəm, gözlərim toran gətirmiş,
Deyirəm, havaya duman, çən gəlib.

Ağlımla hər şeyi görürəm, nə qəm,
Baxmadan seçirəm qaradan ağı.
Baxıram, yaxını görə bilmirəm,
Uzağı görürəm, ancaq uzağı.

Dəmdən düşdüyümü bildirməsəm də,
Zaman öz işində, öz işindədir.
"Hiss edə bilmirəm yaşı" – desəm də,
Bilirəm yaş nədir, ömür, gün nədir?..

Mənim öz məclisim, mənim öz yerim,
Çılğın duyğulardan yaşım çəkindi.
Gözəl qız görəndə yanan gözlərim
Oğluma gözaltı axtarır indi.

Bəs bu nə sövdadır, bəs bu nə həvəs?
Ölümü özümdən gen sayıram mən.
Cavanlar yanında bu nədəndi bəs
Yaşımı deməyə utanıram mən?

Ürək bu dünyadan küsdü, incidi,
Yaşımı birisi salırkən yada.
Dünya uşaq idi, dünya gənc idi,
Mənimlə bərabər qocalır o da.

Ayları, illəri çəkdim tarıma,
Yoxsa bezdirmişəm qoca dünyanı?
Yaşımı artırıb həmyaşlarıma
Uşaq tək baxdığım günlərim hanı?

Özümdən irəli baxırdım onda,
İndi arxadadır qəsdim, gümanım.
Dumanlı xatirə yağışlarında
İslanır ürəyim, islanır canım.

Kədərli anlarda anıram hərdən
Kimlər gəlib keçdi, dünyadan kimlər?
Bu, niyə belədir?
Yaşlaşdıqca mən
Oyanır ruhumda çox-çox qədimlər...

Atam, babam girir yuxuma tez-tez,
Andıqca rəngbərəng əməllərimi.
Yuxumda atamla atam kimi yox,
İndi danışıram həmyaşım kimi...

Nədir bu tələşlər, heç sorma, könlüm,
Üzməsin bu yolda kədər, qəm səni.
İtən gəncliyini axtarma, könlüm,
Axtarsan, qorxuram itirəm səni.

Təzə pöhrələrə o məğrur günəş
Verib istisini qüruba endi.
Mənim itirdiyim o od, o atəş
Oğlumun gözündə alışır indi.

Dünya təzələnsin! Görüşüb qışla,
Bu haqqı həm bilən, həm danan mənəm.
Köhnə dünyamıza təzə baxışla
Övladlar gözündən boylanan mənəm.

İyul, 1978

TAPMAQ – İTİRMƏK

Bir eniş var
sonunda
Hər dikin,
Hər yoxuşun.
Yerə bir enmək də var
Uçuşunda hər quşun...
Bu yollar dolay-dolay,
Fikirlər qoşun-qoşun.

Dolaşırıq dünyanı
Əldə dəmir bir əsa,
Ayaqda dəmir çarıq.
Biz tapdıqca itirir,
İtirdikcə tapırıq.

Həvəsimiz, meylimiz
Gah suyadır, gah oda.
Tapdığımız qədər də
İtiririk dünyada.
Sonda sevincə dönür
Çəkdiyimiz əzablar.
Uduzduğum – ömürdür,
Qazandığım – kitablar.

Nehrəni çalxamadan
Süd də dönüb yağ olmur.
Nəyisə itirmədən
Nəyisə tapmaq olmur.
Hər gəliri-çıxarı
Çəkir mizan –tərəzi.
Hər əyləncə, hər səfa

Bir cəfanın əvəzi!
Qazancın iki ucu:
Həm xeyri, həm bəlası –
Yollardakı qəzalar
Sürətin öz bahası...
Nağıl döndü gerçəyə:
Bu məqamda biz artıq
Sürəti yox,
əyləci
Tapana minnətdarıq.

Hara gedir bu sürət –
Hara gedir bu gərdiş?
Bizim yaratdığımız
Bizə qənim kəsilmiş.

İztirabsız bir fərəh,
Əziyyətsiz bəhər yox.
Həyatın qiymətini
Ölümlərə borcluyuq.

Könül duymaz sevinci
Ona zülüm olmasa.
Həyat bizi bezdirər
Əgər ölüm olmasa.
Həvəsimiz, meylimiz
Gah suyadır, gah oda.
Tapdığımız qədər də
İtiririk dünyada.

İyul, 1980

SƏN OLURAM MƏN

Yaxşı ki, ayrıyıq,
Yaxşı ki, bizdən
Çırpıntı, sarsıntı əl üzmür yenə.
Həyatı öyrəndik həsrətimizdən,
Odur ki, həmişə möhtacam sənə.

Rəngi bir,
dadı bir
toyun, büsatın
Həsrət min rəng çəkir gözlərimizə.
Yaxşı ki, ayrıyıq,
bu dərd həyatın
Dərin qatlarını göstərir bizə.

Yanımda olanda uzaqdasan sən
Mən səni görmürəm olduğun kimi.
Səndən ayrıldımmı,
hər yerdə sənsən
Mən görə bilmirəm, vallah, heç kimi!

Yanında bir quru cisməm özüm də,
Ayrıldım,
ruh olub əriyirəm mən.
Eşitmir qulağım,
Görmür gözüm də.
Arzudur eşidən, həsrətdir görən.
Adi bir insanam,
Sənin yanında
Başqa qayğılarla yaşayıram mən.
Elə ki, ayrıldım,
qəm dumanında

Fikrimin ilki də,
Sonu da sənsən!
Yanında rahatam, sakitəm tamam,
Ayrıldım, od tutub alışır ürək.
Rahatlıq – ölümdür,
Hələ mən sağam.
Mənə tufan gərək,
həyəcan gərək!

Vüsal dəmlərində sən nur, mən çıraq,
Görürəm, mən mənəm, sən də sənmisən?
Ayrılıq dəmləri sən, sənsən, ancaq
Bilmirəm, bəs niyə mən olmuram mən?

Səndən ayrılanda vahidəm, birəm,
Həm də bir hədəfə vuruluram mən.
Yanında, həmişə ikiləşirəm,
Ayrıldım, çevrilib sən oluram mən.

Avqust, 1980

CAVAB

İranda Azərbaycan xalqının milli varlığını danan, xalqımızı farslardan dönmə hesab edən "alimlər" peyda olmuşlar. Bunlardan biri də milliyyətcə azərbaycanlı olan Yəhya Zəkadır.

Özgə qapısına daş atan – azğın,
Sən özgə daşını özünə atdın.
Özgəyə qənimi çox eşitmişik,
Özünə qənimi sənmi yaratdın?

Nədir bu böhtanlar, bu uydurmalar?
Fitnə kökündədir çaldığın bu saz.
Siyasət fitinə könülsüz, naçar
Zaman oynasa da, tarix oynamaz.

Zamanın süzgəci narından narın,
Keçirir hər sözü neçə ələkdən.
Özünə qalacaq uydurmaların,
Gördünmü zir-zibil keçə ələkdən?

Mən yaxşı bilirəm məqsədin nədir,
Uydurma tarixin məramı nəymiş.
Nəsimi, Füzuli, Xətai, Sabir
Səncə, Firdovsinin yetimləriymiş.

Sənin şanın hanı, şərəfin hanı?
Əyilmə özgəyə öz mənzilində.
Nənən bayatını, anan laylanı
Niyə çağırmadı bəs fars dilində?

Altay dağlarını baban aşanda,
Ağan bu cürəti heç danmamışdı.
Qorqud öz dilində nəğmə qoşanda
Sədinin qəzəli yaranmamışdı.

Tarixlər yaradıb tarixdən qədim
Bu xalqın qılıncı, Bu xalqın sözü.
Bəs necə oldu ki, ey dönük alim,
Biz olduq özgənin tör-töküntüsü?

Cırtdan nağılını danışdı nənən,
Bu nağıl qanana ibrətdir bu gün.
Divə əyilmədi Cırtdan...

Amma sən
Qarğa qabağında sərçəyə döndün.

Ey sözündən əmin, özündən razı,
Yalanı söylədin kimin adından?
Ananın laylası, atanın sazı,
Babanın ocağı çıxdı yadından?

Anan duasında dedi: "Ya Allah,
Balamın həmişə üzü ağ olsun.
Elə yaşasın ki, el ona pənah,
O da el-obaya bir dayaq olsun".

Dayaq olmalıykən öz elinə sən,
Elin kürəyində bir bıçaq oldun.
Sən igid olmalı, ər olmalıykən,
Özgənin əlində oyuncaq oldun.

Bu halda sən kimsən, nəçisən, düşün,
Xalqının başında özgə yumruğu!
Ömrünü-gününü qoltuqda sürdün,
Səni isitdimi özgə qoltuğu?

Su töküb özgənin dəyirmanına,
Özün inandınmı öz yalanına?
Çəkdiyin boyalar pozuldu yenə,
Yağanda zamanın gur yağışları.
Tarix sillə kimi çəkdi üzünə
Özgədən aldığın o alqışları.

Özgənin şoruna sən qaymaq deyib,
Demə öz südünə bulama, Yəhya,
Sən bu gün tüpürüb öz boşqabına,
Özgə boşqabını yalama, Yəhya!

De, hardan öyrəndin sən bu oyunu?
Qamış tapılmadı ölçəm boyunu.
Sən öz bostanının kəsib suyunu,
Özgə bostanını sulama, Yəhya.

Onsuz da özgəyə sən yadsan, oyan,
Canını versən də boyatsan, oyan.
Sən onun əlində alətsən, oyan,
Özünü özgəyə calama, Yəhya!

Ağan hökm elədi... haqq bildin onu,
Yerinə yetirdin hər buyruğunu.
Söyüb öz dədəni, sən quyruğunu
Özgənin önündə bulama, Yəhya!

Sən ki, inanansan Allaha, dinə,
Bəs bu nə lotuluq, bəs bu nə fitnə?
Sən öz çirkabına,üfunətinə
Gəl, bu boyda xalqı bulama, Yəhya!

Qatma yad mayası sən öz nehrənə,
Söymə təndirinə, söymə təhnənə.
Özgə məhləsindən sən öz məhlənə
Belə cani-dildən ulama, Yəhya!

1984

XATALI YUXU

Adların üstünə adlar calandı,
Bu nədir?!
Gözlərim alacalandı.
Şöhrət cədvəlində ad böyüdükcə
İstedad büküldü, balacalandı.

Xatalı yuxudur şöhrət yuxusu,
Canıma od saldı onun qorxusu.
Bu yuxuya uyan yatar, oyanmaz.
Dəbdəbə axtarar, təmtəraq gəzər,
Sürət qatarına necə də bənzər,
Kiçik obalardan ötər, dayanmaz.
Ancaq qulaqlarda qalar fit səsi.
Amandır, qorxuram, şöhrət zirvəsi
Razılıq təxtinə qaldıra məni.
Zirvə saymamışam, mən bir zirvəni.

Hara tələsirsən, dayan, ey qatar,
Ayağım altından torpaq qaçmasın.
Böyüklü, kiçikli ellər, obalar
Olarmı şairə könül açmasın!
Ağrıdan, acıdan yaranır əsər,
Ölər yaşanmamış söz bələyində.
Bitməmiş,
bitəməz böyük bir əsər
Özündən razılıq kölgəliyində.

Şöhrətin yükünü düşündünmü bəs?!
Min şöhrət bir borcu ödəyə bilməz.
Qorxum ondandır ki,
ömrün qışında
Bahar çiçəkləri üzə gülməsin.
Sənətlə şöhrətin bu yarışında
Şeirim şöhrətimə çata bilməsin.
Min şöhrət yaradır bəzən bir şeir,
Min şöhrət bir şeiri yarada bilmir.
Sənəti şöhrətə yedək olanlar
Sonsuz olduğunu gorunda anlar.

Rahatlıq gəldimi,
Könül dincələr,
Xəzanı gəlməmiş susar söz bağım.
Bütün bu fikirlər, bu düşüncələr –
Özümün özümə xəbərdarlığım!

1984

XEYİR – ŞƏR

Təbiət insana iki əl verib,
Kiminsə əlindən tutub qaldıraq.
Bizə əməl üçün bir ağıl verib,
Çayların üstündən körpülər quraq.
Anamız, atamız bizə dil verib,
Darda çırpınanın halını soraq.

Dillər yaranıb ki, mahnı deyək biz,
Dillər yaranmayıb yalan deməkçün.
Mahnıda birləşir hisslərimiz,
Yalanda ayrılır yollar büsbütün.
O əli, o dili, o ağlı bəzən
Xeyirli işlərə işlətmirik biz.
Bu günə dəm tutan əməlimizdən
Suala çevrilir gələcəyimiz.

Hər duyan ürəkdən bir cahan keçir,
Əlvan boyalıdır dünyanın donu.
Kimi xalq yolunda canından keçir,
Kimi vəzifəyə satır xalqını.

Xalq var, özü odsuz, ocaqsız qalır,
Odundan qonşuya pay verir özü.
Xalq da var, o odu əvəzsiz alır,
Qonşu torpağına dikilir gözü.

Vicdanın güvəsi – tamah dağını,
Aşa bilənlərə insan dedik biz.
Yalandan, riyadan qazandığını
Vicdansız gerçəkdən qazana bilməz.
Min bir rəng yetirir bir rəngdə torpaq,
Həm şəfa, həm ölüm yatır zəhərdə.
Kol-kos da bitirir, çiçək də torpaq,
Ağlın meyvəsidir xeyir də, şər də.

Yaxşı da, yaman da bizdədir deyin,
Nə onun, nə bunun öz odu yoxmuş.
Xeyir-şər qol-qola! Nə yüksəkliyin,
Nə də alçaqlığın hüdudu yoxmuş.

Böyük bir millətin taleyi bəzən
Tum kimi çırtdanıb tüpürülürkən,
Məəttəl qalırsan şərin hökmünə.
Baxırsan arxaya, baxırsan önə
Nələr törəyərmiş qərəzdən, kindən.
Deyirsən, insanın hafizəsindən
Həqiqət silinib unudularmış.
Xeyir də bu qədər məhkum olarmış?
Qoy nağıl oxusun siyasətçilər,
Onların qəlbinə nağıl nur çilər.
Nağıl dinləyənin fikri ucalır,
Xəyaldan yol açır o, həqiqətə.
Həmişə nağılda qələbə çalır,
Həqiqət yalana, işıq zülmətə.

Mart-avqust, 1986

TAMAH – LƏYAQƏT

I

Nəfsinə qul olsan... Nə deyim sənə?
Ağlına güvənmə, güvən mədənə.
Adın insan olar, özün böcəksən,
Boyundan yüz dəfə kiçiləcəksən.
Dünyanı udsan da, doymaz gözlərin
Dibi görünməyən quyudur tamah.
Adəmdən Hatəmə dəyirman təkin
Nə töksən,
əridir,
üyüdür tamah.
Özünü yüz dəfə kiçildib, amma
Mədəni yüz misli böyüdür tamah.

İnsan dərk edirsə bu gerçəkləri,
Onun zatındakı tamah bəs nədir?
Cənnəti almaya satandan bəri
Tamah, ləyaqətlə bəhsəbəhsdədir.

Nəfsinə uyanın
dövri – qədimdən
Həmişə silahı xəyanət oldu.
Bu da qəribədir,
Bəs, neçin, görən,
Tamahın qurbanı ləyaqət oldu?
Ağlı mədəsindən xırda gədələr
Dünyanı yedirdi öz niyyətinə.
Kəsib tamahından ulu dədələr
Caladı həmişə ləyaqətinə.

Alçalda-alçalda şəxsiyyətini
heç olur
Şərdən də xeyir güdənlər.
Ac qalar, alçaltmaz,
ləyaqətini
tamah qılıncına qalxan edənlər.

Acgöz "qazancında" yenə uduzdu
Çünki o pozdu –
Tamahla ləyaqət arasındakı
Nazik xətləri.
O, görə bilmədi adi bir korun
Yaxşıca gördüyü həqiqətləri...
Sərvətə qul olan bir rüşvətxorun
Xəlvət qazandığı var-dövlət oldu,
Aşkar itirdiyi ləyaqət oldu.

II

Meymun – ləyaqətin insan övladı.
Ləyaqət – insanın ikinci adı.
Ləyaqət – insana ən doğru ünvan.
İnsan bu ad ilə dördayaqlıdan
İki ayaqlıya bir tarix keçdi.
İnsan qətrə – qətrə insaniləşdi
Yalnız öz insanlıq ləyaqətilə...
Qazandıq bu adı biz gilə-gilə.
İndi ləyaqətlə qazandığımız
İnsanlıq adını itirəkmi biz?

Oktyabr, 1985

AXI, DÜNYA FIRLANIR...

Vaxtın dəyirmanında daş əridi, qum oldu,
Tarixə atdığımız qayıtdı, lüzum oldu.
Dünənin həqiqəti bu gün tərs yozum oldu,
Niyə də yozulmasın, axı, dünya fırlanır.

Çox ovlaqlar içində çox ovları ovladım,
Aşıb – daşan arzumu mən artıq cilovladım.
Mən atamı ötmüşəm, məni ötür övladım,
Bu, belə də olmalı, axı, dünya fırlanır.

Dünən düz sandığımı bu gün əyri sanıram,
Bəzən olur, özümdən özüm oğurlanıram.
Hər il başqa arzunun başına fırlanıram,
Niyə də fırlanmayım, axı, dünya fırlanır...

Çox əyilən görmüşəm, əyilməyən başları,
Sular duruldu, gördük dibindəki daşları.
Ünvanını dəyişdi dünənin alqışları
Niyə də dəyişməsin, axı, dünya fırlanır.

Necə dönür bu dövran, necə dönür bu
gərdiş,
Tazıların üstünə dovşanlar da gülərmiş.
Dünya bina olandan hər şey dəyişilərmiş,
Dəyişməsin neyləsin, axı, dünya fırlanır.

Əbədini dünyada mən əbədi sanmadım,
Bir atəşə tutuşdum, min atəşə yanmadım.
Bütlər gəldi və getdi, birinə inanmadım,
Niyə inanmalıyam, axı, dünya fırlanır.

Fırlandıqca bu dünya, yox da dönüb var
olur,
Quruyan çeşmələrdən sular yenə car olur.
Bu dünyanın xeyri də, şəri də təkrar olur,
Niyə təkrar olmasın? Axı, dünya fırlanır.

Min-min illər bu dünya beləcə fırlansa da,
Bir yuvanın bülbülü min budağa qonsa da,
Aylar, illər, fəsillər bir-birini dansa da,
Dəyişməzdir əqidəm, çox da dünya fırlanır.

Nə qədər istəyirsə, min o qədər fırlana,
Qarşıma gah şər çıxa, gah xeyir dığırlana,
Çərxi fələk istəyir, lap dolana tərsinə,
Əqidəmi heç nəyə dəyişmərəm mən yenə.

Oktyabr, 1985

LƏZZƏTİ – AĞRISI

Gülün ləçəyində od varaq-varaq,
Bilmirik hardandır bu rəng, bu ətir.
Gül də iztirabdan doğulur, ancaq
Rəngi də, ətri də yanmaqdan gəlir.

Yanır önümüzdə ocaq gürhagur,
Biz də qızınırıq alışan oda.
Bilmirik, ağacın can ağrısıdır
Alışan kösöyün alovları da.

Oturub evində yalnız həzz üçün
Şerimi oxuyan oxucum,
Düşün!
Sənin ürəyinə istilik verən

Bu duyğu, bu alov hardandır, görən?
Düşün, sən düşün!
Ətrimi iylədin, rəngimi gördün.
"Gözəldir" – dedin!
Ancaq bilmədin,
O rəng, o ətir
Böyük bir yanğıdan bircə qətrədir.
Oxu dərin- dərin, duy dərin-dərin,
Ey mənim könlümü təftiş edənim.
Duysan, bilərsən ki, bu şeirlərin
Ləzzəti sənindir, ağrısı mənim.

İyul, 1982

VAXT

Uşaqlığım,
Gəncliyim,
ahıllığım – eynimi?!
Yox, hər biri başqadır, bir-birinə yad kimi
Gələn qovur gedəni.
İnkar edir mən, məni...
Ömrün hər pilləsində başqalaşır təbimiz,
Dünyada məqsədimiz, dünyadan tələbimiz.
Vaxt məni pərvanətək başına dolandırır,
Dünən qanmadığımı bu gün mənə qandırır.

Kim döşünə döyər ki,
Mən vahidəm, mən birəm!
Bircə bunu bilirəm: mən güclüyəm,
qadirəm.
Mən gücsüzəm, acizəm təkcə vaxtın əlində.
Ömrün o sahilinə əlim yetə bilməyir
Ömrün bu sahilində.

Hanı gözümün nuru,
Hanı qəlbimin qoru?
Kimdir udan, uduzan zaman ilə arzunun
əbədi yarışında?!
Saçımın ağlığında, alnımın qırışında
Zaman necə at çapır, yüyəni öz əlində.
Oğulsansa, tap görək, kimdir atın belində!
Mən öz azadlığıma tanrı dedim, haqq
dedim
Bir hökmə, bir fərmana mən başımı
əymədim.
Amma vaxtın dalınca
Ömrüm boyu qul kimi necə sürünmüşəm
mən,
Qolumdakı saatın quluna dönmüşəm mən.

1985

YALAN HAKİM OLUB

Qorxu kölgəsinə sığınmış bu gün
Sədaqət, dəyanət, məhəbbət, allah.
Yalan hakim olub, böhtan gözətçi,
Çürüyür zindanda həqiqət, allah.

Əyri əyriliyi yeridir daşa,
Keçib əyriliklə hamıdan başa.
Doğru həsrət qalıb isti bir aşa.
Görən hara gedir bu millət, Allah.

Həftələr dəyişdi, günlər dəyişdi,
Tərəflər dəyişdi, yönlər dəyişdi.
Qiblələr dəyişdi, dinlər dəyişdi,
İtə ot verilir, ata ət, Allah.

Ünvanı dəyişib rəzalətin də,
Qaymaq da satılır şor qiymətində.
İndi sədaqətin səltənətində,
Əyləşib hökm edir xəyanət, Allah.

Ha çığır, ha bağır, yatan ayılmaz,
Yaxşını yamandan ayıran olmaz.
Satsan, üzünə də baxan tapılmaz,
Necə ucuzlaşıb ləyaqət, Allah.

Yalanlar həqiqət qiyafəsində,
Yeklər cövlan edir şeş xanəsində.
Oğrular, əyrilər zəmanəsində
Əyrilik sayılır fərasət, Allah.

İyul, 1989

HƏM OĞUL, HƏM ATA

Hamı adilikdən qalxıb ucalmaq,
Hamı bu millətə ağsaqqal olmaq,
Hamı bu ölkəyə gətirmək deyil,
Hamı istəyini almaq istəyir.
Fərmanı yerinə yetirmək deyil,
Ölkəyə fərmanlar vermək istəyir.
"Məndən ağıllısı tapılmaz" – deyir.

Masa hərisləri nə yaman çoxdur,
Hanı bu Vətəni düşünən ürək?
Millətin adından danışan çoxdur,
Millətin dərdinə alışan gərək.
Görünmür bu yolda nə əvvəl, nə son.
Gün kimi bəllidir: yeddi milyonun

Dərdini köksündə yaşatmayan kəs
Bu boyda millətə baş ola bilməz.

Özümüz yanırıq öz dərdimizə,
Dünyanın qulağı kar olmuş bizə.
Bizim haqqımızı boğur siyasət,
Haqqı sübut edən şahidimiz yox.
Sıfıra dönübdür başsız bu millət,
Sıfırlar önündə vahidimiz yox!

Kimisə yendirən, kimisə yenən,
Ürəyi piylənən, beyni piylənən,
Vicdanı piylənən yekəqarınlar
Dərdini nə bilsin bu ac millətin,
Adicə insafa möhtac millətin.
Xalq üçün yananlar qapı dalında,
Xalqı talayanlar cah-cəlalında.
Halımız, günümüz çətin, çox çətin!
Nəyi gözləyirik? Bütün millətin
Ürəyi nəbzində döyünən kəsi,
Özüylə, dostuyla, tayfasıyla yox,
Böyük millətiylə öyünən kəsi
Tanıyan var isə göstərsin bizə,
Gəlsin rəhbər olsun millətimizə.

Millət Qarabağda qırılan zaman
Oğlunun toyunda çalıb-oynayan
Adamdan millətə baş ola bilməz,
Bu xalqın özündən ağır yükünü
Çəkən arabaya qoşula bilməz.
Xalqın yanğısına alovlanmayan,
Cəbhədə can verən şəhid əsgəri
Özünə doğmaca övlad sanmayan
Necə ola bilər xalqın rəhbəri?

Bu Vətən mənimdir, bu Vətən sənin
Səngərdə əsgərə dəyən güllənin
Ağrısı qəlbində göynəməyən kəs
Bu boyda millətə baş ola bilməz.

Millətçün yananı göstərin mənə,
İnanım mən onun böyüklüyünə.
Elə bil ilişib zaman zamanda
Nə ilə bitəcək bu dərdin sonu?
Şuşada, Şellidə, Kərkicahanda
Atılan topların gurultusunu
Bakıda evində eşitməyən kəs
Vallah, bu millətə baş ola bilməz.

* * *

Yel əsdi, tərpəndi, dindi məmləkət,
Kompassız gəmidir indi məmləkət,
Hara getdiyini özü də bilmir.
Lövbər ilişmişdi, zaman açsa da,
Bir addım irəli o gedə bilmir.
Sükançı göstərin indi siz mənə,
Gəlsin, dalğaları o, yara bilsin,
Verib sinəsini ləpədöyənə
Gəmini irəli apara bilsin.
Bir oğul göstərin indi siz mənə
Millətə həm ata, həm oğul olsun.
Çox gördük xalqını qul edənləri,
Eləsi gəlsin ki, xalqa qul olsun.
Elə bir namizəd göstərin mənə
Dolanım başına, dönüm gözünə.

Aprel, 1992

ƏGƏR QORUNMAZSA İSTİQLALIMIZ

Qəribə zamanda yaşadıq, oğul,
Bilmədik maskayla üzün fərqini.
Vallah, seçilmədi hiylədən ağıl,
Bilmədik əyriylə düzün fərqini.

Yaşadıq birtəhər, yazdıq birtəhər,
Zaman bizim üçün müstəbid oldu.
Dil – açar olmadı,
ağla gələnlər
Dildə kilidləndi, dil – kilid oldu.
Ağlın dediyini demədi dillər,
Bizi bağışlasın gələn nəsillər.

İzlədi hamını qorxu, təhlükə
Haqqın, ədalətin öldü anası.
Oldu başdan-başa o boyda ölkə
Məhkum millətlərin həbsxanası.
"Bərabər olmalı – dedilər – hamı",
Yasa döndərdilər toyu, bayramı.

Bərabər tutuldu od-alov suya –
Yaxşılar yamana, oğru doğruya.
Hər şey alt-üst oldu, qarışdı aləm,
Bağının barını el dərəmmədi.

Varlını yoxsula döndərən qələm
Yoxsulu varlıya döndərəmmədi.
Hər şey öz əksiylə yerbəyer oldu,
Hamı yoxsulluqda bərabər oldu.

Tapdandı əzmimiz, şəxsiyyətimiz,
Mənlik sürgün oldu, yad oldu bizə.

Nə simamız qaldı, nə sifətimiz,
Hamımız bənzədik bir-birimizə.

Yalan zurnasına oynadı ölkə,
Yalan əqidəyə, mərama döndü.
Sinəmiz altında ürək yerinə
Yalan dilə gəldi, yalan döyündü.

Hələ torpağa da yalan əkdilər,
Yalan əkilmişdi, yalan dərildi.
Dünyaya dəmirdən pərdə çəkdilər
Millət əsarəti səadət bildi.

Qaranın üzündə bəzən ağ ləkə!
Vaxtın ələyində hər şey ələndi.
Qəribə aləmdir, qalib bir ölkə
Məğlub etdiyinə əl açır indi.

Azadlıq, səadət haqqımdır mənim,
Allah çox görməsin bu haqqı bizə.
İstiqlal yolunda qurbanlar verib
Axır yetişmişik istəyimizə.

İplər qırılsa da, bilmirəm hələ
İpin ucundakı o qarmaq nədir.
Uzaqdan qurulur bizə min tələ,
Şeytanın barmağı evimizdədir.

Ey xırda millətlər, ayıq olun siz
Hələ çalxalanır bulanıq dəniz.
Verdiyi vədini tez unudan var,
Bulanıq sularda balıq tutan var.
Girib qılığına, alıb könlünü
Saçı sığallayıb başı vuran var,

Atı torbasıyla vuruşduran var.
Xırda millətləri "ayır, buyurla"
Bir-birinin üstə salışdıran var.
Odlu nöqtələrdə səngiyən odu
Püfləyib təzədən alışdıran var.

Çıxsa da əlindən xalqlar, ölkələr
Ölməyib o iblis, o Şeytan hələ.
Hələ ümid verir ona bəlkələr,
Düşməyib amirlik taxtından hələ.

Üç yüz il dünyaya qan udduran taxt
Çürüyüb, sahibi inana bilmir.
Ondan üz döndərib bu dövran, bu vaxt
Bu böyük gerçəyi o qana bilmir.
Həqiqət, ədalət məhkəməsinə
Qol çəkir, qolundan utana bilmir.
Tərgitmək istəmir köhnə vərdişi,
Anlaya bilmir ki, qırılıb dişi.
Kiçik balıqları üyüdə bilməz,
Daha köhnə yolla o, gedə bilməz,

Yoğrulub İblisin mayası kindən,
İblis ləzzət alır öz pisliyindən.
Ölüm anında da əl çəkən deyil,
O öz vərdişindən – iblisliyindən.
İndi ki, belədir...
Nə deyim artıq?!
Budur durumumuz, budur halımız;
Bizi məhv eləyər arxayınçılıq,
Əgər qorunmazsa istiqlalımız!

İyul, 1992, Şəki

HAQQI YOX

Cavanşir Quliyev bəstələmişdir

Yad əlində tapdanırkən şərəf, şan,
Türkün türklə ədavətə haqqı yox.
Hər işimiz başlanırkən sıfırdan
Türkün türklə ədavətə haqqı yox.

Dayaq olsun bu gün gərək sol sağa,
Bu vəhdətdən yurdumuza gün doğa.
Bütün millət dönməliykən yumruğa
Türkün türklə ədavətə haqqı yox.

Tarix bizi imtahana çəkirkən
İmdad umur hamımızdan bu Vətən.
Dünya da haqq səsimizə kar ikən
Türkün türklə ədavətə haqqı yox.

Sındırıldı dəyirmanda pərimiz,
Əsir oldu divə bizim Pərimiz.
Dağılırkən ocağımız, pirimiz
Türkün türklə ədavətə haqqı yox.

Nə çox imiş bu torpağa göz dikən,
Baxa-baxa gözümüzə mil çəkən.
Düşmənimiz dostumuzdan çox ikən
Türkün türklə ədavətə haqqı yox.

Sinəsini yarmalıyıq zülmətin,
Bu məqsədə getdiyimiz yol çətin.
Hər gün neçə şəhid verən millətin
Bir-birilə ədavətə haqqı yox.

İyun, 1992, Şəki

SÖZ OLUB

"Düşdüyümüz oyuna bax"

Kürsü qalır, oturanlar dəyişir,
Gələn deyir, gəlişimlə yaz olub.
Bircə ili başa vurub qışqırır:
"Dəyişdirdim, əyri dönüb düz olub".

Sən yalanın boyuna bax, ay Allah,
Divanına, toyuna bax, ay Allah.
Düşdüyümüz oyuna bax, ay Allah,
Otuz ilin fahişəsi qız olub.

İpək imiş açılmamış barama?
Hər çiçəkdən məlhəm olmaz yarama.
Hər dənizdən sən mirvari arama,
Yaxşı pisdən, qızıl misdən az olub.

Alqışlara, tərifərə uyma çox,
Nüfuzunu dağ başına qoyma çox,
"Mən, mən" deyə öz döşünə döymə çox
Hansı sərçə ləpirindən iz olub?

Gördüm vaxtın fitnəsini, felini,
Ey Bəxtiyar, saxla görək dilini.
Sındırıblar həqiqətin belini,
İndi dönüb ağızlarda söz olub.

1988-1995

DİDƏRGİN

Başına haranın külünü töksün
Sinəsi əzabdan dağ-dağ didərgin.
Təzə Vətənində qərib, çəkingən
Köhnə Vətənindən qaçaq didərgin.

Başının üstündə öz tavanı yox,
Yavanlıq bir yana, heç yavanı yox.
Bu günə, sabaha bir gümanı yox,
Ay özü özündən uzaq didərgin.

Əsdi, hardan əsdi bu səmum yeli?
Əl başı kəsmədi, kəsdi baş əli.
İsti yuvasından perik düşəli
Gah orda, gah burda qonaq didərgin.

Hamının arzusu onunla birkən
Xeyirə dolanmır yenə bu örkən.
Özü bu dünyadan haqq istəyirkən
Adını qoydular nahaq didərgin.

Könlündə köz tutub Vətən həsrəti
Qurtarıb gileyi, sözü-söhbəti.
Öz acı taleyi, öz müsibəti
Özünün başına qınaq didərgin.

Soyuq baxışlardan xoş xəbər umar
Ağlamaz, göz yaşı ahından damar.
Ümidsiz sabaha o, ümid yamar
Ümidi ömrünə yamaq didərgin.

İyul, 1993, Şəki

KÖRPÜ ÇAYDAN UZAQ DÜŞÜB

Dostum H.Şirməmmədə

Hələ toxum cücərməmiş,
Tarlamıza alaq düşüb.
Başımız da daz olalı,
Əlimizə daraq düşüb.

Xəyallarım – qanad-qanad,
Ətəyimdən dartdı həyat.
Dünənimə Dürat, Qırat,
Bu günümə ulaq düşüb.

Əlim üzüldü diləkdən,
Dilim yandı "gəl" deməkdən.
Öz haqqını gözləməkdən
Haqqın gözünə ağ düşüb.

Bu tayda sən, o tayda mən,
Üzəmmədim bu çayda mən.
Ömr əritdim harayda mən,
Körpü çaydan uzaq düşüb.

Dekabr, 1992

İNSAN KİMİ SAXLA MƏNİ

Ulu tanrı, köməyim ol,
Arzuma adaxla məni.
Məni insan yaratmısan,
İnsan kimi saxla məni.

Göl olmuşam dama-dama,
Məlhəm qoyma sən yarama.

Bu sevdaya bu mərama
Daha betər bağla məni.

Fikirlərim qatar-qatar,
Biri atar, biri tutar.
Yaxınlara əlim çatar,
Qovuşdur uzaqla məni.

Dünənimi dana-dana
Göz dikirəm gündoğana.
Əgər gündə bir zindana
Çəkic vursam, ağla məni.

Ey ümidim, ey gümanım,
Sözüm haqsa, necə danım?
Qurban olsun haqqa canım,
Nahaq işdən saxla məni.

Soruşdular: Kimdir mənim
Yaxşıma da pis deyənim?
Həm dostum, həm də düşmənim
Göstərdi barmaqla məni.

İyul, 1991, Şəki

BİLƏ BİLDİYİN QƏDƏR

Əzizim Nurəddin üçün

Çal dünyadan xoş günü
Çala bildiyin qədər.
Verəcəksən, unutma
Ala bildiyin qədər.

Quzu kimi mələrsən,
Min-min arzu dilərsən.
Sən boşala bilərsən
Dola bildiyin qədər.

İdrak yolu qorxulu
Gülündən çoxdur kolu.
Gedəcəksən bu yolu
Gələ bildiyin qədər.

Nəyə gərək gileylər
Bu çabalar, bu səylər
Bildiklərin bəs eylər
Elə bildiyin qədər.

Bu dünyanın min donu
Min rəngi, min oyunu.
Dərk edərsən sən onu
Bilə bildiyin qədər.

Sevinc dağına çıxsan
Sanma dərddən uzaqsan.
Bir gün ağlayacaqsan
Gülə bildiyin qədər.

İyul, 1992

AĞIL BAŞQA, ÜRƏK BAŞQA

Bir-birinə bənzəsə də,
Yel başqadır, külək başqa.
Ətri də xoş, rəngi də xoş
Gül başqadır, çiçək başqa.

Hər diki yoxuş bilmə, gəl,
Hər meyi meyxoş bilmə, gəl.
Hər uçanı quş bilmə, gəl
Quş başqadır, böcək başqa.

Hər dərdinə ortaq mənəm,
Hər ağrını tən bölənəm,
Sən çəkənsən, mən gələnəm
Gəmi başqa, yedək başqa.

Haqqın yolu-öz yolumdur,
Əyilməyən düz yolumdur,
Xeyirlə şər sağ – solumdur
Şeytan başqa, mələk başqa.

Bir diləyə mən calandım,
Gah qazandım, gah talandım.
Ömrüm boyu haçalandım
Ağıl başqa, ürək başqa.

Dilək oldu mənim adım,
Pərvazlandı qol-qanadım.
Çatmadı səbrim, inadım
Əməl başqa, dilək başqa.

Noyabr, 1998

ANA YURDUM

Anaların laylasından,
Babaların tarlasından,
El toyundan, el yasından
Səni içdim udum-udum,
Ana yurdum, ana yurdum.

Bağ gülündə, dağ qarında,
Sel-suların axarında,
Palıdların vüqarında
Səni gördüm, ana yurdum,
Ana yurdum, ana yurdum.

Yay mehində, yaz şehində,
Quşlarının cəhcəhində,
El qəmində, fərəhində
Səni duydum, ana yurdum,
Ana yurdum, ana yurdum.

Füzulinin "ah" səsində,
Üzeyirin nəğməsində,
Ələsgərin ləhcəsində
Səni andım, ana yurdum,
Mənim andım, ana yurdum.

1992

HARA GEDİR BU DÜNYA?

Başa keçdi gerçəyi
Əlimizdən çalanlar.
Bu dünyanın rəngini
Dəyişdirdi yalanlar
Hara gedir bu dünya?

Bu gözəl dünyamızdan
Gözəllik qovuldu, hey.
Könüllərin açarı –
Dillər qıfıl oldu, hey.
Hara gedir bu dünya?

Hər şey döndü tərsinə
Xeyir şərə qul oldu.
Haqqın çiyninə minmək
Yüksəlişə yol oldu
Hara gedir bu dünya?

Yalan evin içində
Gerçək qapı dalında.
Doğru çörəyə möhtac
Əyri cah-cəlalında
Hara gedir bu dünya?

Yolumuz duman olmuş,
Yaxşılar yaman olmuş.
Haqq bu gün öz haqqını
Haqsızdan uman olmuş
Hara gedir bu dünya?

1996

İSTANBUL

Bosfor körfəzi...
İki qitə
Söykənmiş bir-birinə
Ortasında bu yolun.
Bir tərəfi Avropadır,
Bir tərəfi Asiya
İstanbulun...
Türk oğlu durub ortada
Seyr edir
Sağını,
Solunu.
Bir şəhərdə birləşir
İki qitə.

Birinin başlanğıcıdır,
Birinin sonu...
...
Sol tərəfində
Dəbdəbəli keçmişindən yadigar qalan,-
Başı göylərə ucalan
Cameləri, bürcləri, qələləri;
Durur min ildən bəri.
Sağ tərəfində
Modern evlər, banklar, otellər...
Türk oğlu
Gözlərindən suallar yağa-yağa,
Gah sola baxır, gah sağa.
İstanbulun keçmişi vüqarlı, şanlı,
Bu günü özünə yad.
Gələcəyi dumanlı...

Bu gün
Bir ayağı Avropadadır.
Bir ayağı Asiyada
Türkün.
Qulaqlarında motor səsi,
Dilində quran surəsi
Türkün.
Zaman onu dilləndirir,
Əsrin ahənginə səs verir
Düşünüb dərindən;
Ancaq babası çəkir ətəklərindən.
Çırpınır şəhər
İkilik içində.
Düyüm-düyüm olmuş fikirlər
Əsrin keşməkeşində...

Bir şəhərdə görüşür

İki dünya, iki aləm.
Tapacaqdır, əminəm,
Türk oğlu haqq yolunu.
O, hələlik seyr edir
Sağını,
Solunu...
Ürəyi Şərq ürəyi, Ağlı Qərb ağlıdır
Türkün.
Bu təzaddan
Sinəsi dağlıdır
Türkün
Durub hiss ilə ağıl arasında.
Həqiqətlə nağıl arasında.
İrəlimi getsin,
Geriyəmi dönsün?!
Keçmişindən qopa bilmir,
Bu gününü
Tapa bilmir.
Axtarır,
Axtarır,
Axtarır.
Qarşıda işıq var,
Axtaran tapar!...

VƏTƏN MARŞI

Ey Vətən oğlu, düşün, bil ki, sənindir bu Vətən,
Sabahın, həm bu günün, həm dünənindir bu Vətən.
Sənin öz dövlətin, öz millətin, öz cəddin var
Vətən uğrunda ölənlər ölümündən doğular.
Biz Vətən məcnunu, el aşiqi, sülh əsgəriyik
Biz Vətən naminə ölsək, dirilərdən diriyik.
Mənim öz ulduzumu bağrına basmış hilalım,
Dedi öndər: "Yönü bayraqdakı üç rəngdən alım"

Sən bu gül bayrağın altında məramınca yaşa,
Qoyma düşmən nəfəsindən ona çirkab bulaşa.
Sənin öz bayrağının kölgəsi cənnətdi sənə,
Günəş hər gün doğur ancaq içimizdən Vətənə.
Bizim iqbalımızı yazdı qılıncın kəsəri,
Bizi biz etdi Dədəm Qorqud oğuznamələri.
Ey Azərbaycanımız, türkün oğuzlar Vətəni,
Ər oğullar, ər igidlər, kişi – qızlar Vətəni,
Sənin haqqındır azadlıq, sənin eşqindir iman,
Tapınar haqqa və insanlığa haqqdan doğulan.
Bəşərin dərdini öz dərdi bilib millətimiz.
Bizim öz niyyətimizdən doğub hürriyyətimiz.
Gecələr yatmadan əvvəl sor özündən ki: "Bu gün
Mən nə etdim məni yurddaş edən öz yurdum üçün?"

1992

OXUMA, BÜLBÜL

Bu bahar oxuma, bülbül, sən allah.
Zülmətdir,
Yoluna şam tutanın yox.
Şuşan ağlar qaldı, köçdü el-oba
Şirin cəhcəhinə dəm tutanın yox.
Sən Cıdır düzündə cəh-cəh vuranda
Qədir hay verərdi sənə bir anda.
İndi bu dağlardan didərgin olduq,
İndi bu dağların Qədirləri yox.
Elsiz dağ da susar, bulaq da dinməz,
Qədirsiz Şuşada qədrin bilinməz.
Bu bahar oxuma, bülbül, sən allah.
Daşaltı çayının kəsilib səsi,
Bizsiz o kükrəməz, o, coşa bilməz.
Vallah, inanmıram, bülbül nəğməsi,

Hayastan dilinə uyuşa bilməz.
Oxuma, oxuma, bülbül, sən allah.

Açma xarıbülbül, açma, sən bu il,
Görürsən, bu bahar bizimçün deyil.
Axı, Əhmədlərin, Məhəmmədlərin
Qanıyla sulanmış çiçəklər bu il.
Ötdü günlərimiz ahlı, amanlı,
Sənin hikmətini o əliqanlı
Çöllərin gədəsi anlaya bilməz
O yerlər bizimçün darıxmırmı bəs?

Bizsiz Şuşamızda nələr baş verir?
Allah bizə ümid, ona aş verir.
Çiçək kimi zərif, su kimi şaqraq,
Muğam kimi kövrək, anam Qarabağ,
Nəğməli qəlbinlə söylə, sən bu gün
Cəllad tapdağına bəs necə dözdün?
Qoy bəhər verməsin bu il bu torpaq,
Düşmən məzarına o dönsün ancaq!
Bizim oylağımız o qəlbi dağlar,
Muğam pıçıldayan ayna bulaqlar,
Daşaltı çayının daş dələn səsi,
Şuşa qalasının "Ərim gəldi"si,
Dərin dərələrin daşğın selləri,
Natəvan şeirinin "qərənfilləri",
Sarı qayadakı bülbül nəvası,
Nəvvabın, Xudunun yurdu – yuvası,
Nal tökən dağların dar keçidləri,
Şuşanın kaşıdan göy məscidləri,
Yarış meydanları, cıdır düzləri,
Ulu Pənah xanın ayaq izləri
Görən, bizim üçün darıxmırmı bəs?
Boz qarğa bülbülə tay ola bilməz.

Yaxşı ki, ayağı yoxdur onların,
Onlar da bizimtək, yoxsa, qaçardı.
Onda bu gün kimi gələcəkdə də
Zülmə, haqsızlığa haqq əl açardı.
Bu ilki bahardan bizə nə?
Vallah,
Gəlsə də, bu bahar bizimçün deyil.
Oxuma, oxuma, bülbül, sən allah,
Açma, xarıbülbül, açma, sən bu il.

May, 1994

UTANIRAM

Şəhidlərin, qaçqınların
Üstümüzdə min ahı var.
Çatdığımız bu nöqtədə
Hamımızın günahı var.

Düşmənimiz arxalandı
Silahına, öz gücünə.
Zora təslim olan torpaq
Qaytarılmaz söz gücünə.

Əldən getdi yurd-yuvamız,
Necə dözdük bu dərdə biz?
Qaytarmaqçın haqqimızı
Əl açmayaq namərdə biz.

Düzü budur: Bu dünyada
Gücün varsa, sözün haqdır.
Gücün yoxsa, son əlacın
Xəcalətdir, utanmaqdır.

Bir zamanlar neçə-neçə döyüşlərdən
Qalib çıxan qalalara baxdıqca mən
Keçmişimlə indim durur yan-yanaşı.
Keçmişimdən bu günümə
Yağır indi töhmət daşı.
Alışıram için-için,
Sual qopur ürəyimdən: Neçin, neçin?

Babaların ucaltdığı
Bizim qalib qalalardan utanıram.
Çadırlarda Donan körpə balalardan
utanıram.
Bu torpağı qorumağı
Özümüzə borc bilmədik.
Vətən getdi,
Vətəndaşlıq zirvəsinə yüksəlmədik,
utanıram.
Vətən getdi, şeir yazdıq:
"Sən mənimsən, ana Vətən".
Vətən getdi, nitq dedik
Uca-uca kürsülərdən,
utanıram.

Vətən getdi, el talandı,
Didişirik biz hələ də.
Biz iqtidar uğrundakı döyüşlərdən
Usanmadıq bir gilə də,
utanıram.

Söz altında yatammırdıq,
Diz altında yatan olduq.
Dədələrin qazancını
Nəfsimizə satan olduq.

Yurdu satmaq hesabına
Arzumuza çatan olduq,
utanıram.

Səbrimizin dolub daşan kasasından,
Şəhidlərin alınmamış qisasından,
Onların qan bahasından,
Bu millətin qəhrəmanlıq dühasından
utanıram.
Biz hələ də çalxanırıq
Əsr keçdi, durulmadıq.
Kütləyik, bu çək-çevirdə
Ələnib millət olmadıq,
utanıram.

Qəbirlərin baş daşını oğurlayan,
Yaşamaqçın ölü soyan
Gədələrin özümüzdən olduğuna
utanıram.

Bu millətin acı-doğru, toxu-oğru.
Aclarına acıyıram,
Mən toxuna utanıram.
Ölün varsa, vay halına!
Arxa çevir düzlüyünə, amalına!
Bir qəbirlik yer almaqçın
Ətək-ətək
Rüşvət gərək!
Haqq evinə gedəndən də haqq istəyən
Şərəfsizə nə deyim mən?
Ölüm-ucuz, həyat-baha,
İndi ölüm, yaşamaqdan min qat baha!
O da haqdır, bu da haqdır.

Mənim kimi binəvanın
Son əlacı utanmaqdır.

Yarəb, necə millətdi bu?
Başdan-başa zillətdi bu.
Öz-özünə qənimdi bu.
Hər nə isə mənimdi bu,
Əsrlik qan düşməninə
Deyə bilmir son sözünü,
Amma qırır öz-özünü,
utanıram.
Cırtdan boyda Çeçenistan
Dəvə boyda Rusiyaya dərs verəli
Onu şöhrət məqamından
endirəli
Mən özümü necə varsa,
Elə görüb utanıram.
İndi çeçen qeyrətindən
Dərs götürüb utanıram.

Bu ölkənin sərvətini
O satalı, bu satalı,
Vətən olub hərrac malı,
utanıram.
Çadırlarda el qırılır,
Toylardasa pul cırılır,
utanıram.
Özgəsinin qoltuğunda yuva qurmuş,
Özgəsinin fitvasıyla
Öz xalqına tələ qurmuş,
Özgəsinin əli üstdə
İqtidara can atan kəs
Bu millətə əsl oğul ola bilməz.
Bizimkidir o namərd də.

Buna dözmür, mən yanıram.
Satqına yox, satqınlığa utanıram.

Elə bildik, bu bəlalar
Allah yazan qədər imiş.
Bizim də Vətən sevgimiz
Utanmağa qədər imiş.
Bu torpağı qorumağı
Özümüzə borc bilmədik.
Vətən getdi,
Vətəndaşlıq zirvəsinə yüksəlmədik.
Heç olmasa bu gerçəyə biz inanaq.
Sonuncumuz qalanadək
Ya vuruşaq, ya utanaq!

Mart, 1995

ŞƏHİD ANASI

İçindən alışıb o, yana-yana
Müşgül diləyini gətirir dilə,
Məmurun önündə əyilir ana:
– Şəhid anasıyam, mənə rəhm elə!
"Şəhid anasıyam!" – zənn edir ana
Dərdin çarəsidir bu iki kəlmə.
Əslində, millətin bağrından keçən
Qılınc yarasıdır bu iki kəlmə.
– Şəhid anasıyam, eşidin məni...
O susdu, dayandı, gözləri doldu.
Könüllər dağlayan iki kəlməni
Bağlı qapılara açar bildi o.

O, hələ bilmir ki, açar bildiyi
Düşmür kilidlənmiş daş ürəklərə.
Bəsdir təsəlliyə könül verdiyi,

Döyür qapıları o, nahaq yerə.
– Şəhid anasıyam! – Naləyə bir bax!
Bu nalə bir qəlbi yumşaltmır ancaq.
Biz niyə həmişə özgəyanlıyıq
Amma özümüzə soyuqqanlıyıq?

Bu iki kəlmənin mətləbi nəydi?
Duymayıb, həm ona, həm sözə qıydıq.
– Şəhid anasıyam, – deməməliydi,
Biz onu gözündən oxumalıydıq.

– Şəhid anasıyam!
Onun fəryadı
Məlum həqiqəti kölgələndirir,
"Ana" dediyimiz o böyük adı
Analıq taxtından yerə endirir –
Biz niyə bu qədər soyuqqanlıyıq?
Şəhidi şəhidlik mərtəbəsindən
Endirir ananın giley-güzarı.
Bizdən kömək uman dərdli səsindən
Alışıb yanmazmı şəhid məzarı?
Ana qapılarda dilənir bu gün,
Oğul şəhid olmuş, yoxsa, bununçün?

İyul, 1996

ATATÜRK

Atatürkün atası! Adi cəfakeş bir ata,
Öz kiçik külfətinin cövrünü çəkmiş bir ata,
Bir böyük millətə ancaq ata əkmiş bir ata!
Atatürkün anası! Adi bir insan, bir ana.
Zaman ötdükcə nədən səcdə qılır hər kəs ona?
Bir böyük millətə bir gün ata doğmuş o ana.

Atatürkün sinəsi, yurdun alınmaz qalası!
Atatürk millətinin həm atası, həm balası!
Nədir arzum, diləyim tanrıdan imanla bu gün?
Talanan, bağrına dağlar çəkilən xalqım üçün:
Yeni fikrin küləyindən qoca millət darana,
Bizi birləşdirəcək bir Atatürküm yarana!

1992-1998

MƏN TÜRKƏM

Sən bizi aldatdın illərdən bəri,
Mən çərxi-fələkdən dərs götürmüşəm.
Özgə anasından süd əmənləri,
Özgə qulluğunda duran görmüşəm.

Bəsdir dözdüyümüz ölümdən betər,
Köhnə bazardakı o köhnə nırxa.
Milləti yüz yerə caladın, yetər,
Yüz arxın suyunu qatma bir arxa.
Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!

Sübutdur, dəlildir, ağlın qibləsi,
Dəyişə bilərsən adımı ancaq.
Canım çıxanadək qəlbimin səsi,
"Türkəm" – gerçəyini pıçıldayacaq.

Noyabr, 1995

SUAL VARSA, CAVAB VAR

Mən üzgüçü deyiləm, nə işim var dərində
Mən üzürəm dənizin ancaq dayaz yerində.
Dənizin dərinliyi vahiməylə doludur
Təkcə bunu bilirəm: Dərinlik qorxuludur.

Mən qorxuram könlümün içinə baş
vurmağa,
Orda donub daşlaşan layları qaldırmağa.
Qaldırdınmı bir layı, lay üstündən lay gəlir,
Sükut layı pozulsa, dalınca haray gəlir.
Haray, dərinlikdəki min-min məchuldan
haray!
Ana yoldan ayrılan cığırdan, yoldan haray!
Bir gülü dərmək üçün min əzaba dözürkən
Qarşında gül yerinə dikilən koldan haray!
Qorxuram xəyalımın məni hər gün aldadıb
Sərxoş edən meyindən.
Bir də...könül dəryamın dibsiz
dərinliyindən.
Nə deməkdir duyğumun bircə anın içində
Yanıb cilalanması?
Sabahkı faciənin bu gün hardansa sızıb
Ürəyimə damması? Nə damdı, niyə damdı?
Niyə ağla dammadı, ancaq ürəyə damdı?
Biz dammanı bilirik damdırandan xəbərsiz.
Gah yanıb, gah sönürük, yandırandan
xəbərsiz.

Daman ki, məlum idi.
Bəs, damdıran kim idi?

Niyə xəbərdar edir tale məni öncədən?
Xəbər taledən gəlir, yoxsa, mənə Tanrının
Verdiyi düşüncədən?

Yuxuda gördüyümüz gerçək olur ertəsi,
Bu günün olayları unudulur ertəsi.
Qırx il əvvəl olanlar elə bil bayaq olmuş.
Niyə uzaqlar yaxın, yaxınlar uzaq olmuş?
Nə deməkdir bu hallar –
Məni heyrətləndirən bu cavabsız suallar?

Heykəllərə döndərib hər duyğumu, hissimi
Mehrab kimi, büt kimi
Onların qarşısında mən donmaq istəyirəm,
Hər birinə əlimlə toxunmaq istəyirəm.
Eşitmək istəyirəm fəryadını, ahını,
Mən görmək istəyirəm bir duyğudan
göyərən
Onun dörd cinahını.
Dünyanın bir sığalı, amma bol şilləsi var,
Ömrün üç pilləsi var:
Dünən-günah,
Bu gün – dərd,
Gələcəksə – ölümdür.
Üçü birgə – insanın öz-özünə verdiyi
İztirabdır, zülümdür.
Günah – köhnə günahdır, unuduruq amma
biz.
Günahkardır cəddimiz.
O zamandan bulanıb hey axsa da çox sular,
Tanrının cənnətindən cəddimizi qovdular.
Hakim ola bilmirik nəfsimizə o gündən,
Xilas ola bilmirik şeytanın hiyləsindən.
Biz əl açıb dərgaha –

Təzə adlar veririk bu gün köhnə günaha...
Tanrı hər şeydən əvvəl torpağı yaratdı ki,
Yaratmaq istədiyi insan üçün yem olsun,
Təbiətdə bir ahəng, tarazlıq, nizam olsun.
Amma insan ölüncə
Bu dəfə də o özü torpaq üçün yem oldu.
Bu, ona təslim ikən,
O, buna təslim oldu.

Sən ey bu nizamdakı ilk qaydanı pozanım,
Sən ey vaxtın əlilə bizə tale yazanım,
Nə deməkdir, özün de,
Yemin dönüb yenidən yeminə yem olması?
Hakimin qul olması, qulun hakim olması?

Bircə günün içində min bir hala düşməyim
Özgəsiylə dil tapıb, özümlə döyüşməyim
Nə deməkdir, ilahi?
Mən ki, aciz bəndənəm,
Bu duyğular əlində
üzü qara,
dili lal,
Gözü kor şərməndənəm.
Mənə verdiyin ağıl niyə gəlmir karıma?
O cavab tapa bilmir min-min suallarıma.
Özün de, mənim ağlım aciz isə bu qədər,
Hardan doğur bəs sənin sirrinə əl uzadan,
Bu cavabsız suallar?
Eyni gündə doğulur hər qıfıla bir açar,
Qıfıl varsa, açar var,
Sual varsa, cavab var.

Mart, 1996

MƏNİM FƏRQİM VARMI HEÇ?

Bir tərəfdə sel kimi od axıdan buruqlar,
Bir tərəfdə çadırda donan körpə çocuqlar.
Yurdumuzun atəşi isidir əcnəbini
İsidə bilmir ancaq Zübeydəni, Nəbini.

Yağan qarı qasırğa burmalayır bu gecə
Sobam yanır otaqda gürhagurla, gör, necə.
Yatağıma girmişəm, uyumaq istəyirəm
Yerimdə şirin-şirin.
Çatmır mənə naləsi çadırlarda üşüyən
Günahsız körpələrin.
Amma rahat buraxmır bir qəribə sirr məni:
Döşəyimin istisi bəs niyə sancmır məni?
Yatıram şirin-şirin.
Mən ki bilirəm indi çadır körpələrinin
Soyuqdan əsdiyini.

Özümdən də böyükdür öz-özümə heyrətim:
Varsa Vətən namusum, varsa millət
qeyrətim
Necə yata bilirəm öz isti yatağımda?
Yatır nəvələrim də solumda və sağımda.
Sordum özüm özümdən:
– Görəsən, doğurdanmı bu yurdun oğluyam
mən?
Bilmirəm kim utansın indi mənim yerimə?
Qıyardımmı bu zülmü mən öz nəvələrimə?
Nəvələrim deyilmi bəs bu qış gecəsində
Damsız qalan körpələr?
Hələ ucalmalıykən bu alçalan körpələr?
Bunu bilən vətəndaş öz isti yatağında
Rahatca yatarmı heç?

Yurdunun atəşinə qızınan əcnəbidən
Mənim fərqim varmı heç?

Yanvar, 1998

GECƏLƏR – PƏNAH YERİM

Səhərlərim – boyasız, gündüzlərim –
qorxusuz
Gecələrim – narahat, gecələrim – yuxusuz.
Başbaşayıq sübhə tək mənimlə fikirlərim,
Gecələrə açılır gizli-gizli sirlərim.

İndi mən qısılmışam gecələrin qoynuna
Boylanıram içimdə gah əvvələ, gah sona.
Gecələr – sığnaq yerim, gecələr – pənah
yerim,
Gecələr bir-birilə döyüşən fikirlərim.
İnanardı ağıl da öz içimin səsinə
Şirin xəyallarımın yumşaq mütəkkəsinə
Baş qoyardım bir zaman
Xəyalı gerçək kimi yaşayardım bir zaman.

İndi qurban verməyə hazıram bir yad kimi
Min-min səhərlərimi, min-min
gündüzlərimi
Bir anlıq sükutuma, bir yuxusuz gecəmə.
Qəm sükuta dəm tutur, gecələr sükut qəmə.

Allahın bal yuxusu mənə haram gecələr
Sürünürəm gündüzlər, yaşayıram gecələr.
Anam deyərdi: "Oğul, sən gecə
doğulmusan
Bəlkə buna görə də gecəquşu olmusan".

Mən təpədən dırnağa indi səbrəm,
dözüməm,
Çoxluğumda başqası, təkliyimdə özüməm.
Verdiyin tənhalığı geri götürmə, Allah,
Gecəmlə həsb-halı mənə çox görmə, Allah.

Mənim mənə ən yaxın sirdaşımdır gecələr,
İçimə damcılayan göz yaşımdır gecələr.
Gecələr sığnaq yerim, gecələr pənah yerim,
Səhərlər açılanda qapanır kirpiklərim.
Öyrəndim gecələrdən
Qaranlıq içində mən
Ulduz-ulduz yanmağı,
Özümə qapanmağı, içimə boylanmağı.

Gecələrin sahibi, gündüzlərin quluyam,
Mən gündüzlər adiyəm, gecələrsə uluyam.
Gecələr çiçəklənir söz gülşənim, söz bağım
Gecələrin şahıyam, yoxdur mənim ortağım.

Dekabr, 1999

UNUTQANLIQ

"Yadımıza belə gətirməzdik ki, ermənilər çox-çox əvvəl... hazırladıqları hədsiz-hesabsız bombaların hamısını bizim başımızda partladacaqmış...

Bu sadədilliyimiz səbəbilə cümləmiz qonşu ermənilərlə yenə qədim sayaq üzrə sülhanə rəftar edib rahat və arxayın olmağı vəz və bəyan edirdik və bu surətlə millətimizin gözünü bağlayıb...uçuruma sarı hazırlayırdıq. İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq".

Ömər Faiq Nemanzadə
1906-cı il

Ömər bəy, hər sözün haydı, haraydı,
Deyilib elə bil, bu çağımızda.
Sənin bu fəryadın sırğa olaydı,
Daim səslənəydi qulağımızda.

Əsrin əvvəlini unutmuşuq biz,
Saldın yadımıza dünənimizi.
Sadəqəlbliyimiz, təmizliyimiz
Tarixdə nə qədər aldatmış bizi.

...Erməni zülmündən yüz ildən bəri
Daşdan-daşa dəydi bu xalqın başı.
Unutdu çəkdiyi müsibətləri,
Niyə oğurlandı onun yaddaşı!

Biz başdan-ayağa rəhmik, şəfqətik,
O, kin dağarcığı, o, goreşəndir.
Biz əvvəl insanıq, sonra millətik,
O, insan olmadan millətləşəndir.

Bilirik, tutulub o, yaman dərdə,
Qəlbində həmişə kin əzizləyir.
Elə unuduruq, dar döngələrdə,
O, bizi vurmağa məqam gözləyir.

Bilmədik, içini gəmirir bu kin,
Sözü keçməyəndə üzdən həlimdir.
Unutduq, nifrətlə mayalanmışın
Fikri – intiqamdır, qəsdi – zülmdür.

Mən öz qonşuma da gerçək olanı,
Çatdıra bilmirəm, haqqım kəsilmiş.
Osa yalanıyla bütün dünyanı
Bizim üstümüzə qaldıra bilmiş.

Biz boğub vicdanı, qəhr edib arı,
Şərə yoldaş olub haqqı danmarıq.
Heç vaxt unutmarıq yaxşılıqları,
Amma pisliklәri unudanlarıq.

Sulanıb həmişə qonşunun bağı
Bizim arxımızdan, şəfqətimizdən.
Əfsus! Bacarmışıq bağışlamağı,
Aman diləyəndə düşmən də bizdən.

Quyruğu əzilir, yumşalırıq biz,
Deyirik, bir daha o, çalan deyil.
Amma unuduruq, unuduruq biz.
Küdurət xəstəsi sağalan deyil.

Utanmaz, usanmır bəd əməlindən,
Bələddir unutqan xislətimizə.
Bilir, dədəmizin onun əlindən
Çəkdiyi zillətlər dərs olmur bizə.

Bu yaman xisləti, gəlin, tərk edək,
Tarixi dərsləri daha dərk edək.
Tərk edək, unudaq soyuqqanlığı,
Unudaq keçmişə unutqanlığı.

Daim gözümüzün önündə dursun
Keçilən yollarda xeyir-şərimiz.
Bu günü unutsaq, sabah, biri gün
Bizi bağışlamaz nəvələrimiz.

Dedim, silinməsin bu qan, bu qada,
Bir də, güllə izi dağ-daşımızdan.
Yalnız bu günə yox, biz sabaha da
Güzgü tutmalıyıq yaddaşımızdan.

İyul, 1991

VAXT ALDANMADI

Qızıla mis qatdılar,
bala – şəkər,
südə – su.
Dəyərsizi, ucuzu bahaya satmaq üçün.
Baqqal çəki daşının içini oydu, oydu
Alıcını çəkidə müdam aldatmaq üçün.
Özgəsinin yerinə imzalar da atdılar.
Torpağa gil qatdılar.
Sementə kül qatdılar.
Cığaradan, kağızdan
Saxta gül yaratdılar,
Saxta pul yaratdılar.
Hər yerdə ölçüləri qısaldıb uzatdılar.
Bir sözlə, saxtalıqlar üstdə bərqərar olan
Bir dünya yaratdılar.
Bu yalan bazarında aldadan da özünü

Haqlı bilir, haqq sanır
Aldadan anlamır ki, aldadanda aldanır.
Bu dünyanın ələyi xəlbirinə qarışdı.
Yamanlıqla yaxşılıq bir-birinə qarışdı.
Həqiqəti rəngləyib, ağartdılar bozları.
Dünyanın ən hiyləgər, mahir kələkbazları
Saat ilə təqvimə əl qata bilmədilər,
Yalnız vaxtı, zamanı aldada bilmədilər.

Sentyabr, 1997

ÇOX İMİŞ

Xudu Məmmədovun əziz xatirəsinə

Usanıb şəhərin küy-kələyindən
Gəldim ziyarətə dost məzarını.
Gördüm, sıralanmış qəbirlərdə mən
Ölümün möhtəşəm addımlarını.

Gəzdim qəbristanı, gəzdim səbirlə
Rastlaşdım nə qədər tanış qəbirlə.
İnana bilmədim gördüklərimə
Şəhərə dönməkmiş, şəhərdən qaçış!
Burda yatanların çoxu, heç demə
Mənim öz dostlarım, tanışlarımmış.
Orda dən, burda un, arada daş var
Zamandır hərlədən bu dəyirmanı.
Bir-bir üyüdülür dostlar, tanışlar
Birdən ayılırıq: filankəs hanı?

Bəzən üzü durur üzsüz astarın
Neçə pilləsi var tək bircə ömrün.

Mən hardan biləydim, ölü dostlarım
Diri dostlarımdan çox imiş bu gün.

Usanıb şəhərin hay-həşirindən
Gəldim ziyarətə dost məzarını.
Gördüm, sıralanmış qəbirlərdə mən
Ölümün möhtəşəm addımlarını.

May, 1998

VİCDAN XƏSTƏSİYİK

A vicdan əzabım, üsyan əzabım, öldürmə məni.
Musa Yaqub

Musa, vicdanından əlhəzardasan.
Bu ovqat necə də mənə tanışdır.
Bizim qəlbimizi ağrıdan vicdan
Umulan kəsləri ağrıtmamışdır.

Dünya – bir bilməcə, dünya – bir təzad,
Arifin dərdi çox, bir qəmxarı yox.
İxtiyar sahibi – vicdandan azad,
Vicdan sahibinin ixtiyarı yox.

Qənimi olsa da əyri, düzlərin
Doğruluq dərsini keçmə oğruya.
Xalqı çalıb-çapan qeyrətsizlərin
Vicdanı varmı ki, bir an ağrıya?
Millət öz dərdinə əsir oldusa,
Bizim qismətimiz iztirab, ələm.
Mən də sənin kimi, əzizim Musa,
Vicdan əzabından xəstə düşmüşəm.

Vətən qarşısında bilək bir kərə
Hamının danılmaz haqqı, borcu var.
Millətin düşdüyü bu zillətlərə
Mən də günahkaram, sən də günahkar.

Gah olur gördüyüm bu zillətləri,
Şahidi olduğum müsibətləri
Görmək istəməyib gözümü yumdum,
Onun əlacını özgədən umdum.
Mümkünmü?..
Deyincə, qaraldı qanım,
Məni ilan kimi sancdı vicdanım.
Vicdanın səsindən dəng oluram mən,
Ağrılar içində qovruluram mən.
"Əlimdən nə gələr?", deyincə, ağrı
Azalır, ağlım da haqq verir mənə.
Gözümü yumduğum haqsızlıqları
Vicdansa, birəbir göstərir mənə.

Vicdan saldı məni, bax, belə dərdə
Mən ondan qaçanda qaçdım özümdən.
İçimdə başlanan çəkişmələrdə
Gizlənpaç oynadım vicdanımla mən.

Vicdan yaxşı seçir əyridən düzü
Yaxşıdan yamanı, dostdan düşməni.

O qovdu, mən qaçdım, itidir gözü
Harda gizləndimsə, o tapdı məni.
Vicdanım zamana uymur ki, uymur,
Məni yaşamağa qoymur ki, qoymur.
Bizim içimizi belə göynədən,
Bizi əldən salıb, bizi qəhr edən,

Haqqın öz səsidir, haqqın öz səsi
Vicdan xəstəsiyik, vicdan xəstəsi.

Gözümüz önündə haqq çiliklənir
Haqqın qəbri üstə nahaq diklənir.
Bağırdıq: – Dayanın, haqq divanı var
Gördük, eşitmədi kimsə bu səsi.
Hələ üstümüzə çirkab atdılar
Olduq bu millətin "xain bəndəsi".

İllər gəlib keçdi, ömür gödəldi,
Baharı gözlədik, təqvimlə gəldi.
Təqvim baharını neyləyirik biz?
Könül bağçamızı basdı ot, alaq.
Ömrümüz boyunca gözlədiyimiz
Səadət gülləri açmadı ancaq.

Zülmün məhvərinə dolanır zaman
Göydəki buludlar insan ahıdır.
Göydə aramasın Allahı insan,
Hər kəsin vicdanı öz Allahıdır.

Ay Musa, özünü yorma boş yerə,
İş ki, belə gedir, nə gerçək, nə haqq?
Allahı qəlbində görməyənlərə
Vicdan kəlməsini necə anladaq?

İyul, 1999

QƏZƏL, QOŞMA, GƏRAYLI

"YENƏ BAĞLAR O BAĞLARDIR, FƏQƏT BAĞDA GÜLÜM YOXDUR"

Yenə bağlar o bağlardır, fəqət bağda gülüm yoxdur,
Gülüm yoxdur, bu dünyada ayım yoxdur, ilim yoxdur.

Zaman dönməz öz hökmündən... Bizayrıldıq, tez ayrıldıq,
Dilim bar verməz, ay dostlar, deyəm ki, sevgilim yoxdur.

Çiçəklərdən, küləklərdən mən allam ətrini yarın,
Dilək ölməz, ürək ölməz, sevənlərcin ölüm yoxdur.

Gülüm əğyar qılıncıyla sevərkən ayrı düşdük biz,
Bu həsrətdən, bu möhnətdən daha müdhiş zülüm yoxdur.

Sevib yandım, külək qalxdı, külüm sovruldu əflakə,
Məni gərmə bu dünyada odum söndü, külüm yoxdur.

Ağac yansa, fəğan eylər, deyər öz dərdini aşkar,
Deməkçün dərdimi yarə, bəmim varsa, zilim yoxdur.

Səninlə Bəxtiyaram mən, ayım sənsən ilim sənsən,
Bu dünyada mənim sənsiz ayım yoxdur, ilim yoxdur.

Oktyabr, 1961

"BU QƏDƏR SALDI MƏNİ HƏSRƏT AMANDAN-AMANA"

Bu qədər saldı məni həsrət amandan-amana,
Könlüm axırda mənim düşdü gümandan-gümana.

Neçə alim yazıb öz dərdini izhar elədi,
Aşiqin dərdi fəqət keçdi zamandan-zamana

Dərdü-qəmdən usanıb düşdü könül hicr oduna,
Eləyək indi şikayətmi yamandan-yamana?!

Səni gördükdə mən ancaq belə dil-dil ötürəm,
Boşalır göydə buludlar da dolandan-dolana...

Demərəm görməmişəm mən səni çoxdandı,gülüm,
Görürəm surətini yalqız olandan-olana...

Könlümün üstə düşən kölgələr əlan silinir,
Başımın üstünə sən kölgə salandan-salana.

Neçə yol vədə verib əhdə vəfa qılmadı yar,
Bəxtiyar! Qəlbin axır düşdü talandan-talana.

Sentyabr, 1963

AĞLAR ÜRƏYİM, SƏS GƏLƏR, AH-AZAR GÖRÜNMƏZ"

Ağlar ürəyim, səs gələr, ah-azar görünməz,
Gözdən yaş axar, qaynağı zinhar, görünməz.

Ruzgar yenə tüğyan eləyir dalda, budaqda
Toz-torpağı gördük, niyə ruzgar görünməz?

Tonqal yanır, atəş görünür, atəşi yaxmış,
Əl gizli səbəb, gizli səbəbkar görünməz.

İllər üzərindən yön alıb yol gedirik biz
İllər görünür, bəs niyə yollar görünməz.

Qəmdən şad olursansa, könül mülkünə sən bax,
Güllər açılıb, amma o gülzar görünməz.

Bəxtin mənə yar olduğunu çoxları söylər,
Bəxtim görünür, bəs niyə dildar görünməz?

Avqust, 1970

"DAŞ ÜRƏKLƏRDƏ YANIB DAŞLARI SINDIRDI MUĞAM"

Daş ürəklərdə yanıb daşları sındırdı muğam,
Haqqa düşmən olanı haqqa tapındırdı muğam.

Nə güman eyləmisən ondakı tilsimləri sən,
"Kürü ahıyla qurutdu", "salı yandırdı" muğam.

Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

Su çilər kinli ürəklərdə qəzəb tonqalına,
Neçə qəsdin önünü kəsdi, dayandırdı muğam.

O – ürək yanğısı, göz yaşları, bir çəngə bulud,
Oyadıb yaddaşı, vicdanı utandırdı muğam.

Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.

Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.

1974

NƏĞMƏLƏR

GECƏLƏR, AY GECƏLƏR

Müsiqisi Şahid Əbdülkərimovundur

Tellərini dolayır boynuma ay, gecələr,
Mənim sirdaşımsınız, gecələr, ay gecələr!
Ürəyimdə səhərin ulu həsrəti varmış...
İntizar anlarında gecə uzun olarmış...
Quştək uçur xəyalım hardan hara gecələr.
Mən həsəd aparıram yatanlara gecələr!
Baxıram pəncərədən boylanan ulduzlara
Dərdimin əllərilə yuxum çəkilir dara.

BİRİ SƏNSƏN, BİRİ MƏN

Əhsən Dadaşov bəstələmişdir

Bir bulağın iki gözü, –
Biri sənsən, biri mən.
Bir almanın iki üzü, –
Biri sənsən, biri mən.

Qoşa simin titrəməsi, –
Biri sənsən, biri mən.
Bir pərdənin iki səsi, –
Biri sənsən, biri mən.

Açıq səma, göy qurşağı, –
Biri sənsən, biri mən.
Dan ulduzu, səhər çağı, –
Biri sənsən, biri mən.

Bu həyat da iki rəngdir, –
Bir sevinc, biri qəm.
Sevinc kimdir, kədər kimdir?
O həm sənsən, həm də mən.
Bu dünyaya biz gələli
Həm qəmik, həm də sevinc.
Sən məndəsən, mən səndəyəm,
Gözəldir qəmdə sevinc.

İyul, 1962

ODUM, KÖZÜM, GƏL ...

(Ş. Axundova bəstələmişdir)

Amandır, ləngisin, geciksin axşam,
Ömrümün gündüzü bitməsin gərək.
Mən indi bilirəm, nədir arzu, kam,
Mən indi bilirəm, nə imiş sevmək.
Çıraq işıqlanar sönməzdən əvvəl,
Getmə, ey baharım, ey gündüzüm, gəl,
Soyuq bir ürəyə necə dözüm, gəl.

Payız yarpaqları-qışın əvvəli,
Axşam şəfəqləri-gündüzün sonu.
Gəlməsin, yetməsin ürəyimdəki
Bu odun, atəşin, bu közün sonu.

Çıraq işıqlanar sönməzdən öncə,
Baharı duyuruq bahar gedincə.

Getmə, ey baharım, ey gündüzüm, gəl,
Soyuq bir ürəyə necə dözüm, gəl.

Uzansm baharım, gündüzüm mənim,
Qalıb ürəyimdə çox sözüm mənim.
Bu yaşda ömür də şirin olurmuş,
Bu yaşın sevgisi dərin olurmuş.
Çıraq işıqlanar sönməzdən əvvəl,
Getmə, ey baharım, ey gündüzüm, gəl,
Alovum, atəşim, odum, közüm gəl.

Iyul, 1978

QÜRURU NEYLƏYİRSƏN?

(R. Mirişli bəstələmişdir)

Ömrün bahar çağında
Qəlbə yağan qar nədir?
Sevirsənsə, sevgilim,
Səndə bu vüqar nədir?

Bütün arzularına
Zirvə mənəm, son mənəm.
Qüruru neyləyirsən?
Sənin qürurun mənəm...

Vüqar hara, eşq hara?
Sevənlər "mən", "mən" deməz.
Sevənlər eşq odunda
Əriyib itməzmi bəs?

Vüqarınla döyüşdə
Məhəbbətin uduzmuş;

Mənim isti göz yaşım
Boş qürurdan ucuzmuş?..

1970

DURNA QATARI

Emin Sabitoğlu bəstələmişdir

Əsir payız küləyi,
Gecə uzun, gün gödək.
Ağacdan yarpaq düşür,
Bir ömrün gülləri tək.

Susur çaylar, çeşmələr,
Susur çəmən, dağ, dərə.
Köçür durna qatarı
Uzaq-uzaq ellərə.

Bizim çöllər ayrılır
Bu vəfasız gözəldən.
Qışda üşüməməkçin
Yer don geyir xəzəldən.

Köçür durna qatarı,
Ürəyimiz kövrəlir.
Külək əsir, dağlardan
Payızın ətri gəlir.

Yarpaqlara, otlara
Sarı-sarı zər düşür.
Yaşımıza yaş gəlir,
Ömürdən günlər düşür.

Köçür durna qatarı,
O, baharda dönəcək.
Ötən günlər dönəydi
Durna qatarları tək.

1975

MƏN YANDIM, SƏN İSİNDİN

Emin Sabitoğlu bəstələmişdir

Ürəyimdən keçəndən
Düşmədinmi duyuq sən?
Səndən cavab gözlədim,
Nə "hə" dedin, nə "yox" sən.

Dedim: – Susma, danış, din,
Nə danışdın, nə dindin.
Məhəbbətin oduna
Mən yandım, sən isindin.

Dillənsənə, sevgilim,
Mən nə daşam, nə dəmir.
Min il də gözləyərdim,
Axı, ömür gözləmir.

Sükutunla durmusan
Ürəyimin qəsdinə.
Söylə, susan sevgilim,
Bu sükutun qəsdi nə?

1977

QİSAS BÖYÜTSÜN SƏNİ

Vasif Adıgözəlov bəstələmişdir

Əsən çovğun bu gecə
Qar üstünə qar qalar.
Düzəngahda qurulmuş
Çadırımı yırğalar.
Görən, bizə nə deyir
Qarıldaşan qarğalar
Layla balam, a layla.

Qulağımız hamıdan
Bir xoş xəbər soraqlar.
Sızıldayan külək də
Dərdimizə qan ağlar
Layla balam, a layla.

Rəva bildi tanrımı
Bizə bu işgəncəni?
Mən böyüdə bilmədim,
Qisas böyütsün səni
Layla balam, a layla.

Göy bizə qənim olsun
Bu zülmü yerdə qoysaq.
Qoy bizə qənim olsun
Qaçdığımız o torpaq!
Layla balam, a layla.

Yanvar, 1994

AZƏRBAYCAN – TÜRKİYƏ

Cavanşir Quliyev bəstələmişdir

Bir millətik, iki dövlət
Eyni arzu, eyni niyyət
Hər ikisi Cümhuriyyət
Azərbaycan-Türkiyə.

Bir ananın iki oğlu
Bir ağacın iki qolu
O da ulu, bu da ulu
Azərbaycan-Türkiyə.

Ana yurdda yuva qurdum
Ata yurda könül verdim
Ana yurdum, ata yurdum
Azərbaycan-Türkiyə.

Birdir bizim hər halımız
Diləyimiz, amalımız
Bayraqlarda hilalımız
Azərbaycan-Türkiyə.

Dinimiz bir, dilimiz bir
Ayımız bir, ilimiz bir
Eşqimiz bir, yolumuz bir
Azərbaycan-Türkiyə.

1991

***

C. Quliyev bəstələmişdir.

Gül qoxlamaq üsulunu illərcə məşq edib,
Min bir çeşid dikanlara qatlanmışız, gülüm.
M. Çinarlı

Dünyanı bir zamanlar oyun sanmışıq, gülüm,
Dəm ötdü, indi qayğıya paylanmışıq, gülüm.

Yaş fərqi yox işıqla alovlanmış atəşin,
Biz eyni odda yanmaq ilə həmyaşıq, gülüm.

Sevda dənizlərində üzərkən qayıq kimi,
Dünyaya hər üzüylə biz heyranmışıq, gülüm.

Qış gəldi, getdi gül çağı, daddıqca zilləti,
Gördük, könüldə mövsümə aldanmışıq, gülüm.
Görsək də eybəcər üzünü dünyanm o vaxt,
Amma deyən olarmı ki, nadanmışıq, gülüm?

Eşqin qanadlarında uçardıq səmalara,
İndiysə ağlımızla cilovlanmışıq, gülüm.

Bilməm, qazancımız nə imiş? Sordu Bəxtiyar,
Oddan keçib, həyatda cilalanmışıq, gülüm.

1999.

FALÇI

Cavanşir Quliyev bəstələmişdir

Tabım yoxdur bu dərdlərə
Falçı, mənim falıma bax.
Bu günümdəm xəbərdaram,
Sən sabahkı halıma bax.

Dünya özü bir tələdi
Gah bağırdı, gah mələdi.
Yaman bizə zülm elədi
Dünya adlı zalıma bax.

Dərd gəlib məndə qışladı
Həm daşladı, həm xışladı.
Üz-gözümü naxışladı
Gəl, mənim cəlalıma bax.

Biləmmədim, axı, nədən
Bu dərdləri mənəm çəkən.
Dəymişim budaqda ikən
Sən tökülən kalıma bax.

Sanırdım ki, gün gələcək,
Müşkülümiiz çözüləcək.
Üz güləcək, göz güləcək
Puç olan xəyalıma bax.

Oktyabr, 1997.

ÖMÜR QATARI

"Sonuncu döngə"

Eldar Mansurov bəstələmişdir

Bu yollardan qatar ötdü,
Qulağımda səsi qaldı.
Tükənsə də canda taqət,
Yaşamaq həvəsi qaldı.

Dayazda gördüm dərini,
Xeyirdə gördüm şərini.
Ömrün yaxşı günlərini
Yola saldım, pisi qaldı.

Ömür ki, var bircə qarış,
İlki savaş sonu barış.
Qatar ötdü qırış-qırış
Üz-gözümdə hissi qaldı.

Unudulub çoxdan bəri,
Dünyanın toy-düyünləri.
Ötüb keçdi şən günləri,
Dərdi, qəm-qüssəsi qaldı.

Qatar gedir özbaşına,
Yetdim ixtiyar yaşına.
Çatıram mənzil başına,
Sonuncu döngəsi qaldı.

İyun, 1996

HANSIMIZ YOXUQ?

Təkəm, təkəm otaqda,
Üşütmələr dolaşır, elə bil ki, canımda.
Yanıldım!
Heç olmayıb sənsiz bircə anım da.
Haçan tək olmuşam mən?
Mənim düşüncələrim məgər sən deyilmisən?
Məgər gizlənməyibmi taxıl, sünbül içində,-
Ətir də gül içində?
Bizə birdir yaxın da, bizə birdir uzaq da.
İndi hansımız yoxuq bilmirəm bu otaqda?!

Yanvar, 1963

İŞIQ-QARANLIQ

İşığa möhtacdır işlər, əməllər,
Ancaq qaranlıqda görüşürük biz.
Özün de, işığa nə lüzum, əgər
Alışıb-yanırsa ürəklərimiz?!

Adamlar içində mənim deyilsən,
Hamı seyr eləyir hey, müdam səni.
Həmişə işıqda itirirəm mən,
Ancaq qaranlıqda tapıram səni.

Aprel, 1964

MƏKTUBLAR

Payız yarpağı tək pərişan olur
Dolablar küncündə qalan məktublar.
İşsiz günlər kimi lap unudulur
Bir vaxt könlümüzü alan məktublar.

Köhnə məktubiara baxıram bir-bir,
Günlər gəlib keçir gözüm önündən.
Günlər gah ağlayır, gah gülümsəyir,
Od sönüb, kül ilə oynayıram mən.

Bir vaxt hər sözünü əzbər bildiyim
Məktublar adicə varaqdır bu gün.
Burdakı arzular, duyğular, düzü,
Könlümə nə qədər uzaqdır bu gün.

Könlümü titrədən nə duyğudur bu?
Zaman gəncliyimi yeləmi vermiş?
İnsanm öz hissi, eşqi, arzusu,
İnsandan nə qədər uzaq düşərmiş!..

Keçmişi təzədən yaşayıram mən,
Ömrün üfuqündə gülür dan yeri
Deyirəm, insanın bəzən özündən
Daha canlı olur xatirələri.

Hər varaq üstündə bir günün izi,
Canlanır təzədən ötən günlərim...
Cansız varaqlarda tapmışam sizi,
Ey itən günlərim, itən günlərim.

Məktublar bir qəlbin arzusu, eşqi-
Bənzəyir çağlayan yaz sellərinə.

Məktublar körpüdür, bağlayır məni
Ömrümün çiçəkli sahillərinə...

Gülməli görünər, bəlkə də, sənə
Ey könül, bu köhnə "şanlı məktublar".
Ancaq şirinsiniz, ey məni mənə
Qaytaran məktublar, canlı məktublar!

Oktyabr, 1964

UNUTDURDUN SƏN NƏNƏ

Xəyalınla, fikirinlə
Həmişə sərxoşam mən.
Unutmuşam özümü,
Dönüb sən olmuşam mən.

Öz könlümün səsindən,
Öz könlümə ün düşüb,
Dağlar başı qaralıb,
Dərələrə gün düşüb,
Niyə belədir,
Gülüm,
Sən özün bilməlisən,
Fikirimə düyün düşüb!

Həqiqət - güman olub,
Xəyalım - duman olub;
Gah düzəndə sürünür,
Gah təpədə görünür,
İlişir kolluqlara.
Fikirlər qırıq-qırıq,
Arzular para-para.
Ümidlər pərən-pərən,
Qəsəmlər - yalan olub,

An var, dönüb il olub,
İl var, dönüb an olub.
Həsrətim, bu anları,
günləri, danır mənim.
Saatımm əqrəbi
Yalnız sənin başına
Dönüb, dolanır mənim.
Sənə könül verəli,
Mənim üçün
bu köhnə
vaxt ölçüsü pozuldu,
Sənin məhəbbətinin
Dərəcəsi, ölçüsü
Mənim vaxt ölçüm oldu.

Bir şaxtalı qışdayam,
Mənə əlvan baharı
Unutduran sən oldun.
Ancaq hər gün baharı
Məndən soran sən oldun!

Ümmanam.
Sahilimi
Unutdurdun sən mənə.
Qarlı dağam,
selimi
Unutdurdun sən mənə.
Gecəyəm,
gündüzümü
Unutdurdun sən mənə.

İnsanam,
öz-özümü
Unutdurdun sən mənə.

Bu dünyada hər şeyi
Unutdurub sən mənə,
Çəkdirmisən göz dağı.
Əvəzində öyrətdin
Səni unutmamağı!...

AZADLIQ

Azadlıq istəyirdin...
İndi mənden uzaqda
Azadsan, cismən azad.
İndi buyur, sevgilim,
Mən dustağam, sən azad!..
Beləmi?
İnanmıram.
Biz bir şəhərdə ikən,
Dəqiqəni, anını,
Sapa düzüb inci tək,
İzləyirdim səni mən.
İndi məndən uzaqda
İzləmir heç kəs səni.
Ancaq azad deyilsən,
İzləyir, öz köksündə
Aldığm nəfəs səni.
Orda pərəstişkarın
Bir deyil, min-min olsun.
Qorxmuram, yox, qorxmuram,
Mən yox, sənin öz hissin,
Sənin gözətçin olsun!
Sən sevən bir ürəyin
Özü boyda dağısan!
Mənim dustağım deyil,
Hissinin dustağısan,
Qəlbinin dustağısan.

Şəki, iyul, 1966

* * *

Nə məni anladım, nə məni duydun,
Sən mənim könlümü xaraba qoydun.
Kimi qınamalı?
Yox-yox! Heç kəsi,
Öz könlüm özümdən indi uzaqdır.
Məhəbbət!
Məhəbbət - barıt zərrəsi,
Ürəyə düşdümü, -
Partladacaqdır!
Mənim bu ağ saçlı, qədim eşqimin,
Başında qapqara bir duman ağlar.
Tutub matəmini yetim eşqimin,
Xaraba könlümdə bir kaman ağlar.

Susdurdum könlümün istək səsini,
O, önü kəsilən bir çaya bənzər.
Könlüm öz əlilə öz körpəsini
Boğub, matəm tutan anaya bənzər.
Çaşmışam,
mənimçün saat yox,
gün yox.
Bəs ömrüm nə ilə öyünür indi?
Elə bil, ürəyim duymaq üçün yox,
Hissini boğmaqçün döyünür indi.
Günlərim uzandı, səbrim gödəldi,
Görəsən ömrümün qışımı gəldi?

Kəsdi yay yağışı, dayandı tufan,
Niyə şimşək çaxmır, göy guruldamır?
Qışın üryan qalan budaqlarından,
Qəlbimə hərdənbir damcılar damır.

Məni diksindirir bu damcılar da.
Ötən tələtümüm, hardasan, harda?
Düşdü ayaqlara, süründü naçar
Mənim min sevdalı, min sirli könlüm.
Gör necə qısılıb sinəmə lal-kar,
Bir zaman haraylı-həşirli könlüm!

YARPAQLAR TÖKÜLÜR

Yarpaqlar tökülür,
Susur,
lal olur
Dağlardan süzülən şır-şır bulaqlar.
Yarpaqlar tökülür,
bir xəyal olur
O ötən əyyamlar,
fərəhli çağlar...
Yarpaqlar tökülür,
saralır, bütün
Örüşlər,
cığırlar,
yollar,
yamaclar.
Yarpaqlar tökülür,
susur günbəgün
Dodağı nəğməli, səsli ağaclar.

Yarpaqlar tökülür,
çılpaq budaqlar,
Başını qaldırıb göyə, dikəldi.
Göründü sinədə bozaran dağlar,
Mənim də eşqimin payızı gəldi.

Yarpaqlar tökülür...
Tökülsün, nə qəm!
Ağlama torpağın ahu-zarına.
Könül budağından qırılıb düşən,
Sapsarı məhəbbət yarpaqlarına
ağla,
ağla sən!
Ağaclar:
- O günlər hanı, bəs hanı? –
Deyə gileylənir bir yetim təki.
Ağaclar tökdükcə yarpaqlarını,
Çoxalır dərd yükü,
Artır qəm yükü!...

Həsrətdir ürəyim, həsrətdir oda.
Yazıq! Kirpiyimlə mən od götürdüm.
Çıl-çılpaq üşüyən budaqlarda da
Soyuqdan üşüyən könlümü gördüm.

Qısılıb sinəmə bağrında al qan,
Üşüyən ürəyim yatır, dincəlir.
Nəğməsiz qalan
Çıl-çılpaq məhəbbət budaqlarına
yazığım gəlir.

Oktyabr, 1969

NAĞIL GECƏM

Ulduzların diliylə
Nəsə danışır gecə.
Min dəfə seyr etdiyim
Adi, sadə bir gecə...
Birdən...
qəlbim titrədi.

Üşütdüm,
köks ötürdüm.
Ürəyimdə bir səni,
Bir də...
illər dalından
Nağıl gecəmi gördüm.
O gecə...
gözlərimdə
Mürgüləyir həmişə
Ən şirin uyğun kimi.
O gecə...
ürəyimin
Yatır dərinliyində
Altıncı duyğum kimi...
Gecə... bir sən, bir də mən.

O gecə baş qaldırdı
Bu gecənin içindən...
Şirin duyğularımla,
Həsrət arzularımla
Bir anda doldu gecəm,
Uzaq bir xatirənin
Həzın zümzüməsindən
Nəğmələşdi bu gecəm.

O gecə çoxdan keçib,
Geri dönməz o, bir də.
Bir gecənin həzzini
Geri qaytara bilməz
Min elə gecələr də...

Bir gecədə, bir anda
Şirin bır xatirəylə
Acı gerçək görüşdü.

O gecənin gözündən
Bu gecənin bağrına
İsti bir damcı düşdü.

Dedim, dağıl, a dünya,
Dağıl, tez dağıl, gecəm.
Sən dünyadan köçmüsən
Qəlbimə,
nağıl gecəm.
Sən indi bu günümlə
Gedə bilməzsən yola;
Ürəyimdə yaşarsan
Təəssüflə qol-qola.

Dövran dönür, vaxt keçir,
Səhərə də az qalır,
İndi gecələrim də
Mənimlə yalqız qalır.

Sən yoxsan... Bu günümə
Rişxənd edir dünənim.
Min bir gece gəlsə də,
Nağılım gəlmir mənim.

Bu gecənin içində
Nağılsızam indi mən.
Gecənin əllərində
Sarı bir yarpaq durur
Xatirə dəftərimdən.

Fevral, 1973

SƏNİ ANDIQCA ...

("Fəryad" pyesindən)

O zamandan ki, uzaq ulduza döndün,
Səni xatırlayıram hər gecə, hər gün.
Mənə ayrılmaq ölümdən betər oldu,
Səni andıqca - xəyal dərbədər oldu.
Görürəm, yoxmuş həyat, heç demə, sənsiz.
Bu günün ünvanı mümkünmü dünənsiz?
Yuxulardan umuram vəslini hərdən.
Demə, imdad yox imiş xatirələrdən.
Nə deməkdir, nə demək bir belə yanmaq?
Səni andıqca anır, doymuram ancaq.
Səhərim gəlsin, ötüşsün, gecə keçsin.
Suyu anmaqla susuzluq necə keçsin?

1977

BƏLKƏ DƏ...

Deyirəm, bəlkə də, əcdaddan hələ
İlkimiz bir toxum, bir tumdur bizim.
Qaynayıb-qarışıb qanım qanınla,
Fikrimiz, hissimiz qohumdur bizim.

Deyirsən, "ayrılaq!.."
Fitrətdən dönək?
Nə olar...
Başa sal ancaq bir şeyi:
Biz hardan öyrənək, kimdən öyrənək
Biri-birimizə özgələşməyi?..

"Ayrılaq"- sözünə ağladı göylər,
Yolu dəyişməmiş yolumu azdım.

Şirin olmasaydı sevgi bu qədər,
Ona acı-acı mən ağlamazdım!

Görüşlər özü də dadıma gəlmir,
Bu qədər yaxınıq, o qədər uzaq.
Bircə görüşümüz yadıma gəlmir,
Nə vaxt birləşdik ki, indi ayrılaq?

May, 1979

***

Hirsləndin, üzünü kimsə görməsin,
Elə bil, hər şeyə son qoydun daha.
Dəyişir sifətin,
Dəyişir səsin,
Bədxaha dönürsən, əsil bədxaha!

Bədxaha çevirir səni qəzəb, kin,
Əslində hamını başa düşənsən.
Sənə bu anlarda elə gəlir ki,
Dünyanın ən bədbəxt adamı sənsən.

De, nəyə gərəkdir könül darlığı?
Dünya min boyalı, min oyunludur.
Bəzən əlindəki bəxtiyarlığı
Sən görə bilmirsən,
bədbəxtlik budur!

Dünyam həmişə ürəyincə bil,
Ayaz gecələrdən, axı, çən doğur.
Onu bilirəm ki, üfüqdən deyil,
Hər kəsin günəşi qəlbindən doğur.

Bütöv bir bədbəxtlik yoxdu dünyada.
Təkcə dözümsüzlük var bu dünyada.

İyun, 1979

***

Nə zaman istəsəm, xəbər-ətərsiz,
Döyərəm qapını,
Çəkinmərəm mən.
Nə sənə, nə mənə görünməz yersiz,
Sormazsan: "Xeyir ola, niyə gəlmisən?"

Niyə gəldiyimi, vallah, heç zaman
Nə özüm bilmişəm,
Nə sən sormusan.
Gəlimli-gedimli qoca dünyaya
Niyə gəldiyini bilirmi insan?

Bilsəydim,
Mən niyə sevirəm,
Şəksiz
Niyə gəldiyimi bilərdim onda.
Sevgidən gəlirik bu dünyaya biz,
Doymamış gedirik,
Belədi qayda!

İyul, 1979

YAXŞI Kİ, DÜNYADA...

Bəzən öz-özümdən bezir, usanır,
Gözümlə görürəm "qiyamətimi".
Könlümdə sayrışan ulduzlar yanır,
Səni xəyalıma gətirən kimi...

Dərdimin bağrını yarırsan, gülüm,
Yoxsa həyat mənə əzab olardı.
Yaxşı ki, dünyada sən varsan, gülüm,
Könlüm işığını hardan alardı?..

Könlümə işıqlar saçırsan, gülüm,
Sənsiz bu dünyanı zülmət görərdim.
Yaxşı ki, dünyada sən varsan, gülüm,
Nəylə ovunardı dünyaca dərdim?..
Bəzən öz əhdini danırsan, gülüm,
Həsrətin könlümü necə göynədir.
Yaxşı ki, dünyada sən varsan, gülüm,
Bilməzdim dalğa nə, tələtüm nədir?

Həyatın sirrini açırsan, gülüm,
Laybalay, taybatay, qatbaqat mənə.
Yaxşı ki, dünyada sən varsan, gülüm,
Mənasız olardı bu həyat mənə.

Bağlı dəfinəyəm, açarsan, gülüm,
Xəznəmin sirrini tək sənə verdim.
Yaxşı ki, dünyada sən varsan, gülüm,
Mən var olduğumu hardan bilərdim?

İyul, 1979

BİR PAYIZ GECƏSİ

Bu payız gecəsi yaman uzandı,
Yuxum tikan kimi batır gözümə.
Bu fikir közərib, o fikri dandı,
Bir gecəlik həsrət ömürmüş demə.

Bir payız gecəsi nə uzun oldu,
Səhərim, vüsalım gecikir mənim.
Baharım gəlməmiş çiçəyim soldu,
Hər işdə ləngidim,
Budur qismətim!

Vaxtın sürətindən gileylənənlər
İntizar çəksəydi, vaxta gülərdi.
Vaxtın ləngliyindən aman dilərdi...

Gözlərim gözünə dikilir sənin,
Xəyalım tor kimi ilmə-ilmədi.
Açıq kirpiklərim
Uzun gecənin
Qara köynəyini açа bilmədi.

Təyyarə sürəti-mənim vüsalım,
Həsrət-bu sürətdə yetişər sona.
Səsli fikirlərim, səssiz xəyalım
Döndü təyyarənin uğultusuna.

Mənimki sualdır, sənin ki nida,
Biz ki, xəbərsizik öz fəhmimizdən.
Sənin təyyarənin qanadlarmda
Uçan xəyalımı, de, gördünmü sən?

Sirrimiz, sevdamız yatır dərində,
Özüm özüm üçün unudulmuşam.
Mən ki bu intizar gecələrində
Sənə özündən də yaxın olmuşam.

Sentyabr, 1979, Moskva

AĞ TÜK

Saçında qıvrılan ağ tükü gördüm,
Dağlardan payızın havası gəldi.
Çiynində həyatın yükünü gördüm,
Bağlardan quşların nəvası gəldi.

Ağ tellər-uğursuz sevginin qəmi,
Məndən gileylərin, şikayətlərin.
Ağ tellər-bürküdən yanan ot kimi,
Bir damcı yağışa möhtacdır yəqin.

Ağ tellər-qayğılı, dərdli ömürdən
Durna qatarıtək uçan günlərin.
Ağ tellər-izidir, ağarır dən-dən,
Ağrılı günlərin, yaman günlərin.

Ağardı saçında ehtiyacların,
Otu qarsaqlanan düzənlər kimi.
Yanğıdan ağaran o ağ saçların
Budaqda saralan xəzəllərdimi?

Qədərdən qədəri oğurladıq biz,
Bu tale arzunu arzudan damr.
Yazda şaxta vurdu...
Diləklərimiz
Ömrün payızında tumurcuqlanır.

Arzular ürəkdə quzu tək mələr,
Yer-yerdən,
rəngbərəng, cürbəcür indi.
Xırda tumurcuqlar, körpə düymələr,
Payız küləyindən üşüyür indi,

Payıza bənzərik, payıza ancaq.
Ürək o ürəkdir,
Hava buz kimi.
Soyunur ağaclar, tökülür yarpaq,
Rəngini soyunan duyğumuz kimi.

Yarpaqsız ağaca bənzərimiz var.
Quru budaqları tərk etdi quşlar.
Dünənki bürküdən bəlkə yanmışıq.
Bir ana budaqdan qalxır yüz budaq.
Bir gör neçə yerdən haçalanmışıq,
Burda əyri budaq, orda düz budaq.

Ağacın başında qaralır yuva,
Könlündə,
könlümdə bir qaraltı var.
Payıza sığındıq...
Soyuyur hava,
Saralır yarpaqlar, ağarır saçlar.

Avqust, 1979

DƏRİNSƏN, ZİRVƏSƏN

Hikmət kitabıdır sənin surətin,
Onu sona qədər oxumaq çətin!
Sən uzun illərin dolaylarında
Mənimçün heç zaman adiləşmədin.

Sən "gəlmə" deyirsən, əgər "gəl"- desən,
Yüz giley gizlənir bir gileyində.
Həmişə, hər yerdə qeyri-adisən,
Qəribə görünən adiliyində.

Baş vurdum könlünün dərinliyinə,
Qalxdım zirvəsinə sənin arzunun.
Əlimi, qolumu bağladın yenə,
Nə orda son gördüm,
Nə də burda son.

Ürəkdə nə qədər inci gizlənər,
Onlar bir-birindən baha, dəyərli.
Sonuncu görüşdə tapdığım gövhər
Əvvəlki gövhərdən daha dəyərli.
Sənin ürəyində yatan incilər,
Mənim ürəyimə ulduzlar çilər.

Qəlbini taybatay açmamısan sən,
Qorxmusan, gözünə çox işıq düşə.
Gözlərim qamaşa...
Hər görüşündən
Bir sirr saxlamısan gələn görüşə.
Aya çatmamışdan
o gözəlliyə
Yetişmək eşqilə yandıq,
düşündük.
Min il bu həsrətlə tor atdıq göyə,
Çatdıq,
ovcumuzda qum geri döndük.

Ayın əfsanəsi bitdi o gündən,
Dönüb ovcumuzda toz-torpaq oldu.
Sirrini insana bildirdiyindən
Ayın gözəlliyi itdi, yox oldu.

Sən mənim ovcuma qum tökməməkçün
Həmişə gizlətdin nəyisə məndən.
Ucaldın günbəgün,

Qalxdın günbəgün.
Daha gözəl oldun bu gün, dünəndən.

Hikmət kitabıdır sənin surətin,
Onu sona qədər oxumaq çətin!
Bu uzun illərin dolaylarında
Mənimçün bir dəfə adiləşmədin.
Dərinsən,
zirvəsən mənim gözümdə,
Belə tanımışam səni mən, gülüm.
Qeyri-adiliyin boy alır həm də
Mənim həsrətimdən, eşqimdən, gülüm.

Avqust, 1980

ÇİYDİM

«Çiydim, bişdim və yandım»
Cəlaləddin Rumi

Qılınc kimi kəsərdim
Paslanmışam qında mən.
Vurnuxuram həyatla
Ölüm arasında mən.

Ömürdə iki məqam:
Bir səhər var, bir axşam.
İndi bilməm: Durmuşam
Ömrün harasında mən?

Sinə gərib axına
Düşdüm yolun ağına.
Baxıb hünər dağına,
Qaldım dərəsində mən.

Öz rəngimə boyandım,
Hər əzaba dayandım,
«Çiydim, bişdim və yandım»
Həyat kürəsində mən.

May, 1999.

ƏMANƏT KİMİ

Sona çatır ömür, gün
Tükənən sərvət kimi.
Biz qovuşa bilmədik
İki qoşa xətt kimi.

Bəxtini yamanlama,
Öz-özünü danlama,
Bu taleyi anlama
Eşqə xəyanət kimi.

Yoxuşam, enişəm mən,
Dolanan gərdişəm mən,
Könlümü vermişəm mən
Sənə əmanət kimi.

Su gəldi, göl dolmadı,
Bulandı, durulmadı.
Heç kəs üçün olmadı
Bu dünya cənnət kimi.

Fevral, 1996.

ANA

Hər ölkədə anadır
Ana deyilən ana.
Anamız yer dolanır
Anaların başına.

Bir ananın alqışı
Min övlada bəs edər.
Bir ananın qarğışı
Bu dünyanı tərpədər.

Milyon ana ah çəkər
Bir övlad günahından.
Dünya qara geyinər
Bir ananın ahından.

Hara gedir içindən
Yana-yana dünyamız.
Analar istəyincə
Kaş, dolana dünyamız.

1992.

BİZ VƏTƏNÇÜN DOĞULDUQ

Vətənin arxasında
Biz həmişə dağ olduq.
Vətən bizimçin deyil,
Biz Vətənçiin doğulduq.

Toxunmasm bu yurda
Bir an düşmən nəfəsi.

Gəlsin minarələrdən
Allahü-Əkbər səsi.

Başımızm üstündə
Məmmədəmin bayrağı.
Güllə qorxar igiddən,
Güllə tutar qorxağı.

Vətən adlı ocağa
Hər gün isinmək şərəf.
Bu torpağm yolunda
Torpağa dönmək şərəf!

1992.

İLAHİ

R. Mirişli bəstələmişdir

Adını zikr edir gecəbəgündüz
Ağaclar, yarpaqlar, dallar, ilahi.
Könlümü, ruhumu aparır sənə
Keçdiyim dolama yollar, ilahi.

Bir cana borcluyuq, al canımızı,
Alma əlimizdən imanımızı.
Arındır, barındır zamanımızı
Açılıb qarşında əllər, ilahi.

Endırib zirvədən dağı, yol etmə,
Acgöz nəfsimizə bizi qul etmə.
Namərdi millətə sən oğul etmə,
Yoxsa, yazıq olar ellər, ilahi.

Ən böyük arzumuz: yol göstər bizə,
Fövqünə ucalaq, bu, yetər bizə.
Səni dərk etməyə ağıl ver bizə,
Duasız qalmasm dillər, ilahi.

Uymayaq dolanan çərxi-dövrana,
İnamla, ümidlə əl açdıq sana.
Gözünü göylərə dikən insana
Dərd yükü olmasın illər, ilahi.

Sən işıqla doldur ürəyimizi
Biz səndən umuruq diləyimizi.
Bir daha qul edə bilməsin bizi
Quzeydən baş alan yellər, ilahi.

Qaldır pərdələri sən gözümüzdən,
Millət seçə bilsin əməli sözdən.
Çox ayrı düşmüşük öz-özümüzdən
Bizi özümüzə qaytar, ilahi.

Dekabr, 1992.

İŞIQLA

İnsaf, vicdan, mərhəmət
Qəlbə dolar işıqla.
Ən dəhşətli, ən qatı
Şər boğular işıqla.

Yordusa dünya səni,
Boğ qəlbində qüssəni.
Kölgəylə yox, kölgəni
Qovmaq olar işıqla.

Nədir bu qeylü-qallar?

Bu haramlar, halallar?
Xəyallar, xoş xəyallar
Qəlbə dolar işıqla.

Sən zora bax, nura bax,
Biri zülüm, biri haqq.
Zülüm, zülmətlə, ancaq
Haqq doğrular işıqla.

İyul 1997, Şəki.

YUXULUYAM, YUXULU

Boşalıram, dolmuram
Çaşdırmışam sağ-solu.
Axtarıram bulmuram
Allaha gedən yolu.

Necə çatım mən ona?
Şeytan girir min dona.
Daş atır haqq yoluna
Azır Allahın qulu.

Özüm-özümə qənim
İçimdədir düşmənim.
Yolumu kəsmiş mənim
Bağ çəpəri, dağ kolu.

Hər bütə ram olmuram,
Dönüb səcdə qılmıram.
Daş dəyir, ayılmıram
Yuxuluyam, yuxulu.

Avqust, 1998.

DƏNİM ÜYÜDÜLMƏDİ

Bir uzunca səfərə
Çıxdı ömür karvanı.
Uzun yolda itirdim
Bələdçini-sarvanı.

Pay bölənlər görüşdü
Görün, kimə nə düşdü.
Çərdəyi mənə düşdü
Rəqib yedi xurmanı.

Fələk bir qınaq üstdə
Dağı çəkdi dağ üstə.
Yağı tökdü yağ üstə
Yavan qoydu yarmanı.

Arxıma su gəlmədi,
Bəxt üzümə gülmədi,
Dənim üyüdülmədi,
Qınadım dəyirmanı.

NAĞILIM GƏLSİN

Nə oldu bilmirəm, mənə nə oldu?
Özüm özüm ilə hər gün güləşdim.
Könül gah bulandı, gah da duruldu,
Axırda özümə biganələşdim.

Ən şirin arzular düşdü gözümdən
Dünya o dünyadır, mənmi qocaldım?
Yarışdı ruhumla cismim... özümdən
İrəlimi keçdim, gerimi qaldım?

Qocalıq qapımı vaxtsız döyüncə,
Zamandan dərsimi götürdüm, haray!
Ağlım ürəyimi üstələyincə,
Bu dolu dünyanı boş gördüm, haray!

Sevgidən savayı hər şey ağ yalan!
Onu itirdinsə, dünyan dağıldı.
Məhəbbət - həmişə təptəzə qalan
Köhnə rəvayətdi, köhnə nağıldı.

Həyat cəhənnəmə dönər ürəksiz
Yaşayıb sevməsə, insan insanı.
Hamımız olmuşuq, oluruq şəksiz
Bu şirin nağılın baş qəhrəmanı!

Elə ki, ağlımm quluna döndüm,
Getdi şücaətim, qəhrəmanlığım.
Üzülüb göylərdən yerdə süründüm
Ürək lağım-lağım, can dağım-dağım.

Ağlımın önündəbaşımı əydim
İçimdə boğuldu könlümün səsi.
Mən hardan biləydim, mən nə biləydim,
Eşqin getməsidir ağlın gəlməsi!

Eşqim geri qayıt, könlümü yandır
Taqətdən salsa da, bu həyat məni.
Ey köhnə nağılım, getmə amandır,
Yenə əvvəlki tək, gəl, aldat məni.

Məni yaşadanım, ucaldanım, gəl,
Nağılımş geri dön, gəl, aldanım, gəl.

Açılmır ürəyim, açılmır eynim
Gəl, gəl əzabımın ömrü gödəlsin.
Ruhumu öldürən bu ağlı neynim?
Qoy, məni yaşadan nağılım gəlsin.

***

Çağırır indi bütün milləti imdada Vətən
Dəyişilməz, ay oğul, cənnətə dünyada Vətən.

Bizə meydan oxuyan bilməlidir birdəfəlik
Nə satılmaz, nə verilməz binədən yada Vətən.

Sinə altında gərək qəlb kimi hər an döyünə,
Yana ulduz kimi hər sözdə, hər imzada Vətən.

Vətən eşqindən ucalsın bütün istəklərimiz
Yaşasın arzuda, məqsəddə, təmənnada Vətən.
Ulular uymadı var-dövlətə, yalnız dedilər:
- Ən böyük bəxşişimiz bizdən hər övlada: Vətən.

** *

Bu çökən zülmətə bax, sirrini saxlar gecənin,
Səhərim doğsa əgər, köksünü dağlar gecənin.

Gecə bir sirr kitabı, doğdusa ay, qəm eləmə,
O, ürək sirrini insana varaqlar gecənin.

Səhərin rüzgarı əsdikcə güneydən quzeyə,
Ağaran saçlarını asta daraqlar gecənin.

İşıq istər bu könül, mən işığın möhtacıyam,
Sözüdür, söhbətidir göydə çıraqlar gecənin.

Bəxtiyarlıq nə imiş? Zil qara zülmətdə işıq!
İşıq olmazsa, müdam gözləri ağlar gecənin.

İyun, 1996.

***

Fərqlər yox olub düz ilə nöqsan arasında-
Çınqıl daş ilə ləl-bədəxşan arasında.

Tarix boyu insan can atıb məchula doğru,
İdrak durub aşkar ilə pünhan arasında.

Yerdən tor atır sonsuz olan göylərə idrak,
Çarpışmaya bax, sirr ilə insan arasında.

İnsan bu qədər güclü ikən yerdə rəzalət!
Sən sülhə bax, arif ilə nadan arasında.

Tərif ilə, təhrif ilə təhqir olunur haqq,
Guya yox imiş fərq, su ilə qan arasında.

Bu əsrdə saziş yaranıb əxlaqa qarşı,
İsmətli mələklə dəli şeytan arasında.

Əppək yerinə satma bizə sünbülü, nadan,
Buğda dayanıb unla dəyirman arasında.

Səhv harda imiş? Keçdi ömür, anladım artıq
Çarpışma bitib nəfs ilə vicdan arasında.

Ey Bəxtiyar, İsa kimi çarmıxda üzüldün,
Qaldıqca sən ağlın ilə iman arasında.

İyun, 1997.

NİSBİLİK

Günəşə baxanda qaralır göz də
İşığın içində zülmət olurmuş.
İki sevən qəlbin qovuşduğu yer
Kol dibi olsa da, cənnət olurmuş.

Əzəldən nisbidir qara da, ağ da,
Yaxın da, uzaq da, təpə də, dağ da.
Dünən bayraq olan söz bəd ayaqda
Dönüb birdən-birə qələt olurmuş.

Hökmü daşdan keçir yalanın, şərin,
Ruhu unuduldu müqəddəslərin.
Amalı cibindən yüngül kəslərin
Ən böyük tələbi minnət olurmuş.

Xeyrində, şərində vəhdətdir aləm,
Bir ucu sevincdir, bir ucu ələm.
Qurulan tələdə mənim büdrəməm
Mənim rəqibimə fürsət olurmuş.

Enişin qədrini bildik yoxuşda
Ağıl nə bilikdə, nə də ki yaşda!
Dünyanın ahəngi baharla qışda,
Kədərlə sevincdə vəhdət olurmuş.

Amalsız, fikirsiz bir eşq, bir həvəs
Özü öz başına cücərə bilməz.
Millət sevgisiylə silahlanan kəs
Özü təkbaşına millət olurmuş.

May, 1992.

HAQQI

Dedim, çatdığına şükran ol, bala
Axı, alçalmadır minnətin haqqı.
Məni eşitmədin, yaman tələsdin
Yollarda qəzadır sürətin haqqı.

İndi göylərdəsən, zirvə çağındır
Özünə bənzərlər solun, sağındır.
Sənin kimlərəsə yalmanmağındır
Bu gün qazandığın "hörmətin" haqqı.

Bu xalqı talayan baxtı yeyinlər
Bu xalqın adından nitq deyirlər.
Onlar tulanı da əzizləyirlər
İnsana verilmir bir itin haqqı.

Kimki, öz haqqını zordan istəmiş –
Qapıdan qovulub, şapalaq yemiş.
Heç demə, ən böyük haqsızlıq imiş
Haqqını istəyən millətin haqqı.

Ruhani ata da bizi qəhr edir
Dözümə çağırır, tükənib səbir.
Məgər bu dünyada əzilməkmidir
O biri dünyada cənnətin haqqı?

Millətin qanını ey soran alçaq,
Bu günə öyünmə, bir sabaha bax.
Qorxudur, hürküdür, şübhədir ancaq
Rüşvətlə yığdığın sərvətin haqqı.

İstiqlal qazandıq, üzlər gülmədi,
Qaynaqdan bulanan su durulmadı.
Bir günlük, bir aylıq sevinc olmadı
Yetmiş il çəkilən zillətin haqqı.

Aprel, 1998.

BƏLKƏ AYILDIM

Zori Balayanın "Ocag"ına cavab

Gah Şərqə, gah Qərbə qol budaq atdıq,
Biz tarix yazmadıq, tarix yaratdıq.
Sizsə özünüzə hey zaman-zaman
Tarix uydurdunuz şərdən, yalandan.
Gerçəyin üzünə boya sürtdünüz
Böhtanı doğru tək gözə dürtdünüz.

Utanmaz üzünlə, Balayan, utan
"Bala"dan yaranmış öz soyadından.
Nədir Ələkçiyan, Dəmirçiyanlar?
Ələyə, dəmirə sən nə deyirsən?
Türkü bəyənməyib sən açıq aşkar
Türkün sərvətini mənimsəyirsən.

Nə tez cığırından çıxıb qudurdun
Dünənki ağanın üzünə durdun.
Rusun hiyləsiylə köçüb İrandan
Bizə sığınmaqçın masqa geydiniz.
Pənah xan Şuşanı tikdirən zaman
Çaydan daş daşıyan qulbeçəydiniz.
Vaxt keçdi, girdiniz başqa bir dona,
Düşdünüz ağalıq iddiasına.
Guya bu torpağın qəsbkarı biz,
Əsl sahibkarı yalnız sizsiniz.

Tarixin dərsləri unudulammaz,
Dünənki nökərdən ağa olammaz.
Saxta dəlillərlə yanan bu «ocaq»
Nifrət çöplərilə qalanıb ancaq.
Geydin astarını sən həqiqətin
Hər kəlmən uydurma, hər cümlən qərəz.
Türkə bəslədiyin kinin, nifrətin
Siqləti çəkiyə, ölçüyə gəlməz.

Düşmən kəsildiniz haqqa, gerçəyə
Əslində olmayan "soyqırım" - deyə.
Bürüdü dünyanı hay-harayımız,
Quyruq bulamaqda yoxdur tayınız.
Sənin "tarixinin" dolanbac yolu
Yalanla, böhtanla, şərlə dopdolu.
Allah, elə bil ki, yaradıb səni
Bizım başımıza bəla, erməni.

Həmişə oyaqsan...
sən bu gününə,
Mənsə keçmişimə uydum, bayıldım.
Uydur yalanları, uydur sən yenə
Bəlkə, qəflətimdən bir gün ayıldım.
Mən öz keçmişimlə xumaram hələ
Balayan, sən allah, məni iynələ.
Elə iynələ ki, göynəyən ağrı
Mənə çoxdan çatıb, hamıya çatsın.
Düşünüb sabahı deyirəm barı
Rəhbərim oyanıb xalqı oyatsm.

Dekabr, 1984.

BİR ULU MƏZAR

Xalqa milli azadlığın nə olduğunu başa saldıq.
M.Ə.Rəsulzadə

Gəldim ziyarətə bir ulu qəbri,
Arzumla, fikrimlə, dopdolu qəbri.
Kimdir burda yatan? - Şanlı dünənim.
Məkkəmin içində Məkkəmdir mənim.

Bu ulu məzara Məkkəmdir - dedim.
Mən ondan bir ovuc torpaq götürdüm.
Bu ulu məzarı məzar bilmədim,
Yatanın böyüklük haqqını gördüm.

Mənimçün bu məzar bir məzar deyil,
Dünənki qüdrətim, fərasətimdir.
İki il yaşayan, yalnız iki il –
Qundaqda boğulan hürriyyətimdir.

Dəydi bir-birinə əvvəl də, son da
Yatır bu məzarda eşqim, vicdanım.
Qədim Türk elinin ana qoynunda
Yatır bəxti yatan Azərbaycanım.
Yatır bu məzarda, qeyrətim, yatır,
Dünənki şərəfim, şöhrətim yatır.

Yatır millətimin öz ilkin adı,
"Mən də varam" - deyən səsi, fəryadı.
Yatır səadətim, yatır bayrağım,
Yatır qənimimə mənim göz dağım.
Yatır öz keçmişim, yatır səhərim,
İyirmidən bu yana itirdiklərim.

Atam, azadlığın nə olduğunu –
Onun ləzzətini dərk etdi xalqım.
Sabah, ya biri gün, bilirəm bunu,
Yenə qalxacaqdır enən bayrağım.

Qəbrindən aldığım tütyə torpağı
Sənin qaldırdığm şanlı bayrağın
Dibinə qürurla tökəcəyəm mən.
Orda gələcəyi əkəcəyəm mən.

Oktyabr, 1987, Ankara.

M.Ə.RƏSULZADƏNİN XATİRƏSİNƏ

Heykəl var-məzara gömülsün gərək,
Məzar var - heykəli ucalmalıydı.
N. Həsənzadə

Bu torpağın özü boyda
Bu torpağa məhəbbətlə doluydun.
Bu torpağın yolunda da
Sən öz canını qoydun.
Borclu ikən Vətən sənə, xalq sənə
Hər şey döndü tərsinə.
Bu torpaqdan verəmmədik
Bir məzarlıq yer sənə.

Zamana bax! Bu torpağı
Bir "sağ ol'a satana,
Xəyanətin kölgəsində
rahat-rahat yatana,
Bu milləti ölümlərlə
imtahana çəkənə,
Məmləkəti başdan-başa
talayana, sökənə

Heykəllər ucaltmışıq.
Özümüzü bəyənməyib
"Beynəlmiləl" laylasına yatmışıq.
Yatdığımız bəs etməznii?
Ayılaq bir, görək bir
Xeyir nədir, şər nədir?
Riyalara, boyalara
yetmiş ildir uymuşuq.
Görün, kimin əvəzinə
kimə heykəl qoymuşuq.

Ancaq ana təbiətdə
Bir əzəli qayda var:
Bünövrəsi eşq olmayan
tunc olsa da tez uçar.
Heykəl - məzar!
Biri - zora söykənibdir
Biri - haqqa, şərəfə!
Davamlıdır
qəlbimizə köçüb gələn o məzar.
Postamenti nifrət olan
yüz heykəldən yüz dəfə!

May, 1990

QARDAŞDAN GİLEY

Şair M. İsmayıla

Nə özbək, nə qırğız, nə qaraqalpaq,
Nə tatar, nə türkmən, nə türk, nə qazaq?
Bunlar bir ananın oğullarıykən
Qardaşın dərdinə susurlar nədən?

Ey özbək, ey türkmən, axı, sən mənim

Həm din qardaşımsan, həm qan qardaşım.
Sənin düşməninkən mənim düşmənim,
Düşmənin qəsdinə susan qardaşım.

Qanını tökürlər qan qardaşının
Səninki deyilmi tökülən bu qan?
Tüğyana gəlmədən, bəs sənin qanın
Necə sakit axır damarlarından?

Ey mənim dərdimə biganə qardaş,
Sənə uzatdığım qardaş əliydi.
Mənim ayağıma dəyən çırtma daş,
Sənin ürəyini göynətməliydi.

Amma göynətmədi...
inandm yenə
Şimal iblisinin şirin dilinə.
Onun fıtvasıyla sən yadı tutdun.
Sən dağa söykənib məni unutdun,
Bilmədin ancaq
Təməli çürükdür, uçulur o dağ.

Bucağa qısanda məni o azğın,
Dilin bircə dəfə məni anmadı.
Söylə, bəs müştərək əcdadımızın
Qanı da qəlbində qımıldanmadı?

Avqust, 1992

AZƏRBAYCAN ƏSGƏRİ

Emin Sabitoğlu bəstələmişdir.

Azərbaycan torpağında boy atmışıq biz,
Tarixlərin o tayından gəlir əslimiz,
Bir düşmənə baş əymədi oğuz nəslimiz.
Babalarm qanı axır damarımızdan,
Azərbaycan əsgəriyik, bu ada qurban!
Bu ada qurban, hey! Bu ada qurban!
Azərbaycan əsgəriyik, bu ada qurban!

Başımızın üstündədir üç rəngli bayraq,
Əvvəlimiz, axırımız bu ana torpaq.
Bu torpağm keşiyində əzm ilə durmaq
Bu millətin oğlu üçün şöhrət, şərəf, şan.
Azərbaycan əsgəriyik, bu ada qurban!
Bu ada qurban, hey! Bu ada qurban!
Azərbaycan əsgəriyik, bu ada qurban!

Qara torpaq Vətən oldu hünərimizdən,
Hünərimiz xəbər versin zəfərimizdən,
Şəhid ruhu baxır bizə göylərimizdən.
Sərhəd çəkək sinəmizdən yurda hər zaman,
Azərbaycan əsgəriyik, bu ada qurban!
Bu ada qurban, hey! Bu ada qurban!
Azərbaycan əsgəriyik, bu ada qurban!

1992.

İKİ BAYRAQ

Rusiyanın işğal ordusu Çeçenistanın hökumət evinə rus bayrağını sancdı.

Kiçik bir millətə verib göz dağı
O nəhəng Rusiya mənən kiçildi.
Bu gün Qroznıya bayraq sancmağı
Qəsbkar özünə şərəfmi bildi?

Bir vaxt bütün dünya qara bağladı
Nifrətlə, lənətlə baxdı Berlinə.
O vaxt Qafqaz oğlu, Qafqaz övladı
Qələbə bayrağı taxdı Berlinə.
Haqqın rəmzi idi əlli il qabaq
Berlinə sancılan qan rəngli bayraq.

Bu günsə öyünür öz babasının
Tutduğu şəhərə bayraq taxan rus.
O da bayraq sancdı, bu da... Bir baxın
Ona min təşəkkür, buna min əfsus!
Gətirməz Kremlə şərəf, şan bu gün
Bu iki bayrağı yanaşı qoymaq –
Haqqını istəyən bir kiçik xalqın
İşğal bayrağıyla gözünü oymaq.

Nəhəngin gücünə sinə gərməsi
Çeçen mənliyinin birüzlüyüymüş.
Kiçik bir millətə güc göstərməsi
Böyük Rusiyanın gücsüzlüyüymüş.

Məzlumun qanına həris cəlladı
Deyəsən, tanıdı dünya, nəhayət.

Bu iki bayrağın bir deyil adı
Biri Şərəfdirsə, biri Rəzalət.

Yanvar, 1995.

RƏHMƏT SƏNƏ, A SABİR

Mən həmişə xalqımı öz əzmindən dönməyən,
Düşmənini yendirən, amma özü yenməyən,
Min səsli, min həvəsli, od nəfəsli bilmişəm,
Kəshakəsli bilmişəm,
Babək nəsli bilmişəm.
Demə, Novruzəliymiş...
Basıb-kəsən, heç demə, qəlbi deyil, diliymiş.
Rəhmət sənə, a Sabir.
Başı daşlı bu millət,
Gözü yaşlı bu millət
Öz oduna qalanıb,
Yüz yerə parçalanıb,
Daha taqətdən düşüb, çək-çevirdən usanmış.
Sən bizi zamanında yaxşı tanımısanmış.
Sən deyəndə "Əngəlik qövmümüzün başına",
Bu gün heyran qalmışıq sənin qan yaddaşına.
Səndən sonra bu xalqın
Nə fitrəti, nə kamı, nə də karı dəyişmiş.
Pal-paltarı dəyişmiş.
Yenə həmən-həmənik,
Özümüzə diişmənik.

Düşdüyümüz bəlalar
Saxta güvəncimizin atəşini soyutdu,
Həqiqətin, gerçəyin üzünə ayna tutdu.
Gördük, ələnməmişik, biz qalmışıq ələkdə.
Zaman bizdən öndədir,

Bizsə bu gün hələ də sürünürük yedəkdə.
Rəhmət sənə, a Sabir!

İyul, 1995.

AYNA TUT

Ey mənim şəklimi çəkmək istəyən,
Sözümün, şeirimin rəssam qardaşı,
Söylə, varmı sənin elə bir boyan,
Orda əks oluna qəlbə damlayan,
Köksümü dağlayan isti göz yaşı?
Dərdimin rəmzidir mənim göz yaşım
Xalqın bu zavallı, xəcil günündə.
İçimə baş vuran rəssam qardaşım,
Çək mənim rəsmimi ayna önündə.

Özünü həmişə görmək istəyən,
Özünü axtaran bir yolçuyam mən.
Özüm də bilmirəm hara gedir yol,
Özgəyə məlumam, özümə məchul.

Baxıram aynaya...
Baxır yad-yada.
İçimi göstərə bilmir ayna da.

Ayna bir sirdirsə, könüllər min sirr.
Dərdini boyanla sən ovut görüm.
Ayna məni mənə göstərə bilmir,
Rəsminlə könlümə ayna tut görüm.

İyul, 1996.

ÖZÜM OLMALIYAM

Özünü dərk eylə, özünü anla,
Gah ona, gah buna baş əydin, yetər.
Özgəyə bu qədər yalmanmağınla,
Özünə düşmənsən özgədən betər.

Bizim özlüyümüz getdi büsbütün,
Hanı bəs kişilik, hanı bəs qürur?
Dünyaya hökm edən qoca Şərq bu gün,
Qərbin çubuğuyla oturub-durur.

Yada əyilməkdən, vallah, yorulduq,
Bezmədik özgəni yamsılamaqdan.
İtdi mənliyimiz, tanınmaz olduq,
Təmiz qanımıza qan calamaqdan.
Tanımaq istəmir bu dünya bizi,
Təqlidə boğdurduq mənliyimizi.

Tanınmaq istərəm mən öz səsimlə,
Bəsdir yaşadığım bir məhkum kimi,
Dünyamn gözünə yaxşı, pisimlə,
Görünmək istərəm olduğum kimi.

Nəyəmsə, mən oyam, qarayam, ya ağ,
Niyə özgəsinə küsənməliyəm?
Özüm olmalıyam, mən özüm ancaq,
Özüm deyiləmsə, demək heç nəyəm.

İyul, 1996.

MƏDDAH

Bu il iyul ayında televiziya ilə çıxış edən bir nəfər torpağımn 20 faizi işğal olunmnş, 1 milyon qaçqını olan millətimizin bu gününü "ən işıqlı günlər" adlandınb prezidenti Allahla qiyaslandırdı.

Cəzanə gətirdi, nəhayət, bizi
Boş-boş nitqləri beyni boşların.
Hamıya bəllidir qəsdi, qərəzi
Sözlərdə gizlənən bu alqışların.

Sözünün əvvəli, sonu da «mən, mən»
Çıxıbdır hamıyla davaya natiq.
Sözləri bir mizan, ölçü bilmədən
Sovurur toz kimi havaya natiq.

Onun sözündəki iddiaya bax,
Danışır "işıqlı bugünümüzdən".
Ax, necə yaraşır gəbərdib asmaq
Bu nadan oğlunu dediyi sözdən.

Havaya sovrulur boş gurultular,
Axı, boş qazanın küyü çox olar.
O səslər, nidalar gəlməz bir kara,
Sözlər küyə dönüb haray çəksə də.
Altdan paxır çıxır, mis qazanlara
Yalanlar nə qədər qalay çəksə də.

Hüdudsuz qiyaslar, hədsiz boyalar...
Amma nə sübutu, nə də şahidi.
İnsandan o qədər təmənnası var,

Allahı eləmiş ölçü vahidi.
Yumub ətrafına gözünü natiq,
Nrcə yeyib tökür özünü natiq.

Məddahlıq yarışı baş alıb yenə,
Tərifdən salona yağır gur yağış.
...Onu sevirsənsə, Onun xətrinə
Danışma, bu işin qulpundan yapış!

Onun yolu aydın, məramı aydın,
Bələdşi nə gərək görünən dağa.
Vallah, çata bilməz canfəşanlığın
O dağın sirrini bizə açmağa.

Günbatar ölkələr insanlıq üçün
Təzədən kəşf edir göylərdən yeri.
Bizim ölkədəsə kəşf olur hər gün
Köhnə yaltaqlığın təzə növləri..

İyul, 1997

SƏFƏR

Elə ki, düşürük ana bətninə
Yoxluqdan varlığa bir yol tuşlanır.
Elə ki, doğulduq dönüb tərsinə
Varlıqdan yoxluğa səfər başlanır.
Olumdan əvvəli anıb uçundum,
Ölümdən sonranı düşünüb dondum.

Doğuldun, sanma ki, açıldı baxtın,
Bir yük çəkəcəksən hər qanadında.
Olumdan ölümə uçuruq, vaxtın
Xeyir qanadında, şər qanadında.

İyul, 1994.

ŞİMŞƏK

Gecə yarı yağış yağır,
Göy gurlayır, şimşək çaxır.
Yarıb qatı qaranlığı
Göy bir anlıq yerə baxır.

Ürəyin də səmasında
Gah səhərdir, gah da gecə.
Bəzən olur, könüldə də,
Şimşək çaxır, bax, beləcə.

Avqust, 1997.

ARZUSUZ YAŞAMAQ ARZUSU

Arzudan göyərir min qan, min qada,
Yerindən oynadır çərxi-fələyi.
Xoşbəxt o kəsdir ki, onun dünyada
Nə bir arzusu var, nə bir istəyi.
Eləsi seyr edir həyatı gendən,
Onun yolu hamar, kefi çağ olur.
Arzular elə bir yükdü, çiyindən
Nə atmaq, nə satmaq, nə çatmaq olur.
Arzular dalınca elə yüyürdüm,
Nəfəsim təng oldu, gözüm qaraldı.
Bir zaman qəflətdən ayılıb gördüm,
Mənə boş-boşuna yüyürmək qaldı.
Çəkməm ola-ola çarıq istədim,
Həmişə qismətdən artıq istədim.
Sanırdım, az oldu yoxumdan varım,
Nəfsimə yedirtdim, doymadı, vallah.
Mənim arzularım, təmənnalarım,
Məni yaşamağa qoymadı, vallah.

Indi görürəm ki, qurban vermişəm
Ömrümü arzuya, təlaşa, qardaş.
Qazancım nə oldu? Yaş yetirmişəm
Ömrü dəyişmişəm mən, yaşa, qardaş.
İndi bir arzum var: Danıb hər şeyi,
Arzusuz, diləksiz qalmaq istəyi!

Bu gülünc arzuya mən güldüm, düzü,
Yaşamaq mümkünmü müqəvva kimi?
Arzusuz yaşamaq! Bu istək özü
Məgər başqa cürə arzu deyilmi?

İyun, 1997.

NECƏ DÜZ KEÇİM?

Bu yolun enişi, yoxuşu əyri,
Sellərin dağlardan axışı əyri.
Bu əyri yollara öyrəşənlərin
Yerişi, duruşu, hər işi əyri.

Küçə də əyridir, dalan da əyri,
Satan da əyridir, alan da əyri.
Nə vardı bir üzü olsa riyanın
İp əyri, daş əyri, tərəzi əyri.
Səninlə bir yolu addımlayanın
Məqsədi, məramı, qərəzi əyri.

Bezdim bulanmaqdan...
Durulmaq üçün
İstədim ən doğru yola and içim.
Əgər yol əyrisə, düz olmaq ıçün
Bu əyri yollardan necə düz keçim?

Sentyabr, 1997

BAYRAQ

Torpağın üstünə kölgələr salan
Mənim varlığımın cilası - bayraq.
Zəfərdən doğulmuş, Göytürkdən qalan
Qurdbaşlı bayrağın balası bayraq.

Üçrəngli bayrağın kölgəsində mən
Qaraca torpağı vətən görmüşəm.
Zəfər güllərini dövri- qədimdən
Bayraq işığında bitən görmüşəm.

Bayraq mənliyimdir, bayraq kimliyim
Bayraq - öz yurduma öz hakimliyim.

Harda əcdadımın ayaq izi var,
Bu zəfər bayrağım orda dikəlsin.
Keçdiyi yerlərdə dağlar, yamaclar
Onun hüzuruna salama gəlsin.

Tarixdən qədimdir, zamandan qoca
Mənim bayrağıma sancılan hilal.
Aləmə nur saçdı tarix boyunca
Mə'bədlər başına tac olan hilal.

Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

Aprel, 1998.

QÜRBƏT - VƏTƏN

Anamız birdirsə Vətən də birdir,
Nə ana, nə Vətən iki olammaz.
Qürbətdə tapdığın xeyir də şərdir
Qəlbin bu xeyirdən işıqlanammaz.

Qürbətin xeyrinə, ay aldanan kəs,
Vətənin şərinə kim ortaq olsun?
Vətəni özünə qürbət sanan kəs
Sənin anan ölüb, başın sağ olsun!

Hamı həşirdədir güzəranıyla
Ceyran belindədir bir loxma əppək.

Ana yaralısa, oğul qanıyla
Onun yaraları yuyulsun gərək.

Yediyim, içdiyim dərddi, qəmdisə,
Neyləmək? Bu ocaq, bu yurd mənimdir.
Göz yaşım axan yer qürbətimdisə,
Qanımın axdığı yer Vətənimdir.

Harda olursan ol, qəlbin fəhmi var
Səni torpaq çəkər, səni qan çəkər.
Qürbətdə Vətənçin gözü yaşlılar
Vətənin naminə canından keçər.

Avqust, 1998.

QƏRİBƏ DEYİLMİ?

Qəribə dünyadır, bəzən baş yarır
Ayağın dəstəyi taxta çəliklər.
Bəzən qul sahibi qula yalvarır
Dünyanı firladır qəribəliklər.

-Dünya çalxalanır yenə dəniz tək.
-Bu böyük dünyanın dərdini çəkmək
Bizəmi qalıbdır?
-Vallah, nə deyim?
Sənə yox, mənəsə qalıb, neyləyim?

Qəribə deyilmi? Sən sirr, mən də sirr.
Bu sirri bilmirik necə çözməli?
Kimi övladının dərdini çəkmir,
Kimi də xalqmın dərdindən dəli!

Torpaq əldən getdi, ölkə talandı.
Sənin nə vecinə, günün ağ olsun.
Sənin çün dtinyada hər şey yalandı
Təki damağın çağ, canın sağ olsun.

Bu boyda millətin ağır günündə
Qaşını çatmaq da sənə əzabdır.
Qardaşın döyülsə gözün önündə
Deyərsən, nə hay-küy, nə şaphaşapdır?

Ayıra bilirsən xeyirdən şəri,
Mənfəət meydanı sənin çin gendir.
Nə Vətən, nə millət? Səndən ötəri
Harda xeyrin varsa, ora vətəndir.
Xalqın naləsinə qulaqların kar,

Millətin içində millətə yadsan.
Dərddən başımıza yağdı yağışlar,
Səni islatmadı, dərddən azadsan.

Bir qırıq dəymədi xeyrin özgəyə
Quru ağacdan da meyvə dərmisən.
Xeyrinin gözüylə baxdın hər şeyə
Dünyanı cibinə yerləşdirmisən.
Qışın çovğunu da sənə yaz gəlir
Əgər mənfəətin var isə bundan.
Xeyrindən özgə şey sənə vız gəlir
Araz aşığından, Kür topuğundan.
Heç demə, dünyada dünyadan kənar
Zamanın çölündə yaşayan da var...

Oktyabr, 1998.

UNUT Kİ, SUSASAN

Sükut istəyirəm, sükut mən bu an.
Sükutun içinə girim, gizlənim.
Budur, təkcə budur indi dünyadan
Ən böyük istəyim, məramım mənim.

İndi böhtançıdan böhtanın, şərin
Hesabı sorulmır... Bir yol var: Unut!
Çəkdiyim bu qədər müsibətlərin
Niyəsi sükutdur, cavabı sükut.

Sussan, hər bəladan, dərddən uzaqsan
Danışsan, sübutun günah olacaq.
Unuda bilməsən, danışacaqsan
Unut ki, susasan, susasan ancaq.

1994-1998

AĞIL-FƏHM

Fəhmimlə görürəm görünməzləri
Rənglərə çevirir hissim səsləri.
Səslər inamımdır, səslər imanım,
Ağlın öz həddi var, fəhmin həddi yox...
Hansına inanım, hansını danım?
Fəhmimin cəddi var, ağlın cəddi yox.
Ağıl parlayanda sönür inamlar
Harda ağıl varsa, orda şübhə var.
Çox şeyi bilsə də bu nədəndi bəs,
Eşqin bildiyini ağıl biləmməz?

Bu ahıl çağımda fikir bağımda
Bir tərəf çiçəkdir, bir tərəf alaq.
Az-çox həqiqətə qovuşmağımda
Hissimə, fəhmimə borcluyam ancaq.

Avqust, 1998, Şəki.

İZTİRABIN DİLİ

Mən öz düşüncəmə necə qəsd edim?
Fikrim, düşüncəmlə mən, mən olmuşam.
Özümdən yuxarı qalxmaq istədim
Özümdən aşağı enən olmuşam.

Bu nədir? Bu dərdi hara yozum mən?
Bu dərd iztirabım, bu dərd əzabım.
Həmişə çalışdım, itirdiyimdən
Bir ibrət götürüb, təzə yol tapım.

Tapmadım, dilini bilmədiyimdən,
Çəkdiyim əzabın, iztirabların.

Mən kimdən öyrənim, bu dili, kimdən?
Mən ona borcluyam, o mənə darqın.

Yazdıqca dərdimi mən, kitab-kitab,
Günbəgün böyüyür o, heç kiçilmir.
Mənimçün sirr olur... çünki iztirab
Heç vaxt öz dililə danışa bilmir.

İyul, 1998.

BAYATILAR

Əzizim dərdə mərdim,
Düşməsin dərdə mərdim.
Mənə dərman neyləsin?
Tifilkən dərd əmərdim.

Bayatılar! Sözə ənbər qatılar,
Damarımda nəbz kimi atılar.
Bayatının atəşindən, odundan
Ürəyimdə neçə tonqal çatılar.

Bayatılar! Sinə dağı, göz dağı,
Məhəbbətin tüstülənən ocağı.
Bir millətin kimliyini bildirən,
Nəfəsindən ləpələnən bayrağı!

Bayatının boyasına boyandım,
Söz-qibləmdir, söz - eşqimdir, söz andım.
Bayatının tilsiminə düşüncə
Vallah, şair olduğuma utandım.

Aprel, 1998.

YAĞMASA...

İstəyim budur ki, yolum gen olsun
O nisyə gələcək qoy sənin olsun.
Vaxtın öz ünvanı, öz adıyam mən
İndinin, bu günün övladıyam mən.

Ümid-boynumuza keçən kəmənddir
Gözlə, öz-özünə açılan deyil:
Əkdiyin o taxıl yağışa bənddir
Yağmasa, bir dənin beş olan deyil.

İstərəm xəyalım, yuxum çin olsun
İndi boş ümidlər ar gəlir mənə.
Səpdiyin o toxum qoy sənin olsun
Çörək ver mənə!

İyun, 1998.

KAŞ Kİ...

Kaş ki, o toplantıya mən o gün getməyəydim.
Filan işi bu qədər, kaş ki, ləngitməyəydim.
Kaş ki, bu ağacları mən payızda əkəydim.
Vaxtında bu müşkülə, kaş ki, əncam çəkəydim.

"Kaş ki" - ömrümüz boyu bizim dilimizdədir
Vaxt həmişə axırsa, bu "kaş ki"lər bəs nədir?
Bahar qışın övladı
Hər "kaş ki" səhv addımın, bir yanlışın övladı.
Vaxtı qabaqlayanlar,
Hər dərdin çarəsinə öncədən ağlayanlar
Zamanın öz hökmünə vaxtında qulaq asdı.
"Kaş ki"ni dardan asdı.

"Kaş ki" sözü dünyada tamam unudulaydı.
Vallah, çox istəmirəm:
"Kaş ki" deməmək qədər
Kaş ki, ağlım olaydı...

İyul, 1998.

İBRƏT

Bu gün qatil oldu aynabəndimiz,
Şəffaf aynaları quş hava sandı.
Sürətlə uçaraq aydın, tər-təmiz
Aynaya çırpılıb o, yaralandı.

Quşu yerdən alıb evə gətirdim,
Dən verdim, su verdim, isti yer verdim.
Ertəsi quşcığaz qalxdı, dirçəldi,
Yarası sağaldı, özünə gəldi.

Ayna hava kimi görünmüş ona,
Aldanmış şüşənin şəffaflığına.
Düşündüm, yəqin ki, bir də quşcığaz
Aldanıb, özünü aynaya çırpmaz.

Aldanıb dünyaya bir zaman mən də
Ömür yollarımı hamar sanmışam.
Yıxılıb həyatın döngələrində
Bu quşcığaz kimi yaralanmışam.

İndi bu həyatı öyrənsəm də mən
Yenə aldanıram, bilmirəm, nədən?
Üz-üzə, göz-gözə durub haqq, nahaq
Haqsızın qəsdini haqq görə bilmir.

Quşun götürdüyü ibrətdən ancaq
Niyə insan oğlu götürə bilmir?!

İyul, 1998.

NƏFSİMİZ

Bizdə bu soyuq qanları neylərdin, ilahi?
M.Ə.Sabir

Qaçqının payına göz dikən alçaq,
Sənə hansı haqla mən insan deyim?
Millətin qanını soran qurumsaq,
Mən sənin adına soxulcan deyim.

Bəs hanı insanlıq, bəs hanı vicdan?
Tamah insanlıqdan qabağa düşdü?
Bəlkə də bu dövran dolandığından
Qibləmiz gah sola, gah sağa düşdü.

Bu, sənin xalqına ürəyi yanan
Özgə bir millətin verdiyi paydı.
Ey öz millətinə yaddan yad olan,
Paya göz dikincə gözün çıxaydı.

Xalqının dərdinə özgələr qədər
Yanmadın, bəs bunu niyə qanmadın?
Yetim qismətini yeyib sərasər
O şişən qarnından heç utanmadın?
Biz necə məxluquq, anlamıram mən
Nəfsimiz ağırmış qeyrətimizdən.

İyul, 1998.

YUXUM PERİK DÜŞÜB

Gecələr yuxuma fikirlər qənim
Fikirlər sərvətim, öz qismətimdir.
Saat çıqqıltısı gecələr mənim
Yeganə həyanım, həmsöhbətimdir.
Açıram səhəri diri gözlü mən
Yuxum perik düşüb fikirlərimdən.

Ömrümü-günümü əridir zaman
Hara tələsirsən, başına dönüm?
Gileyli deyiləm qaçan yuxumdan
Onun hesabına uzanır günüm.
Özümdən ağırdır dərdim, məlalım,
Məni sübhə qədər qoymur yatmağa.
Gecələr köçürür fikrim, xəyalım
Dağları arana, aranı dağa.
Gizlədə bilmədim könül sirrimi
Zaman ümidimə qarşı duranda.

O vaxt itirdiyim diləklərimi
Nə dağda tapıram, nə də aranda.
Cihada çıxıbdır dərdi-sərimlə
Bir yandan mehrabım, bir yandan pirim.
Durur gözlərimdə etdiklərimlə
Sabah, ya biri gün edəcəklərim.

Bu ahıl çağımda axan sel kimi
Daşıb çağlayıram, yaşı görmürəm.
Mən yaxşı görürəm görmədiyimi
Amma gördüyümü yaxşı görmürəm.
Dəedimlə dərdləşdim, dərdim karıxdı
Güləşdim, bəs niyə o məni yıxdı?

İyul, 1999

ÖZÜMDƏN QİSAS

Qəbirlər arasında ulayır dəli rüzgar
Otuz illik dostumu torpağa tapşırırlar.
Şaxta iliklərimə işləyirdi elə bil
Bu soyuğa, şaxtaya tablamaq mümkün deyil.
Neyləməli? Paltomun yaxasını qaldırıb,
Maşınıma çəkildim,
Bir az özümə gəldim.
Mən ki, ömrüm boyunca tərəzidə çəkmişəm
Savab nədir, günah nə?
O mərhumun xətrinə
Bayırdakı şaxtadan, küləkdən çəkinmədən
On, on beşcə dəqiqə onun qəbri başında
Dura bilməzdimmi mən?
Anlamıram, bəs niyə
Tab gətirə bilmədim bu çovğuna, küləyə?

Maşında baş qaldıran
Vicdanımın səsinə qulaqlarım kardımı?
Otuz illik dostluğu, çöldə məni təntidən
Küləklər apardımı?
Öz-özümə deyindim,
Dərhal maşından endim.
Vicdanımla barışdım,
Adamlara qarışdım.
Xəstələndim o gecə
Qızdırmanın içində sevinirdim gizlicə.
Səbəbini bildiyim xəstəliklə çünki mən
Sanki qisas alırdım indi özüm özümdən.

Mart, 1999

SUALIN CAVABI

Biri dedi: "Bu millət qolundakı zənciri
Birdəfəlik itirdi".
Biri dedi: "Istiqlal, axı, bizə nə verdi?"
Biri dedi: "Bu ölkə indi cənnət bağıdır".
Biri dedi: "Vallahi, bu yalanı deyənlər
Məmləkəti dağıdır".
Bu çək-çevir içində millətin bir yarısı
O birinə yağıdır.
Qohum-qohuma düşmən, qardaş-qardaşa düşmən
Bu fikir o fikirə, bu baş o başa düşmən.
Millət ki, bax beləcə, min bir yerə bölünmüş,
Bir-birinə top atan cəbhələrə bölünmüş,
Bizim gözlədiyimiz o birlik olmayacaq
O birlik olmayınca, dirilik olmayacaq.

Müxaliflər bəs niyə
Çağırır bu milləti gecə-gündüz birliyə?

Çəp düşüncə sözləri,
Bir olammır özləri.

Bəs neyləyək indi biz -
Tapsın haqqın yolunu zavallı millətimiz?
Bu sualı Cəlillər, Əlibəylər, Hadilər
Çox verdi bir-birinə,
Bir su səpən olmadı yanan ürəklərinə.

Milləti çaşdırıblar,
Gerçəyi ölçən ipi elə dolaşdırıblar
Millət ayıra bilmir əyrisi nə, düzü nə.
İtirib haqq-hesabı.

Bu millət yumruq kimi birləşib, öz-özünə
Verəndə bu sualı, tapılacaq cavabı.

Iyul, 1999.

UTANMAQ, QIZARMAQ

I

Qalxıram kürsüyə damşmaq üçün
Nədənsə, hər dəfə dil topuq çalır.
Məni elə basır zəhmi kürsüniin,
Demək istədiyim qəlbimdə qalır.
Uca kürsülərdən danışanda mən
Həm natiq oluram, həm də dinləyən.

Uzun illər boyu öz istəyimlə
Çox-çox kürsülərdən danışsam da mən,
Razı qalmamışam özümdən hələ
Özümə, sözümə nəzarətimdən.

Əgər karıxdımsa, elə o anda
Görürəm, alnıma soyuq tər gəlir.
Özüm öz sözümdən nöqsan tutanda,
Öz səsim özümə eybəcər gəlir.
Kürsüdə sərbəstlik mənə çox çətin!
Qorxmuşam fikrimi çatdırmayam mən.
Qorxmuşam, salonda əyləşənlərin
Üzümə zillənən nəzərlərindən.

Qorxmuşam, itirəm ölçü hissini
Qorxmuşam, nizamın pozulmasmdan.
Qorxmuşam, tərsinə anlayıb məni
Sözün başqa yerə yozulmasından.

Çox zaman kürsüdə sıxılmışam mən
Özümdən utanıb çəkindiyimdən.
Utanmaq - özündən bir boy ucalmaq!
Qızarmaq - günahı boynuna almaq!
Utanmaq hissini Allah heç kəsin
Qəlbindən çıxarıb, gülünc etməsin.

II

Xisləti, fitrəti hamıya məlum
O, yalan danışdı, yalan, ağ yalan.
Gözümü gözündən çəkib duruxdum
Onun əvəzinə utandığımdan.

Osa utanmadan gülüb gerçəyə,
Şəst ilə gözünü gözümə dikdi.
Üzünə vursaydım "yalandır" - deyə,
O, mənim üzümə dirənəcəydi.
Ondakı üzə bax, yalan düz oldu
Qara ağ, təpə dağ, astar üz oldu.

Üzdə abır varsa, sözdə ölçü var
Həyadan süzülən o sözə qurban.
Dünyada nə desən gözləmək olar
Özündən, sözündən utanmayandan.
Abır - üz suyudur, qəfil qızarar
Qırmızı deyilən bir acı sözdən.
Üzün ismətidir o su...
əlhəzar
Abırı, isməti silinmiş üzdən!

Tanrım, nöqsanımı göstərdin mənə
Səhvimi öyrəndim xəcalətimdən.
Utanmaq hissini sən verdin mənə
Bu böyük lütfünə minnətdaram mən.

Gerçək - qəlbimizdən qaçarıdırsa,
Yalan - yüksəlişin açarıdırsa,
Utanmaq, qızarmaq unudulubsa,
Abır - abırsıza məğlub olubsa,
İnsaf da, vicdan da ərşə çəkilmiş
Demək, insandakı insanlıq ölmüş.

İyun, 1999

NƏVƏM - İSTİQLALIM

Nəvəm beşiyində mışhamış yatır,
Yatır çəkdiyimiz dərddən bixəbər.
Birimiz əvvəlik, birimiz axır,
Mən batan günəşəm, o, doğan səhər.

Nəvəm yavaş-yavaş böyüyür hələ,
Bizim istiqlalın həmyaşıdır o.
Bizim ay-ulduzlu bayrağımızla
Mənim nəzərimdə yanaşıdır o.

Əsarət qınında keçdi dövranım,
Başımız üstündə qılınc parladı.
Kölə təbəliyi - mənim ünvanım,
İstiqlal övladı - nəvəmin adı!

Daha sərvətimiz verilmir yada,
İndi günəş bizim, indi nur bizim.
Amma əl-qolumuz azad olsa da,
Ruhumuz hələ də məhkumdur bizim.

Oğullar, nəvələr qoruyar, yəqin,
Babalar qazanan bu istiqlalı.
Bu bayraq altında böyüyənlərin
Ruhu da özü tək azad olmalı!

İyun, 1995.

***

Cənnət ola qürbət, yenə, vallah, Vətən olmaz
Qürbətdə şah olsan da, bir arzun bitən olmaz.

Əcdadımızın türbəsi torpaq - kökümüzdür,
Torpaqsız açan buğda dənindən də dən olmaz.

Kökdən aralandınsa, işin düşdü qəzaya,
İmdadına, fəryadına bir dəm yetən olmaz.

Elçin çəkilən hər bir əzab min çiçək açmış,
Yurdunda elin çəkdiyi zəhmət itən olmaz.

Yurd eşqi bütün sevgilərin tacıdır, əlbət,
Haqdan doğulan qibləyə heç vaxt çatan olmaz.

Mart, 1992

***

Ömrüm boyu mən qul kimi oldum sənə möhtac,
Allahını idrak üçün insan, dinə möhtac.

Hər şey dəyişib başqa şəkil alsa da, amma,
Cövhər ki, dəyişmir, dəyişən, əslinə möhtac.

Eşqim - mənim öz zatım idi, burdan ucaldım,
Səndin baharım, mən də bahar fəslinə möhtac.

İdrak üçün hərdən dala boylansa da insan,
Yüksəlmək üçiin daima idrak önə möhtac.

Bəzən inamın üstdə düşür kölgə mühitdən,
Günsən, o qaçan kölgədə iman, günə möhtac.

Dinim, imanım haqqa yetirsin məni, yarəb,
Allahım idrak üçün hər kəs dinə möhtac.

İyul, 1993, Şəki.

***

Bu çökən zülmətə bax, sirrini saxlar gecənin,
Səhərim doğsa əgər, köksünü dağlar gecənin.

Gecə bir sirr kitabı, doğdusa ay, qəm eləmə,
O, ürək sirrini insana varaqlar gecənin.

Səhərin rüzgarı əsdikcə güneydən quzeyə,
Ağaran saçlarını asta daraqlar gecənin.

İşıq istər bu könül, mən işığın möhtacıyam,
Sözüdür, söhbətidir göydə çıraqlar gecənin.

Bəxtiyarlıq nə imiş? Zil qara ziilmətdə işıq!
İşıq olmazsa, müdam gözləri ağlar gecənin.

İyun, 1996.

BU SEVGİ

İlk görüşdən qəlbimizdə özünə
Dərin-dərin yer elədi bu sevgi.
Gətirmədi ömrümüzə bir fərəh,
Xeyrimizi şər elədi bu sevgi.

Xaliqimiz bizi belə yaradıb,
Həyat bizə kəmənd atıb, tor atıb.

Hissimizi günü-gündən parladıb,
Ağlımızı kor elədi bu sevgi.

Neştərlədik ağlımızın gözünü,
Deyəmmədik arzumuzun sözünü.
Hakim olub qəlbimizə, özünü,
Ömrümüzə pir elədi bu sevgi.

Pay ummadıq nə qaradan, nə ağdan,
Çəkinmədik hədələrdən, qınaqdan.
Biz bu yolda çox çıxmışıq sınaqdan
Axır bizi ər elədi bu sevgi.

Qəlbimizdə hey sızıldar qəm neyi,
Axarına buraxmışıq taleyi.
Hər kəs üçün aydın olan hər şeyi
Bizim üçüü sirr elədi bu sevgi.

Eyni yükü biz həvəslə daşıdıq,
Bu gün artıq dərdimizlə yaşıdıq.
Biz o qədər eyni hissi yaşadıq,
İkimizi bir elədi bu sevgi.

İyul, 1993.

BU KÖHNƏ BAZARIN

Çəkilən ağrılar qədərdən gəlir,
Fələyin fırlanan köhnə çarxı var.
Bu təzə dərdlərə döz, yazıq ürək,
O çarxı hərlədən təzə arxı var.

Çəkmə bu bazara köhnə neməti
Satdıq nəfsimizə, satdıq qeyrəti.
Matah o matahdır, enib qiyməti

Bu köhnə bazarın təzə nırxı var.

Cavabsız suala döndü diləklər,
Saxlaya bilmədi damı dirəklər.
Vaxtın ağrısını çəkir ürəklər
Harda ürək varsa, orda ağrı var.

Kölәlik damğası kürəyimizdə,
Cəsarət qüdrəti qalmadı bizdə.
Arzu puç olsa da ürəyimizdə,
Ümidi səsləyən gizli çağrı var.

Avqust, 1995.

XATALI DÜNYA

Zahirdən baxanda gözə xoş gəlir, -
Çəmənli, çiçəkli, butalı dünya.
Yaxına gələııdə ilantək çalır, -
İlki də, sonu da xatalı dünya.

Dərdi könlümüzdə yuvalanıbdır,
Cəzbi ağlımızı başdan alıbdır.
Bizi də özü tək çaş-baş salıbdır,
Müftəsi ucuzdan bahalı dünya.

Neçə sifətlidir, neçə dillidir,
Yaxşısı, yamanı kimə bəllidir?
Qanana qaynağı başdan lillidir,
Qanmaza hər dəmi səfalı dünya.

Adamlar qəlbini gizlədər, deməz,
Ağaclar calaqdır, heyvanlar mələz.
İçini görməyə gözün işləməz,
İnsanın əlilə boyalı dünya.

Bir ləzzət almadıq gəlişimizdən,
Verdiyi hər şeyi o, alır bizdən.
İndi də qorxuruq gedişimizdən,
Ziyanı xeyirdən şəfalı dünya.

Özü öz felindən düşüb çəmbərə, -
Mələyi şeytana, xeyiri şərə,
Haqqı, həqiqəti yalan sözlərə,
Bizi nəfsimizə satalı dünya, -
Təpədən-dırnağa xatalı dünya.

1996.

BU ALƏM MƏNİ

«Utanıram» şeiriniz bizi ağlatdı.
Şeirləriniz ziyadə bədbindir.
İstəyirik biz sizi şad- xürrəm görək.
Ərdəbildən oxucü Qulam Rza FƏRDAYİ.

Usanıb kədərli şeirlərimdən
Görmək istədiniz şad-xürrəm məni.
Mən, axı, dərdimlə bütövəm, qardaş,
Əgər dərdsizəmsə, bilin kəm məni.

Açdım əllərimi «Ya Allah», - deyə, -
Bir dəm ürəyimdən dərd əskilməyə.
Sevincə, şadlığa, deyib-gülməyə
Yaradıb Allahım naməhrəm məni.

Dövrəmdə dərd uçur belədən-belə,
Qəm-qüssə - batmandır, şadlıq - bir gilə.
Özüm də bilmirəm, bilmirəm hələ
Mən qəmi sevirəm, yoxsa, qəm məni.

Açılmır qapısı nağıl «sim-simin»,
Qaçıram əlindən bəzən dərdimin.
Görürəm, yanımda əyləşib...yəqin
Qəm bilir özünə bir həmdəm məni.

Dərdə «gəl-gəl», - deyir qəlbimin səsi,
Duyanın, qananın dərddir qibləsi.
Qəmdə elə yandım, sözün məxləsi
Bir zərrə qorxutmur cəhənnəm məni.

Harda kədər varsa, orda varam mən,
Sevinci bilmişəm qəlbə haram mən.
Sonsuz kədərimlə Bəxtiyaram mən,
Qəmimlə tanıyır bu aləm məni.

May, 1996.

GERÇƏK GÜNAHKARDIR

Yazıçı dostum H. Abbaszadəyə

Qəribə əyyamdır, üz, astar olmuş,
Bazarda satan çox, amma alan yox.
Mənim ürəyimdə indi yel vurub,
Yengələr oynayır, çəpik çalan yox.

Azadlıq qollarda bir kəmənd olub,
İndi qarğalar da gülə bənd olub,
Fələyin gərdişi tərs-avand olub,
Gerçək günahkardır, amma yalan yox.

Maşallah, çıxmışıq göyün seyrinə,
Bilən yox bu işin şəri, xeyri nə.
Qılan səcdə qılır tək öz xeyrinə,
Haqqa səcdə ilə namaz qılan yox.

Bir ovuc torpaqdır hamının sonu,
Sağ ikən bir kimsə düşünmür bunu.
Hamımız acgözük, Allah xofunu
Qəlbinə, ruhuna, vallah, salan yox.

KÜSÜBDÜR

Çəmən soxdu gözümüzə qanqalı
Çəmən güldən, gül çəməndən küsübdür.
Bir-birinə millət yağı kəsilib
Yalan deyən, düz deyəndən küsübdtir.

Önümüzdə nə cığır var, nə işıq
Göyə deyil, yerə səcdə qılmışıq.
Mədəmizin həşirinə qalmışıq
Bədən ruhdan, ruh bədəndən küsübdür.

Bir-birindən ağır gəlir günümüz
Vallah, yaman qalınlaşıb gönümüz.
Cahillərə tapşırıldı dinimiz
Din bu xalqdan, xalq da dindən küsübdür.

Göy üzündə baxtımızın bürcü var,
Tale ilə zəmanənin mərci var,
Bu günlərin gələcəyə borcu var
Ön arxadan, arxa öndən küsübdür.

Bir-birini anlamayır nəsillər,
Öz yerini dəyişibdir fəsillər.
El torpaqdan ayrı düşüb o qədər
Əkən yerdən, yer əkəndən küsübdür.

Yuxarılar əl çəkmədi nəfindən,
Beş-on yerdə saray tikdi kefindən.

Bircə loxma çörək üçün evindən
Perik düşən el, vətəndən küsübdür.

May, 1998.

HAQQI

Dedim, çatdığına şükran ol, bala
Axı, alçalmadır minnətin haqqı.
Məni eşitmədin, yaman tələsdin
Yollarda qəzadır sürətin haqqı.

İndi göylərdəsən, zirvə çağındır
Özünə bənzərlər solun, sağındır.
Sənin kimlərəsə yalmanmağındır
Bu gün qazandığın «hörmətin» haqqı.

Bu xalqı talayan baxtı yeyinlər
Bu xalqın adından nitq deyirlər.
Onlar tulanı da əzizləvirlər
İnsana verilmir bir itin haqqı.

Kimki, öz haqqını zordan istəmiş –
Qapıdan qovulub, şapalaq yemiş.
Heç demə, ən böyük haqsızlıq imiş
Haqqını istəyən millətin haqqı.

Ruhani ata da bizi qəhr edir
Dözümə çağırır, tükənib səbir.
Məgər bu dünyada əzilməkmidir
O biri dünyada cənnətin haqqı?

Millətin qanını, ey soran alçaq,
Bu günə öyünmə, bir sabaha bax.

Qorxudur, hürküdür, şübhədir ancaq
Rüşvətlə yığdığın sərvətin haqqı.

İstiqlal qazandıq, üzlər gülmədi,
Qaynaqdan bulanan su durulmadı.
Bir günlük, bir aylıq sevinc olmadı
Yetmiş il çəkilən zillətin haqqı.

Aprel, 1998.

NÖQSANDAN DA BETƏRMİŞ

Öz-özümü mənəm çəkən çarmıxa,
Nə biləydim, hökmü verən qədərmiş.
Öz içimdə hakim ilə vəkilin
Gecə-gündüz çəkişməsi hədərmiş.

Çox düşündüm: nədir qəsdim, niyyətim?
Hara çəkir, görən, məni fitrətim?
Bu dünyadan mənim payım, qismətim
Sevincimdən oğurlanan kədərmiş.

Mən baxmadım nə yada, nə həmdəmə,
Nöqsanımı faş elədim aləmə.
Hey danladım öz-özümü... heç demə,
Mərdliyim də etirafa qədərmiş...

Vicdanımdan sordum: nədir etiraf?
Cavab verdi: bir tövbədir etiraf.
Indi bildim, əməlsiz bir etiraf
Günah kimi nöqsandan da betərmiş.

Dekabr, 1998.

MƏNDƏN XƏBƏRSİZ

Ömrün fəsilləri tez başa gəldi
Yayı bəhərlidir, qışı bəhərsiz.
Bir vaxt ayıldım ki, heydən düşmüşəm,
İllər öz atını çapdı yəhərsiz.

Amal olan yerə baş qoyan illər,
Toran gözlərimə yaş qoyan illər,

Ey yaşım üstünə yaş qoyan illər,
Hara qaçırsınız məndən xəbərsiz?

Ey ömür! Görüniir artıq sahilin
Əlin qısaldıqca uzanır dilin.
Ömürdən verdiyim yetmiş üç ilin
Zəhəri yetərli, balı yetərsiz.

Öz çiyin yüküdür hər kəsin yaşı
Dərdi-sirdaşıdır, fikri-yoldaşı.
Dönüb xislətimə qəhər, göz yaşı
Sevinc də, kədər də ötmür qəhərsiz.

Fikirlər selində axandan bəri
Ayıra bildimmi xeyirdən şəri?
Tökülmüş ömrümün yarpaq illəri
Bağçası viranə, bağı çəpərsiz.

Könül o könüldür, qoca yaşımda
Fikirlər qaynaşır yenə başımda.
Yenə hücumdayam söz savaşında
Sözüm təpərlidir, özüm təpərsiz.

Avqust, 1998, Şəki.

VƏTƏN DƏRDİ

Bir milləti neçə yerə böldülər
Qoşulmadım bir cəbhəyə, dəstəyə.
Vətən birdir, arzum budur: bu mülət
Bir-birinə qardaş deyə, dost deyə.

Çağrışların, şüarların nə xeyri?
Anlamadıq kim düz deyir, kim əyri.
Yığışdırın bu harayı, həşiri
Biriik gərək Vətən adlı xəstəyə.

Sındırılsa kökdən gələn dayaqlar,
Millət dönüb bir-birini ayaqlar.
Sınacaqdır bar gətirən budaqlar
Söykənməsə bir dayağa, dəstəyə.

Xilasına yol axtarır Vətənim
Bundan ayrı başqa qəmim yox mənim.
Bu arzumu görəmmədi düşmənim
Pul deyiləm, hamı məni istəyə.

İyul, 1999

DƏDƏSİNİN MALI KİMİ

Sinəmizdə at çapdılar
Quldalığın qulu kimi.
Haqqımızı unutdular
İtən qəbrin yolu kimi.

Su qatdılar aşımıza,
Qıydılar göz yaşımıza.

Yağdırdılar başınıza
Böhtanları dolu kimi.

Qanımızı hey sordular,
Kəbəmizi uçurdular.
Bizi yamanca qırdılar
Qaratikan kolu kimi.

Köksümüzdə sinə dağı,
Biz yaşadıq qul sayağı.

Gələn satdı bu torpağı
Dədəsinin malı kimi.

İyul, 1991, Şəki

SÖZ

Şirin olur, gözəl olur
Ürəklərdə bişəndə söz.
Amma necə qışqırmayım,
Ürəyimi deşəndə söz.

Haqsız haqlını döyəndə,
Əyrilər düzü əyəndə,
Necə dözüm, ürəyimdə
Qaynayıban daşanda söz?

Qiymətlər ki, quduzlaşır,
Hər şey bazarla uzlaşır.
Həyatımız ucuzlaşır,
Dəyərindən düşəndə söz.

Sakit gölə gah daş atır,
Gah zəhərə şəkər qatır.

Xəncər olub köksə batır
Öz həddini aşanda söz.

Bəzən ürək tüstüləyir,
Sönmək üçün su diləyir.
Haqq haqsızı üstələyir
Öz yerinə düşəndə söz.

İyul 1993.

«MƏNİMİZİ» «BİZLƏŞDİRƏK»

Əlbəyaxa savaşdadır,
Bir bədəndə ağıl-ürək!
Dedim, bu zidd qütbləri
Birləşdirən bir əl gərək.

Vuruşdurduq biz «mən»ləri,
Calaq etdik xeyrə şəri.
Bu barışmaz düşmənləri
Biz nə qədər üzləşdirək?

Gah ona dön, gah buna dön!
Bəs deyilmi özsüzlüylün?
Bu bəladan xilas üçün
Özümüzü özləşdirək.

Pusur bizi şər məqamda,
«Mən», «mən» dedik hər məqamda.
Heç olmasa dar məqamda
«Mənimizi» «bizləşdirək».

İyul, 1993, Şəki.

BAXMIR

Həqiqət düz yolunda
Şəkkə-şübhəyə baxmır.
Yalan da öz yolunda
Dönüb gerçəyə baxmır.

Zorun ağzı bülöydə
Haqq həmişə gileydə.

İnsafın üzü göydə
Zülüm heç nəyə baxmır.

Bu gün xoşdur, bəs dünən –
Unutdunmu bunu sən?
Ucaldığı zirvədən
Heç kəs geriyə baxmır.

Dünya bir qumarxana,
Gör kim uda, kim yana.
Hər şey baxır zamana
Zaman heç nəyə baxmır.

İyul, 1993.

DAŞ YERİNDƏ AĞIR OLUR

Yalan sözü eşitməkdən
Qulaqlar da yağır olur.
Məqamını keçirdinsə
Qora suyu çaxır olur.

Söz də gərək yana-yana
Qəlb oduyla cilalana.

Qalay çəkməsən qazana
Qala-qala paxır olur.

Tapmısansa amalını,
Çox belləmə sağ-solunu.
Tutub getsən öz yolunu
Çəmən üstü cığır olur.

Divar hörmə cavan oğlan
Təməlsiz daş qalağından.

İki cinsin calağından
Kəhər olmur, qatır olur.

Gördüm gülü tumurcuqda
Yoxu-varda, varı-yoxda.
Ən zülmkar bir alçaq da
Yeniləndə fağır olur.

Hər otun öz zamanı var,
Yaxşısı var, yamanı var.
Hər kəsin öz meydanı var
Daş yerində ağır olur.

Avqust, 1994, Şəki.

UCUZ

Bu gün bizim bazarda
İpək, sətindən ucuz.
Balımızı satmışıq
Alça mətindən ucuz.

Ağ - qara, uzaq - yaxın,
Hara gedir bu axın?

Dəyanət bir alçağın
Xəyanətindən ucuz.

Dərdlərimiz artalı
Dəymiş bildik hər kalı.
İndi göyün qartalı
Yerin bitindən ucuz.

Qəhr edilsə imanın,
Nə günahı zamanın?

İndi nə var, insanın
Ləyaqətindən ucuz?

Üzə gülmür qədər də
Necə dözək bu dərdə?
Təzə məzənnələrdə
Atın itindən ucuz.

1996.

ZAMAN MƏNİM İÇİMDƏDİR

Mən qürbətdə deyiləm,
Qürbət mənim içimdə.
K. Kamu

Gah qabarıb, gah çəkilən
Tufan mənim içimdədir.
Çox qınama o çərxi sən
Dövran mənim içimdədir.

Hardan əsdi dəli rüzgar?
Bu gün dərd də məndən bezar.
Könlüm oldu xarabazar
Talan mənim içimdədir.

Tapmaq üçün doğru yolu,
Çox bəllədim sağı, solu.
Həm dost, həm də ən qorxulu,
Düşmən mənim içimdədir.

Mən aranda dağ istədim,
Zil qaranı ağ istədim.
Zamandan qaçmaq istədim
Zaman mənim içimdədir.

Dərədəki çən çən deyil,
O dağdakı duman deyil,
O inləyən kaman deyil.
O çən mənim içimdədir,
Duman mənim içimdədir,
O inləyib nalə çəkən
Kaman mənim içimdədir.

Avqust, 1996.

MİLLƏTİM

Niyə bu günə düşdün
Ay mənim məmləkətim?
Özümə düşmən olub
Aşıb-daşan sərvətim.

Bir vaxt sən də xan idin,
Vaxta hökmüran idin.
Dövlətlər quran idin
İndi sənə nə oldu,
A qullaşan millətim?

Daşından da zər bitər,
Yeddi arxana yetər.
Dilənçidən beşbetər
Yoxsullaşan millətim.

Namusuyla, arıyla,
Keçdiyi yollarıyla,
Böyük oğullarıyla
Oğullaşan millətim.

Savaş hünərləriylə,
Qəhrəman ərləriylə,
Böyük zəfərləriylə
Nağıllaşan millətim.

Dəmir qıran dişiylə,
Igidlik vərdişiylə,
Öz şanlı keçmişiylə
«Sağollaşan» millətim.

Bu xalqın öz övladı
Öz-özünü ovladı.
Səbrini buxovladı
Səbri daşan millətim.

Necə dözdün bir belə
Müsibətə, müşkülə?
Çəkdiyi sitəm ilə,
A yollaşan millətim?

Nə gündəsən, nə gündə?
Qor qalmayıb külündə.
Qeyrətsizlər əlində
Bu gün caşan millətim.

İstəyirəm çaşmaya,
Dərdiylə yollaşmaya,
Bir daha qullaşmaya
Xan oğlu, xan millətim.

May, 1998.

BAX

Tamlığı dərk etmək üçün
Bir yerə bax, bir göyə bax.

Haqq danışır lap astadan,
Yalandakı səs-küyə bax.

Haqqı yenirkən nahaqlar,
Haqq sabaha ümid bağlar.
Biri gülər, onu ağlar
Sən ağlayan bəndəyə bax.

İnsanıqsa, insaf hanı?
Tapdayır insan insanı.
Kələ-kötür bu dövranı
Hamarlayan rəndəyə bax.

Yalan elə gəliş gəldi,
Həqiqət geri çəkildi.
Atam ancaq saya bildi
Anam kəsən kündəyə bax.

Zülmü gördük neçə donda,
Məzlumların sırasında.
Haqla nahaq arasında
Sözlə dolan xəndəyə bax.

Dekabr, 1998.

GERÇƏK ÖLDÜ, YALAN YOX

Allah, bu nə dünyadır,
Ağlayan çox, gülən yox?
Bu qəribə işlərin
Axırını bilən yox.

Dərdimi çox bəslədim,
Göz yaşımla süslədim.

Sonra satmaq istədim
Bir quruşa alan yox.

Yalanla çox vuruşduq,
Haqqın ardınca qoşduq.
İstiqlala qovuşduq
Gerçək öldü, yalan yox.

Oktyabr, 1999

MƏN ALDANMAQ İSTƏYİRƏM

Ümidimin çırağına
Bir qətrə vağ istəyirəm.
Ağlar qalan diləyimə
Adaxlanmaq istəyirəm.

Zaman çoxu az elədi,
Bizi dayaqsız elədi.
Haqq - məni haqsız elədi
Haqqı danmaq istəyirəm.

Açar gəzdim düyünümə
Qıfıllar çıxdı önümə.
Sabah üçün bu günümə

Dayaqlanmaq istəyirəm.

Gül kol imiş, sol sağ imiş
Haqq - gerçəyi danmaq imiş.
Xoşbəxtlik aldanmaq imiş
Mən aldanmaq istəyirəm.

Avqust, 1994.

GEDƏR OLMAZ

Cəsarətdə çəkingənlik,
Ehtiyatda hünər olmaz.
Cürət basar qorxaqlığı,
Cəsarətsiz zəfər olmaz.
Bir anaya oğuluq biz,
Ona borclu bir quluq biz.
Varsa Vətən qeyrətimiz,
Bu Vətənə xətər olmaz.
Həm böyütdü Vətən bizi,
Həm ucaltdı şənimizi.
Yolunda öz sinəmizi
Çəpər etsək yetər olmaz.
Nə eybi var unudulsam,
Dərdə, qəmə sipər olsam.
Mən Vətəndən gedər olsanı,
Vətən məndən gedər olmaz.

İyul, 1999.

SAVABIMIN YAŞDAŞIYAM

Bir məbəddə dua etdim,
Təzələndi gün, ahımdan.
Çiynim yükdən azad oldu,
Təmizləndim günahımdan.

Xəyalımdan bulud ötdü,
Ürəyimdə çıraq yandı.
Elə sandım, bu məqamda
Səhvlərim bağışlandı.

Günahları dəfn elədim
Məzarına baş daşıyam.
Günahlarım ölən andan,
Savabımın yaşdaşıyam.

1999.

OXU GÖZÜMDƏN MƏNİM

Gözlərimin nurunda
Bərq vurur dərd-sərim.
Sükutumun dilidir
Mənim düşüncələrim.

Nədir bu düşüncələr?
Dilə gətirmək - çətin!
Varmı bilən dilini
Zülmətdəki zillətin?
Gör necə dəyişmişəm
Soldu gülüm, gülşənim.
Çəkdiyim əzabları
Oxu gözümdən mənim.

Könlümün ağrısını
Kimə deyim mən, kimə?
Həkimlər də dərdimi
Dərman bildi dərdimə.

Iyul, 1999, Şəki.

YOX

Göy üzündə qara bulud
Göz yaşını sıxması yox.
Qıvrılıb döş-döşə gəldi,
Şimşək olub çaxması yox.

Qapısı açıqdı şərin,
Dibi yoxmuş bu dərənin.
Bizə çörək yetirənin
Evində bir loxması yox.

İt dirsəyi gözə çıxar,
Ucuz taxıl toza çıxar,
Çöp dənizdə üzə çıxar,
Dürrün üzə çıxması yox.

Üyünür ömr adlı dənin
Bəs hardadır üyüdənin?
Göydə ulduz kəşf edənin
Yerdə kiçik daxması yox.

Mart, 1999.

HAQQA TAPINMAQ

Mən əl açıb Tanrıya
Bəxtimizi aç dedim.
Neyləyim, insan bu gün
Haqqına möhtac dedim.

Borcumu dərk eylədim,
Haqqımı tapdım, demək.

Haqqımı dərk eylədim,
Haqqa tapındım, demək.

Haqqa gedən düz yolum
Ağlım ilə doğrulur.
Ağlına təslim olan
Tanrıya təslim olur.

May, 1999.

VƏTƏNDAŞLIQ VƏSİQƏM

(kiçik poema)

Əcnəbi məmləkətə
Bizim gəmi yan aldı.
Məni həyəcan aldı
Oxuyunca öndəki
Binanın üstündəki
Yazını...
Bu ölkədə
Gözümə ilk dəyən şey
Həmin bu yazı oldu,
Mənim yanan sinəmə
Elə bil buz qoyuldu.
Dönə-dönə oxudum
Dönə-dönə mən onu.
O nədir ki?
Sən də, gəl,
Oxu: "Yolçu salonu".

Duman qalxır başımdan,
Od püskürür dilimdən.
Bu doğma kəlmələri
İçmək istəyirəm mən
Yayın isti çağında,

Səhralar qucağında,
Dodaqları çatlayan
Ümidsiz yolçu kimi.
Arzumsa əl çatmayan
Bir qayanın başından
Axır, axır su kimi...
Aman allah!.. bu nədir?
İşə bax... hər şey mənim
öz ana dilimdədir,
"Əcnəbi məmləkətdə"

Necə udum, necə mən
Bu həsrəti, bu qəmi?
Öz doğma vətənimdən
Sürgiin olmuş öz dilim
"Əcnəbi ölkəyəmi?"

Gəmidən yerə düşdüm,
İlk dəfə
neçə illik
həsrətimlə öpüşdüm.
"Oxqay?" deyib dərindən
Mən bu boyda şəhəri
Sanki basdım bağrıma.
Aldığım hər nəfəsi
Məlhəm bildim ağrıma.

Hər kirpiyim göz oldu,
Hər tüküm də bir qulaq.
Bütün əzalarımla
Onu görmək istədim.
"Bu ölkə başdan-başa
Həm də "mənimdir" dedim.
Mənim arzum, istəyim
Kimsəyə sezilmədi.

Məni güdənlər belə
Bunu sezə bilmədi.
Onlar adi göz ilə
Görə bilməzdi bunu.
Kim gözlə görə bilmiş
Özgənin duyğusunu?
Mənə elə gəlir ki,
Quşlar da səhər-səhər,
Bu həsrət könlüm qədər
incəldib öz səsini
Mənim ana dilimdə
oxuyur nəğməsini
"əcnəbi məmləkətdə".
Baxıram məlul-məlul
yoldan ötənlərə mən,
Süzürəm hər birini
yüz kərə, min kərə mən.
Onlar nə bilsin mənim
ürəyimdən keçəni.
Onlar gavurmu sanıb,
nifrətlə süzür məni?
Onlar mənə baxırlar
Düşmənə baxan kimi,
Mən onlara baxıram
can içində can kimi.
Mən onlarla danışmaq,
Dərdləşmək istəyirəm.
Amma məni izləyən
KQB-dən qorxaraq,
Taleyə baş əyirəm.
İşə bax! Ömrüm boyu
Mən quruya yaş dedim,
İt yalına aş dedim.
Qardaşıma əcnəbi,
Gəlməyə qardaş dedim

Öz doğma vətənimdə.
Hər gördüyüm türkü mən.
Bundan başqa bu anda
Nə gələrdi əlimdən?
Dollarımı uzatdım
Heç üzümə baxmadan
Mənə qəbz də verdi
Qarabuğdayı oğlan.

İçimdəki tufanı
Heç oxuya bilmədi
Mənim baxışlarımdan
Bu qarayanız oğlan.
Boylanıb qəlbimdəki
Öz çəkimdən çox ağır
dərdə, çiləyə baxdım.
Gah əlimdəki qəbzə,
gah da lirəyə baxdım.
Ciləm, dərdim axırdı
Mənim həsrət gözümdən
Dönə-dönə oxudum
Əlimdəki qəbzi mən:
"Dənizçilik bankası"
"Mərkəzi müdirliyi"
"Banka pulu on quruş".
Anamm dilindədi
Əlimdəki bu cansız,
Bu adicə sənəd də.
"Əcnəbi məmləkətdə".

Möhürdəki yazı da
Mənim öz dilimdədir.
Avtobusa minmişəm
bu cansız, quru kağız

yenə də əlimdədir.
Adi kağız parçası
Alışan bir ürəyi
Sərinlədə bilərmiş.
Demə, mənim dilim də
Bu dünyada nəyisə
təsdiq edə bilərmiş,
inkar edə bilərmiş.
Sən ey mənə bənzəyən
Qarabuğdayı oğlan,
cızma-qara etdiyin
bir parça kağızla sən,
Xəbərsizsən dünyanı
mənə bəxş etdiyindən.
Vallah, qürbət adlanan
Bu yurd, bu vətən mənim.
Əlimdəki qəbz də
Vətəndaşlıq vəsiqəm
oldu bu gündən mənim.
Ay mənim kimliyimi
Mənə bildirən dilim,
Vətəndə qürbətləşən
Qürbətdə vətən dilim.
Öləndə də bu kağız
qəbrim üstə qoyulsun,
Bu adı bank kağızı
məndən balalarıma
ən gözəl miras olsun!
Aman allah! Nə dedim?!
Arzuya bax, sözə bax!
Mənim balalarım da
Doğma ana dilinə
Məgər həsrət qalacaq?..

Fevral, 1961, İstanbul.

POEMALAR

GÜLÜSTAN

Azərbaycanın birliyi və istiqlalı uğrunda çarpışan Səttar xan, Şeyx Məhəmməd Xiyabani və Pişəvərinin əziz xatirəsinə

İpək yaylığıyla o, asta-asta
Silib eynəyini gözünə taxdı.
Əyilib yavaşca masanın üstə
Bir möhürə baxdı, bir qola baxdı.
Kağıza həvəslə o da qol atdı,
Dodağı altından gülümsəyərək.
Bir qələm əsrlik hicran yaratdı,
Bir xalqı yarıya böldü qılınc tək.
Öz sivri ucuyla bu lələk qələm,
Dəldi sinəsini Azərbaycanın.
Başını qaldırdı,
Ancaq dəmbədəm
Kəsdilər səsini Azərbaycanın.
O güldü kağıza qol çəkən zaman,
Qıydı ürəklərin hicran səsinə.
O güldü haqq üçün daim çarpışan
Bir xalqın tarixi faciəsinə.
Əyləşib kənarda topsaqqal ağa,
Hərdən mütərcimə suallar verir.
Çevrilir gah sola, baxır gah sağa,
Başını yellədib təsbeh çevirir.
Qoyulan şərtlərə razıyıq deyə,
Tərəflər qol çəkdi müahidəyə...
Tərəflər kim idi?
Hər ikisi yad!
Yadlarmı edəcək bu xalqa imdad?!

Qoy qalxsın ayağa ruhu Tomrisin.
Babəkin qılıncı parlasın yenə.
Onlar bu şərtlərə sözünü desin,
Zənciri kim vurdu şir biləyinə?
Hanı bu ellərin mərd oğulları,
Açın bərələri, açın yolları.
Bəs hanı bu əsrin öz Koroğlusu –
Qılınc Koroğlusu, söz Koroğlusu?
Babaların şəni, şərəfi, əlbət,
Bizə əmanətdir, böyük əmanət...
Yoxmu qanımızda xalqın qeyrəti?
Belə saxlayarlar bəs əmanəti?
Qoy ildırım çaxsın, titrəsin cahan!
Ürəklər qəzəbdən coşsun, partlasın.
Daim haqq yolunda qılınc qaldıran
İgid babaların goru çatlasın!
Qoy əysin başını vüqarlı dağlar,
Matəmi başlandı böyük bir elin.
Mərsiyə söyləsin axar bulaqlar,
Ağılar çağırsın bu gün qız, gəlin!..
Tərəflər sakitdir, qəzəbli deyil,
Məhv olan qoy olsun, onlara nə var.
İmzalar atılır bir-bir, elə bil,
Sevgi məktubuna qol çəkir onlar.
Atıb imzasını hər kəs varağa
Əyləşir sakitcə keçib yerinə.
Eynəkli cənabla, təsbehli ağa,
Qalxıb əl də verir bir-birinə.
Onların birləşən bu əllərilə
Ayrılır ikiyə bir el, bir Vətən.
Axıdıb gözündən yaş gilə-gilə,
Bu dəhşətli hala nə deyir Vətən?
Bir deyən olmadı, durun ağalar!
Axı bu ölkənin öz sahibi var.

Siz nə yazırsınız, bayaqdan bəri, –
Bəs hanı bu yurdun öz sahibləri?
Bəs hanı həqiqət, bəs hanı qanun?
Böyükdür bu yurdun tarixi, yaşı.
Bəs hanı köksünə sərhəd qoyduğun,
Bir vahid ölkənin iki qardaşı?
Görək bu hicrana, bu müsibətə,
Onların sözü nə, qərəzi nədir?
Bu xalq əzəl gündən düşüb zillətə,
Öz doğma yurdunda yoxsa kölədir?
Necə ayırdınız dırnağı ətdən –
Ürəyi bədəndən, canı cəsəddən?
Axı kim bu haqqı vermişdir sizə,
Sizi kim çağırmış, Vətənimizə?
Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdalaşdılar
Bir ölkə ikiyə
Ayrılsın deyə!..
Göy də guruldamış deyirlər o gün,
Çölləri, düzləri buludlar sarmış.
O göy gurultusu Oğuz xaqanın
Ruhuymuş, hönkürüb fəryad qoparmış.
Gülüstan kəndinin gül-çiçəkləri
Bir günün içində soldu, saraldı.
"Gülüstan" bağlandı, o gündən bəri,
Bu kəndin alnında bir ləkə qaldı.
Bağrı köz-köz oldu "Yanıq Kərəm"in
Tellər inildədi, yandı, nə yandı.
Aşığın sazında daha bir həzin,
Daha bir yanğılı pərdə yarandı.
Həmin gün ölkəni apardı sel, su,
Tutuldu çöhrəsi Günün, Ayın da.
Qoca Nəbatinin eşqi, arzusu,
O gün batmadımı Arpa çayında?

Ağlayıb dağlardan əsən küləklər,
Bu məşum xəbəri aləmə yaydı.
Sanki dilə gəldi güllər, çiçəklər:
"Bu işə qol qoyan qollar sınaydı".
Arazın suları qəzəbli, daşqın,
Şirin nəğmələri ahdır, haraydır,
Vətən, quşa bənzər qanadlarının
Biri bu taydırsa, biri o taydır.
Quş iki qanadla uçar, yüksələr,
Mən necə yüksəlim tək qanadımla?
Ürəklər bu dərddən tüğyana gələr,
Axar gözümüzdən yaş damla-damla.
Cənablar, bir anlıq düşündünüzmü?
Verdiyiniz hökmün ağırlığını?
Bu hökmün dəhşəti əllimi, yüzmü?
Biz necə götürək bu gözdağını?..
Başı kəsiləndə bu məğrur elin
Könül fəryadını hiss etdinizmi –
Qoca Füzulinin, igid Babəkin
Etiraz səsini eşitdinizmi?
Cənablar, bir damcı mürəkkəblə siz
Düşünün, nələrə qol çəkmisiniz?
Bir damcı mürəkkəb bir vətəndaşı
Qanına bulayıb ikiyə böldü.
Bir damcı mürəkkəb olub göz yaşı
İllərlə gözlərdən axdı, töküldü.
Min ləkə vurdular şərəfimizə
Verdik, sahibimiz yenə "ver" – dedi.
Lap yaxşı eyləyib doğrudan, bizə
Biri "baran" – dedi, biri "xər" – dedi.
Bizi həm yedilər, həm də mindilər,
Amma arxamızca gileyləndilər.
Hökmü gör nə qədər böyükmüş anın.
Möhür də basdılar varağa təkrar.

Yox, varağın deyil, Azərbaycanın
Köksünə dağ boyda dağ basdı onlar.
İmzalı, möhürlü ey cansız varaq,
Nə qədər böyükmüş qüvvətin, gücün.
Əsrlər boyunca vuruşduq, ancaq
Sarsıda bilmədik hökmünü bir gün.
Ey kağız parçası, əvvəl heç ikən,
Yazılıb, qollanıb yoxdan var oldun.
Böyük bir millətin başını kəsən,
Qolunu bağlayan hökmdar oldun.
Bir eli ikiyə paraladın sən
Özün kağız ikən paralanmadın,
Köksünə yazılan qəlb atəşindən,
Niyə alışmadın, niyə yanmadın?
Araz sərhəd oldu, əsdi küləklər,
Sular yatağında qalxdı, köpürdü.
Üstü dama-dama taxta dirəklər,
Çayın kənarında səf çəkib durdu.
Sular, sizdən təmiz, nə var dünyada?
Ləkədən xalidir axı qəlbiniz.
Bağrınız alışıb niyə yanmadı
Bu çirkin əmələ qol qoyanda siz?
Ey Araz, səpirsən, göz yaşı sən də
Keçdikcə üstündən çölün, çəmənin.
Səni arzulara sədd eyləyəndə,
Niyə qurumadı suların sənin?
Dayanıb Arazın bu tayında mən
"Can qardaş" deyirəm, o da "can" deyir.
Ey zaman, sorğuma cavab ver, nədən
Səsim, yetən yerə əlim yetməyir...
Qarışıb gözümdə, qarışıb aləm,
Dərd dərdi doğrayır, qəm qəmdən keçir.
Arazın üstündən keçə bilmirəm,
Araz dərdim olub, sinəmdən keçir.

Taxta dirəkləri torpağa deyil,
Qoydular Füzuli divanı üstə.
Yarıya bölündü yüz, yüz əlli il
Gəraylı, bayatı, muğam, şikəstə.
Dəmir çəpərləri eşqim, diləyim
Tarixim, ənənəm üstə qoydular.
Yarıya bölündü canım, ürəyim,
Yarıya bölündü Arazda sular.
Taxta dirəkləri qoydular, ax, ax!..
Qəlbimin, ruhumun dilimin üstə,
Biz güldük, ağladıq, yenə də, ancaq
Bir sazın, bir telin, bir simin üstə.
Ürəkdən ürəyə körpü? Bir dayan!
Dərdimiz dinirsə bir sazın üstə.
Şəhriyar yaralı misralardan,
Körpü salmadımı Arazın üstə?!
Bu taydan o taya axışdı sel tək
Gözə görünməyən könül telləri.
Bu selin önünü nə çay, nə dirək,
Kəsə bilməmişdir yüz ildən bəri.
Ağalar bilmədi birdir bu torpaq
Təbriz də, Bakı da – Azərbaycandır,
Bir elin ruhunu, dilini ancaq
Kağızlar üstündə bölmək asandır.
Böl, kağız üstündə, böl, gecə-gündüz,
Torpağın üstünə dirəklər də düz,
Gücünü, əzmini tök də meydana,
Qoşundan silahdan sədd çək hər yana.
Torpağı ikiyə bölərsən, ancaq
Çətindir bədəni candan ayırmaq!
Ayırmaq kimsəyə gəlməsin asan,
Bir xalqın bir olan dərdi-sərini.
O taydan bu taya Mustafa Payan
Oxuyur Vahidin qəzəllərini.

Dolandı zəmanə, döndü qərinə,
Şairlər od tökdü yenə dilindən.
Vurğunun o həsrət nəğmələrinə
Şəhriyar səs verdi Təbriz elindən:
"Heydər baba, göylər qara dumandı.
Günlərimiz bir-birindən yamandı.
Bir-birizdən ayrılmayın, amandı,
Yaxşılığı əlimizdən aldılar,
Yaxşı bizi yaman günə saldılar.
Bir uçaydım bu çırpınan yelinən,
Qovuşaydım dağdan aşan selinən,
Ağlaşaydım uzaq düşən elinən,
Bir görəydim ayrılığı kim saldı,
Ölkəmizdə kim qırıldı, kim qaldı".

1959

QORXURAM

İki yolun ayrıcında dayanıb,
Gah o yandan, gah bu yandan qorxuram.
Divdən deyil, milçək qədər gücüylə
Mən özünü div sayandan qorxuram.

Haqq evində haqq divanı qurulmuş,
Hər qazancın öz bahası sorulmuş.
Təmənnasız boynumuza yük olmuş
Bağışlanan şərəf-şandan qorxuram.

Bu dünyadan umacağım mizandır,
Qorxduğum kəs bu mizanı pozandır.
Tox gədanın qudurması yamandır
Acandan yox, mən doyandan qorxuram.

Uyuruqsa nəfs adlanan elçiyə,
Tüpürürük vicdan kəsən ölçüyə.

Odur verən düz qiyməti hər şeyə
Vicdanından qorxmayandan qorxuram.

Dekabr, 1998

İSTİQLAL

("Gülüstan" poemasının II hissəsi)
Məhəmməd Cöhrəqanlıya

1

Zərurət görmədim təsadüf qədər
Məqsədə yönəlir bu başsız axın.
Məndən rica etdi bir vətənsevər
Yazım davamını mən "Gülüstan"ın.

Yazmışdım mən onu düz qırx il qabaq.
O vaxtdan bu yana çox sular axdı.
Arazın suyunda enib-qalxaraq
Ürəkdə bəslənən arzular axdı.

Torpağa düşmədi apardı yellər
Arzu toxumları sulara düşdü.
Yandı, pörşələndi həsrət könüllər
Yenə bu minvalla illər ötüşdü...

"Gülüstan" adicə haraydı, haydı
Qulaqlar kar olur biz qışqıranda.
Mən onu yazanda şah zamanıydı,
Başqa bir zamandır indi İranda.

Millət qarşılaşdı başqa yasaqla
Çəkdi imtahana böcək, quşları.

Üsullar dəyişdi, gedən bıçaqla,
Gələn pambıq ilə kəsdi başları.

Dünya çalxalandı, sular duruldu
Tərsinə dolandı əsrin məhvəri.
Zaman hökm elədi, vaxt hakim oldu
Ayağa qaldırdı qul millətləri.

Qullar silahlandı qəzəbdən, kindən
Ayıra bildilər dumandan sisi.
Qovdu ağasını məmləkətindən
Kölə Afrikanın kölə zəncisi.

Göyə dirək oldu amanım, ahım,
Halalca haqqımız bizdən yan qaçar.
Zəncinin baxtını açan Allahım
Bəs mənim bəxtimi nə zaman açar?

Yaman uzun çəkdi hökmü bu qəsdin,
Ayrılıb ikiyə döndü bir Vətən.
"Gülüstan" adlanan bu ifritənin
Kağızı, qələmi nədənmiş, görən?

O kağız, o yazı yumdu gözləri
Yanan ürəklərdə od külə döndü.
Bizim aramızda o gündən bəri
"Gülüstan" tikanlı məftilə döndü.

Baş idik, ayağa indi yol olmaq
Bizi dərdimizə bu gün yad eylər.
Bir vaxt hakim ikən dönüb qul olmaq
Bizim bəxtimizə yazılmış məgər?

Bir vahid millətə, iki hakimin
Dili doğmalaşdı...Bu lap ağ oldu.
Doğma anamızın şəkərdən şirin
Bizə öyrətdiyi dil yasaq oldu.

Hakimlər özü də bilirdi aşkar
Mənim öz dilim var, öz tarixim var.
Siz haqqın üzünü boyalayırkən
Həqiqət də aydın, yalan da aydın.
Yüz min ermənin məktəbi varkən,
Yirmi milyon türkə onu qıymadın.

Dinində, törəndə bizimlə birkən
Yasandan sən mənim haqqımı sildin.
Dininə düşməni əzizləyirkən,
Sən öz dindaşına düşmən kəsildin.

Özündən, sözündən qaçaq dilimiz
İslanıb üşüdü qarda, çisəkdə.
Yüksək məqamlarda yasaq dilimiz
Qovulub yaşadı kənddə, kəsəkdə.

İnsan olmaq üçün uşaq dil açar
Yasaqlar önündə biz dilsiz olduq.
Dil varsa, xalq da var, şan-şöhrət də var
Dil yoxsa, millət yox, heç varlıq da yox.

Soruşduq: – Dilimiz yoxsa, biz kimik?
– Farsdan dönməsiniz, – dedilər bizə.
Baxıb gözümüzün içinə dimdik,
Onlar qəsd elədi mənliyimizə.

Belə "tarixçilər", belə nadanlar
Sizdə də, bizdə də dürəkdir, ancaq.

Düşmən olsalar da, millətə onlar,
Hakimi-mütləqə dirəkdir, ancaq.

Firdovsin söz açdı türk oğlu kimi
Əfrasiyab adlı Alp Ər-Tunqadan.
Məgər fars idimi sizin Rüstəmi
Döyüşə çağıran o böyük xaqan?

Rüstəm Zal – İransa,
Əfrasiyab – Turan,
Beləysə, fars olub
Türk nə zamandan?

Məgər türk deyildi mənim şahlarım
Əsrlər boyunca mülki-İranda?
Bəs səni tutmazmı naləm, ahlarım
Məni "farsdan dönmə" adlandıranda?

Türkün zatındadır kişilik, mərdlik
O, öz düşmənini vurmaz arxadan.
Türkə, Türk dilinə bu düşmənçilik
Sizdə bir adətdir qalü-bəladan.

Tarixə baş vuraq: bu ağ, bu qara
Mərdlik mayasıyla yoğrulmuş babam.
Haqqını tanıdıb çox haqsızlara
Amma haqsıza da mərd olmuş babam.

Bəzən özümüzü bəyənmədik biz
Dedik, filankəsə gərək oxşayaq.
Yandı öz bağımız... fikir çeşməmiz
Özgə bağlarını suladı ancaq.

Heç kəs inciməsin, dedik, qoy bizdən
Yandıq yad evində bir çıraq kimi.
"Buyur" deyə-deyə hörmətimizdən
Qonağı elədik evin sahibi.

Bizim böyük-böyük ustadlarımız
"Xəmsə"lər bağladı özgə dilində.
Dönüb yadın oldu bizim varımız
Babam talan oldu öz mənzilində.
Ya da abidələr ucaldıb dedik:
Fəhləlik bizimdir, ustalıq sənin.
Çox zaman özgəyə qulluq eylədik
Beyin bizim oldu, əsər özgənin.

Nadir də, Qaçar da ölkələr aldı
Vətən ucalmadı, taxtı ucaldı.
Öz doğma elini ayağa saldı
Şahlar bizim oldu, zəfər özgənin.

Saldıq özümüzü özümüz gözdən
Kül ilə oynadıq, əl çəkib közdən.
Ölkələr nur aldı şəfəqimizdən
Günəş bizim oldu, səhər özgənin.

Mənim sərvətimə cahan göz dikdi
Sərvətim, dövlətim ona gərəkdi.
Babam yer şumladı, babam yer əkdi
Zəhmət bizim oldu, bəhər özgənin.

Açdı sinəsini bizə bu torpaq
Aləmi bəzəyib lüt olduq, ancaq.
Cıdırda çapsaq da hamıdan qabaq
Hünər bizim oldu, nəmər özgənin,
Qızıl bizim oldu, kəmər özgənin.

Meydan oxusaq da, çərxi-dövrana,
Bəzən özümüzlə üzbəüz olduq.
Düşməni əzsək də, mərdü-mərdana,
Bəzən düşmənimiz özümüz olduq.

Zamanın küləyi, de, əsdi hardan?
Uduza-uduza axır udulduq.
Vaxtın axarında gəldi bir zaman
Biz iki hakimə dönüb qul olduq.
Ayılın, hakimlər, dönür bu dövran
Qorxun haqqı görən Allahınızdan.
Tarixi gerçəyi danmayın barı
Sizin çörəyiniz diziniz üstdə.
Tarixi əzmiylə yaradanları
Niyə çökdürdünüz bu gün diz üstə?

Sədi dərs də verdi sizə ədəbdən
Sizsə, başqasını bəyənmədiniz.
Möhtəşəm bir dini alıb ərəbdən
Ərəbə "çəyirtkə yeyən" dediniz.

2

Quzeydə ayağa qalxdı məmləkət
Bir təpə bir dağla üz-üzə gəldi
Millətin qəlbində boy atan nifrət
Köksün həmləsiylə o dağı dəldi.

Yaman acıq gəldi bu nifrət ona
Tankların altında əzdi milləti.
Sığdıra bilmədi dağ qüruruna
Təpə önündəki məğlubiyyəti.
Millət millət olur, arzu, niyyəti,

İnamı, inadı,
öz imanıyla.
Dərk edib bu haqqı, bu həqiqəti,
Suvardıq torpağı şəhid qanıyla.

Eşidib qəlbimin üsyan səsini,
Yazdım "Şəhidlər"in faciəsini:
"Dilək bir çiçək də bitirə bilməz
Bu gündən sabaha körpü olmasa.
Azadlıq ağacı bar verə bilməz
Şəhidlər qanıyla suvarılmasa.
...O şənbə gecəsi gecikdi səhər
Zaman itirmişdi o gün sağ-solu.
Ömürdən keçərək, keçdi şəhidlər
Bir qanlı gecədə minillik yolu.

O şənbə gecəsi ölüb-dirildik
Şərəf papaq oldu, başlara qondu.
O qətl gecəsi xalqın min illik
Şücaət tarixi təkrar olundu.

Qatil gülləsinə qurban gedirkən
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü
O gecə dağıdıb sökdü şəhidlər".

3

"Gülüstan" yarandı düz qırx il əvvəl
"Şəhidlər" nəticə, "Gülüstan" təməl.
Azadlıq verilməz bilək bir kərə
Azadlıq alınar, budur doğru yol.
Axı "Gülüstan"dan ta "Şəhidlər"ə
Gedən uzun yoldu keçilən bu yol
Daş körpü – vəhdətim daş Xudafərin!
Gərəksiz daşların qalağı oldu.
Üstündən bir kimsə keçmədi... min-min
Könül həsrətinin gözdağı oldu.
Gəldi başımıza nələr, ay nələr,
Goramı aparaq bu dərdi, qardaş?
Bütün bu bəlalar, bu faciələr
Həmən "Gülüstan"dan göyərdi, qardaş.

Quzeydə yerini göstərdik yada,
Zorun təməlini haqq deşə bildi.
Gördük, bizdən başqa bu gen dünyada
Bütün ayrılanlar birləşə bildi.

Biriykən ikiyik, bu halımızla
Biri-birimizə həsrət qalmışıq.
Biz hələ bu gün də xəyalımızla
Həsrətin üstündən körpü salmışıq.
Buna da şükr edib, "təvəkkül" – dedik,
İmdadçün həmişə üz tutduq göyə.
Elə zaman gəldi, keçmək istədik
Xəyali körpüdən biz, daş körpüyə.
Daş körpü – vəhdətim, daş Xudafərin!
Gərəksiz daşların qalağı oldu.
Üstündən bir kimsə keçə bilmədi
Bölünən bir xalqın gözdağı oldu.

Biri-birimizə gendən "gəl" – dedik
Tanrı üz çevirdi elə bil bizdən.
O qədər üstündən keçə bilmədik
Körpünü ot basdı qəhərimizdən.

İki əsrdir ki, o daş körpünün
Bu tayında mənəm, o tayında sən.
Sökülüb-dağılır daşlar günbəgün
Sərhəd dirəkləri xəbərsiz oldu
Bizim qəlbimizdən keçən körpüdən.

Qəsbkar qəsdini əbədi sanmış
İki başda duran tağlara bir bax.
Çoxu dağılsa da, dimdik dayanmış
Birinci tağ ilə axırıncı tağ.

O tağın biri mən, o biri sənsən
Onlar əsrlərlə dözüb sellərə.
Selin zərbəsinə tağlar dözübsə,
Nə gəlib arzusu bir könüllərə?

Bu gün qismətimiz qəm-kədərdisə,
Dünənki birliyim heç unudulmaz.
Çayın altındakı torpaq birdisə,
O tayı bu taydan ayırmaq olmaz.

Neçə il əvvələ qayıdaq yenə
Diləklər dikəldi, "mən varam" – dedi.
Bu böyük diləyin zərbələrinə

Sərhəd dirəkləri tab gətirmədi
Bu taydan o taya haray qaldırıb,
Özünə güvəndi bu millət yenə.

Dəmir məftilləri dişiylə qırıb
Oğullar doladı biləklərinə.

Araz öz yoluyla yenə axırdı
Həsrət divarını o gün aşdılar.
Qardaşlar qollardan zənciri qırdı
Çayın ortasında qucaqlaşdılar.
Dərdi boğazlayıb o gün sevincdən
Onlar hönkür-hönkür hey ağlaşdılar.
Qardaşlar ağladı o gün doyunca
Soldatlar, sərbazlar dəhşətə gəldi.
O günün ertəsi Araz boyunca
Tikanlı dirəklər yenə dikəldi.

Qovuşdu birgünlük bu tay o tayla
Bir günlük sevincdən çaş-baş oldular.
Qardaşı qardaşdan ayırmasıyla
Soldatla sərbaz da qardaş oldular.

Ölmədi, o günü gördü Bəxtiyar
Dedi: – Haqq önündə zor bərbad olsun.
Dedi: – Mən o günü gördüm, Şəhriyar,
Qabaqda işıq var, ruhun şad olsun.

Bu yerdə ustadla neçə il əvvəl
Telefon söhbəti yadıma düşdü
Mən ona "gəl" – dedim, o mənə "gəl-gəl"
Əllər görüşmədi, səslər görüşdü.
Məndən xəbər aldı: – Neçə yaşın var?
Yaşımı söylədim, dedi: – Min alqış!
Dedim: – Nəyə alqış, ustad Şəhriyar?
Dedi ki, cavansan, sən mənə baxmış.
Arzum göyərmədi, keçibdir yaşım,

O vüsal gününü sən gör, qardaşım".
Getməz ağzımızdan o günün dadı
Mən gördüm o günü bircə gün, ancaq.
Başımız üstündə yenə oynadı
Bu tayda "dubinka"
o tayda şallaq.
Biz bunu bacardıq... Ancaq nə fayda?
Verdik əlimizdən yelə fürsəti.
Allah bir də nə vaxt, hansı dolayda
Bizə verəcəkdir elə fürsəti?

Tarixdə neçə yol uduzduq, nədən?
Zirvəyə qalxmışdıq, biz niyə endik?
Səbrlə, tədbirlə ölçüb-biçmədən
Ağla güvənmədik, hissə güvəndik.

Səttarxan, Bağırxan və Pişəvəri
Bizimçün hər biri diridən diri.
Onlar qəhrəmandı, qəhrəman, fəqət
Təkcə igidliklə kar aşmır indi.
Uzağı görmədən, təkcə cəsarət
Arzuya, istəyə yol açmır indi.

Onlar ölçmədilər uzunu, eni
Tədbir tökmədilər, əzab çəkdilər.
Tuta bilsəydilər günün nəbzini
Arzu güllərini dərəcəkdilər.

Qırx il həsrət qaldı almana alman
Dövrana baxdılar, vaxta baxdılar.
Onlar qanadlanan arzularından
Zamanın çiyninə qanad taxdılar.

Düşündük, dərdimiz artdı ilbəil
Vaxtın damarını tuta bilmədik.
Siz: "zaman başqadır, vaxt o vaxt deyil",
Bizsə o arzuyla şeirlər dedik.

İstiqlal qazandı quzeydə ölkə
Bunu gözləmişdi millət yetmiş il.
Bu gün aldığımız azadlıq bəlkə
Bizi biz edəcək istiqlal deyil?

İstiqlal qazandıq, kim "oxay" dedi?
Təzə bəlalara biz sinə gərdik.
İstiqlal milləti sevindirmədi
İstiqlal qazanıb, torpaq itirdik.

Çəkdi bu milləti hərə bir yerə
Məqsəd – kürsü eşqi, amal – mənfəət.
O qədər çəkişdik, həm firqələrə
Həm də bölgələrə bölündü millət.

Umdu, nəsə umdu Vətəndən hamı
Amma unuduldu məmləkət dərdi.
Kürsüyə çatmaqçün biri Ağdamı
Biri də Şuşanı güdaza verdi.

Bunlar həqiqətdir, ay bədbəxt, sənin
Hansı amal ilə qəlbin döyündü?
Unudub dərdini bütöv Vətənin
Kürsü hərisliyi amala döndü.

4

İslam bayrağıyla başqası gəldi
Hamı düşündü ki, dünya düzəldi.

Solub-saralırdı sahibsiz, təki
Bizim viran olmuş könlümüzdəki
Arzu çiçəkləri...
o gün suladıq.
Biri-birimizi muştuluqladıq.
Bizim Söhrab Tahir, Balaş, Mədinə
Bayram libasları geydi əyninə.
Ertəsi eşitdik möhtərəm imam
Yaratdı ölkədə "cümhuri-islam".
Çox gözəl, cümhura nə irad, nə söz?
Məgər bu deyilmi istədiyimiz?

Şahlıq diyarında, şah ölkəsində
"Döndü həqiqətə" yüzillik xəyal.
Türkün öz dilində, öz ləhcəsində
Qəzetlər, dərgilər çıxdı dalbadal.

Nə oldu sonrası? Keçdi bir qədər
Boyalar silindi, bozardı üzlər.
Gördük vədlərdən təkcə söz qalıb
Zülm qah-qah çəkir, haqsa hönkürür.
Şahlıq devrilsə də, başqa rəng alıb
Yaşayır əvvəlki zülm başqa cür.

Adını dəyişib, əhdini danıb
Yenə də həmən zülm, həmən əsarət.
Qarmağa taxılan ətə aldanıb,
Tələni görmədi zavallı millət.

Zülm nə din bildi, nə dil, nə Vətən,
Cəhalət uydurdu İslam adına.
Açıqfikirlilər qaçdı ölkədən,
Dözməyib cahilin xurafatına.
Düşünən başları qovdu ölkədən

Farsı da, kürdü də, türkü də qəsdən.
Deyən tapılmadı, otur yerində
Mən qafil deyiləm sözə aldanam.

De, hanı bəs sənin əməllərində
Şəri boğazlayan müqəddəs İslam?
Məgər yuvasından didərgin düşən
O bədbəxt kimsələr müsəlman deyil?
İslamda insanlıq ləyaqətindən
Nitqlər söylədin minbərlərdə sən,
Yurddan qovduqların bəs insan deyil?
Minbərdən bağırdı söz gövşəyənlər:
"İslama hər yerdə dayağıq" – deyə.
Bizi darda qoyub "İslam" deyənlər
Niyə dayaq oldu bəs ermənіyə?

Dandın həqiqəti sən bilə-bilə
Sübutun uydurma, dəlilin əbəs.
Erməni qəsbinə kiriməyinlə
Xoruzun quyruğu görünmürmü bəs?

Qorxuram bu yerdə bəlimiz sına
Adını qoymusan "İslam dövləti".
Özün de, budurmu din qardaşına
İslam dövlətinin xətri, hörməti?

Bunun da kökünü bilirik nədir?
Sənincin "arilik" dindən öndədir.
İslama "vay" dedi, dinə "vay" dedi
Arxaya çəkildi din qohumluğu.
Sizi ermənіyə dayaq eylədi
Əcdadda birləşən qan qohumluğu.
Tapıldı bizdə də cəhalətindən
Dinin cövhərini anlamayanlar.

Atıldı meydana, yapışıb dindən
Onu ciblərinə qazanc sayanlar.

Kəbəyə getdilər hər il dalbadal
Ziyarət deyildi, ticarətdi bu.
Bəs hanı haqq yolu? Bu səfər, bu yol
Hacılıq adıyla tacirlik oldu.

Dedilər: Dərdlərə son qoymaq üçün
"İslam partiyası" gərəkmiş bu gün.
Bir deyən olmadı amma onlara
"A qardaş, din hara, siyasət hara?"
Nədir bu partiya? Mən anlamıram
Firqə, dar çərçivə, firqə bir qəfəs!
O boyda ucalıq, o boyda İslam
Firqə qəfəsinə sığışarmı bəs?
Din ilə ucalır ruhumuz göyə
Göylər bir qiyasa, ölçüyə gəlməz.
O böyük din ilə bircə firqəyə
Bəşərin yarısı sığışa bilməz.

5

Sökülür dan yeri, görmürsənmi sən
Zamanın özündən, vaxtın özündən?
Bu nə boş xəyaldır, nə şirin röya?
Közərir çınqa od külün içində.
Dünyanı titrədən qoca Rusiya
Bölünüb söküldü bir gün içində.
Köksünə dağ üstdən dağ çəkilən xalq
Bir gün dağ çəkəcək dağın köksünə.
Məftil çəpərləri qıra bilən xalq
Bir il gec, bir il tez – qıracaq yenə.

Torpağı yoğurur vaxt özü qanla
Vaxt gəldi, bircə söz min dünya açar.
Artıq anlamışıq ahla, amanla
Nə məftil əriyər, nə sərhəd uçar.

Zülm öz-özünə kəsilir qənim
Baxın öz yönünü dəyişən çarxa.
Suyun gəlməsinə şübhəm yox mənim
Bir vaxt şırıl-şırıl su gələn arxa.

Salaq yadımıza bu gün, cahanın
Rəngləri dəyişən beş qitəsini.
Biz də görəcəyik Azərbaycanın
Güneyli-quzeyli xəritəsini.

Noyabr, 1999

MUĞAM

Üzeyir bəy Hacıbəyovun xatirəsinə

Bəlkə

Bir quş ötür budağında
Bu nəğmənin laylasına
Çəmən, çayır mürgüləyir.
Naləsilə yazıq bizə
Nəsə deyir,
Nəsə deyir...
"Cik-cik", "cik-cik"...
Bilirikmi dediyini?
-Yox, bilmirik, biz bilmirik.
Quş dilini bilmiriksə,
Günahkarmı o quşcuğaz?

Səbrini bas,
Ləhcəsinə, naləsinə,
Dilindəki qəm səsinə
Qulağınla qulaq asma,
Ürəyinlə sən qulaq as.
O nalənin atəşində
Öz qəlbini oda yaxsan,
Mətləbini bilməsən də,
Ürəyini duyacaqsan.
Tar da elə...
O sızlayır için-için.
İçindədir hər mətləbi,
Naləsidir eşitdiyin.
O quş kimi
Tarın da öz ləhcəsi var, öz dili var.
Mətləbinin axırı var, əvvəli var.
Əvvəl öyrən sən bu dilin
Nöqtəsini,
Vergülünü.
Ayıra bil
Dağ gülündən
Bağ gülünü.
Ayıra bil
Ocaqdakı od külündən
Sinədəki dağ külünü.
Bu dünyanın ağrıları, acıları
Necə sığır Çahargahın
Bəstənigar pərdəsinə?
Dağlara çıx, diqqət elə
Qayalarda yumalanan
Daş səsinə,
Öz səsinə
Səs axtaran quş səsinə...
O səsdəki

Qırıq-qırıq hıçqırıqlar nə nalədir?
Qırqovulun döşündəki rənglər nədir?
O rənglərdə muğamdakı
Əlvan-əlvan pərdələri,
Pırıl-pırıl səsləri gör.
O düşünür,
Həm də bizi düşündürür.
Ney üstündə yeddi səsin,
Oyuq-oyuq yuvaları,
Nədir belə?
Bəlkə elə
Balaları perik düşən
Qaratoyuq yuvaları?
Səslər, qırıq bir arzunun can səsimi?
Yuvaları dağıdılmış
Çolpaların naləsimi?
Qayalardan sızan suyun,
Dərələrdə azan suyun
Səslərini Bir-birindən ayıra bil.
O, bir deyil, yox bir deyil.
Addım-addım, nəfəs-nəfəs
Dağı dolan, dərəni gəz,
Bax hər yerin çiçəyinə
Bil dağların çiçəyi nə,
Dərələrin çiçəyi nə?
Çiçəklərin öz rəngində, öz ətrində
Nəğmədəki səsləri gör, xalları gör –
Enib qalxan keçidləri,
Cığırları, yolları gör.
Dağa gedən cığırlarda
Qarşına bax, dünyanı gör.
Sığırçının belindəki

Arşına bax, dünyanı gör
Bəlkə o da bizim kimi
Ölçmək istər bu dünyanı?
Bircə qarış yer üstündə
Bizə göstər bu dünyanı...
Söz var, qəlbə yol açmayan
adi bir səs, quru nəfəs.
Səs də var ki,
Sözün deyə bilmədiyi sözü deyir.
Elə səsin özü şeir, sözü şeir.
Söz – qəlbdəki bir mətləbin
Öz səsidir...
Nəğmə – səsin şeyriyyəti,
Şeir sözün nəğməsidir.
Bəlkə... Muğam bir nağıldır, əfsanədir.
Bilək, onun bu dünyaya sözü nədir, qəsdi nədir?
Nağıllarda bir göyərçin
Bir qəribi şah elədi.

Bu dünyanın kələ-kötür işlərini
rəndələdi...
Ötənlərin dərdlərinə dola-dola
İnanaqmı bu nağıla?
Bu arzudur, bu diləkdir.
El deyir ki, arzularım
Gələcəkdir,
Güləcəkdir...
Bəlkə, düzgün böləmmədik
Biz o zaman
Göydən düşən üç almanı?
Bilək, niyə şüşədədir
Divin canı?..
Niyə, niyə gözləyib el

"O sahibi-əzzamanı?"
Bəlkə, muğam bir gözləyiş,
Bir həsrətdir?
Əl var ikən, qol var ikən,
Baş var ikən, diş var ikən,
Bu gözləmə müsibətdir.
Canavarın aldatdığı
Şəngülümün, Şüngülümün
Qanı, bəlkə, düşüb tarın kök siminə?
Muğamdakı hıçqırıqlar
Üsyan edir, bəlkə, divin tilsiminə?
Ürəyinin tellərindən
Tellər çəkib tara xalqın.
O tellərin nəğməsində
Öz ruhunu, öz qəlbini ara xalqın.

Tanımaqmı istəyirsən
Görmədiyin bir xalqı sən?
Əvvəl onun nəğməsinə sən qulaq as,
Onu öyrən.
Öz sözünü, sorğusunu
Xəyalını, duyğusunu
Xalq yaşadır nəğməsində.
Tarixin bir dövrü yatır
Bir bəmdəki "ah" səsində.

Çahargahın Müxalifi
"Çaldıranda"
at saldıran,

Qılınclardan od aldıran
Döyüş səsi...
Çahargahın Cövhərisi
Kol dibində

Qar altından
Çıxan tənha bənövşənin üşüməsi –
Qılınc səsi, qalxan səsi,
Bənövşənin üşüməsi.
Biri hünər,
O birisi göz yaşıdır.
O sərtliklə bu incəlik
Bir muğamda yanaşıdır.
Dinlə tarı, dinlə neyi.
O – keçmişdən
Asta-asta söhbət açan
Səs muzeyi...
O – şöhrətli, şanlı muzey.
O – danışan, həm də bizi danışdıran
Canlı muzey.
Gah səsində göy gurlayır,
Gah inləyir həzin-həzin.
Həm babamın yaşıdır,
həm nəvəmin.

Şur

Varaqlama o tarixi,
İki qəlbin həsrətini
Varaqlarda döyündürən
Bir maraqlı roman kimi.

Dinlə Şuru
Öz qəlbini sənə açan,
Hər kəlməsi alov saçan
Tarix yaşlı baban kimi,
Gözüyaşlı anan kimi.
Tüstüsünə aman elə,

Oduna yan.
Dayan, düşün,
Düşün, dayan.
Dinlə onu.
Hər guşəsi
Quş qonmayan qayalardan daş tərpədər,
Kirpiklərdə yaş tərpədər.
Mahnılar var, ayaqları,
Muğamlarsa baş tərpədər.
Bu dünyanın
Ağrısını,
Acısını Duydunmu sən?
Duymadınsa,
Bir çiçək də dərəmməzsən
Sən bu hikmət çəmənindən.
Dayan, basma ayağını
Bu çəmənə.
O, sirrini açmaz sənə.
Əvvəl öyrən, bu vətənə
Hardan,
Hansı külək əsib?
Qara yellər dilləndirən
Bir qarğıdan
Kim, nə zaman,
Nədən ötrü tütək kəsib?
Şur nə deyir, nə danışır narın-narın?
Öyrən, nə vaxt qaynağına daş atılıb
Dağlardakı bulaqların?
Öyrən, nə vaxt aparıbdır
Sel Saranı?
Kim salıbdır dildən-dilə
Bu dəhşətli macəranı?
Niyə kəsdi sel aranı,
Həsrət qoydu o tərəfə

Xançobanı?
Öyrən, niyə Xəstə Qasım
Birdən belə sayru düşüb?
Kərəm niyə
Əslisindən ayrı düşüb?
Ədalətin şərbətinə
İlk dəfə kim zəhər qatdı?
Keşişləri, Həmzələri
Kim yaratdı,
Nə yaratdı?
Koroğlunun nərəsinə,
haqq səsinə
Yer gurladı,
Göy gurladı.
Dünən onun qapısında boyun bükən
Bu gün necə oğurladı
Mərd kişinin Qıratını?
Nənəm Nigar, bəlkə, onda
Çağırıb ilk bayatını?
Qobustanda rəqs eləyən
Qayalara, daşlara bax.
Təbiətin öz əliylə
Çarpalanan çapıq-çapıq qaşlara bax.
Cəngi səsi
Birləşdirir göyü, yeri.
Bəlkə, elə burdan gəlir
Muğamların ilk rəngləri,
Təsnifləri, ritmləri..
Cəngi səsi...
Gumbuldayır nağaralar,
Ağız açır mağaralar,
Qan sıçrayır beyinlərə,
Qollar keçir çiyinlərə:
"Hoydu, hoydu, dəlilərim,

Yeriyin meydan üstünə.
Havadakı şahin kimi
Tökülün al qan üstünə..."
"...Uca-uca dağ başında
Yaz bir yana, qış bir yana.
Titrəşir ağzım içində
Dil bir yana, diş bir yana...
Çəkəndə Misri qılıncı
Leş bir yana, baş bir yana".
Cəngi deyir:
– Düşmən gəlir, keç irəli!
Yallı gedir.
Bayandurun, Koroğlunun dəliləri...
Burda oxu,
Sinələri nəğmələşən
Hər qayanı,
Hər sal daşı.
Təbiətin ruhundadır
Bu uyarlıq, bu nəğmələlik.
Təbiətin özü çalır "qaval daş"ı.
Qayadakı sərtliyə bax,
Cəngidəki mərdliyə bax.
Əllər süzür incə-incə,
Ayaqlarsa, yeyin-yeyin.
Yallı da bir vəhdətidir
O sərtliklə bu mərdliyin...
Cəngi səsi
Birləşdirir göyü, yeri...
Bəlkə, elə burdan gəlir
Muğamların ilk rəngləri,
Təsnifləri, ritmləri?
Bu rənglərdə, nəğmələrdə
Saxlayıbdır muğamlar da
Saflığını, özlüyünü –

Qanadında qürur, vüqar,
Cövhərində qəm düyünü...
O düşünür, düşündürür.
Gah yandırır, gah söndürür.
Xallardakı xəyallarla, fikirlərlə
Yox, boşalmır,
Ürək dolur.
Böyük qəmin, böyük dərdin
Vüqarı da böyük olur.

Aydan arı, sudan belə durum mənim,
Ay yanıqlı Şurum mənim.
İstərəm ki, əlvan-əlvan çiçək olub
Dolaşdığın pərdələrə
Mən səpiləm.
"Uca dağlar" başındakı
"Azərbaycan maralı"nın
Gözündəki "Qara giləm"...
Nənələrin toxuduğu
Xalıların xanasında xanalandın
xınalandın.
Göygölümün ləpəsində sonalandın.
Sevgililər dodağında
Yanıb söndün,
Sönüb yandın:
"Dəryada gəmim qaldı,
Biçmədim zəmim qaldı,
Çox çəkdim yar cəfasın,
Mənə də qəmim qaldı..."

Novruz ötüb, yazbaşıdır,
Bu nə səsdir?
Göydə topa buludların
Bir-biriylə güləşməsi,

Dağlardakı qar üstünə
Xal düşməsi,
Dərələrdə suya dönüb
Gülüşməsi,
Marxallarda qar uçqunu
Yazla qışın savaşıdır,
Novruz ötüb... Yazbaşıdır...
Sellər, sular aşıb-daşır,
Bir-birilə qucaqlaşır.
Qayaların qabağında
O əyilir, o burulur.
Təpələrdən səpələnir
toz-toz olur.
Yaylaqları gəzə-gəzə,
Dəyir daşa, enir düzə
Ağacların budağına
Düymələri düzə-düzə...
Daşır, coşur,
Yollar boyu nəğmə qoşur:
"Qəhrəman"ı qayalarda şaqqıldayıb
qəhərlənir,
Saz üstündə pöhrələnir.
Çəmənlərə nəğməsini yaza-yaza,
Gəlib çatır
Araz Kürə, Kür Araza.
Hər ikisi dağın qarı,
Dağın barı.
Qovuşanda
Ağ ləpələr rəqs eləyir:
Arazbarı, Arazbarı!
Bu duyğular fışqırtısı,
Tələtümlər, qaynamalar,
Sığışmadı bir yatağa,

Budaqlandı sola, sağa.
Bir fəsildə neçə kərə
Dəyişdirdi öz yönünü,
öz yolunu.
Zaman keçdi,
Bir məcraya sığışdırıb
Tanıtdırdı bu dünyaya
Bizim sənət bahadırı – Fikrət onu...
Çoxdan unudulmuş, yeri qalmış yaradır
Şur,
Birdən yada düşmüş bir ötən macəradır
Şur.

Bir arifin hikmət dolu söz-söhbəti, eşqi,
Heyrətdən ağıl mülkünə bir pəncərədir Şur.

Fikrin nə qədər yolları, mənzilləri varmış,
Üstündə cığırlar açılan bir dərədir Şur.

Dağlar başı ağ, çölləri al, döşləri əlvan,
Hər pərdəsi bir rəngə çalan mənzərədir Şur.

Qürbətdə Vətən həsrəti, yurdunda bir anlıq,
Yaddaşda yanıb, tez də sönən xatirədir Şur.

Çox qürrələnir Bəxtiyar öz şeirinə hərdən,
Guya deyəcəkmiş bizə şeirilə, nədir Şur?!

Tellər ağlasın

Şikəstənin Zil guşəsi –
Əsgəranda vıyıldayan güllə səsi.
Qara xəbər el-obanı dolandı:

Əsgəranda Qoç Nəbini vurdular.
Baxışlarda göz yaşları sulandı,
Ağı dedi buz bağlayan lal sular.
Bayatılar qara geydi əyninə.
Gəraylılar qəm götürdü çiyninə.
Qarabağın çöllərini qar aldı.
Şikəstənin zil pərdəsi qaraldı:
"Əsgəranda dağıtdılar araba.
Görüm bu diyarı qalsın xaraba.
Nəbinin meyidi qaldı arada
Yerisin üstünə ellər ağlasın.
Darasın saçını, tellər ağlasın".

Çahargah

Şahə qalxan ağ dalğalar
Köpük-köpük...
Uca-uca, böyük-böyük
Qayalara gah çırpılır,
Gah çəkilir axın-axın...
Təlatümlər, həyəcanlar
Bərdaştıdır, ön sözüdür
Çahargahın.
Deyir: – Həyat bir döyüşdür,
Bir vuruşdur başdan-başa...
Rahatlığı həyəcanlar qucağında
ara, yaşa
En enişə, qalx yoxuşa
Sellər kimi coşa-coşa,
Sular kimi daşa-daşa...
Yaşa, yaşa.
Mayəsində səslər uçur
Qanad-qanad,

Nəql olunur ötən gündən
Bir əhvalat:
...Yad ölkədən elçi gəlib
Ölkəmizə.
– Gərək təslim olasınız, –
Deyir bizə, –
Olmasanız...
Təpəriniz varsa əgər,
Savaşınız.
Savaşsanız...
Daş üstündə qalmayacaq
Bir daşınız.
Ağsaqqallar düşündülər:
– Nədir çarə?
Dada çatmaz bu məqamda
Nə moizə,
Nə müəzzin,
Nə minarə.
Qara yellər qabağında
Fikirlər də haçalandı.
Bu onu,
O, bunu dandı.
– Keçmişimiz şanlı idi.
Bəs gələcək?
– Fikirləşək.
Bu bəladan qurtarmağa
Bir ağıllı tədbir görək,
Səbir gərək.
Məqamı var hər istəyin,
Tələsməyin, tələsməyin.
Tarixlərə o, baş vurur
"Vuruş" – deyə
Alovlanan ürəkləri
O tədbirlə ovundurur.

Bəstənigar aman çəkir,
Amanından aman, aman!..
Şikayətdir
Taleyin bu qəzasından.
Düşmən yaman amansızdır,
O qansızdır.
– Neyləməli?
– Dişimizlə daş qırmalı.
– Hanı bizim o gücümüz?..
– Onda ata-babaların şərəfini
Düşmənəmi tapşırmalı?..
Təəssüfmü?
Fikir qalxdı,
Fikir endi.
– Təəssüfün kölgəsində
Hansı dilək çiçəkləndi?
Bəstənigar –
Bəstəboylu nigarların
Dili ilə inlər, inlər.
Ağı deyər qız gəlinlər:
"Don tiksən ağı bizdən,
Belinin bağı bizdən,
Qoymayın yadellini
Almağa bağı bizdən..."
Yığıldılar,
Dağıldılar dönə-dönə.
"Ötən günə gün çatarmı
Calasan da günü-günə".
Biri qalxdı:
– Günü günə calamağın
Nə faydası?
Ürəkdə od qalamalı,
Günü oda calamalı.
Min-min fikir

Bircə borcu ödəməmiş.
Qalxan əydi belimizi
Çox qısaltdı dilimizi.
Qalxan altda qaldığımız
Yetər bizim.
Dərdlərimiz qılınc ilə
Bitər bizim.
"Dəyirmanın pərindən,
Suyu çıxar dərindən.
Elin sözü bir olsa,
Dağ oynadar yerindən..."
"Çən-duman düzə neylər?
Zülfün tök üzə, neylər?
Ov bizim, ovlaq bizim
Yad ovçu bizə neylər?"
İndi bizə qılınc gərək,
Nizə gərək.
Od bişirək, dəmir döyək.
İndi bizə sellər kimi daşmaq gərək.
Qəlbimizə kölgə salan
"Qorxu" adlı hasarları Aşmaq gərək.
Çahargahın Hasarında,
Yadellinin qabağına hasar çəkən
Qalalarda
Kürələrdə od qalandı,
Ocaq yandı,
Dəmir bişdi,
Çəkic altda, zindan üstdə
Xəmir kimi kündələndi,
Cilalandı. Taraq-taraq,
Taq-tararaq,
Əldə yaraq
Vuraq, qıraq,
Cəbhə yaraq.

Dəmir, əri,
Qılınca dön,
Düşmən üstə durma, yeri.
Çəkic altda qığılcıma dönüb axdı
Çahargahın pərdələri...
Müxalifdə,
Hücum, hücum!
Ərənlərin nərəsinə
Yer titrədi, göy gurladı.
Uca dağlar dua verib
Ərənləri uğurladı.
Düşmən qaçır, bizimkilər təqib edir
Mənsuriyyə qələbədir, təntənədir:
"Əzizim sözə qaldı
Bir şirin sözə qaldı.
Yad qovuldu dağlardan,
Yurd yenə bizə qaldı..."

Qəlbi vulkan tək coşan üsyandır, üsyan
Çarigah,
Açmış hər zənguləsindən fikrə meydan
Çarigah...

Şahə qalxan dalğalardır bir Müxalif guşəsi,
Dəryalar ləngərlədən tufandı, tufan
Çarigah.
Guşələr göy gurladır, yer titrədir, sel
oynadır,
Göndərir yadelliyə imzalı fərman Çarigah.

Simlərin mizrab ilə toqquşmasından od
çıxar,
Yoğrulubdur bəlkə də çaxmaq daşından
Çarigah.

Cövhərində bir həzinlik, bir xəfiflik
saxlanır,
Ayrılıbdır öylə bir can sirdaşından Çarigah.
Bəxtiyaram, heyranam bərdaştda çılğın
səslərə,
İstərəm od alsın əsrin atəşindən Çarigah!

Qalalar

Abşeronun qalaları
Daşlardakı o oymalar,
Dalğasımı qatardakı
Həzin, şirin
Pərdələrin?
Bürclərdəki o əzəmət,
Təmkin, vüqar,
Bəlkə... Hasar pərdəsidir Çahargahın?
Səs düzümü qaladakı dişlər kimi
sıra-sıra, axın-axın.
Yadellinin hücumuna hasar çəkir.
Daşda fikir, səsdə fikir.
Boyaları əvəz edən kölgələr də
Fikir, fikir...
Ruhumuzla uyqardadır,
O batıqlar,
Qabarmalar.
Qabarmalar
Batıqlara kölgə salar.
Nə doğmadır, nə istidir,
Çıxışların batıqlara
Düşən xəfif kölgələri –
Tağlardakı

Oyma "naxış ləpələri".
Yadellinin başı üstdə
Yumruq kimi düyünlənən bu qalalar,
Düşmən bizə güc gələndə
El-obaya sığnaq olar.
Bu qalalar azadlığı hələ yanan,
Tüstülənən ocaqlarmış.
Bu qalalar tarix boyu
Neçə-neçə cəbhə yarmış.
Qız qalası! Adına bax,
"Bakirədir, qızdır qalam.
Yaxın gəlmə, mən quzğunam, mən
qartalam.
Bu qartallar məskəninə
Qaraquşlar kölgəsini sala bilməz.
Qız qalamın qızlığını ala bilməz..."
"Sən gələrsən, sən görərsən" –
Qalasının adındakı
Mənaya bax, məqsədi gör.
Babaların məramından
İbrət götür.
Düşməninə o deyir ki,
Əgər gəlsən,
Yumruğumun ləzzətini sən görərsən.
Gəldiyinə peşman olub
Dabanına tüpürərsən.
Nələr deyir daşlardakı
O batıqlar, qabarmalar –
Daş üstündə çiçəklənən
O yarmalar?
Kim deyir ki, bu qalalar,
Yalnız elə qallar üçün
Qaldırılan
Bir qaladır?

Xeyr, burda sərtlik ilə
İncəliklər qol-qoladır.
Qorucumuz, keşikçimiz
Qalaların sinəsində
Nələr yatır, nələr, nələr?!
Bu qalalar – Daş nəğmələr.
Daşlardakı çalalara axar, dolar,
Daş üstündə naxış tutan,
O fikirlər, o duyğular,
Guşələrdə qaqqıldaşan
Pərdələrdən aşıb-daşan,
Hiddətlənən səs axını...
Batıqların, çıxıqların
Sinəsində qalxıb enən
Səs axını.

Hərə bir cürə...

Mərifət, qanacaq ölçümdür muğam,
Mən onu özümə məhək sanmışam.
O məhək daşında mən insanları
Saf-çürük edərəm, yoxlaram müdam.
Sən də yanırsansa əgər bu oda,
Dostumsan...
Görürəm özümü səndə,
Mən öz həmdəmimi, dostlarımı da
Tanıram muğamın pərdələrində.
Görən, nə danışır, nə deyir bizə
Səslərə bükülmüş bu göz yaşları?
Od saçır,
Dağ basır ürəyimizə
Elə bil köç edir durna qatarı...
O hara tələsir? O niyə gedir?
O bizim çölləri niyə tərk edir?

Tökülür yarpaqlar, susur bulaqlar,
Soyuqdan üşüyür, əsir budaqlar.
Payızın sazağı kəsir otları,
Göydə topalanır qəm buludları...
Dağın dumanımı, sisimi görən,
Dumanlı səslərdə belə hönkürən?
Ağlayır aşikar,
Yanır gizlicə.
Barmağı altında tarzən gör necə,
Düyünlü səsləri qovurur, sıxır.
Səslərdən yaş sızır, Sudan od çıxır...

Ey tarım, ey nəğməm, ey pirim mənim,
Sənə nəzir düşür... çox yoxsulam mən.
Nəğməm ola bilər nəzirim mənim,
O da ki sönükdür nəğmələrindən...
O məchul dilinlə, sirli səsinlə
Gizli bir aləmdən xəbər verirsən.
Nolar, mənim kimi səsini dinlə,
Görək buna necə tab gətirərsən?
Ey atam hünərli, babam fikirli,
Ey reyhan nəfəsli, yarpız ətirli,
Nağıl nənələrin ey laylay səsi.
Ulu babaların kamal xəznəsi,
Şirin arzularım, xoş xəyallarım,
Ey müqəddəs pirim, ey müdrik tarım,
Danış,
Nəğmə oxu,
Sən həzin-həzin
Abırlı, həyalı qızlarımızın
Utancaq, dözümlü sevgilərindən.
Danış,
Söhbətinə müntəzirəm mən.
Danış,

Nədən ötrü ayrı saldılar
Kərəmi Əslidən,
Qeysi Leylidən?
Niyə taleləri daşa çaldılar?
Sinənə çəkilən bu dağlar nədən?
Sənin xəyalların, düşüncələrin
Dəryadan ləngərli, səmadan dərin.
Hər xalın tarixi
Yüz il, beş yüz il.
Guşələr rəngbərəng:
Yaşıl, al, sarı...
Orda varaqlanır,
Bir qəlbin deyil,
Bir xalqın minillik iztirabları.
Bir xalqın tarixi –
Tarixin yolu.
Enişi, yoxuşu, iztirab dolu.
Səslənir muğamın pərdələrində.
Söhbəti aşkarda,
Sirri dərində.
Zilində elə bil od qalanıbdır,
Yanğına dözməyib havalanıbdır.
Bəmində yanğını keçirmək üçün
Fikirlər, xəyallar yuvalanıbdır.

Biz ki bu yolları bir başa vurduq,
Biz ki bir vahidik bir arzu-kamda.
Elə bununçun da... Tək mənmi?..
Yox, yox.
Hər kəs öz qəlbini tapır muğamda.
Muğam – hər guşəsi sirli, soraqlı
Yola bənzəyir.
Yatağa sığmayan qollu-budaqlı
Selə bənzəyir.

Əvvəlcə yamyaşıl düzü dolaşır,
Birdən dəyişdirir köhnə yerini.
O axır, kükrəyir,
O coşur, daşır
Dağıda-dağıda sahilləririni.

Cilova gəlsəydi belə bir axın,
Nota salardılar onu nəğmə tək.
Şəklini çəkməkçin xırdalıqların
Özgə bir dünyadan boyalar gərək.
Tez-tez dəyişdirir öz məcrasını,
O yola çıxmadan yolunu bilmir.
Səfərə çıxanda macərasının
İlkini bilsə də, sonunu bilmir.
Bu yolu hər yolçu bir cür qət edir,
Bəmi düzənlikdir, zili zirvədir.
Bəli, o, zirvədir.
O zirvəlikdə
Ayağın altından sanki yer qaçır.
O ayaq dəyməyən yaşıl gədikdə
Hər yolçu özünə özü yol açır.

Hər muğam çalanın, muğam deyənin
Keçdiyi, açdığı iz başqa-başqa.
Eyni müğənnini hər dinləyənin
Könlünü yandıran köz başqa-başqa.
Məğrur Qız qalası...
O köhnə Bakı,
Mənsur Zabul üstə inlədir tarı.
O nədir?
Suların qayalardakı
Həzin, asta-asta pıçıltıları.
– Necə dumanlısan,
Görünmür gözə

Pərdədə, örtükdə çırpınan ürək.
Gizli mətləbini görməkçün
Bizə
Dərinə işləyən təxəyyül gərək.
Hərə bu ocaqdan bir od götürər,
Tutar səsindəki dərinliklərə.
Xəyalın gözüylə eşidər, görər
Gizli mətləbini hərə bir cürə.
Bilmirəm, yaşıldır, aldır səslərin.
Səsinə nə sözüm?
Laldır səslərin.
Mətləbi gizlədir, inləyir ancaq.
Danışır,
Bilmirik nə deyir ancaq...
Lal səsin nə böyük qüdrəti varmış.
Səsdə sözdən böyük hikmət olarmış...
Mübhəmdir,
Gizlidir sözü nəğmənin.
Min sözdən güclüdür, bir xalın sənin.
Ey tarım,
Ey nəğməm,
Ey pirim mənim
Sənə nəzir düşür...
Çox yoxsulam mən,
Nəğməm ola bilər nəzirim mənim
O da ki sönükdür nəğmələrindən.

Sözümdə olsaydı səsinin gücü,
Onu başım üstə bayraq edərdim,
Səsinlə dünyanı mən tərpədərdim.
Yanıb şırıl-şırıl,
Axıb şır-şır o
Kim deyə bilər ki, nə danışır o?
Onda qucaq-qucaq söz çələngi var.

Hər səsin, hər xalın neçə rəngi var.
Hər kəs, hər guşəni yozur bir yerə,
Gəlin, bir anlığa baxaq göylərə.
Buludlar burulur,
Buludlar dönür,
Hərənin gözünə bir cür görünür.
Yox.
Həmən həməndir,
Göy də,
Bulud da.
Hərə öz qəlbini görür buludda.
Yoxsa inanmadın?
İnanma, ancaq,
Anbaan dəyişən o buluda bax,
Sən də öz qəlbinin pəncərəsindən
İnan gördüyünə,
Elədir, əlbət,
Mənim gördüyümü görməsən də sən,
Mən də həqiqətəm, sən də həqiqət.

Segah

Ey Zabul segahım, Orta segahım,
Mənim öz amanım, mənim öz ahım.
Sən mənə kimsədən pay verilmədin,
Sən özgə çeşmədən gətirilmədin.
Mənim dağlarımdır sənin qaynağın,
Qoşqarın
Kəpəzin,
Ulu Şah dağın
Bağrından sızılıb sən durulmusan,
Məndə yuvalanıb mənim olmusan.
Başqa rəngə salıb bu zaman səni,

Yenidən yaratdı Sadıxcan
səni.

Mənim öz dərdimsən, öz məlalımsan.
Anamın südü tək sən halalımsan,
Çoban bayatısı...
Dağlar başından
Qarlara qarışıb qar-qar axıbdı.
Çöllərə boylanan gül baxışından
Keçdiyi yollara iz buraxıbdı...

Həzin bayatılar, çiçəklər kimi
Dağlarda kök atdı, arana çatdı.
Şirin bayatılar diləklər kimi
Bir qəlbdə boy atıb min qəlbə çatdı.

Nənəmin dilində min il dillənən
Segahım, özün al, özün, canımı.
Dilqəmin dilində dil-dil dillənən
Ay telli sazların telli xanımı.
Ey Sarı aşığın sevgi dastanı,
Ey Molla Cumanın "İsmi pünhanı".
Vaqifin könlünü qana döndərən,
Xumar baxışdanmı süzülmüsən sən?
Segah – bir arzunun, bir çırpıntının

Min ürəkdən gələn hıçqırıqları.
Sonu iniltili,
Əvvəli çılğın –
Sınmış bir ürəyin səs qırıqları...

Qəmdir dolayları o ağlar səsin.
Ağrılar mayası,

Şikayət süsü.
Bir himə bənd olan bir qərib kəsin,
Könül hıçqırtısı, iç hönkürtüsü.
Danışır, başından ötüb keçəni.
Bəzən üsyan edir,
Bəzən inləyir.
Gizli dərdlərinə yandırır səni,
Mətləbi gah açır,
Gah düyünləyir.

Əlilə saldığı kor düyününə
Dililə yalvarır: "Tez açıl" – deyir.
Ötən keçmişini qoyub önünə
Bayatı çağırır, ona dil deyir:
Araz gəldi, yan axdı,
Dibində min can axdı.
Vətən sarı baxanda
Ürəyimdən qan axdı.

Dağların sinəsi nə?
Gün qalxıb sinəsinə.
Aləmə sığmaz başım
Sığıbdır sinəsinə.

Əziziyəm gül oldum,
Yandım, axır, kül oldum.
Bir dilbilməz quş idim,
Oxudum, bülbül oldum...

Segah – naləsinə alışan könül,
Alovu təəssüf, köçü xatirə.
Keçmişi yanğıyla danışan könül,
Qazancı ağrılar, özü xatirə.

O deyir dililə amanın, ahın:
-Tale bir ürəyə gör necə qıymış...
Mənim çəkdiklərim hansı günahın,
Hansı bəd əməlin öz bahasıymış?
Bu dərdə bağladı məni kim? – deyir.
Bəmində, zilində o, "neylim"? – deyir.

Dərdimin yükünə tab gətirmədi
Əyilib qırılan budağa neylim?
Dərələr keçmişəm, dağlar aşmışam,
Könlümdə dikələn bu dağa neylim?

Günahım nə oldu mənim dəmadəm,
Düzəndə kəsdilər, dağda bitmişəm,
İsti nəfəsimlə qar əritmişəm,
Şaxtaya dözmüşəm, sazağa neylim?
Mən danışan zaman bir kimsə dinməz.
Səsim su yandırar, sözüm bilinməz.
Böyük arzulara dünya bir qəfəs,
Dilimə vurulan qadağa neylim?

Mən od hərisiyəm, od mənə həmdəm,
Günah məndə deyil, daşı əritsəm.
Buz tutar, yay günü bulağa getsəm.
Neylim, buza neylim, bulağa neylim?

Danışdı.
Gördü ki, dinləyənlərin
Başından od çıxdı, gözləri doldu.
Dərdilə, qəmilə başqalarına
Əzab verdiyinə peşiman oldu.

Dedi: – Bu da keçər, axı neyləmək?
Həmişə olmaz ki, yer üzü gündüz.

Belə yaranıbdır bu çərxi-fələk,
Bir üzü gecədir, bir üzü gündüz.
Ey mənim ürəyim, sən öz gözünlə
Gecəni gecə gör, gündüzü gündüz.
Öz əllərinlə,
Könüllər şad edən əməllərinlə
Yoluna gül düz.

Nə deyir könlümü oymaqla, oyulmaqla
Segah?
Gözə göz yaşları tək bir belə dolmaqla
Segah?

Könül hıçqırtısı, qəlb atəşi, can yanğısıdır.
Sən mənim göz yaşım ol, çağla, Segah,
çağla, Segah.

Anamın öz südü tək sən halalımsan,
halalım,
Nə deyirsən, məni məndən belə almaqla
Segah?

Bizi dünyanın o dar çərçivəsindən çıxarır,
Dəli xallardakı hönkürtüyə dalmaqla
Segah.

Onun hər pərdəsi ah, hər bəmi qəm, hər zili
od,
Qəlbə atəş çiləyir, hökm eləyir ağla Segah.

Bəxtiyarın da könül telləri titrər beləcə,
Deyər ahəstəcə hey: "Ağla, Segah, ağla,
Segah".

Rast

Buxarı başında el ağsaqqalı,
Əyləşib
Qəlbini açır süfrə tək.
Danışır, anbaan dəyişir halı
Zoğal çubuğunu tüstülədərək.
Sözləri bəm simdən zil simə düşmüş,
Danışır bir əsrin öz yarasını.
Danışır aramla,
Tilsimə düşmüş
Bir pəri qızının macərasını.
Dağlarda göynəyən Məcnundur Segah,
Rast – onun atası... Nəsihət eylər.
Məcnun səhralara gətirər pənah,
Ata bu sevdanı məzəmmət eylər.
Rast – müdrik bir ağıl, dərin düşüncə,
Danışır təmkinlə, aramla tək-tək.
Segah – bir istəyin, eşqin dalınca
Mələyə – mələyə qaçan bir ürək.

Rast – çılğın qəlblərə bir ağsaqqalın
Nəsihət nidası, öyüd səsidir.
Bir zaman büdrəyən qəlbin, kamalın
Ayılıb özünü dərk etməsidir.
Segah – nalə çəkən, Rast – tədbirlidir,
Vüqarlı, dözümlü, o səbirlidir.
Yüz ölçür, bir biçir,
Düşünür dərin,
Mühit dənizi tək o ləngərlidir.
Onun ləngər vuran hər guşəsində
Dərin düşüncələr daldalanıbdır.
Gizli fikirlərin sıx meşəsində
Arzudan, istəkdən od qalanıbdır.

Fikirlər, fikirlər...
Bir sirdaş olmuş
İnsana...
Dərdinə dolandan bəri,
Rast cavan deyildir,
O, yaşa dolmuş,
Müdrik bir ürəyin düşüncələri:
Həyat nə?
Ölüm nə?
Ömür nə?
Yol nə?
Qəflət yuxusunu dağıdan nədir?
Qışda yağan qarı, bahar gəlincə
Sellərə döndərib axıdan nədir?
Düzdə ayaq açır dağların qarı,
Hər vaxtın öz quşu, öz budaqları.
Yuxudan qaldırıb ulu dağları,
Bahar havasına oxudan nədir?

Çalır ürəkləri göz baxışıyla,
Boşalır könüllər göz yaşlarıyla.
Yerləri, göyləri öz axışıyla
Haldan-hala salan bu zaman, nədir?

Hökmüylə, qəsdiylə nə deyir zaman?
Uçurur bir yandan, qurur bir yandan.
Günəşin başına dolanır cahan,
Fırlanır, fırlanır, fırladan nədir?
Ay nə, Gün nədir?
İlk nə, son nədir?
Enişi göstərir bizə dağ kimi,
Qaranı göstərir bəzən ağ kimi
Dünyanı oynadır oyuncaq kimi,
Qəsdi bilinməyən bu oyun nədir?

Ay nə, Gün nədir?
İlk nə, son nədir?

Bir aqilin hikmətli nəsihətləridir Rast.
Tarix danışan köhnə rəvayətləridir Rast.

Aqil danışır, canlı misallar çəkir hərdən,
Bir taleyin ibrətli hekayələridir Rast.

Üşşaqda verir sirli suallar bizə rəng-rəng
Eşqin də cavabsız qalan hikmətləridir Rast.

Dilkəşdə pıçıldar bizə dünya kədərindən,
İnsanın ədalətli şikayətləridir Rast.
Öz dərdini qışqırmaz, o, ahəstəcə söylər,
Lakin əzabın son dəmi, sərhədləridir Rast.

Dünyanı gözəl görmək üçün qurbana hazır,
İnsanların ilk arzusu, niyyətləridir Rast.
Ey Bəxtiyar, ah atəşi söz rənginə girməz,
Həm dərdli qürub çağı və həm dan yeridir Rast.

Hümayun

Milləndi qığılcım kimi zülmətdə Hümayun,
Dağ üstünə dağ basdı müsibətdə Hümayun.
Ülviyyətə, qüdsiyyətə, şeyriyyətə çatmış,
Fəryadda Segah, gizli şikayətdə Hümayun.

Şüştər

Şövkətli, qədim keçmişimin öz dili Şüştər.
Nakam ananın laylası, yüz pərdəli Şüştər.

Felində ağıl nuru saçıb dalğalanırkən
Min ağlı neçin başdan alır bir dəli Şüştər.

Bayati-Şiraz

Muğamat qəsrinin gözəl gəlini
Şövkəti-şanıdır Bayatı-Şiraz.
Mizrabda hönkürən sarı simlərin
Çılğın cövlanıdır Bayatı-Şiraz
Sevincdən kədərə, qəmdən nəşəyə
Keçid meydanıdır Bayatı-Şiraz.

Aman ovçu

Maral endi sərçeşməyə,
Sərçeşmədən su içməyə.
Bilmədi ki, pusqudadır
Bərəsində "aman ovçu"
Yaman ovçu,
Zalım ovçu.
Qabırğası qalın ovçu.
Qaçdı, bir az aralandı.
Şaraq-şaraq!
Kürəyindən yaralandı,
Qaçammadı... O dayandı.
Göy çəmənlik qızıl qandan
Oda yandı.
Döndü, baxdı yazıq-yazıq,
Məlul-məlul,
Ovçu, sənin qolun sına.
Necə qıydın bu dağların
Maralına?
Gözlərdəki o çarəsiz yalvarışa
Necə dözdün?

Aman ovçu,
Tüfəngini çiyninə sal,
Bir geri dön,
Bir ora bax.
Bu dəhşətə kol titrədi,
Gül üşüdü.
Baxışdakı o yalvarış
Nəğmə oldu,
Dilə düşdü:
"Aman ovçu, vurma məni,
Mən bu dağın maralıyam.
Yaralıyam, yaralıyam".
Nəğmələrin istisinə
Qızındıqca donuruq biz,
Heykəlləşir heyrətimiz.

Yağ, yağış

Ağ yel əsir,
Ağ buludlar Topa-topa,
Tel-tel əsir.
Ağ yel əsir.
Pambıqlanan buludları
Kola-kosa
asa-asa
Ağ yel, ağ-ağ gül bitirir,
Yağışı da ağ gətirir.
Göydə bulud damar-damar...
Bu ağ yağış
Düz torpağın
İliyinə
Damar, damar...
Oğul-uşaq gülə-gülə
Çıxar çölə.

Üz islanar, göz islanar.
Oğlan qaçar,
Qız islanar.
"Yağ, yağışım, yağ yağara.
Daş ağara, dağ ağara.
Ağ buludun toy günüdür,
Gir mağara,
Yağ, ey yağış,
Vur nağara..."
Yağış yağır,
Ürəyinin yanğısına
Dağın, daşın.
Tut ucundan sən göyə çıx,
Bu yağışın.
Şırıldayır navalçalar,
Qopub düşür budağından
Kal alçalar.
Arxlar daşar, sel oynayar,
Göy əl çalar...
Sellər yıxar bərələri,
Dilləndirər
dibsiz "uzun dərə"ləri...
Uzundərə
Şüştərimdən qopub düşdü,
Sellər, sular çağıldayan
Uzun-uzun dərələrə.
Əlvan-əlvan havalardan aldığımız
Havalar da
Öz sözüdür könlümüzün,
Arzumuzun, dərələrə...

Göy tutular.
Bir tərəfi açıq olar,
Açıq yerdən gün çırtlayar.

Deyərlər ki, indi Günəş
Buludlara oldu günü.
Açıb qızıl saçlarını
Günəş yuyur əl-üzünü...
Bəs bu nədir? Bəs bu nədir?
Bu da özgə bir nəğmədir.
Yağış kəsir...
Qovğası da bitir, demək,
Göyün, yerin.
Göyün təmiz aynasına
Əksi düşür
Çiçəklərin...
Çiçək açır sağdan sola
Göyün tağı.
Göy üzünə çətir çəkir
Göy qurşağı.
"Fatma nənə hana qurur"
Hanadakı rənglərə bax.
Kitab kimi o, oxunur
Varaq-varaq.
O, ürəyin gah qüssəli,
Gah fərəhli hallarımı?
O, muğamın əlvan-əlvan xallarımı?
Hər guşədə neçə-neçə
Rəng çağlayır,
Səslər elə əngindir ki,
Açıb geniş qollarını
Bu dünyanı qucaqlayır.
Əfsanəvi nənəmizin
Ürəyinin tellərindən
Hanasına bənd etdiyi süslərə bax.
Səslərdəki rənglərə bax,
Rənglərdəki səslərə bax.
Gah da olur yağış kəsmir,

Elə yağır, yağır yenə...
Nə əkinə gedən olur, nə biçinə.
Çiyinlərdə həyat yükü dağdan ağır.
Bir yandan da yağış yağır,
Səpələnir sola, sağa,
Aman vermir göz açmağa.
Neyləməli?
– Pas atıbdır oraqlar.
Zəmilərdə diş qıcadır
Alaqlar. Hər qapıdan pay umub
Qodu gəzir uşaqlar:
"Qodu, Qodu, dursana,
Çömçəni doldursana..."
Əkin-biçin eşqinə,
Ürək yanır, dil yanır.
Bizim mahnılarımız
Bəzən belə yaranır.

Sayaçılar

Düzdə qızıl bürküyə
Dağda borana düşdük.
Yayda dağa üz tutub,
Qışda arana köçdük.
Qışda dəyə evimiz
Yayda alaçıq oldu.
Qəlbimiztək evimiz
Hamıya açıq oldu.

Düşdük qara, sazağa,
Həm qul olduq, həm ağa.
Qonduq azad quş kimi
Biz budaqdan-budağa.

Sərhəd tanımadıq biz,
Arxalandıq dağlara.
Ləpirimiz yol açdı
Yaxına, uzaqlara...
Qoyun-quzu bəslədim,
Dağ bizə sirdaş oldu.
Yaylaqların çiçəyi
Bizə əyin-baş oldu.

"Nənəm qoyunun ağı
Dolandı, gəldi dağı.
Çobana çarıq bağı,
Qızlara cehiz ağı...

Nənəm, a dəli qoyun,
Dolanıb gəli qoyun.
Gəlinlər güzəmindən
Toxuyar xəli, qoyun.

Nənəm, a nazlı qoyun,
Qırqovul gözlü qoyun.
Pendiri kəsmə-kəsmə,
Qatığı üzlü qoyun..."

Dağlardakı suların
Səsi nəğməmiz oldu.
Dağların sel suyu tək
Qəlbimiz təmiz oldu.

Dağlardan aldığımız
Nəğməni
Qəlbimizin
Fəryadına çevirdik.
Aradan kəsdiyimiz

Qarğı tütəyə verdik.

Biz nəğməylə oyanıb
Nəğməylə də yatardıq.
Biz qoyunu, quzunu
Nəğmələrlə otardıq...

"Nənəm, a narış qoyun,
Yunu bir qarış qoyun.
Çoban səndən küsübdü
Südü ver, barış qoyun".

Uca dağlar, şiş qayalar boyunca
Zilə çəkər bayatını çobanlar.
Bu səsdəki məlahəti duyunca
Qoyun-quzu ota gələr, dil anlar.
Kiçik-kiçik arxlarım –
Bayatılar, sayaçılar, laylalar
Qayalardan sızılar,
Dərələrə hay salar, Kürə çatar,
Arazıma can atar,
Bizim muğam dəryamızı yaradar.
Sevinc bizi güldürürsə,
Qəm ağladır.
Sözün özü nə ağlayır,
Nə də gülür,
Amma bizi həm güldürür,
həm ağladır.
Yox, söz deyil, səsdir, axı,
Qəhqəhə də,
Hönkürtü də,
Min cümlədən daha böyük
Mətləb yatır
Bircə qırıq hönkürtüdə.

Könül səsi könül dələr.
Nəğmələrin əvvəlidir
Hönkürtülər, qəhqəhələr.
Bəlkə insan
Sevincini, kədərini
Nəğmələrlə söyləməzdi,
Bizim kimi hönkür-hönkür ağlasaydı,
Qah-qah çəkib gülsəydi söz.
Yox, nəğmələr yaranmazdı,
Qəlbimizdən keçənləri
Tamam deyə bilsəydi söz.
Sözdən əvvəl səs yaranır,
Nəğmələrdir ilk dilimiz.
Nəğmələrdir
Sözümüzün, fikrimizin
ibtidası,
Nəğmələrdir
dilimizin əlifbası.

Daş ürəklərdə yanıb daşları sındırdı
muğam.
Haqqa düşmən olanı haqqa tapındırdı
muğam.

Nə güman eyləmisən ondakı tilsimləri sən,
"Kürü ahıyla qurutdu", "Salı yandırdı"
muğam.
Onun hər guşəsi bir xatirə, bir canlı kitab,
Keçilən yolları hərdən bizə andırdı muğam.

Su çilər kinli ürəklərdə qəzəb tonqalına,
Neçə qəsdin önünü kəsdi, dayandırdı
muğam.

O, ürək yanğısı, göz yaşları, bir çəngə bulud,
Oyadıb yaddaşı, vicdanı utandırdı muğam.

Dəfn edin siz məni Zabul segahın mayəsinə,
Deyirəm, bəlkə, məni bir gün oyandırdı muğam.

Çox kitablar oxudum, zənn elədim bəxtiyaram,
Mənə çox mətləbi ahəstəcə qandırdı muğam.

1975

ŞƏHİDLƏR

PROLOQ

Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,
Haqsızlığın üstündən haqqa körpü saldılar.
Vətəni sevmək üstdə günahkar sayıldılar,
Vətəni sevmək niyə günah olmuş, ay Allah?

Özüm qaldım çıraqsız, min çırağa yağ ikən,
Təpələrə əl açdım, özüm uca dağ ikən.

Əlacım öz-özümdən köməyi ummaq ikən,
Neçin bizə özgəsi "pənah" olmuş, ay Allah?

Ona ümid, mənə zor, amma demir kimə haqq?
Əl-ayaq zəncirdədir, baş qapazlı, sinə dağ.
Yüz yetmiş il bu saziş, bu birlik, bu ittifaq
Bir tərəfli, talaqsız nikah olmuş, ay Allah.

Çəliyə möhtac ikən, mən özgəyə çəliyəm,
Min gülləyə tuş olan bir ceyranam, əliyəm.
Özgə nə əmr eyləsə mən boyun əyməliyəm,
Neçin mənə özgəsi "allah" olmuş, ay Allah?

Bu gün qula dönmüşəm, dünən mən bir şah ikən,
Yoxmuş məni bir doğan, yoxmuş məni bir əkən.
Bu torpağa düşmüşəm haradansa mən dünən,
Min-minillik tarixim unudulmuş, ay Allah!

Özgənin əlindədir xeyirimiz, şərimiz,
Sərvətimiz daşındı, hey soyuldu dərimiz.
Gözümüz üfüqdədir, açılmır səhərimiz,
Bizə düşən səmada gün tutulmuş, ay Allah!

İllərlə məhkumluğun keşiyində dayandıq,
Özümüzə biz bunu, yoxsa, şərəfmi sandıq?
Xoşbəxt olduğumuza inandıq, çox inandıq,
Düz yalana, haqq zora, demə, qulmuş, ay Allah!

Gözümüzdə qalsa da muradımız, kamımız,
Görünənə deyil, yox, bir nəfər tək hamımız
Deyilənə inandıq... Bizim bu inamımız,
Demə, qul olmamıza kəsə yolmuş, ay
Allah!

Bir qırıq işıq görüb zülməti yamanladıq,
Sübhün açıldığını zənn edib gümanladıq.
Biz də dönüb Sabirə bircə ağız banladıq,
Bizim banlamağımız günah olmuş, ay
Allah!
Neçin mənə özgəsi "allah" olmuş, ay
Allah?

NƏ İSTƏYİR BU MİLLƏT?

İstəkləri gözündə, tələbləri dilində,
Millət dənizə döndü dənizin sahilində.
Dalğalandı bu millət
Alışıb öz oduna, yandı, yandı bu millət.
Dilsiz, sağır göylərə dirək oldu haqq səsi,
Başlandı bu ölkənin meydan mübarizəsi.
Nə istəyir camaat? Bəlkə bezib canından?
Şikayətə çıxıbdır bəlkə güzəranından?
Bəlkə boş dükanları dolu görmək istəyir?
Bəlkə qazandığından çox götürmək istəyir?
Bəlkə maaş davası?
Bəlkə mənzil davası?
Nədir bu xalq davası, nədir bu el davası –
Bir soruşan oldumu?
Amma yeri istilər
Bu xalq burulğanının qabağını kəsdilər.
Ekranlara çıxdılar.

"Ekstremist" – deyə ona qara yaxdılar.
Xalqa öyüd verdilər.
Yenə də məhkumluğu
Yeganə bir yol kimi bu xalqa göstərdilər.
Bir soruşan olmadı nədir sənin bu davan?
Bəlkə çatışmır suyun, bəlkə çatışmır
havan?
Yaşasa da bu millət lap dilənçi kökündə,
Yoxsul güzəranından danışmadı bu gün də.
Daxmalarda yaşadı, özünü sındırmadı,
Meydanda "mənzil" – deyə bir dəfə
qışqırmadı.
Qara qızıl çıxartdı yerin yeddi qatından.
"Nədir bunun qiyməti?" sormadılar heç
ondan.
Onun qızıl neftini qızıla da satdılar,
Qızılın sahibini söz ilə aldatdılar.
Bu millətin sərvəti özünə düşmən oldu,
Becərdiyi pambığı əyninə kəfən oldu.
O, yenə də dinmədi,
Dözdü, heç deyinmədi.
Nə istəyir bəs bu xalq?
O istəyir sərvəti manat olub özgənin
Xəznəsinə dolsa da,
Dərisi soyulsa da
Onun ləyaqətinə,
Namus və qeyrətinə
Bir daha qıymasınlar,
Minillik torpağını hərraca qoymasınlar.
Qəzet sütünlarından millətə öyüd verən,
Söz ilə yol göstərən,
İndi özün de görək,
Qəbahətmi bu istək?

* * *

O zaman ki özümüz olduq öz dustağımız,
Qəlbimizə sığındı üç rəngli bayrağımız.
O vaxt ki, azadlığın işartısı göründü,
Qəlbimizi bir anda dəlib keçdi o bayraq,
Qəlbimizdən boylanıb ələ keçdi o bayraq.
Bir məqsədə calandı,
Əllərdə dalğalandı.
Qatil bunu görüncə pozdu cəlalımızı,
Qanımıza boyadı bizim hilalımızı.

TƏZADLAR İÇİNDƏ

Yalana, riyaya nə qədər uyduq,
Biz Qızıl Orduya abidə qoyduq,
Ona ad da verdik: "Xilaskar ordu".
Adını "doğrultdu": El "xilas oldu"
Yenicə tapdığı azadlığından,
"Ölüyə azadlıq, diriyə zindan".

Yaxşı tanıyırıq çoxdan biz onu
Adı bir olsa da, min bir üzü var.
Kasıb gizlətməkçün yoxsulluğunu,
İtinin adını "Gümüş" çağırar.

Həmin abidənin həndəvərində,
Həmin Qızıl Ordu günün birində
Bizim qanımızı tökdü...
ya xuda!
Ölənlər kim idi?
həmin orduda
Dünən əsgər olan bizim cavanlar.

Ağıl dərk etməyən bu bədxahlığın,
Əsl mənasını xalq indi anlar...

Yetmiş il "irəli!" – deyib yüyürdük,
Hamıdan geridə qalan bizmişik.
Döydük döşümüzə...
ayılıb gördük
Dünya aslan imiş, amma biz pişik!
Xalqa neçə dəfə tələ qurdular
Başımız tilova keçəndən bəri.
Qəsdən, bilə-bilə adlandırdılar
Xalqın dostlarını, "xalq düşmənləri".
"Bizdədir dünyanın dövləti, varı", –
Dedik...
Səs-küyümüz göyə dirəndi.
"Dünyanın ən xoşbəxt, şən adamları",
Talonla qaxsımış ət alır indi.

Qəribə təzadlar içindəyik biz,
İndi anlamışıq; kimik, nəyik biz.
Bəlkə kor taleyin hökmüdür bu da?
...Dünən bizimkilər həmən orduda
Ruslara bir arxa, bir qardaş kimi,
Onun düşməniylə döyüşmədimi?
Aradan nə keçdi?
Nə oldu ona?
Dünənki yaxşılıq unuduldumu?
Dünən arxasında dağ olduğuna,
Bu gün birdən-birə düşmən oldumu?

Gerçəyin önünə keçdi o dəmdə,
Yalanlar, böhtanlar...
nə deyək buna?

Qatil bizimlə bir o gecə həm də,
Haqqı, həqiqəti tutdu qurşuna.

Hansı göstərişlə gəlibmiş, görən,
Silahsız kütləni bu qıran ordu?
Vallah, bu vəhşəti törədə bilməz
Ən qəddar, qudurğan, çıldıran ordu.
Bəs hanı savaşın qədimdən bəri,
Hər kəsin bildiyi mərdlik şərtləri?

Şər üçün nə qayda,
nə şərt, nə qanun?
Bu imiş "haqq işi" Qızıl Ordunun...
Kimdi bəs ölənlər?
İnanmaq çətin!
Dünən Rusiya üçün can verənlərin,
Şəhid düşənlərin şəhid övladı!
Əfsus! Eyni olur şəhidin adı!
O, şəhid, bu, şəhid!
Sən bir işə bax!
O, nəyin uğrunda, bu, nəyin, ancaq!
O şənbə gecəsi, o məlun gecə
Birdən üzə çıxdı bu fərq gör necə?!
Bir soldat bağırdı: – Belədir qayda
Əvəz ödəməkdə ər oğlu ərəm.
Atan şəhid oldu mənim yolumda,
Mən sənin özünü şəhid eylərəm!

Ədalət də, gerçək də,
Vallah, yoxdu o gecə.
Zülm, zalim əlilə
Haqqı boğdu o gecə.
Tunc zirehli ilanlar,
Haqqımızı nə anlar!

Həqiqəti yalanlar
Küncə sıxdı o gecə!

Kimə deyim dərdimi?
Qəsbkar namərdəmi?
Yetmiş ilin dərd-qəmi
Gözdən axdı o gecə.

Analar amanından
Sinələr oldu şan-şan.
Şəhidlərin qanından,
Şimşək çaxdı o gecə.
Qara geydi bu Vətən,
Yox hayına bir yetən.
Həyata hamiləykən,
Ölüm doğdu o gecə.
Nə deyək bu vəhşətə,
Bu zülmə, bu dəhşətə.
Allah bu müsibətə
Necə baxdı o gecə?

Ertəsi... Bakının küçələrindən
Yudular millətin qızıl qanını.
Yuya biləcəkmi o cəllad, görən,
Qanla ləkələnmiş öz vicdanını?

Gecənin yarısı... hər yan qan-qada,
Qırmızı güllələr uçur havada.
Özünü itirmir adamlar yenə,
Yetirir özünü haya-haraya.
Maşınlar bir yana,
çiyinlərdə də
Yaralı daşınır xəstəxanaya.

Güllə vıyıltısı... Bu acı səsdən
Titrəyir,
lərzəyə gəlir bina da.
Amansız soldatlar keçirir qəsdən,
Bütün çıraqları xəstəxanada.

Gör necə böyükmüş bizə qəzəb, kin,
Burda da göründü, qalmadı qında.
Çarəsiz həkimlər indi neyləsin? –
Əməliyyat gedir şam işığında.
Səhər açılınca adamlar bir-bir
Yığılıb gəlir.
Qan vermək istəyir yaralılara.
Amma insaf hara, qantökən hara?

Soldatlar töküldü hey axın-axın,
Döyükə-döyükə baxdı dörd yana.
Tutuldu bir anda xəstəxananın
Həyəti, bağçası gülləbarana.
Heç kəs bu sifətdə görməyib şəri,
Hələ bəs deyilmiş tökülən qanlar?
Xəstəyə qan vermək istəyənləri
Bir anın içində dağıtdı onlar.

Yazovun əmriymiş... Qızğın başlara,
Zalimlik adicə bir adət imiş.
Bizim bu günahsız yaralılara,
Heç demə, yardım da cinayət imiş.
Ertəsi... Bakının küçələrindən,
Yudular millətin qızıl qanını.
Yuya biləcəkmi o cəllad, görən
Qanla ləkələnmiş öz vicdanını?

* * *

Üzümü tuturam sizə mən bu gün,
Əsilli, nəsilli rus ziyalısı,
Ulu Tolstoyun, böyük Puşkinin,
Fikir davamçısı, məslək varisi.
Onların irsini yaşatmaq bu gün,
Hünərdir, şərəfdir yeni nəsilçün.

Bu gün ulların o haqq səsini,
Təkrar edirsiniz qəzetdə, sözdə.
Onların eşqini, əqidəsini,
Amma heç görmürük əməlinizdə.
Yüksək kürsülərdə qol-qanad açmış,
Sizin dilinizdə "həqiqət" sözü.
Deyin, qəlbinizdən bəs hara qaçmış
Ədalət, fəzilət, həqiqət özü?

Təpədən-dırnağa silahlı ordu
Sizdən haqq istəyən bir xalqı qırdı.
Bunu görmədiniz?
Yaxşı gördünüz!
Amma həqiqətə siz tüpürdünüz.
Bir xalqın bağrına çəkilən bu dağ,
Ləkə gətirmədi şərəfinizə?
Dünyanın önündə bunu ağartmaq,
Sərfəli deyildi, deyəsən, sizə.

Zorun qarşısında susdunuz... Deyin,
Varislik borcunuz unuduldumu?
Ulu Tolstoyun, böyük Puşkinin
Sizə irs qoyduğu həqiqət bumu?
Nədir bizə qarşı bu qəzəb, bu kin?
...Qəlbim həqiqəti gör kimdən umdu?

Dağ-daşın dərdinə qalan Rasputin
Bir xalqın dərdinə niyə göz yumdu?

Heç zaman ziyalı sayıla bilməz
Özgənin dərdini yaşamayan kəs.
Sizdən soruşuram: bu rəzalətə
Siz necə baxdınız bir insan kimi?
Tolstoy bu zülmə, bu müsibətə
Etiraz səsini yüksəltməzdimi?

EŞQ OLSUN SİZƏ

Bəzən öz-özümə düşünürəm mən:
Nahaq şəhid oldu bizim cavanlar.
Ömrü ucuz verdi...
bir iş görmədən
Boş yerə ölməyin nə mənası var?!

Ağıla söykənsin dedim qüvvəmiz,
Anlayan olmadı bu sözdən məni.
Ağıla güvənək bu məqamda biz,
Qüvvə daşı əzər, ağıl qüvvəni.
Sonra düşünürəm: Onlar qorxmadan,
Cumdular ölümün üstünə belə.
Bir iş görmədilər yaşayan zaman,
Qəhrəman oldular ölümləriylə.
Bizim əlimizdən çoxdan alınmış
Haqqı bu dünyaya bildirdi onlar.
Millətin qəlbinə qəsdən salınmış
Qorxu iblisini öldürdü onlar.

O gecə dağlardan enən sel təki,
Qəzəbdən köpürüb daşdı millətim.

O şənbə gecəsi ürəyindəki
Qorxu hasarını aşdı millətim.

Bizim qazancımız bu oldu ancaq,
Qorxu xəndəyindən biz körpü atdıq.
Bu da bir imtahan, bu da bir sınaq,
Şübhədən qurtarıb, imana çatdıq.

Bu ölüm, bu qırğın dərs olsun bizə,
Deməyək boş yerə candan keçdilər.
Onlar şəhid olub millətimizə,
Cəsarət dərsini təlim keçdilər.

Gəlin, ölçə bilək xeyri, ziyanı,
Bəzən əvəzidir on qış, bir yazın.
Bizim şəhidlərin müqəddəs qanı,
Bəlkə də behidir sabahımızın.

Yaman dözümlüdür, oda kül atır,
Hər zülmə, cəfaya dayanır millət.
Soyula-soyula o susur, yatır,
Qurban verə-verə oyanır millət.
Xəyal bir çiçək də bitirə bilməz,
Bu gündən sabaha körpü salmasa.
Azadlıq ağacı bar verə bilməz,
Şəhidlər qanıyla suvarılmasa.

Onlar sübut etdi hər qara zülmün
Əli uzunsa da, ömrü gödəkdir.
Xalqın azadlığı sabah, birigün,
Şəhid yarasından göyərəcəkdir.
Şənbə gecəsində gecikdi səhər,
Zaman itirmişdi o gün sağ-solu.

Ömürdən keçərək, keçdi şəhidlər
Bir qanlı gecədə minillik yolu.

Şan-şərəf tac oldu, başlara qondu,
O qətl gecəsi xalqın minillik
Şücaət tarixi təkrar olundu:
...İki əsrə yaxın Babək, Cavad xan,
Hərdən təəssüflə qalxdı məzardan.
Bəsirət gözüylə seyr etdi bizi,
Tanıya bilmədi millətimizi.
Gördülər dağ düzə, göy yerə enmiş,
Onlardan kölələr, qullar törənmiş.
Onlar inanmadı, biz də bir ərik,
O qoç igidlərdən törənənlərik.
" – Bizim zəmanədə xan idi millət,
Niyə qula dönüb, – dedilər – indi?
Nədir bu itaət, nədir bu zillət?" –
Deyə qəzəb ilə onlar deyindi.

O şənbə gecəsi yel qalxdı birdən,
Közün üstündəki külü üfürdü.
Babək fərəh ilə qalxdı qəbirdən,
Hər igid gözündə özünü gördü.

O şənbə gecəsi bir şimşək təki,
Gözlər parıldadı...
sinələrdəki
Gözlə görünməyən dağlar göründü.
Hünər məqamında bir qoça döndü
Ələ öyrədilən hər körpə quzu.
Babəkin varisi olduğumuzu
Göstərdi dünyaya...
Eşq olsun sizə!
Siz layiq oldunuz öz irsinizə.

Gəldi ürəkdəki arzular dilə,
Silahı məhəbbət, son sözü Vətən.
Şəhidlər göstərdi ölümləriylə
Ölüm aşağıdır Vətən eşqindən.

Dünya o dünyadır, bir həqiqəti
Çarmıxa çəksə də min böhtan, riya!
O gecə basanda zülm ədaləti,
Haqqın naləsindən diksindi dünya.

Adımız dolaşdı bütün dünyanı,
Çox da ki, ağımız qara yozuldu.
Bizim şəhidlərin tökülən qanı,
Haqqın kitabında imzamız oldu.

Baxıb sinələrdən axan al qana,
Buludlar kişnədi, göy qan ağladı.
O şənbə gecəsi Vətən başına
Elə Vətən boyda qara bağladı.
Dözdü böhtana da, dözdü şərə də,
Yedi şəkər kimi hər dərdi xalqım.
Azadlıq yolunda ölümlərə də,
Hazır olduğunu göstərdi xalqım.

Azadlıq verilmir, alınır, dayan!
Onun elçisidir, ölüm, qan-qada.
Ölümə, cəfaya hazır olmayan,
Millət hazır deyil azadlığa da.

Yalın əllər ilə tanklar üstünə,
Atılan cavanlar, eşq olsun sizə!
Siz təsdiq etdiniz azadlığın da
Halal olduğunu millətimizə!

Şəhid rütbəsinə qalxan cavanlar,
Sinəsi hər zülmə qalxan cavanlar,
Böyük Nəsiminin, ulu Babəkin,
Xeyir-duasını aldı o gecə.
Zamandan irəli sıçrayıb yəqin,
Tarixdə tarix tək qaldı o gecə.

* * *

Qəlbimi boşaltmır çəkdiyim ah da,
Nəğmədə hər xalın kökü var yəqin.
Şəhid fəryadından ulu segahda
Təzə bir guşə də açılar yəqin.

Həmin o güşədə ana naləsi,
Analar hönkürər, gəlinlər ağlar.
Həmin o güşədə qəm şəlaləsi,
Axıb qəlbimizdən haqqı soraqlar.

Həmin o güşədə güllə səsləri,
Tarın pərdəsində qəm nəfəsləri,
Həmin o guşədə zülmün tüğyanı,
Haqqın, həqiqətin zülmə üsyanı.

Ramiz, bas bağrına sən qoca tarı,
Bu təzə guşədə çal, sənə qurban.
Şəhidlər qanına boyanan səsi,
Zabul segahına sal, sənə qurban!

Pərdələr qoy təzə güllər bitirsin,
Şəhid anasına təsəlli versin.
Haqqın fəryadını dilə gətirsin,
Təzə yaratdığın xal, sənə qurban!

Xəzər pəncələşdi öz sahiliylə,
Danış dərdimizi səsin ziliylə.
O təzə guşənin atəş diliylə,
Zülümdən qisası al, sənə qurban!
Təzə guşədəki ah-amanların,
Qorxuram, hər xalı yoğrula qandan.
Qorxuram çanağı partlaya tarın,
Bu təzə guşənin hay-harayından.

Asta çal, qardaşım, asta çal tarı,
Pərdələr bu aha, amana dözməz.
Təzə guşədəki səs burumları,
Günahsız tökülən bu qana dözməz.
Həm də uydurulan böhtana dözməz,
Partladar tarı!

MATƏM MƏRASİMİ

Qəzəb şimşəyindən hər baxış nida!
Hər üzdə, hər gözdə bir sual ağlar.
İnsan dənizinin dalğalarında,
Üzür asta-asta tabut-qayıqlar.

Xalq dözə bilsə də zülmün şərinə,
Yanır gözlərində kini, nifrəti.
Alıb tabutları çiyinlərinə,
Allaha göstərir bu cinayəti.
Deyir, nələr gördük, ey adil Allah,
Budurmu göylərin haqq-ədaləti?
Deyir, biz götürdük, ey adil Allah,
Sən necə götürdün bu xəyanəti?
Millətin ahıdır ərşə dayanan,
Dilsiz baxışlarda üsyandır – yanan!

Gəmilər fit verir... qara buluddan
Göylər bu matəmə bayraq endirir.
Bu səs qəlbimizdə alışan oddan,
Qəzəb vulkanını ləpələndirir.
Fit səsi... bu fəryad külə bükülmüş
İçin-için yanan köz səsidirmi?
Bu fəryad, bu nalə balası ölmüş,
Yetim anaların naləsidirmi?
Fit səsi... həyəcan, tələş nəğməsi,
Bilirik, nə deyir bu gizli üsyan.

Anlaya bilmirəm, bu möcüz səsi,
Necə yoğurdular göz yaşlarından?
Gəmilər fit verir... bu sirli səsdən
Küçələr, binalar zür-zükə gəlir.
Qərib iniltidən elə bil, qəsdən
Təhlükə dalınca təhlükə gəlir.

Qarşıda şeyximiz, arxada millət,
Axır insan seli başlar aşağı.
Bərqərər olsa da sabah ədalət,
Getməz qəlbimizdən bu şəhid dağı.

Axır yanaqlara göz yaşı dən-dən,
Bəs necə? Millətin bağrı sökülmüş.
Bu el matəmindən, el kədərindən,
Cavan şeyximizin beli bükülmüş.

Yaşaya bilmədik bir insan təki,
Qarışdı haqqımız, borcumuz bizim.
Bu gün tabut deyil, çiyinlərdəki
Dərd adlı yükdür millətimizin.

Boğaq içimizdə kədərimizi,
Amandır, əyməsin qoy bu yük bizi.

Yeriyir izdiham hey ağır-ağır,
Yeriyir meydandan Dağüstü parka.
Qəlbimiz sabaha indidən baxır,
Enişdən yoxuşa biz qalxa-qalxa.
Bura park idimi bir zaman? Xeyr!
İndi də yaşayır xatirələrdə;
On səkkizinci il!
Şəhid düşənlər
Haqqa tapşırıldı bir vaxt bu yerdə.
O zaman qonşular bizdən kam alıb,
Bizi arxamızdan yaman vurdular.
Erməni əliylə burda park salıb,
Bizə şəhidləri unutdurdular.

Qızıl qərənfillər əllərdə min-min,
Şəhidlər önündə bir an dondular.
Fədakar oğullar Rəsulzadənin,
Bayrağı altında dəfn olundular.

Durun, ağlamayın! Vallah, qəm-kədər,
Heç vaxt sığışmamış qeyrətimizə.
Bu bayraq altında yaşamaq qədər,
Torpağa getmək də şərəfdir bizə.

Daldı bir anlığa sükuta göy, yer,
Millət ürəyini sükutdan asdı.
On səkkizdə ölən köhnə şəhidlər,
Təzə şəhidləri bağrına basdı.

Şəhər aşağıda... Bir baxın, onlar,
Bizdən yuxarıda dəfn olundular.

AXI, BİZ NEYLƏMİŞDİK?

Şəhidlər Xiyabanı...
Dilə gəlir məzarlar:
– Axı, biz neyləmişdik?
Dilə gəlir
Məzarları seyr edən solğun üzlər, nəzərlər:
– Axı, biz neyləmişdik?
Bu ittiham, bu sual
Şəhidlərin birləşən hər yasında səslənir.
Fərizənin, İlhamın
Çırağı söndürülmüş komasında səslənir:
– Axı, biz neyləmişdik?
Ağsaqqal babaların, ağbirçək nənələrin
Duasında səslənir:
– Axı, biz neyləmişdik?
Bu ittiham, bu sual
Məktəbli Larisanın qara lentə tutulmuş
Partasında səslənir:
– Axı, biz neyləmişdik?
Günahsız qurbanların başdaşında səslənir.
Onların yetim qalan körpə balalarının
Dünyadan haqq istəyən göz yaşında
səslənir:
– Axı, biz neyləmişdik?
Bu ittiham, bu sual
Bağrına dağ çəkilən qocaman bir millətin
Dodağında səslənir.
Sərvəti talan olmuş,
Düz sözü yalan olmuş
Böyük bir məmləkətin Göygölündə
səslənir,
Şahdağında səslənir:
– Axı, biz neyləmişdik?

Bu ittiham, bu sual gəzdi bütün dünyanı,
Qəzetlərə yazdılar,
Min bir yerə yozdular.
Qaynaqdan bulandıran elə bulandırdı ki,
Suyumuz durulmadı.
Cavab verən olmadı:
– Axı, biz neyləmişdik?
Bu ittiham, bu sual
"Qırın!" əmri verənin qulağında dinmədi.
Bizə "vaxtı bildirən" o qocaman Kremlin
Zəngində səslənmədi.
Boğdular bir millətin "Axı, biz
neyləmişdik?" –
Deyən o haqq səsini.
Şəhidlərin qanıyla yazdılar bir qatilə
Marşal vəsiqəsini.

Biri əmr elədi, o biri qırdı,
Qansızlar bu nahaq qanı batırdı.
Silahsız adamlar günahsız yerə
Yerdə ulduz kimi yanıb-söndülər.
Cəza istəyirdik biz qatillərə,
Amma ikisi də rütbələndilər.

Batdı, həqiqətin batdı haqq səsi,
Haqqı tapılmadı onlardan soran.
Qırana verdilər marşal rütbəsi,
Prezident taxtına çıxdı qırdıran.

MƏNİM GÜNAHLARIM

– Mən sənə həmişə "Buyur" – demişdim,
Mən səndən haqqımı istəməmişdim.
Bir işıq görüncə üfüqdə birdən,

Səndən iynə gözü haqq istədim mən.
Sən dedin: – De görək haqq nə deməkdir?
Mənə bol pambığın, neftin gərəkdir.

Dedin: – Tələbinlə buz kimi donmuş
Köhnə yaraları gizildədirsən.
"Gülüstan" paktında məhkum olunmuş
Haqqını sən indi tələb edirsən?
Sormuşam, qanını çəkmişəm sənin,
Minnətdar olmusan sorulduğuna.
İndi də qanını tökmüşəm sənin,
Haray qoparırsan de neçin buna?

Dedim: – Günahımı başa sal mənə,
Dedin: – Anlamadın məni sən yenə.
Bilmədin, günahın bir deyil, mindir,
Amma ən böyüyü gözəlliyindir.
İstədin daşınan bol sərvətindən,
Bir ovuc, bir qırıq sənə pay düşə.
Sən bezib, usanıb əsarətindən,
İstədin bu dünya bir az dəyişə.
Budur günahın!
Məndən icazəsiz, axı, çox şeyi,
Sən qanmaq istədin, duymaq istədin.
Sən öz ayağını mənim çəkdiyim
Cızıqdan kənara qoymaq istədin.
Budur günahın!
Sən öz torpağında qul olduğunu,
Bağırmaq istədin, budur günahın.
Zülm girdabında boğulduğunu,
Çığırmaq istədin, budur günahın.

O, torpaq istədi səndən bir qarış.
Niyə tələbkarın xətrinə dəydin?

Onun istəyilə dedim, sən barış,
Sənsə tərəzinin gözünü əydin.
Budur günahın!

Bu qanlı çəkişmə düşəndən bəri,
Bir dəm ayağını qoymadın geri.
Erməni qıranda sizinkiləri
Sən də neçəsinin qanını tökdün.
Budur günahın!
Mən sənin qanını tökdüyüm zaman,
Baxdın nifrət ilə... Budur günahın!
Sən mənim tankıma çırtma vurmusan,
Hansı cürət ilə? – Budur günahın!

...Belə tale düşüb qismətimizə,
İlahi, sən yenə dözüm ver bizə.
Haqqın dərgahında unudulmuşuq,
Biz necə götürək bu töhmətləri?
Min dəfə haqlıykən haqsız olmuşuq,
Biz bu müsibətə düşəndən bəri.
Qulaqlar batırır böhtan harayı,
Buğdadan qiymətli olub darı da.
Necə bulandırıb keçi bu çayı?
Keçi aşağıda, qurd yuxarıda!
Mərkəz dəyişdirir gündə rəngini,
Mərkəz məni görür, heç onu görmür.
Bizdən yığışdırıb quş tüfəngini,
Amma ermənin topunu görmür.

Dilimizdə olub düşündüyümüz,
Əməldən öndədir bizim küyümüz.
Qəlbimiz o qədər təmiz olub ki,
Göz görə düşməni dost sanmışıq biz.
Gözümüz o qədər qorxudulub ki,

"Hələ çay gəlməmiş çırmanmışıq biz"
Biz nə hiylə bildik, nə qərəz, nə kin,
Quyuya düşənin əlindən tutduq.
Bizə tələ quran, kələk gələnin,
Dünənki qəsdini bu gün unutduq.

Özgə torpağından qovulanlara,
Biz torpaq da verdik torpağımızdan.
Bunun əvəzində indi onlara,
Borclu da çıxmışıq öz bağımızdan.

Qonaq dünənini salmayıb yada,
Yerliyə "qaç" – dedi, şər yolu tutdu.
Dünən dədəsinin mənim qapımda,
Boyun bükdüyünü bu gün unutdu.

Evimdə başımı kəsir erməni,
Qışqırıram...
Mərkəz danlayır məni.
Deyir: – Nə çabala, nə danış, nə din,
Qoy sənin başını rahatca kəssin,
Kişinin gül kimi işinə qəsdən
Niyə pəl qatırsan?
İnciyərəm mən!
Demək, o haqlıdır məni qıranda,
Haqsızam, dözməyib, mən qışqıranda.
Məəttəl qalmayım necə mən buna –
Yenidənqurmanın haqq olduğuna?

Mərkəz dəyişdirir gündə rəngini,
Mərkəz məni görür, heç onu görmür.
Bizdən yığışdırıb quş tüfəngini,
Amma ermənin topunu görmür.

Anladıq xalqların bərabərliyi,
Kağız üzərində bir quru sözmüş.
Bu qətldən sonra bildik çox şeyi,
Bizim günahımız türklüyümüzmüş!

Millətlər dostluğu! Astar üz imiş,

Bunun nəyi varmış sözündən özgə?
Atatürk düz demiş, vallah, düz demiş:
"Yoxdur türkün dostu özündən özgə".

Türkdilli xalqların doğma yerindən
Didərgin düşməsi kimə gərəkmiş?
İyirminci yüzilin əvvəllərindən,
"Türkəm" – deyənlərin başı nə çəkmiş?!

Türk öz mənliyini biləndən bəri,
İblis də gələcək qəsdini bildi.
Qaraçay, Axalsiq, Krım türkləri,
Malkarlar, mesxetlər sürgün edildi.

İki yanağı var, amma bir üzü,
Türk öz anasından belə doğulmuş.
Anlaya bilmirəm, niyə "türk" sözü
Kiminsə başına düşən daş olmuş.

Türkəsaya olduq... hər şey apaydın,
İçimiz göründü gözlərimizdən.
Qərəzkar oxudu axşamımızın
Uzaq məqsədini dan yerimizdən.

Belədir... biz hələ addım atmamış,
Bildilər düşəcək mənzilimizi.

Hələ bir məqsədə gedib çatmamış,
Yolun əvvəlində tutdular bizi.

* * *

Çadırlar quruldu kənddə, şəhərdə,
Bəlkə məlhəm idi matəm, bu dərdə?
Döndü yas evinə bütün məmləkət,
Kasıb ocaqda da qazan asıldı.
Yası, matəmilə çarəsiz millət
Elə bil qatildən intiqam aldı.

Gücsüzün aldığı intiqama bax!
Zorun qarşısında susduq hamımız.
Qırx gün yas saxlamaq, işə çıxmamaq,
Oldu üsyanımız, intiqamımız!

Bizim ən fərəhli, şad günümüzdə –
Hər bir toyumuzda, düyünümüzdə
Qərənfil əllərdə çıraq olardı,
Sevincə, şadlığa ortaq olardı.
Biz hardan biləydik doxsanıncı il,
Şadlıq yaraşığı qızıl qərənfil,
Şəhidlər qəbrini qucaqlayacaq,
Bizim dərdimizə yas saxlayacaq.
Canlı da, cansız da ağlayır bu gün,
Matəm içindədir ölkə büsbütün.
Qızıl qərənfillə qara bayraqlar
Xalqın kədərinə birgə qan ağlar.

* * *

Qorxar ilan vuran ala çatıdan,
Bizim gözümüzü püləyib fələk.

Qorxuruq...
Qorxudub bizi bu dövran.
Stalin ölməyib, yaşayır, demək!
Bizdən üz döndərib sanki fələk də,
Yalan çövlan edir, bəs hanı gerçək?
Susuruq...
Sözümüz qalır ürəkdə,
Stalin ölməyib, yaşayır, demək.

Xeyrimiz, şərimiz bilmirik nədir?
Onları kimdənsə soruşmaq gərək.
Hələ də haqqımız yad əllərdədir,
Stalin ölməyib, yaşayır, demək.

Bizə qürbət olub öz diyarımız,
Bu boyda dünyada tək qalmışıq, tək!

Zindana salındı Etibarımız,
Stalin ölməyib, yaşayır, demək.

Diləyimiz harda, özümüz harda?
Doğranıb tökküldük biz çilik-çilik.
Stalin ölsə də, yuxarılarda
Hələ də yaşayır stalinçilik.

İndi də zindanda yaradır Xəlil,
Sözünü deməkdən usanan deyil.
"Moabit dəftəri" yaranır belə
Faşizm ölməyib, yaşayır hələ.

XƏCALƏT

Şəhidlərin məzarı islandı göz yaşından,
Qurudu leysan tökən qərənfil yağışından.

Yaman nalə təpərdik gülçülərin əlindən,
Deyərdik, bu gülçülər bazarlarda pul qırır,
"Qərənfil gözəlindən".
Rusiya bazarında,
Yaman rusvay edirlər, – deyərdik onlar
bizi.
"Alverçi" damğasıyla, vallah, ləkələyirlər
Bizim şərəfimizi.
Həmin o alverçilər, bu gün isə əvəzsiz,
Təmənnasız qərəzsiz
Şəhid məzarlarını gül topuna tutdular,
Uzaq bazarlardakı qazancı unutdular.
Güllə yaralarını gül ilə soyutdular.
Vətənsevər kim imiş bu məqamda de
görək?
Mənim tək, ya sənin tək
Bol qonorar eşqinə
Xalqa dərs vermək üçün ekranlara
cumanlar,
Yoxsa, şəhid eşqinə xeyrinə göz yumanlar?

Şəhidlərin hamısı bənzəyir bir-birinə.
Bir bax, qəbirlərinə!
Hamısı qıpqırmızı qərənfilə bələnmiş,
Hamısı bir biçimdə, bir boyda cərgələnmiş.
Səbəb birdir, əməl bir,
hədəf birdir,
hədə bir,
Onları bu dünyadan aparan güllə də bir.
Tüstüsü təpəsindən çıxa-çıxa hönkürən,
Bu məhzun qəbirlərə baxa-baxa hönkürən
Adamlar da bir olmuş...
Ağlar budaqlarından qara bayraq sallanan
Göy şamlar da bir olmuş.

Hamınındır bu matəm,
Millətindir bu dərd, qəm.
Hamı qoyub özünü o birinin yerinə,
Hamı birinə deyil, hamı biri-birinə
"Başın sağ olsun" – deyir,
"Bulanıq axan sular bir gün durulsun"
deyir.
Bir amala bağladı bu gün dərdi milləti,
Dərdin, qəmin birliyi birləşdirdi milləti.

Bu el faciəsinə dözmək çətin, çox çətin!
Beli yaman büküldü qocaman bir millətin.
Fitrətindən, soyundan ər doğulan bu xalqı
Tarix boyu mərd olan, məğrur olan bu xalqı
Necə təhqir etdilər, gör necə alçaltdılar.
Mənliyini, əzmini bir "sağ ol" a satdılar.
Sənin adın haqq ikən
Ey Allahım, niyə sən
Bizə qıydın bu dərdi?
Onsuz da bu millətə min-min dərdi yetərdi.

Bu təhqirə, bu qəsdə dözmək çətin, çox
çətin!
Ürəyinə dərd hopub balası ölənlərin.
İçdikləri zəhərdir, yedikləri dərd, aman!
Bütün millət keyləşib dərdin ağırlığından.
Hamı ayaq üstündə yuxuludur elə bil.
Bu dərd dərdli dünyada çəkiləsi dərd deyil!

Ömründə qonşusunun damına daş atmayan,
Kimsənin bostanına əlini uzatmayan,
Qərəzinin, kininin dalınca sürünməyən,
Dünən verdiyi sözdən bu gün geri
dönməyən,

Heç vaxt döyüb döşünə "mənəm-mənəm" –
deməyən.
Heç kəsin bəd gününü, şərini istəməyən,
Mənim ali millətim, haqlıykən birdən-birə,
Layiqmiydi, ey Allah, bu qəsdə, bu təhqirə?
Hansı günahımızın əvəziydi bu təhqir?
Haqsız oldu günahsız, haqlı oldu müqəssir!
Bu dərd bütün millətin ürəyində göyərdi,
Heç kəs bilmir nə təhər, necə udsun bu
dərdi.
Bu gün xəcalət çəkir, hamı
gücsüzlüyündən,
Heç kəs boylana bilmir gələcəyə bu
gündən.
Çəkilməzdir, çəkilməz bu ağrının siqləti –
Əlacsız gücsüzlüyün töhmətsiz xəcaləti!
Həm dünən, həm bu gün də
Biz günahkar olmuşuq günahkarın önündə.
Hanı o qüdrətimiz –
Günahsız qurbanların töhmətinə dözək biz?
Qahmarımız olmadı nə arxada, nə öndə,
Hamı xəcalət çəkir
Qanları batırılmış şəhidlərin önündə.
Ah, necə də ağırdır
Zaman axa su kimi, amma qabın dolmaya,
Günahkarın, qatilin cəzasını verməyə,
Sənin gücün olmaya...
Çünki bu məhkəmədə biz haqlı olsaq belə,
Qısaldılıb dilimiz
Çünki hakimimizlə eynidir qatilimiz!

İLHAM – FƏRİZƏ

Dözməyib qatilin kəshakəsinə,
İlham çölə çıxdı güllə səsinə.
Gördü qırhaqırdı, gördü vurhavur,
Tanklar adamların üstünə cumur.
Bağırdı: – Soldatlar, neyləyirsiniz,
Axı, bunlar ilə siz də birsiniz.
Axı, bu adamlar silahsızdılar.
Soldatlar daha da coşub qızdılar.
... Bu sözlər İlhamın son sözü oldu,
Ona da bir güllə... o da vuruldu.
O gecə yatmadı bir an Fərizə,
İlhamı gözlədi,
İlham gəlmədi.
Dönük taleylə durdu üz-üzə.
Qalıb küçə ilə ev arasında,
Gecəni sübhədək o dincəlmədi...
Ertəsi... qapqara xəbəri gəldi,
Ölümün həyata zəfəri gəldi.

Çatmadı əvvəlcə bu xəbər ona,
İnana bilmədi qulaqlarına.
Elə ki, inandı... o, lal kəsildi.
Heykələ döndü.
Anladı, bildi:
Qapısı bağlandı, ocağı söndü.

İKİ GÜN SONRA...

Qalınca evində dərdlə təkbətək,
Özünə qəsd etdi bu təzə gəlin.
Hansı tərəzilə, daş ilə ölçək
Eşqini, qəsdini biz bu gözəlin?

Nə deyim, Fərizə, nə deyim sənə,
Axı, nə ad verim bu faciənə?

Hələ səadətdən soraq gəlməmiş,
Yoxsul komanı da sevdin, bəyəndin.
Gəlinlik paltarın heç köhnəlməmiş,
Sən nə tez əyninə kəfən geyindin?

Sənin ləyaqətin lal etmiş bizi,
Zaman aşağıdır dəyanətindən.
Ey vəfa timsalı, sədaqət rəmzi,
Sənin bu qəsdinə nə ad verim mən?

Səsin ərimədi əsrin səsində,
Nəcabət kökündə həmişə varsan!
Türk qızı, xəyanət zəmanəsində
Bu eşqi, vəfanı sən bacararsan.

Belə yaşamışdır dünən və bu gün
Bizim keçmişimiz – oğuzlar, hunlar.
Ərin namusunu qorumaq üçün
Keçər balasından Burla xatunlar.

Belə ömür sürmüş nənələr, belə
Sən də bu çeşmədən su içdin, qızım,
Ərinin yolunda
sədaqət ilə
Cavanca canından sən keçdin, qızım.

Qurban getdi o, Vətənə, sən ona,
Bu necə görüşdü, necə yarışdı?
Anlaya bilmirəm, bu dar komana,
O boyda ürəyin necə sığışdı?

Sizin evinizin həndəvərində,
Bir "Leyla" ünvanlı mağar quruldu.
Həmən "Leyla" adlı Şadlıq evində,
Birinci toy – sizin toyunuz oldu.

"Leyla"da Leylinin qəm macərası,
Sən onu öncədən duymadın yəqin.
Sən hardan biləydin, Leyli vəfası,
Ünvanın olacaq bir zaman sənin.

Sevgi kitabında iri bir nida
Sənin məhəbbətin, sənin qiymətin!
Məcnunun Leylisi haqq dünyasında,
Sənin pişvazına çıxacaq yəqin!

Nə tez qışa döndü sənin baharın,
Bakı bu matəmə qara bağlamış.
Sənin damarında nənən Nigarın,
Həcərin, Leylinin qanı çağlamış.

* * *

Od tutub alışdı sözlər dilimdə
Bu qəsd, nə qəsd idi, ey məğrur qadın?
Sən təkcə özünə qıymadın, həm də
Bətnində göyərən körpənə qıydın.

O anda sarmaşıb məhəbbətinlə
Allahdan sən nəyi dilədin, qızım?
Sən, axı, ərinə sədaqətinlə
Körpənə xəyanət elədin, qızım.

Sınayar bəndəni Allah, çətində
Batdın bir günahda iki günaha.

Xəyanət işlədin sədaqətində
Körpəyə qıymaqla qıydın sabaha.

Bəlkə... açılmamış solan o gözlər
Ulu zirvələrə yol açacaqdı.
Bəlkə o gözlərdən doğacaq səhər,
Zülmət dünyamıza yol açacaqdı.

Ey mənim yurdumun vəfadar qızı,
Vəfan cəfa oldu... gör sən neylədin?
Sən öz bətnindəki o günahsızı
Hələ doğulmamış şəhid eylədin.
Oğul istəyirəm bu dərdə dözə.
Təzə şəhidliklə zaman üz-üzə
Əridə bilmədi bu faciəni...
Həm də çox çətindir danlamaq səni.
Sən həm fədakarsan, həm də günahkar
Bu cür şəhidliyin başqa rəngi var.
Zaman hər hökmündə "hakiməm" – deyib
Belə şəhidliyi amma görməyib.

Bilmirəm, nə deyək bunun adına?
Bütün hüdudları aşan şəhidlik
İkiqat, ya üçqat?
Ərdən qadına,
Anadan balaya düşən şəhidlik.

LARİSA

On üç yaşlı körpə bala
Yazıq anan necə dözsün
Bu kədərə, bu məlala?
Məzarının baş ucunda kukla da var.
Bu gün layla çalmalıykən sən kuklana

Kuklan sənə layla çalar.
Sən özün də kukla idin.
Bu dünyanın əvvəlini, axırını
Heç bilmədin.
Kim kuklaya güllə atar?
Atan oldu.
İnsanlığı, mərhəməti,
Ədaləti, həqiqəti
Bir qərəzə satan oldu.

Anan asmış dərs çantanı,
Məzarının başdaşına.
Axı, niyə hay vermirsən,
Səni dərsə haraylayan yoldaşına?
Sənin adın dostlarının dil əzbəri.
Qızım, axı, səni gözlər çoxdan bəri
Açmadığın kitabların dəftərlərin,
Səni gözlər partadakı o boş yerin.

Nə bərk oldu yuxun sənin?
Ataların ah-naləsi,
Anaların şivən səsi
Sığmır göyə, sığmır yerə.
Söylə, niyə oyanmadın
Bu haraya, bu həşirə?
Övladıydın iki xalqın,
Bu dostluğa mən də uydum, sən də uydun.
Sən dostluğun simvoluydun.
Bunudamı bu gün bizə çox gördülər?
Elə bil ki, sənlə bir
Bu dostluğu öldürdülər.

SÜRƏYYA LƏTİF QIZI

Tanklar keçir küçədən, tanklar, zirehli
tanklar.
Tankların üstündəki soldatların gözündə
Bizə nifrət odu var.
Onlar vicdanı atıb, insafı da danıblar.
Təkcə silahla deyil, onlar bizə qəzəblə,
Kinlə silahlanıblar.
Bu şəhərdə hər şeyə onlar sahibdir bu gün
İstədiyi eyvana, pəncərəyə, qapıya
atır, ölən qoy ölsün!
Mətbəxdə çay süzürdü, Təranənin nənəsi,
Birdən bir güllə səsi!
Yetmiş yeddi yaşında Sürəyya nənəmizi
Pəncərədən atdılar.
Bir günahsız qarını
Qanına boyatdılar.

BABA MÜƏLLİM

Pəncərənin önündə kimsə inildəyirdi,
– Kömək edin, ölürəm, kömək edin, –
deyirdi.
Açdı Baba müəllim pəncərəni bir anda,
Gördü biri yıxılıb qapının kandarında.
Dərhal atdı özünü telefonun üstünə,
O, təcili yardıma zəng çalıb
dönə-dönə
Ünvanı başa saldı,
Evdən sarıq götürdü.
Yaralının yanına yetişincə nə gördü?
Qan aparıb yazığı... yara dərin yaradı,
O, yaranı sarıdı.

Gördü ki, qonşular da yığılıb ətrafına.
O, gah ona, gah buna,
Baxıb dedi: – Neyləyək?
Axı, bu əldən gedir,
Biz təcili yardımı yenədəmi gözləyək?
Tez yığışdı cavanlar... köməkləşib birtəhər,
Yaxın xəstəxanaya xəstəni yetirdilər.

Dönür Baba müəllim yorğun-ərğın evinə,
Şütüsə də güllələr onun dörd dövrəsindən.
Fikir vermir o, yenə.
Diksinmir taraq-taraq güllələrin səsindən.
Birdən ona nə oldu evin həndəvərində?
O, dayandı, döyükdü,
Səndələdi yerində.
Yıxıldı... döşündə qan.
Elə bu vaxt, bu zaman
Bir aypara maşını tin başında göründü.
Maşının işığında ətraf nura büründü.
Bu təcili yardımın axtardığı kim idi?
Bu maşın, ah bu maşın,
Bayaq onun özünün zəng vurub çağırdığı
Təcili yardım idi.
Başqasına çağırdı, qismət oldu özünə,
Belə bir təsadüfün qərəzi nə, özü nə?
Təcili yardım üçün zəng çalanda o bayaq,
Nə biləydi,
ay Allah,
Bu təcili yardıma özü qismət olacaq!
Həkimlərin yardımı amma faydasız oldu.
Səhər yası tutuldu.

ALEKSANDR MARXEVKA

Yaralılar bələnib üzü üstə torpağa,
Necə dözsün analar bu sitəmə, bu dağa?
Leş-leş üstə qalanıb,
Təkərlərin altında gör necə xırpalanıb.
Həkim Aleksandrın gendən səsi yüksəlir:
– Yol verin, hey yol verin,
təcili yardım gəlir.
Soldat bunu görüncə avtomatı tuşladı
Ayparalı maşına.
O, istəmir, istəmir
Can verən yaralılar xilas üçün daşına.
Həkim öz işindədir.
Yaralının nəbzini yoxlayırkən...
döşündən
Həkimi də vurdular.
Yardıma gəldiyini ona unutdurdular.
Allah, sən bizi saxla Əhrimənin şərindən.
Allah, dünya çıxıbdır bəlkə öz
məhvərindən?
Ay Allah, insan oğlu iblisəmi qul oldu?
Yoxsa, insan binədən elə iblis doğuldu?
Adamlar niyə satdı namusunu, arını?
Allah, hansı ölkədə gülləbaran ediblər
Yardım maşınlarını?
Axı, vuruşların da, Qanlı savaşların da
Müqəddəs qanunu var:
Düşmənsə də, dostsa da, yaralıya hər
zaman,
şəfqət əli uzanar.
Ey insan haqlarını kürsüdən alqışlayan,
Başqa məmləkətləri ədalət yoxluğundan
Gecə-gündüz daşlayan,

Budurmu haqq dediyin?
Bəs verdiyin vəd hanı?
Vallah, ələ salmısan sən bu boyda dünyanı.
"Təcili yardım"ların üstünə dörd tərəfdən
Od ələmək haqmıdır?
Yara sarıyanları güllələmək haqmıdır?

HİDAYƏT

Gücsüzlükdən özünü hamı günahkar bilir,
Bu təhqirə dözməyi xalq özünə ar bilir:
Uzaq Qardabanidə
Bakı müsibətini eşidincə Hidayət,
Hönkür-hönkür ağladı.
Eşikdəki ağaca qara bayraq bağladı.
Gürcüstanda yaşayan bizim ellər, obalar,
Neçə gün yas saxladı.
"Yardım" – deyə dalbadal uzaq, yaxın
kəndlərə
Zəng elədi Hidayət.
Qardabani, Borçalı
Bütün eli, mahalı
silkələdi Hidayət.
O, özünü yetirdi şəhidlərin qırxına.
Xiyabanda əl açıb "lənət" – dedi min kərə
Kor fələyin çarxına.
Şəhidlərin adını o, oxudu birbəbir.
Elə bildi hər qəbir,
Onu ittiham edir:
"Həramilər Bakıya bulud kimi dolanda,
Biz köməksiz qalanda
Sən hardaydın, de harda, ey Vətənin
övladı?
Öz doğma göyümüzdə qanad açan

quşuyduq,
Ovçu bizi ovladı"
Ürəyindən ucalan,
Öz-özündən öc alan
Töhmət dolu bu səsdən o diksindi,
başına
elə bil od ələndi,
içindən pörşələndi.
Şəkillərdən düz onun gözlərinə zillənən,
Ürəyində millənən
Baxışlara dözmədi,
"Onlar haqlıdır" – dedi.
Əgər mən də bu yurdun, bu xalqın
oğluyamsa,
Onlar kimi əhdimə, andıma doğruyamsa,
Mən niyə əvvəlcədən
Xəbər tuta bilmədim o dəhşətli gecədən?
Ağac olub, o anda onların cərgəsində
Niyə göyərmədim mən?
O qızıl güllələrə köksümü gərmədim mən?
Xəcaləti alışdı ürəyinin səsində.
Gücsüzlük əzabının boğuldu pəncəsində.

Qulağında ittiham, qəlbində danlaq səsi,
Birbaş Qardabaniyə o, qayıtdı ertəsi.
Hidayətin önünə çıxdı oğlu – Vüqarı,
Amma Vüqar bilmədi,
Bilmədi, atasının sındırılıb vüqarı.
Vüqarın fərəhiylə Hidayətin kədəri
Durdu qarşı-qarşıya...
Oğul gəldi qabağa, ata çəkildi geri,
Ata baxa bilmədi övladının üzünə.
O utandı, bilmədi anlaşılmaz bu halın
Məramı nə, sözü nə?

O yenə də eşitdi qəlbinin fəryadını:
"Kişi bilib özümü mən də Vüqar
qoymuşam
Övladımın adını".
Hanı bizdə kişilik, hanı bizdə o vüqar,
Bizim mənliyimizi gör necə tapdadılar.
Tapdandı qeyrətimiz,
Milli heysiyyətimiz.
Ah! Bu boyda təhqirə indi necə dözək biz?
Yatammadı Hidayət sübhə qədər gecəni,
Ağlı qoydu çəkiyə zamanın hökmü ilə
ürəyindən keçəni.
Zaman ilə ürəyi heç uzlaşa bilmədi.
Tərəzinin gözləri tarazlaşa bilmədi.
Zaman ilə diləyin,
Ağıl ilə ürəyin
Qədim ədavətinə ürək tab gətirmədi.
Ona aman vermədi
Seyr edə dan yerini.
Hələ sübh açılmamış bu nankor dünyamıza
Qapadı gözlərini.
Qoymadı Hidayəti
Yaşamağa qeyrəti.
Onu şəhid eylədi
Millətinin önündə gücsüzlük xəcaləti.
Ölümlərin içində
Ən şərəfli, ən uca mərtəbədir şəhidlik.
Başqa-başqa şəkildə davam edir şəhidlik.

AĞABƏY

Bağışlayın, əzizlərim, Azərbaycanın azadlığı uğrunda mübarizə aparmağa gücüm və iradəm çatmadı. Yaşasın azad Azərbaycan!

Ağabəy

Şənbə gecəsinin qətliamına,
Ağabəy dözmədi, hey qan ağladı.
Şəhid cavanların batan qanına,
Qəlbində yas tutub matəm saxladı.

O yandı, göstərmək istədi hər gün,
Yaralı Vətənə sədaqətini.
Amma bacarmadı,
gücsüzlüyünün
Çəkdi ağrısını, xəcalətini.

Düşündü, sonu var, axı, şərin də
Boğdu ürəyinin üsyan səsini.
O, beş ay gözlədi
zülm üzərində

Haqqın, ədalətin qələbəsini.
Onun gözlədiyi o gün gəlmədi,
Qəlbini çarmıxa çəkdi xəcalət.
Bircə an usanıb o, dincəlmədi,
Özünə qəsd etdi bir gün, nəhayət.

Çatdı onun gücü ancaq özünə,
O bildi dərdinə son əlac bunu.
Verdi ölümüylə sanki Vətənə,
Vətən qarşısında o, öz borcunu.

Ağabəy bu yurda bir qurban kimi,
Qəlbində neçə yol "mücahid" oldu.
Nəhayət, bu qətlə bir üsyan kimi,
Şəhidlər naminə o, şəhid oldu.

Görünür, şəhidlik bitməyib hələ,
Gözümüz önündə o, davam edir.
Ağabəy beləcə öz ölümüylə
Ölü diriləri ittiham edir.

...Dözməyib Vətənin ağır gününə,
Sən Vətən naminə özünə qıydın.
Oğul, arxaya yox, sən baxıb önə
Elə Vətən üçün yaşamalıydın!

Vətən qeyrətini sənin tək çəkən,
Oğullar gərəkdir indi Vətənə.
Sənsə həyatına qəsd edib nədən,
Ömrü müftə verdin!..
Nə deyim sənə?

Çoxları gözünü zülmə yumurkən,
Sənin ürəyində dindi qeyrətin.
Xalqın qatilinə cəza umurkən,
Sənin qatilinə döndü qeyrətin.
Bu fitrət, bu tiynət, de, sənə hardan?
Qəlbində qaynayan hansı diləkdir?
Xəcil yaşamağa səni qoymayan,
Qeyrətin önündə səcdə gərəkdir!
Sənin qeyrətinin bircə zərrəsi,
Min bir qeyrətsizə bəs eləyərdi.
Sənin ürəyinin bir üsyan səsi,
Ərzi təməlindən silkələyərdi.

Qeyrətin əlilə bu Vətən üçün
Özünü qurbanmı kəsdin sən özün?
Ay oğul, budurmu dərdin əlacı?
Hər dərdin başqa cür min əlacı var.
Vətənin qurbana nə ehtiyacı?
Vətənin əsgərə ehtiyacı var.
...Görünür, şəhidlik bitməyib hələ,
Gözümüz önündə o, davam edir.
Ağabəy, beləcə, öz ölümüylə,
Ölü diriləri ittiham edir.

GEORGİ RANTİKOVİÇ

...Erməni Georgi – "Həqiqət" – dedi.
Ayırdı həmişə yaxşıdan pisi.
Zorun tüğyanına dözə bilmədi,
O gerçək carçısı, haqq fədaisi!

– Həqiqət önündə təsliməm, -- dedi.
Qoydu öz yerinə xeyiri, şəri.
Xalqının xətrinə haqdan keçmədi,
Aşdı, vurub keçdi milli həddləri.

Araya ədavət düşdüyü gündən
Güldü Yerevanın boş niyyətinə.
Sıyrılıb öz milli təəssübündən
Ucaldı insanlıq səltənətinə...

O, solun haqqını vermədi sağa,
Düzlüyə çağırdı bütün dünyanı.
Georgi dözmədi bu haqsızlığa,
Özünə qəsd oldu onun üsyanı.

Bir yerdə otlayar quzu qurd ilə
İnsan həqiqəti haqq bilən zaman –
Ən böyük məqsədlər, istəklər belə
Ədalət önündə əyilən zaman.

Sıyrılıb nifrətdən, qərəzdən, kindən
Alqış həqiqəti haqq bilənlərə –
Ədalət naminə milliliyindən
İnsanlıq qatına yüksələnlərə!

* * *

Yenə sayımmı Yox-yox!
Çəkmək olmaz bu dərdi?
Bunların faciəsi bir-birindən betərdi.
Bu saydığım kəslərin nə günahı var idi?
Bunlar şəhidlər deyil,
Günahını bilməyən bədbəxt qurbanlar idi.
Bəs şəhidlər kim idi?
Silahlıyla silahsız! Kim kimə təslim idi?
Bu silahsız bəndələr bircə güllə atdımı
Bir günaha batdımı?
Qırıb tökdü kim kimi?
Silahlıyla silahsız döyüşə bilərdimi?
Tankların qabağına onlar belə çıxdılar.
Polad sinələrini lülələrin ağzına,
Sərhəd kimi sıxdılar.
Onlar güman etmədi zalim belə çıldıra,
Silahsızın üstünə silahlı əl qaldıra.
Bizim bu şəhidlərin sadəlövh gümanlığı
Oldu qəhrəmanlığı!

* * *

Qantökən öz tökdüyü qana cavab vermədi,
Cavab vermək bir yana, "Yox, mən
haqlıyam", – dedi.
Adamların başına od ələmək haqq imiş?
Səksən yaşlı qarını, on üç yaşlı uşağı
güllələmək haqq imiş?
Olmayan bir günahı qan ilə yumaq üçün,
Bizim hüququmuzu bizdən qorumaq üçün
Qanımızın günahsız tökülməsi haqq imiş?
Zorlunun əllərilə haqlının qollarının
Bükülməsi haqq imiş?
Məntiqə bax, ay Allah!
Qanımızı tökənə bundan sonra yenə də
Biz inanaq, ay Allah?
Budurmu yaratdığı təzə hüquqi dövlət?
Budurmu vəd etdiyi müstəqillik, səadət?
Bəs bu qanunsuzluğun harası qanun oldu?
Qatıq dönüb süd oldu, əvvəl dönüb son
oldu?
Bu, hüquqi dövlətin bizə bəxş elədiyi,
hüququymuş, bilmədik.
Hüquqi dövlətdəki hüquq buymuş,
bilmədik.
Əcnəbi ölkələrdə birini öldürürlər,
ya ölkədən sürürlər –
küy-kələk qaldırırsan.
Öz ölkəndə sən özün günahsız insanları
məhkəməsiz qırırsan.
Hamısına bir adla "ekstremist" – deyə,
hələ damğa
vurursan.
Bu boyda məmləkətə.

Bütün xalqlar, heç demə, "ekstremist" imiş.
Hamı xoşbəxtliyindən, nəşəsindən məst
imiş.

ŞƏHİDLƏR

Qatil güllәsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən torpağına çəkdi şəhidlər.

Zalim öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda ölümləriylə
Ölümü kamına çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü, –
Mümkünə döndərdik çox namümkünü.
Xalqın qəlbindəki qorxu mülkünü,
O gecə dağıdıb sökdü şəhidlər.

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də.
Yıxıb köləliyi ürəyimizdə
Cəsarət mülkünü tikdi şəhidlər.

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər.
Donan vicdanları qeyrətləndirər,
Axı, el qeyrəti çəkdi şəhidlər.

Dözdü hər zillətə, dözdü hər şeyə,
"Dünyada mənim də haqqım var", – deyə.

Kütləni xalq edən müqaviləyə
Qanıyla qolunu çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə.
Torpağın bağrına cəsədləriylə,
Azadlıq tumunu əkdi şəhidlər.

SON

İyirmi yanvarda doğum evləri
Ölümdən, qırğından xəbərsiz idi.
O gün Bakımızda gecədən bəri,
Ölüm ilə həyat üzbəüz idi.

Güllə səslərini çağa səsləri,
Batırdı o gecə, şükür allaha!
Doldu şəhidlərin boşalan yeri,
Naşükür olmayaq, vallah, bir daha!

Gedən oğulların, axan qanların,
Əvəzi su səpdi yanan qəlbimə.
O şənbə gecəsi doğulanların,
Onundan doqquzu oğlanmış, demə.

Zalimin zəfəri başdan qələtdir,
Zamanın səsini biz də dinlərik.
Dünya gücümüzə yaxşı bələddir,
Biçilə-biçilə əkilənlərik!

MÜNDƏRİCAT

ANA DİLİ 2
TƏKLİK 4
SƏN ATDIN YERƏ 6
AY İŞIĞINDA 7
GƏLIR 8
ÖMÜR 9
GECƏ BULAQ BAŞINDA 10
SƏKİLƏR 11
DAĞDA ŞƏLALƏ KİMİ 14
KİMDİR MƏNİM DÜŞMƏNİM? 17
ONUN PƏRİŞANLIĞI 18
ÖZÜMDƏN NARAZIYAM 20
BIR SALAMA DƏYMƏDİ 21
ANA HƏDİYYƏSİ 23
VƏTƏNDƏN-VƏTƏNƏ 23
HABİL SEGAHI 24
TƏYYARƏLƏR 26
KRIMDA TATAR QƏBİRLƏRİ 28
BƏXTİYARAM MƏN 29
BAKIYLA TƏBRİZİN ARASINDAYAM 30
QOCALMIR 30
AZƏRBAYCAN OĞLUYAM 31
EKRANDA GÖRÜŞ 35
MEŞİN QAPILAR 36
ÜMİD 37
ŞAİR – VƏTƏN 39
MİZ ARXASINDA 40
RİYAKAR 42
"ANAMIN KİTABI" 44
MƏNƏ NƏ VAR? 46
OĞRULAR 48
MƏNİM ANAM 50
QARA SAÇLAR, AĞ SAÇLAR 51
YAĞMA, YAĞIŞ 52
QAĞAYI KİMİ 53
HƏR ŞƏKILDƏ BIR ANIM 53
ÖMRÜN PAYIZI 55

QALİLEY 57
SÜRƏT 59
NEKROLOQ 60
BIR ÜRƏKDƏ DÖRD FƏSİL 60
MƏNİM AD GÜNLƏRİM 61
QORXU 62
ANAM TƏZƏDƏN BÖYÜYÜR 63
HƏSRƏT 64
ÖZÜNDƏN AYRİLA BİLMƏYƏCƏKSƏN 67
UNUTDURDUN SƏN MƏNƏ 68
AZADLIQ 70
GÖR NECƏ GÜCLÜSƏN 71
BAŞ 73
İKİ KOR 75
SƏHƏNDƏ MƏKTUB 76

SANDIQDAN ƏSƏRLƏR

NAĞIL – HƏYAT 78
TORPAQDAN PAY OLMAZ 81
HÖRÜMÇƏK TOR BAĞLADI 83
ŞAİRLƏR 85
ELM-ƏXLAQ 88
BABAM, ATAM, MƏN 91
TƏLATÜM 92
ŞƏKİ 94
PİYADA – SƏRNİŞİN 96
HEYRƏT! 97
MƏN URƏK OĞRUSU 100
YAMAN DARIXMIŞAM 101
QORXU 102
ÖZ "MƏN" İMİN AĞASI 104
YALAN 105
BELƏ QALMAZ 105
DİZ ÜSTƏ 107
MÜSAVAT 107
LAL – KAR 108
SƏHVLƏRİM, SƏHVLƏRİM! 109
GETMƏZ SÖZ YARASI 112
EHTİYAT 114
TƏLƏBƏLƏRİMƏ 115
KAMAN NALƏ ÇƏKİR... 118
LAYİQƏMMİ MƏN? 121

İYİRMİ BEŞ İL 123
FİKİR AXTARIŞI 126
QARABAĞ ATI 129
KÜLƏK – OT 133
DÜNYANIN 136
SATQINLIQ 137
BƏLİ ƏSƏBİYƏM 140
EKRAN QARALANDA... 141
ŞAİRLƏRİ ÖLDÜRÜRLƏR 143
50 YAŞIM 145
QOCALAR 148
TƏSKİNLİK 149
TAPMAQ – İTİRMƏK 152
SƏN OLURAM MƏN 154
CAVAB 155
XATALI YUXU 158
XEYİR – ŞƏR 160
TAMAH – LƏYAQƏT 162
AXI, DÜNYA FIRLANIR... 164
LƏZZƏTİ – AĞRISI 165
VAXT 166
YALAN HAKİM OLUB 167
HƏM OĞUL, HƏM ATA 168
ƏGƏR QORUNMAZSA İSTIQLALIMIZ 171
HAQQI YOX 174
SÖZ OLUB 175
DİDƏRGİN 176
KÖRPÜ ÇAYDAN UZAQ DÜŞÜB 177
İNSAN KİMİ SAXLA MƏNİ 177
BİLƏ BİLDİYİN QƏDƏR 178
AĞIL BAŞQA, ÜRƏK BAŞQA 179
ANA YURDUM 180
HARA GEDIR BU DÜNYA? 181
İSTANBUL 182
VƏTƏN MARŞI 184
OXUMA, BÜLBÜL 185
UTANIRAM 187
ŞƏHID ANASI 191
ATATÜRK 192
MƏN TÜRKƏM 193
SUAL VARSA, CAVAB VAR 194

MƏNİM FƏRQİM VARMI HEÇ? 197
GECƏLƏR – PƏNAH YERİM....198
UNUTQANLIQ....200
VAXT ALDANMADI 202
ÇOX İMİŞ 203
VİCDAN XƏSTƏSİYİK....204
"YENƏ BAĞLAR O BAĞLARDIR....207
"BU QƏDƏR SALDI MƏNİ 208
AĞLAR ÜRƏYİM, SƏS GƏLƏR 208
"DAŞ ÜRƏKLƏRDƏ YANIB DAŞLARI SINDIRDI
MUĞAM" 209
GECƏLƏR, AY GECƏLƏR....210
BİRİ SƏNSƏN, BIRI MƏN....210
ODUM, KÖZÜM, GƏL ... .211
QÜRURU NEYLƏYİRSƏN? 212
DURNA QATARI....213
MƏN YANDIM, SƏN İSİNDİN....214
QİSAS BÖYÜTSÜN SƏNİ 215
AZƏRBAYCAN – TÜRKİYƏ 216
FALÇI 218
ÖMÜR QATARI....219
"SONUNCU DÖNGƏ"....219
HANSIMIZ YOXUQ? 220
İŞIQ-QARANLIQ 220
MƏKTUBLAR....221
UNUTDURDUN SƏN NƏNƏ 222
AZADLIQ 224
YARPAQLAR TÖKÜLÜR....226
NAĞIL GECƏM 227
SƏNİ ANDIQCA ... .230
BƏLKƏ DƏ... 230
YAXŞI Kİ, DÜNYADA... 232
BİR PAYIZ GECƏSİ 233
AĞ TÜK....235
DƏRİNSƏN, ZİRVƏSƏN 236
ÇİYDİM 238
ƏMANƏT KİMİ 239
ANA 240
BİZ VƏTƏNÇÜN DOĞULDUQ....240
İLAHİ....241
İŞIQLA....242

YUXULUYAM, YUXULU 243
DƏNİM ÜYÜDÜLMƏDİ....244
NAĞILIM GƏLSİN 244
NİSBİLİK....248
HAQQI....249
BƏLKƏ AYILDIM 250
BİR ULU MƏZAR....252
M.Ə.RƏSULZADƏNİN XATİRƏSİNƏ 253
QARDAŞDAN GİLEY 254
AZƏRBAYCAN ƏSGƏRİ 256
İKİ BAYRAQ....257
RƏHMƏT SƏNƏ, A SABİR 258
AYNA TUT....259
ÖZÜM OLMALIYAM 260
MƏDDAH....261
SƏFƏR....262
ŞİMŞƏK....263
ARZUSUZ YAŞAMAQ ARZUSU....263
NECƏ DÜZ KEÇİM? 264
BAYRAQ....265
QÜRBƏT - VƏTƏN 266
QƏRİBƏ DEYİLMİ? 267
UNUT Kİ, SUSASAN....268
AĞIL-FƏHM....269
İZTİRABIN DİLİ....269
BAYATILAR....270
YAĞMASA....271
KAŞ Kİ....271
İBRƏT....272
NƏFSİMİZ....273
YUXUM PERİK DÜŞÜB 274
ÖZÜMDƏN QİSAS 275
SUALIN CAVABI 276
UTANMAQ, QIZARMAQ 277
NƏVƏM - İSTİQLALIM....279
BU SEVGİ....281
BU KÖHNƏ BAZARIN 282
XATALI DÜNYA....283
BU ALƏM MƏNİ 284
GERÇƏK GÜNAHKARDIR 285
KÜSÜBDÜR....286

HAQQI 287
NÖQSANDAN DA BETƏRMİŞ 288
MƏNDƏN XƏBƏRSİZ 289
VƏTƏN DƏRDİ 290
DƏDƏSİNİN MALI KİMİ 290
SÖZ 291
«MƏNİMİZİ» «BİZLƏŞDİRƏK» 292
BAXMIR 293
DAŞ YERINDƏ AĞIR OLUR 293
UCUZ 294
ZAMAN MƏNİM İÇİMDƏDIR 295
MİLLƏTİM 296
BAX 298
GERÇƏK ÖLDÜ, YALAN YOX 299
MƏN ALDANMAQ İSTƏYİRƏM 299
GEDƏR OLMAZ 300
SAVABIMIN YAŞDAŞIYAM 300
OXU GÖZÜMDƏN MƏNİM 301
YOX 302
HAQQA TAPINMAQ 302
VƏTƏNDAŞLIQ VƏSİQƏM 303

POEMALAR

GÜLÜSTAN 308
İSTİQLAL 315
MUĞAM 330
ŞƏHİDLƏR 370

Bəxtiyar Vahabzadə

(Vikipediya, açıq ensiklopediya)

Vahabzadə Bəxtiyar Mahmud oğlu (16 avqust,1925 – 13 fevral, 2009) — görkəmli azərbaycanlı şair, dramaturq, ədəbiyyatşünas, 1945-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycanın xalq şairi (1984), filologiya elmləri doktoru (1964), professor, Azərbaycan MEA-nın həqiqi üzvü (2000), Azərbaycanın Əməkdar incəsənət xadimi (1974), Azərbaycan Dövlət mükafatı laureatı (1976), SSRİ Dövlət mükafatı laureatı (1984), M.F.Axundov adına ədəbi mükafatın laureatı (1988), Azərbaycan Respublikası Ali Sovetinin deputatı (1990), millət vəkili (1995, 2000), "İstiqlal" ordeni ilə təltif olunmuşdur (1995).

Bəxtiyar Vahabzadə 1925-ci ildə Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. Kiçik yaşlarında ikən ailəsi ilə Bakıya köçmüşlər (1934). Burada orta məktəbi qurtarandan sonra ADU-nun Filologiya fakültəsində təhsil almışdır (1942-1947). "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad" və "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı", "Rəqabət" (1960-2003) pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. Tənqidçi-ədəbiyyatşünas kimi də fəaliyyət göstərmişdir. "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1964). Azərbaycan Dövlət Universitetində Müasir Azərbaycan ədəbiyyatı kafedrasının professoru vəzifəsində çalışmışdır (1950-1990). 1990-cı ildə təqaüdə çıxmışdır. Azərbaycan MEA-nın müxbir üzvü (1980), sonra həqiqi üzvü (2000) seçilmişdir. 1981-ci ildə SSRİ Yazıçılarının VII qurultayında SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdir. O, həmçinin Azərbaycan Yazıçılar İttifaqının İdarə Heyətinin və Ağsaqallar Şurasının üzvü idi (1991). Ədəbi-bədii prosesin yorulmaq bilməyən təbliğatçısı və təşkilatçısı kimi tanınırdı. Azərbaycan KP Bakı şəhər Komitəsinə üzv və bir neçə çağırış Bakı xalq deputatları Sovetinə və X çağırış Azərbaycan Ali Sovetinə, 1995 və 2000-ci illərdə Azərbaycan Milli Məclisinə deputat seçilmişdir. 1976-cı ildə "Leninlə söhbət" və "Muğam" poemalarına görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" və "İstiqlal" (1995) ordenləri ilə təltif olunmuşdur.

Bəxtiyar Vahabzadə 60-cı illərdən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri idi. O, 1958-ci ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulmuşdur.

Bu poemaya görə 1962-ci ildə şair "millətçi" damğası ilə Azərbaycan Dövlət Universitetindən çıxarılmış, yalnız 2 ildən sonra işə bərpa edilmişdir. (Zəruri qeyd: Professor Şirməmməd Hüseynov Bəxtiyar Vahabzadənin işdən çıxarılmadığını bildirir: "Bəxtiyarı işdən çıxara bilməzdilər, çünki bu, ciddi ajiotaja səbəb ola bilərdi. Məcburən onu doktorluq müdafiəsi üçün elmi məzuniyyətə göndərdilər). Sovet rejimində milli varlığı tapdanan, hər cür məhrumiyyətlərə məruz qalan millətin dərdlərini rəmzlər və müxtəlif ədəbi üsullarla ifadə etmiş, iri həcmli poemaları və pyeslərində hadisələri ya tarixə, ya da başqa ölkələrə keçirərək öz millətinin dərdlərini dilə gətirmişdir. Birbaşa Sovet diktaturasını ifşa edən əsərlərini isə şair, sovet ittifaqı dağılandan sonra "Sandıqdan səslər" başlığı altında nəşr etdirmişdir.

B.Vahabzadə 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi publisist kitabın və yüzlərlə məqalənin, eləcə də tarixi və müasir mövzuda 20-dən artıq iri həcmli poemanın müəllifidir. Şairin əsərləri – şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən ingilis, fransız, alman, fars, türk, polyak, ispan, macar, keçmiş Sovetlər Birliyi xalqlarının dillərinə tərcümə edilmişdir.

2009-cu il fevral ayının 13-də, 83 yaşında uzun sürən xəstəlikdən sonra Bakıda vəfat etmişdir.

Oğlu İsfəndiyar Vahabzadə Azərbaycan Respublikasının Belarusdakı səlahiyyətli və fövqəladə səfiri işləyir.

BƏXTİYAR VAHABZADƏ
Axı, dünya fırlanır...
(şeirləri və poemaları)

Çapa imzalanmışdır: 20.05.2019
Formatı 60x84 1/16,
Fiziki çap vərəqi 26.5

Bakı, Azərbaycan

Azf318592



BƏXTİYAR VAHABZADƏ

AXI, DÜNYA FIRLANIR...

Poeziyamızın qüdrətli nümayəndəsi Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyu həmişə şeirlərində Vətənini, onun zəhmət adamlarını, təbiətini, insanların daxili aləmini tərənnüm edib. Onun şeirlərində türkçülük, Azərbaycançılıq, xalqına sədaqət, yurduna bağlılıq qeyd olunmalı xüsusiyyətlərdir.

Bəxtiyar Vahabzadənin lirikasını üç hissəyə ayırmaq olar: fəlsəfi lirika, məhəbbət lirikası və təbiət lirikası. Fəlsəfi lirika onun poeziyasının əsasını təşkil edir. Bu şeirlərdə şair öz fəlsəfi düşüncəsini oxucularla bölüşür. Onun təbiət lirikası isə nisbətən azdır. Şairin sevgi şeirləri fəlsəfi lirika ilə təbiət şeirləri arasında həm fəlsəfi məzmunu, həm də mənəvi duyğuları ilə ifadə olunan poetik lirikadır.

Xalq şairi Bəxtiyar Vahabzadənin bu kitabında müəllifin müxtəlif illərdə qələmə aldığı şeirləri və poemaları toplanmışdır.

"Müasirlərim" seriyası

Əslimi, nəslimi tanıyıram mən,
Qarışıq deyiləm, özümdən hürkəm.
Sən kimsən, sən nəsən, özün bilərsən,
Mən ilk qaynağımdan türk oğlu türkəm!

9 789952 826029

Kitab Klubu
www.kitabklubu.org

8m